# YA ZƏHRA (s.ə.), NƏZƏRİN AYIRMA BİZDƏN

HACI HƏSƏN

BAKI-2019

**Kitab Əhli-beyt (ə.m.) aşiqi Şah İsmail Xətainin 530 illik yubileyinə ithaf olunur.**

*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi şurasının 4 saylı (20 iyun 2018) iclasının qərarı ilə çap olunur.*

*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin DK-636/Ə saylı, 28 iyun 2018-ci il tarixli razılıq məktubu əsasında çap olunmuşdur.*


Nəşrə hazırlayan
və ön söz müəllifi:
**SONA XƏYAL**

Redaktor:
**Vərağa Almasov**
filologiya üzrə fəlsəfə doktoru

Rəyçilər:
**Tahirə Həsənzadə**
tarix üzrə elmlər doktoru

**Zəkiyyə Əbilova**
fəlsəfə üzrə elmlər doktoru



**Hacı Həsən. Ya Zəhra (s.ə.), nəzərin ayırma bizdən. II nəşr Bakı-"Ecoprint"-2019, 256 səh.**


Kitabda Həzrəti-Peyğəmbərin (s) sevimli qızı, hər iki dünyada xanımlar Xanımı Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) həyat və fəaliyyəti Quran ayələri, mötəbər mənbələrdən götürülmüş hədislər, din xadimlərinin əsərləri və şairlərin şeirləri əsasında işıqlandırılmışdır.

Kitab yenidən redaktə edilmiş, birinci nəşrdə gedən bir sıra səhvlər və kompüter xətaları aradan qaldırılmışdır.


ISBN: 978-9952-29-108-5



© H.Həsən.

## HACI HƏSƏNİN ƏHLİ-BEYT (ə) SEVGİSİ

Allah-təala bizi bu dünyaya gətirəndə ömür yolumuzu da cızır. Seçim insanın özünün olsa da, hər halda Allah bizim nəyi, necə, hansı zamanda, hansı məkanda seçəcəyimizi bilir. Qurani-Kərimdə buyurduğu kimi, istədiyini hidayət edir, istəmədiyini özbaşına buraxır.

Amma Allah hər bir bəndəsini sevib yaratdığından, onların hidayət olunmasını da istəyir. Hidayət üçün kitablar, peyğəmbərlər (ə.m.) və imamlar (ə.m.) göndərdiyindən, heç bir kimsənin Ondan narazılıq etməyə haqqı çatmır.

Allah bütün insanlara qabiliyyət və bacarıq vermişdir. Kim içində bilqüvvə şəklində olan yaxşılıqları üzə çıxarırsa, bu dünyasını da qazanır, axirətini də. Kim tənbəllik edirsə, o zaman şeytan onun içindəki pisliklərin üzə çıxmasında ona yardımçı olur və insan bu dünyasını da qaraldır, axirətini də.

Allahın yazısına inanıb, hər işdə Allaha təvəkkül edən insanlar çalışır, qazandıqları ilə kifayətlənir və Allaha şükr edərək, Allahın verdiyi ömrü Rəbbinə layiq yaşamağa səy edirlər. Hacı Həsən kimi.

Hacı Həsən Hüseyni imzası çoxuna tanışdır. Onun bir-birindən məzmunlu, maraqlı, insanın düz yola hidayət olunmasında böyük rol oynayan kitabları həmişə oxucular tərəfindən rəğbətlə qarşılanmışdır.

Sadə, təvazökar, saf, yüksək əxlaqa malik bir insan kimi, bildiyini danışan, bilmədiyini öyrənməyə, insanlarda Allah sevgisi, Əhli-beyt (ə.m.) məhəbbəti yaratmağa çalı-

şan bir din xadimi kimi tanınan Hacı Həsən Allahın verdiyi bacarığa, istedada şükr edə-edə ona yaxın kitab yazıb, öz hesabına nəşr etdirib.

Zəngilan rayonunun Sobu kəndində doğulub, təhsil alan, gəncliyini vətənin ağır illərində qocaldan, vətənpərvər, təəssübkeş gənc kimi cəbhələrdə qanını axıdan, vətənə layiqli övlad kimi öz vəzifə borcunu yerinə yetirən Həsən yenidən həyata qayıtmağa özündə güc tapıb dini təhsil almış və bu gün bir din xadimi kimi də vəzifə borcunu ləyaqətlə yerinə yetirməyə böyük səy göstərir.

Təkcə məclislərdəki söhbətlərilə kifayətlənməyən tədqiqatçı bildiklərini yazıb, insanlara çatdırmağı özünə borc bilir. Bu, Hacı Həsən Hüseyninin Əhli-beyt (ə.m.) sevgisindən irəli gəlir. Hacı Həsənin bu sevgisi çox böyükdür. O qədər böyükdür ki, bir kitabı yazıb bitirməmiş, növbəti kitabın materiallarını toplayır, bitirən kimi çapa verməmiş, artıq növbəti kitabı yazmağa başlayır. Harda Əhli-beyt (ə.m.) ilə bağlı bir şeir eşitsə, o dəqiqə onu yazıb götürür, ya da mənbəyini öyrənib əldə edir.

Hacı Həsən əsərlərində Allah kəlamlarını, Peyğəmbər (s) hədislərini rəhbər tutaraq, Əhli-beytin (ə.m.) həyat yolunu, yaşam tərzini əks etdirir. Onun "Qədir-Xum" hadisəsini əhatəli şəkildə işıqlandıran, oxucu qarşısında bu tarixi bayramın mahiyyətini, əhəmiyyətini, Həzrəti-Əlinin (ə) nəhəngliyini, dahiliyini, eyni zamanda məsumluğunu öz dərin sevgisi işığında aydınladan "Parlaq ulduz", İmam Hüseynin (ə) mövludundan şəhadətinə qədər baş verən hadisələri əks etdirən, Kərbəla faciəsinin səbəblərini və mahiyyətini açıqlayan "Xuda Hüseynin Aşiqi", bir sıra klassik şairlərin və Qurbani Məclisinin bəzi üzvlərinin Aşıq

Qurbaninin "Əli" və "Ya Mürtəza Əli" rədifli şeirlərinə yazdıqları nəzirələrin toplandığı "Ya Əli", Nizami Gəncəvidən tutmuş müasir şairlərimizə qədər bir çox görkəmli söz ustalarının Mühəmməd peyğəmbərə (s) həsr etdikləri çox dəyərli şeirlərin toplandığı "Gizli qalmış xəzinə", Həzrəti-Əlinin (ə) həyatını, nübüvvət və imamətin mahiyyətini, İmam Əlinin (ə) Quranda tərifini, "Qədir-Xum hadisəsi"ni əks etdirən, bir sıra şairlərin Əliyə (ə) həsr olunmuş şeir və poemalarının daxil edildiyi "Həzrəti-Əli (ə) müxtəlif baxışlarda", Quran ayələrinin şərhini, şəriət məsələlərini, 14 məsumun (ə.m.) və övliyaların həyatını əks etdirən, namaz və oruclardan, dini bayramlardan bəhs edən, İslamda ailəyə münasibəti açıqlayan, cənazə, ehsan, ölüləri ziyarət ilə əlaqədar məsələləri işıqlandıran məqalələrin toplandığı "Sığın Haqq dərgahına", "Bismilləh" ayəsindəki "bə" hərfinin altında olan nöqtənin sirrini Həzrəti-Əliyə (ə) olan böyük məhəbbətlə açıqlayan "Bismillah" ayəsinin incə görüntüləri və "bə" hərfinin altında olan nöqtənin sirri", oxucunu düşündürən, irfanla, islam fəlsəfəsi ilə, sufiliklə bağlı elmi biliklərin toplandığı "Ariflərin Haqqa qovuşma məqamı (Şəriət, təriqət, mərifət, həqiqət)", İmam Hüseynin (ə) Kərbəla faciəsindən sonra Şamda faciəli şəkildə şəhid olan qızı haqqında yazılmış "Həzrəti-Rüqəyyə (s.ə)" adlı kitabları haqqında bir çox ziyalılar dəyərli fikirlər söyləmişlər. Hacı Həsənin kitablarına yazılan "ön söz"lərdə də bu kitablara olan hüsn-rəğbət hiss olunur.

Hacı Həsən Hüseyninin bütün kitablarının dəyərli oxucuları vardır. İstər alim olsun, istər adi fəhlə, ya evdar qadın, bu kitabların hər hansı birini oxuyan, Hacı Həsənin digər kitabları ilə də maraqlanır.

Kitabdan-kitaba irəliləyən, yüksələn tədqiqatçı yorulmadan yaradıcılığını davam etdirir. Budur, "Ya Zəhra (s.ə.), nəzərin ayırma bizdən" adlanan növbəti kitabı Peyğəmbərimizin sevimli qızı, dünya və axirətdə xanımlar Xanımı Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) qısa, lakin hər günü sanki illər qədər uzun olan məşəqqətli ömür yoluna bir baxışdır.

Kitab Hacı Həsənin oxuculara müraciəti ilə açılır. Burada müəllifin anaya verdiyi qiymət və Xanım Fatiməyə (s.ə.) olan sonsuz məhəbbət diqqəti çəkir.

Əsərin "Giriş"ində İslam dininin, Qurani-Kərimin bəşəriyyətə göstərdiyi düzgün hidayət yolu təqdir olunur.

Əsər iki hissədən, birinci hissə 5, ikinci hissə 6 bölümdən ibarətdir. Əslində, I hissə Hacı Həsənin Bakı İslam Universitetində diplom işi kimi yazılmışdır. Sonralar Hacı Həsən tədqiqatlarını genişləndirmiş bir sıra yazılar yazmışdır. Bu kitabda həm diplom işi, həm digər tədqiqatlar birləşdirilərək oxuculara təqdim olunur.

I hissənin birinci bölümündə müəllif Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) həyat və fəaliyyətindən, adlarından, künyələrindən, ləqəblərindən, mehvəriyyət təşkil etməsindən, ikinci bölümdə Xanımım haqqında nazil olan Quran ayələrindən, Xanım Fatimənin (s.ə.) Həzrəti-Məryəmlə (s.ə) oxşar cəhətlərindən, üçüncü bölümdə Həzrəti-Fatimənin (s.ə.) məsumluğundan, paklıq mücəssəməsi kimi ülviliyindən, ibadətindən, zöhdündən, zikrindən, İslamın ictimai-siyasi hərəkatında rolundan, dördüncü bölümdə Həzrəti-Fatimənin (s.ə.) atasına münasibətindən, Onunla oxşar cəhətlərindən, zikrinin, onu ziyarət etməyin və ona salavat göndərməyin savabından, Onun hədislərindən, Həzrəti-

Məhdinin (ə.f.) Onun övladı olmasından, Xanım (s.ə.) haqqındakı rəvayətlərdən, Peyğəmbərin (s) Ona olan məhəbbətindən, gələcəkdə başına gələcək olaylar haqqında Peyğəmbərin (s) əvvəlcədən buyurduqlarından, beşinci bölümdə Peyğəmbərin (s) vəfatından sonra Həzrəti-Fatimənin (s.ə.) məşəqqətli həyatından, vəfatından, Xanımın vəsiyyətnaməsindən, şəhid olma səbəblərindən bəhs edilir.

II hissənin birinci bölümündə Xanım Fatimənin (s.ə.) atası Həzrəti-Mühəmmədin (s) dünyaya gəlişindən, həyatından, peyğəmbərliyə məbus olmasından, insanları haq din olan İslama dəvət etməsindən, bu yolda məruz qaldığı çətinliklərdən; anası Həzrəti-Xədicənin (s.ə) xanımlığından, Peyğəmbərlə (s) evlənməsindən, öz malını İslam yolunda sərf etməsindən, çətin anlarda Peyğəmbərin (s) qayğısına qalmasından, Həzrəti-Fatimənin (s.ə.) dünyaya gəlişindən, Xanımın (s.ə.) əxlaqi keyfiyyətlərindən, Onun cənnət hurisi olmasından, Peyğəmbərin (s) Ona nəsihətindən, Həzrəti-Əli (ə) ilə Xanım Fatimənin (s.ə.) oxşar cəhətlərindən, Həzrəti-Fatimənin (s.ə.) buyurduğu hədislərdən, onun kənizi Həzrəti-Fizzənin (ə) elmindən, Fatimeyi-Zəhranın (s.ə.) şiələri və onların behiştdəki məqamından, ikinci bölümdə "Fədək hadisəsi"ndən, Fədəkin qəsb olunmasından, Xanımın (s.ə.) öz haqqını tələb etməsindən və haqlı olduğunu sübuta yetirməsindən, Fədəkin Əhli-beytə (ə.m) hansı zamanlarda və necə qayıtmasından, İmamların (ə.m) bu məsələyə münasibətindən, üçüncü bölümdə Xanım Zəhranın (s.ə.) şəhadətinə səbəb olan gizli həqiqətlərdən, Həzrəti-Fatimənin (s.ə.) haqq mübarizəsi və qiyamından, şəhadətindən, əhli-təsənnü alimlərinin Əhli-beyt (ə.m) haqqındakı fikirlərindən, Əhli-beytun (ə.m) fəzilət-

lərindən, Məhəmməd Füzulinin “Hədiqətüs-sühəda” əsərində Həzrəti-Fatiməyə (s.ə.) verilən dəyərdən, beşinci bölümdə Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) kəramətlərindən, Həzrəti-Zəhraya (s.ə.) təvəssül namazından bəhs olunur və altıncı bölümdə Həzrəti-Fatimeyi-Zəhraya (s.ə.) həsr olunmuş şeirlər yer alır. Kitabın sonunda “Ədəbiyyat siyahısı” verilmişdir.

Hacı Həsənin bundan əvvəlki kitabları kimi bu kitabı da insanlara İslam dini haqqında, Əhli-beytin (ə.m.) məsumluğu, əxlaqi keyfiyyətləri, İslamın qorunub saxlanılmasında Onların (ə.m.) fədakarlığı haqqında çox dəyərli fikirlər aşılamaqda əvəzsiz vəsaitdir.

Hacı Həsən qardaşımıza tutduğu bu doğru yolda uğurlar arzulayır, ondan yeni-yeni kitablar gözləyirik. Allahtəala bu gözəl işdə ona yardımçı olsun!

***SONA XƏYAL***

*AMEA-nın Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutunun böyük elmi işçisi,*
*Azərbaycan Yazıçılar Birliyinin*
*“İRS” komissiyasının sədri*

# REDAKTORDAN

Hər bir insanın cismani formalaşmasında və mənəvi təkamülündə ümumbəşəri və dini dəyərlər mühüm rol oynayır. Bu baxımdan ən kamil din olan İslamın tərəfdarları, tövhid, qiyamət, nübüvvət və Əhli-beyt (ə.m) əqidəsinə sahib olan İslam ümməti öz tarixi vəzifəsinə uyğun olaraq bütün bəşəriyyətə örnək olmalıdır. Uca Yaradanımız bu tarixi və böyük vəzifəni bizim qarşımıza belə qoyur:

"Sizin qibləniz orta qiblə olduğu kimi, sizi orta (mötədil) bir ümmət etdik ki, insanlara şahid olasınız, Peyğəmbər də (s) sizə şahid olsun" (Bəqərə,143).

Bəzi görkəmli təfsirçilərə görə, "sizi orta bir ümmət etdik ki, insanlara şahid olasınız" cümləsindən məqsəd ümmətin müəyyən fərdləri, yəni məsum İmamlardır (ə.m). "Orta ümmət"in mənası ilə bağlı iki versiya mövcuddur. 1-ci versiyaya görə, orta ümmətdən məqsəd etiqadlarda, əxlaqi məsələlərdə və əməldə heç zaman ifrat və təfritə varmayan şəxslərdir. Məsum İmamlar pak və qüsursuz olduğu üçün daim yaşamlarında ifrat və təfritdən uzaq durmuş, bütün işlərində ən doğru yolu getmişlər. Heç bir səmtdə azmamışlar. Buna görə də Allah onları insanlara şahid etmişdir ki, onlar dünyada insanların əməllərinə şahid olsunlar və qiyamət günü Allah yanında şahidlik etsinlər. Allah da onların şahidliyi üzərinə hökm etsin. 2-ci versiyaya görə isə, məqsəd Peyğəmbərlə (s) xalq arasında olan insanlardır. Yəni, məsum İmamlar (ə.m) insanların əməllərinə şahiddirlər. Necə ki, "Nisa" surəsinin 41-ci ayəsində oxuyuruq: "Hər ümmətdən əməllərinə bir şahid

gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman (onların halı) nə cür olacaq?" Yəni hər ümmətin, o cümlədən İslam ümmətinin də şahidləri var. Peyğəmbər (s) bütün şahidlərə şahiddir. Hər halda bu ayələr müsəlmanların hamısına yox, xüsusi bir qrupa aiddir. Bu ayə ilə bağlı İmam Baqirdən (ə) nəql olunan bir hədisdə deyilir: "İnsanların şahidləri yalnız Peyğəmbərlər (s) və İmamlardır (ə.m). Bütün İslam ümmətinin nəzərdə tutulması və Allahın onlardan şahidlik tələb etməsi ağıla müvafiq deyil. Çünki ümmətin arasında elələri vardır ki, onların şahidliyinin heç bir dəyəri yoxdur[1].

Göründüyü kimi, Allah-təala həm məfkurəvi, həm də şəxsiyyətin rolu baxımından İslamın və onun əziz Peyğəmbərini (s) yalnız bu dinə mənsub olan şəxslər üçün deyil, bütün bəşəriyyət üçün əvəzedilməz və təkrarolunmaz bir nümunə kimi bizə təqdim edir.

Qurani-Kərimə müraciət etsək, bu deyilənlərin şahidi ola bilərik: "Yə əyyuhən-nəbiyyu innə ərsəlnəkə şəhidən və mubəşşirən və nəzira. Vəddəiyyən iləllahi bi iznihi və siracən muniyra" – "Ey Peyğəmbər (s) biz səni şahid, müjdəçi və qorxudan göndərdik. Həm də Allahın fərmanı ilə ona tərəf çağıran və nur saçan bir çıraq göndərdik" ("Əhzab", 45-46). "Və innəkə lə ələ xuliqin azim" – "Sən böyük və yüksək əxlaq sahibisən!" ("Qələm", 4).

Bu kitabın həsr olunduğu Peyğəmbər (s) qızı Fatimeyi-Zəhra (s.ə) xütbələrinin birində nə gözəl buyurmuşdur: "Allah cəmiyyətin sağlam saxlanılması üçün bizə (risalət sülaləsinə) itaət etməyi tapşırmışdır. Təfriqədən qorunmaq

---

[1] Ətyabul-bəyan, cild 2, səh. 228; Əl-mizan, səh. 314; 2. Qurani-kərim Ayətullah Məkarim Şirazi. Bakı, 2017, səh. 22.

üçün isə İmamət və rəhbərliyimizi müqəddər etmişdir.

"Sizlərə göndərdiyimiz Peyğəmbər özünüz kimidir, sizin çəkdiyiniz əzablar onu incidir, sizi hidayət etmək üçün gəlmişdir və bütün möminlərə mehribandır" (Tövbə surəsi, 128-ci ayə).

Əgər düz meyara əsaslansanız, bilərsiniz ki, bu Peyğəmbər (s) sizin qadınlarınızdan heç birinin atası deyil, mənim atamdır. Bu Peyğəmbər (s) əmim oğlu Əlinin (ə) qardaşıdır. Nə gözəl əsil-nəsəbim var və bu mənim üçün ən böyük fəxr sayılır. Atam Peyğəmbər (s) öz risalətini aşkar və hamının başa düşəcək şəkildə təbliğ etdi. O, həmişə müşriklərdən çəkinirdi. Onlarla mübarizə edir və müşriklərə qarşı müharibələrində onların başına müsibət gətirirdi. Xalqları hikmət və gözəl nəsihətlərlə Allaha tərəf dəvət edirdi. O, bütləri sındırdı, müşriklər cəmiyyətini bir-birinə elə vurdu ki, hamısı məhv oldular və nəhayət tövhidin gizli həqiqətini cəmiyyətə aşkar etdi. Peyğəmbər (s) din məntiqini bütün dünya xalqlarının qulaqlarına çatdırdı. Şeytan karvanının dəvələrinin ağızlarının köpüklərini yatırtdı. Divsifətlilərin nərələrini batırdı. Nifaq və riyakarlığın nökərlərini həlakət torpağına sərdi. Küfr və zülmün ilqarını pozdu ki, siz camaat bir qrup ruhani və pak insanların vasitəsi ilə tövhid və ixlas kəlməsini öyrənəsiniz. Siz od uçurumunun kənarında idiniz, zəlillikdə və zəiflikdən hər bir su içənin nəsibi, hər bir həris və tamahkar şəxsin yemi və od axtaran hər bir şəxsin nəzərində od parçası kimi idiniz. Başqa millətlərin ayaqları altında əzilir, gölməçələrdə yığılan çirkab sulardan içirdiniz. Yeməyiniz isə çöllərin otələfi və ağacların yarpaqları idi. Alçaqlıq və zəlillik üzündən yadların bir göz qırpımında sizi oğurlamağından qorxurdunuz. Belə bir vəziyyətdə böyük və mütəal Allah si-

zin üçün ən böyük bərəkəti - Həzrət-Mühəmmədi (s) göndərdi ki, sizlərə fəlakətdən nicat versin. O Həzrətin (s), ərəblərin ac qurdları, qorxmaz adamları, yəhudi və xiristian zadəganları ilə qarşı-qarşıya durduğuna baxmayaraq, Allah-təala bütün müxaliflər tərəfindən sizin əleyhinizə başlayan müharibələri sizin xeyrinizə qurtardı”[1].

İki dünya xanımının bu sözləri Azərbaycan gənclərini də, yer kürəsinin müxtəlif guşələrində yaşayan və fərqli dinlərə, bütlərə, rənglərə və ideoloji görüşlərə mənsub olan bütün gəncləri də birliyə, vəhdətə, dostluq və qardaşlığa çağırmaqdadır. Peyğəmbərimizin (s) “Elm şəhərinin qapısı” adlandırdığı Həzrəti-Əli də (ə) Malik Əştərə (r.ə) məktubunda bu məsələnin önəmini bütün dövrlərə örnək ola biləcək şəkildə qarşımıza qoyub[2].

Xanım Fatimeyi-Zəhranın (s.ə.) xoşbəxtliyi bir də ondadır ki, onun ömür-gün yoldaşı Həzrəti-Əli (ə.) Kəbədə dünyaya gəlmişdir. Kofe Anna İmam Əlinin (ə) böyük şəxsiyyət olduğunu etiraf edərək bildirir ki; “Xəlifə Əli İbn Əbu Talib insanlıq tarixinin Mühəmməddən (s) sonra ən ədalətli rəhbəri hesab edilir. Buna görə də biz ərəb ölkələrinə tövsiyyə edirik ki, demokratiya və ədalətə əsaslanan idarəetmənin inkişafında və təhsilə həvəsləndirmədə Əli ibn Əbu Talibi (ə) örnək alsınlar”.

İslamdan qabaq, yəni cahiliyyət dövründə yaşayan ərəblər qadının Allah qarşısında və cəmiyyətdə heç bir dəyəri olmadığını iddia edirdilər. İslam dininin konstitutsiyası olan Qurani-Kərimdə Allah-təala onların bu fikirlərini

---

[1] Fəxrəddin Altan "Könül oxşayan sözlər", 14-məsumdan 560 hədis, Çap. 2005, səh. 47.

[2] “Nəhcül-bəlağə”. İmam Əli (ə) Xütbə, məktub və hikmətli kəlamların tərcümə və şərhi 2 cilddə, 2-ci cild 53-cü məktub, səh. 226-227.

batil hesab edərək buyurur: "Allah onların dualarını qəbul edərək (buyurdu): "İstər kişi olsun, istərsə də qadın, Mən heç birinizin əməlini puça çıxarmayacağam. Siz eynisiniz, bir-birinizdənsiniz. Allah yolunda hicrət edənlərin, evlərindən çıxarılanların, Mənim yolumda çətinliyə məruz qalanların, vuruşanların və öldürülənlərin günahlarını, əlbəttə, bağışlayacaq və onları ağaclarının altından çaylar axan Cənnət bağlarına daxil edəcəyəm. Bu, Allahın mükafatıdır. Ən yaxşı mükafat Allah yanındadır!" ("Ali-İmran", 195)

Əziz oxucularımızın nəzərinə çatdırmaq istəyirəm ki, Həsən Hüseyni 2008-ci ildə Bakı İslam Universitetində Xanım Fatimeyi-Zəhra (s.ə) mövzusunda diplom işini uğurla müdafiə etmişdir. Sonrakı dövrlərdə tədqiqatlarını genişləndirən müəllif mövzunu daha dərindən işləmək qərarına gəlir və bu tutumlu, sanballı monaqrafiya meydana çıxır. Əsər iki hissədən, hissələr də bölümlərdən ibarətdir. Birinci bölümdə Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) dünyaya gəlməsi, Məkkə və Mədinə dövründəki həyat və fəaliyyəti müxtəlif mənbələr əsasında araşdırılmış və Azərbaycan oxucusuna təqdim edilmişdir. Bu fəsil bizə Peyğəmbər (s) qızının şərəfli həyat yolu və mübarizəsi ilə yaxından tanış olmaqla müasir Azərbaycan qadınının həyat proqramını müəyyənləşdirmək imkanı verir.

Sonrakı fəsil "Həzrəti-Fatimeyi-Zəhra (s.ə) Quran ayələri işığında" adlanır. Sevimli Peyğəmbərimiz (s) "Mən sizin içərinizdə iki ağır əmanət qoyub gedirəm: Allahın kitabı və pak Əhli-beytim (ə.m)" hədisinə uyğun olaraq Həsən Hüseyni bu bölümdə Quran-Zəhra bağlılığını ön plana çəkmiş, "Kovsər", "İnsan", "İsra", "Əhzab" və başqa surələrdəki müvafiq ayələr əsasında mövzunu işləyərək

Əhli-beytin (ə.m) və Fatimeyi-Zəhranın (s.ə) həqiqi insani dəyərlərini göstərməyə çalışmışdır. Bu məqsədlə müəllif Həzrəti-Mühəmməddən (s) və İmamlarımızdan (ə.m) gələn məşhur hədislərə də toxunmuşdur.

Üçüncü və dördüncü bölümlərdə Peyğəmbər qızı (ə) Azərbaycan oxucusuna paklıq və ülvilik mücəssəməsi və nümunəvi bir islam banusu kimi təqdim olunur.

Səhifələr bir-birini əvəz etdikcə, biz Fatimeyi-Zəhranın (s.ə) atası (s), övladları, qohum-qonşuları və ətrafındakı insanlar ilə gözəl rəftarlarının şahidi olur, onun təkallahlılıq, nübüvvət, və qiyamət gününə bəslədiyi sarsılmaz əqidəsi və həm fərdi, həm də ictimai məsuliyyəti qarşısında heyrətdə qalırıq.

Kitabın növbəti bölümü Həzrəti-Zəhranın (s.ə) ömrünün son dövrünü əhatə edir. Müəllif Füzulinin "Hədiqətüs-sühəda" əsərindən, başqa tarixi, ədəbi qaynaqlardan istifadə edərək atasının (s) vəfatından sonra bu incə qəlbli xanımlar Xanımının (s.ə) çəkdiyi ağlasığmaz əzab-əziyyətləri və həqiqətin qalib gəlməsi üçün apardığı şanlı mübarizəni özünəməxsus üslubu ilə qələmə almışdır. Bu fəsil bizə insan ömrünün nə qədər dəyərli və qiymətli olduğunu göstərir.

Müəllif monaqrafiyanın son fəslini isə Zəhra (s.ə) məhəbbəti ilə yoğrulmuş bəzi ədəbi-bədii nümunələrə ayırmışdır. Burada klassik ədəbiyyatımızda özünəməxsus dəstxətti olan H.M.T.Qumri Dərbəndi, M.H.Şəhriyar, muasir qələm sahiblərindən Ənvər Nəzərli, H.Ə.Mahir, Hacı Yusif Qulammirzə oğlu, Şahin Fazil, Kərbəlayi Kamil Sərbəndi, Axund Hacı Soltan, Arif Buzovnalı, Hacı Zülfüqar Həbibi, Mirzə Dahi, Axund Azər Sani, Xanım Pünhan Səda və başqalarının Peyğəmbər (s) qızının tərənnü-

münə həsr etdikləri poyeziya nümunələri toplanmışdır. Bu, əsərə elmi, dini əhəmiyyətlə yanaşı ədəbi, bədii bir şirinlik də gətirir.

Əziz oxucular, son olaraq sizə tam səmimiyyətlə bu kitabı oxumağı və oxuduqca həm Fatimeyi-Zəhranın (s.ə), həm də bütövlükdə əziz Peyğəmbərin (s) və onun uca Əhli-beytinin (ə.m) həyat və mübarizəsi, yüksək elmi, mənəvi, əxlaqi fəzilətləri haqda dərindən-dərinə düşünməyi tövsiyə edirəm. Bu, bizə həm o görkəmli şəxsiyyətləri, həm özümüzü, ən əsası da hamımızı yaradan uca Tanrını daha yaxşı tanımağa yardım edəcəkdir. Güman edirəm ki, islamşunas qardaşımız Həsən Hüseyni bu dəyərli və məsuliyyətli yolda yenə də inamla addımlamaqda davam edəcək. Azərbaycan xalqının, xüsusən də, müxtəlif istiqamətlərdən mənəvi və ideoloji hücumlara məruz qalan gənclərimizin ruhi, mənəvi və ictimai-əxlaqi baxımından düzgün formalaşmasına öz töhfələrini verəcəkdir.

Beləliklə, əziz oxucularımız biz müqəddəs İslamımızı, uca Tanrının və məsum din böyüklərimizin bizə öyrətdiyi kimi vahid və bütöv bir varlıq kimi qavramalı, onu Peyğəmbər (s) və onun pak Əhli-beytinin (ə.m) tarixini əsas götürməklə həyatımıza tətbiq etməli və gerçəkdən-gerçəyə, içəridən-içəriyə yaşamalıyıq.

**Vərağa Almasov**
filologiya üzrə fəlsəfə doktoru

# MÜƏLLİFDƏN

BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

**Ya Allah, Ya Mühəmməd, Ya Əli, səndən mədəd!**

Həzrəti-Məhdi Sahibəz-Zaman (əc.f) buyurur: "Allah Rəsulunun (s) qızı Xanım Fatimə (s.ə) Mənim üçün ən yaxşı və layiqli nümunədir".

İslam aləmində qadının dəyəri barədə Qurani-Kərimdə və digər səmavi kitablarda, həmçinin məsumların hədis və rəvayətlərində yetərincə məlumatlar vardır. Bəşər üçün söykənəcək ən mötəbər istinadgah Allahdan sonra anadır.

Bir nəfər Peyğəmbərin (s) hüzuruna gəlib sual etdi: "Ya Peyğəmbər (s) mən kimə yaxşılıq edim?" Peyğəmbər (s) buyurdu: "Anana". O yenə soruşdu: "Sonra kimə?" Peyğəmbər (s) yenə buyurdu: "Anana". "Daha kimə?" Buyurdu: "Anana". Dördüncü dəfə suala cavab verən Peyğəmbər (s) buyurdu: "Atana".

Demək Peyğəmbər (s) üç dəfə anaya, daha sonra ataya yaxşılıq etməyi tövsiyə edir. Çünki, anaların zəhmətləri o qədər böyük və təmənnasızdır ki, heç üç dəfə yaxşılıq etsən də əvəzi ödənilməz.

Qurani-Kərimdə də ən böyük surələrdən biri "Ən-Nisa" (Qadınlar) adlanır. 176 ayədən ibarət olan bu surə qadın hüquqlarından bəhs edir. Burada 36-cı ayəyə qədər sırf insan və qadın hüquqlarından danışılır.

Peyğəmbərimiz (s) bu surənin fəziləti barədə buyurur: "Qadınlarınıza Nisa surəsini öyrədin".

Qurani-Kərimdə "Ən-Nisa" surəsi və Peyğəmbərin (s) həmin hədisi qadının cəmiyyətdəki rolunun yüksəkliyini göstərir.

İnsanın dünyaya gəlməsi və insan kimi yetişməsi məsuliyyəti qadının çiyinlərinə düşür. Bu məsuliyyətin mahiyyəti ilə tanış olduqdan sonra bir daha diqqət yetirmək və düşünmək lazımdır: Biz analarla düzgün rəftar edirikmi?

Son zamanlar internetdə yerləşdirilmiş bir yazı diqqətimi çox cəlb etdi. Həmin yazını kiçik ixtisarla oxuculara təqdim etmək istəyirəm. Çünki, burada qadın və ana dəyəri C.Cabbarlının "Ana" şeirində olduğu qədər incə rənglərlə təsvir olunub: "Biz həqiqətdə olmayan bir peşə yaratdıq, sonra internet və qəzet vasitəsilə elan verdik. Maraqlanan insanları müsahibəyə dəvət etdik. Onlarla aşağıda qeyd olunan müsahibəni apardıq.

– İndiyə kimi hansı peşələrdə çalışdığınız və bacarıqlarınız barədə danışmamışdan öncə sizə bu peşə haqqında bəzi açıqlamalar vermək istəyirik. Bu adi peşə deyil. İnşəəllah ki, burada işləməyiniz alınarsa, fəaliyyətinizin ən önəmli işini görmüş olacaqsınız. Bu işdə də başqa işlər kimi özünəməxsus bacarıq və tələblər var. Bu işdə tələb olunan ilkin bacarıqlardan biri də daim hərəkətdə olmağınızdır. Hətta, ola bilər ki, işdə olduğunuz müddət ərzində bir dəqiqə belə oturmayasınız.

– Bu işin gün ərzində neçə saat davam etdiyini öyrənə bilərəm?

– Bir həftə neçə saatdır?

– Bu cür olması mümkünsüzdür, axı. Uzun müddət ayaq üstə dözə biləcəyimi düşünmürəm.

– İcazə verin qalan şərtləri sona qədər izah edim. Bu iş

üçün həddən artıq səbirli və dözümlü birinə ehtiyac var. Ünsiyyətdə olacağınız adamlar çox həssas, kövrək və duyğulu olduqları üçün sizin qayğınıza ehtiyacları var. Onlara səhərdən-axşama kimi qulluq etməlisiniz. Axşam olduqda isə həmin insanlar ola bilər ki, axşamdan səhərə kimi onlarla oyaq qalmağınızı istəsinlər.

– Bu cür ola bilməz, axı.

– İşin şərtləri budur və belə olmalıdır. Ola bilsin ki, xidmət göstərdiyiniz şəxs üstünüzə qışqırsın, lakin, siz ona heç nə deməməlisiniz. Biz əslində elə bir adam axtarırdıq ki, yemək bişirməyi, mühasibliyi, tibbi yardımı və bu kimi işləri bacarsın.

– Elanda bu işlərin heç biri qeyd olunmayıb.

– Bəli. Elə buna görə də müsahibəyə dəvət etdik ki, qalan şərtləri sizə üzbəüz izah edək. Ola bilsin ki, xidmət etdiyiniz şəxs bir dəfə həkimlik, gələn dəfə tibb bacılığı və ya yemək bişirməyi, hətta, ola da bilər ki, hamısını birlikdə tələb etsin.

– Bağışlayın, bunu deyirəm, amma bu, işləməkdən çox nökərçilikdir, axı.

– Yox, eybi yoxdur, istədiyiniz adı verə bilərsiniz, adını nökərçilik də qoya bilərsiniz. Sizin iş mühitiniz çox tör-töküntü ola bilər. Oranı səliqəyə salmalısınız və ola bilsin ki, həmin şəxslər yenidən oranı çirkləndirsinlər, siz heç şikayətlənməməli və gülümsəməlisiniz.

– Bu zarafatdır?

– Xeyr. Ciddi deyirəm. Həmçinin bayramlarda, yayda, qışda və ya həftə sonlarında sizin üçün tətil və istirahət olmayacaq. Heç yerə gedə bilməzsiniz. Hətta, burda qalmalı və iki qat artıq işləməlisiniz.

– Hətta xəstələnsəm belə, işləməliyəm?

– Bəli, xəstələnsəniz də işləməlisiniz. Ödənişə gəldikdə isə açıqladığım bütün bu şərtlərə görə siz nə qədər maaş təklif edərdiniz?

– Dediyiniz şərtlərə baxsaq, bu işin haqqı 7-8 milyon tüməndən artıq olmalıdır (I şəxs).

– Şərtlərə baxsaq, məncə, məbləğ çox yüksək olmalıdır (II şəxs).

– 5 milyon tüməndən az olmaz (III şəxs).

– Bu işə oxşar bir iş yoxdur, axı (IV şəxs).

– Düşünmürəm ki, bu iş üçün müəyyən məbləğ demək olsun (V şəxs).

– Sizə bildirməliyəm ki, iş üçün sizə heç bir ödəniş olmayacaq.

– Bağışlayın, amma, təkcə ağlı yerində olmayan şəxs bu işi qəbul edə bilər (I şəxs).

– Bəs elanı nə üçün vermişdiniz (II şəxs)?

– Xülasə, siz bütün bu şərtlərlə yanaşı işi qəbul edirsiniz?

– Xeyr. (Müsahibəyə gələnlərin hər biri bu cavabı verir.)

– Əgər, sizə desəm ki, dediyimiz bütün şərtlərə baxmayaraq, hazırda bir qəpik belə almadan bu işdə çalışanlar var, inanarsınız?

– Var?

– Bəli, var.

– Hazırda işləyirlər?

– İşləyirlər, həm də bir nəfər deyil, yer kürəsində milyonlarla insan bu şərtlər qarşılığında bir qəpik belə almadan işləyirlər.

– Varsa, onlar çox təvazökar və mehribandırlar.

– Bilmək istəyirsiniz kimlərdir onlar?

– Kimlərdir?

– Analar…”

Bu məsələdə İslamın mövqeyi necədir?

Hesab edirəm ki, bu sualın cavabı “Ən-Nisa” surəsidir. Bütün bu sualların cavabı məni həmişə düşündürüb.

2003-cü ildə Bakı İslam Universitetinin İslamşünaslıq fakültəsinə daxil oldum. Bu fakültənin bütün tələbələri kimi mən də 5 il bu fakültədə oxudum. Bu 5 il müddətində müqəddəs İslam dininin əqaid, əhkam, əxlaq və s. göstərişlərini elmi səviyyədə öyrəndim. Artıq 5-ci il sona çatırdı. Sonuncu kurs tələbəsi kimi diplom işi yazmalıydım.

Gözəl bir mövzu, sevdiyim seçdiyim bir mövzu – “Nümunəvi islam xanımı Həzrəti-Fatimeyi-Zəhra (s.ə)” adlı diplom işim idi. Bu mövzuda məni dəstəkləyən mərhum müəllimim Hacı Firudin elmi rəhbərimin Hacı Mirfəttah müəllim olduğunu dedi və ondan lazımi məsləhətlər almağı tövsiyyə etdi. Hacı Mirfəttah müəllimlə görüşüb onun mənə elmi rəhbər təyin edildiyini söylədim. Hörmətli Mirfəttah müəllim çox şad olduğunu bildirdi və mənə öz tövsiyyələrini verdi. Mövzu olduqca geniş və əhatəli idi. Bunu nəzərə alıb, həm elmi, həm də ədəbiyyat baxımından mümkün qədər məlumatlar əldə etdim. “Giriş”, beş “bölüm” və “nəticə”dən ibarət tələb olunan həcmdə diplom işimi başa çatdırdım. Elmi rəhbərim Mirfəttah Fəttayev diplom işimə belə bir rəy verdi: “Bakı İslam Universitetinin tələbəsi Hüseynov Həsən Xalıqverdi oğlunun “Nümunəvi İslam xanımı Həzrəti-Fatimeyi Zəhra (s.ə.)” adlı elmi işi tərəfimizdən bəyənilir. Baxmayaraq ki, o əziz Xanımın (s.ə.) həyatını layiqincə bəşər övladı təsvir edə bilməz, lakin bu mövzu zamanla bağlı bir elmi iş kimi qəbul edilir.

Bu səbəbdən də Hüseynov Həsənin "Nümunəvi İslam xanımı Həzrəti-Fatimeyi Zəhra (s.ə.)" adlı diplom işini müdafiə etməsinə icazə verilir və ona uğurlar arzulayırıq".

İllər keçsə də, bu düşüncələr məni tərk etmədi. Bu axtarışları davam etdirdim. Nəhayət, qərara gəldim ki, yazdıqlarımı yekunlaşdırıb, oxucuma layiq kitab şəklində ortaya qoyum. Çünki bu Xanım elə bir insan olub ki, nə ondan əvvəl, nə də sonra bəşəriyyət onun mislini görməmişdir.

Bu Xanımın şənində "Kövsər" surəsi nazil olmuşdur. Cəmi üç ayədən ibarətdir: "Rəhman və Rəhim Allahın adı ilə. 1.Həqiqətən, Biz sənə Kövsər bəxş etdik. 2.Ona görə də Rəbbin üçün namaz qıl və qurban kəs. 3.Həqiqətən, Sənin düşməninin özü sonsuzdur".

Quranda ən kiçik surə olmağına baxmayaraq, "Kövsər"i oxumağın böyük fəzilətləri vardır. Übəy ibn Kə`bdən nəql olunmuş hədisdə belə yazılıb: "Bir kəs "Kövsər" surəsini oxusa, Allah onu behişt çaylarından sirab edər və bəndələrin Qurban bayramı günü qurbanlıq etdikləri qurbanların, kitab əhlinin və müşriklərin qurban etdikləri hər qurbanın sayı qədər ona savab əta edər"[1].

"Kövsər" surəsinin başqa faydaları da vardır. İkinci xəlifə Ömər ibn Xəttab deyir: "Kaş Əliyə (ə) nəsib olan o üç fəzilət mənə nəsib olaydı: Peyğəmbərin (s) öz qızını ona verməsi; Əlinin (ə) evindən başqa məscidə açılan bütün evlərin qapılarının bağlanması; Xeybər müharibəsində Peyğəmbərin (s) bayrağı Əliyə (ə) verməsi"[2].

Böyük ustadlardan olan Ustad Ayətullah Fatiminiya de-

---

[1] Mühəmməd Rza Kərimi Bəxtiyari. Quranla dərman.
[2] "Müsnədi-Əhməd", 2-ci cild, səh. 26

yir: “Əgər qəlbində Xanım Zəhranın (s.ə) məhəbbəti varsa, bil ki, hələ də Allahın nəzərindən düşməmisən.”

*Ya Zəhra! Nəzərin ayırma məndən,*
*Qoyma bu vadidən uzaq düşüm mən.*

Hazırda qarşınızdakı kitabı yazana qədər uzun bir yol gəldim. Dəfələrlə qadın və qadınlıq barədə yazacağım fikirləri bir araya toplayıb, onların hamısını bir ad altında dərc etməyə çalışdım. Mənim lap əvvəldən bu mövzunu işləmək fikrim var idi. Çünki, biz böyüdükcə, böyüklər daim qadınlıq timsalı bir Xanımı bizə nümunə gətirirdilər. Ətrafımda tez-tez kiminsə qızına, gəlininə, hətta xanımına bu Xanımı nümunə göstərdiyini görmüşəm. Xanım Fatimeyi-Zəhra (s.ə) valideyninə övlad, həyat yoldaşına xanım, övladlarına ana olaraq bir rəhmət idi.

Kitabın içində bu barədə daha ətraflı məlumat verilmişdir. Bir incə nöqtəni qeyd etmək istərdim ki, Zilhiccə ayının 1-i dinimizin ideal şəxsləri olan Həzrəti-Əlinin (ə) və Xanım Fatimeyi-Zəhranın (s.ə) izdivac günüdür. Məhz, həmin gün Peyğəmbərimiz (s) Allahın əmrilə öz qızı Xanım Fatimeyi-Zəhranı (s.ə) Həzrəti-Əliyə (ə) verir və buyurur: “Ey Zəhra! Əgər Əli olmasaydı, sənə layiq ər tapılmazdı”. Böyük alimlərdən biri deyir: “Mən həmişə düşünürdüm ki, nəyə görə İmam Əli (ə) Müqəddəs Kəbə evində dünyaya gəlib? Nəhayət ki, İmam Əli (ə) ilə Xanım Zəhranın (s.ə) izdivacı günü sualımın cavabını tapdım: “Əgər gəlin Peyğəmbər (s) evindən çıxırsa, gərək bəy də Allah evindən çıxsın”. Bu yerdə məsihi alimi Corc Cordaqın “Əli və İnsan Hüquqları” adlı kitabında yazdığı bir

cümlə xatirimə gəlir: "Əlinin İsadan üstün olduğunu söyləməyə mənsub olduğum məsihi dini icazə vermir, İsanın (ə) da Əlidən (ə) fəzilətli olduğunu söyləməyə mənim vicdanım icazə vermir".

Həqiqətən, bu fikir məni çox təsirləndirmişdi. Həm də bu sözü məhz, xaçpərəst bir yazarın yazması məni çox məmnun etmişdi. Hətta, Həzrəti-Rüqəyyə (s.ə) haqqında kitabı yazarkən və bir çox fikirlərimi onun vasitəsilə ifadə etməyə çalışarkən belə, yenə fikrim Fatimeyi-Zəhranın (s.ə) barəsində yazacağım yazıda idi. Çünki, mənim bir qadında görmək istədiyim bütün keyfiyyətlər, həqiqətən, bu Xanımda cəmlənmişdir. Hər hansı müsəlman qadınını Fatimeyi-Zəhra (s.ə) misali görmək istərdim. Çünki, Xanım Fatimeyi-Zəhra (s.ə) iki dünyaya nümunə olacaq bir Xanım idi. Necə ki, şair dostum Mirzə Dahi bir qəzəlində deyir:

*Xəlqi-aləm səbəbi Həzrəti-Zəhrada imiş,*
*İki dünya evinin zinəti Zəhrada imiş.*

*Nabinalər dəxi naməhrəm idi ol pakə,*
*Yeddi yer, yeddi göyün isməti Zəhrada imiş.*

İnsanlıq üçün ismət mühüm əhəmiyyət kəsb edir. Məxsusən, qadınlar üçün. Çünki, qarşı tərəfə şeytan ən çox qadın vasitəsilə vəsvəsə edir. Bu yerdə İmam Baqirin (ə) buyurduğu bir hədisi xatırlatmaq yerinə düşər.

Həzrəti-İmam Baqir (ə) buyurur: "Nuh Peyğəmbər (ə) öz ümmətinə nifrin etdikdən sonra, şeytan onun yanına gəlib dedi: "Sən mənə yaxşılıq etmisən, mən də gəlmişəm

onun əvəzini verim.” Həzrəti-Nuh (ə) buyurdu: “Sənə xidmət etməkdən Allaha pənah aparıram! Mən sənə nə yaxşılıq etmişəm?” Şeytan dedi: “Sən nifrin etdin, Allah da sənin qövmünü suda qərq etdi. Artıq mən çalışıb onları yoldan azdırmaq əziyyətindən xilas oldum. Bir də növbəti qövm gələnə qədər rahatam”. Həzrəti-Nuh (ə) buyurdu: “İndi mənə nə əvəz verəcəkdin?” Şeytan dedi: “Məni üç yerdə yad et. Bu üç yerdə mən insana hər zaman olduğundan daha yaxınam; qəzəblənən zaman; iki nəfər arasında hökm verən zaman; naməhrəm bir qadınla heç kəsin olmadığı bir yerdə oturduğu zaman”.

Qadınların hər zaman şeytan tələsindən qorunması üçün müdafiəyə ehtiyacları var. Hicab bu mənada ən düzgün bir seçimdir. Müasir qadının hicabsız olması nə dərəcədə düzgündür? Hətta, Qərb ölkələrindən sayılan İtaliyanın millət vəkili və daxili işlər naziri olmuş Roberto Maroni qadınların hicab məsələsi müzakirəyə çıxarılanda hicabsızlığın əleyhinə səs verərək demişdir: “Əgər Həzrəti-Məryəni bütün təsvirlərdə baş örtüyü ilə görürüksə, siz məndən hicaba qadağa qanununa qol çəkməyi necə tələb edə bilərsiniz?”

Demək qadını qorumaq üçün hicabdan daha dəyərli bir silah düşünmək çətindir. Müsəlman bir qadın yalnız Fatimeyi-Zəhranı (s.ə) özünə örnək götürməli və onun getdiyi yolla gedib daim çətinliklərdən amanda qalmalıdır. Necə ki, Şeyx Sədi deyir: “Qadın bir dəstə güldür ki, qorunmalıdır”.

Müsəlman qadını üçün Allah-təala Fatimeyi-Zəhranı (s.ə) nümunə yaratdı. Qadın və qızlarımız nə qədər bu nümunəyə yaxın olarlarsa, cəmiyyətimiz o qədər yüksələr.

Hüseyn Cavidin sözləri ilə desək: "Bəşəriyyət qadınla yüksələcək!"

Dini ədəbiyyatda və hədislərdə Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) Allah dərgahında ali mərtəbə sahibi olduğu dəfələrlə tərənnüm edilib. Bir çox hədis və dini ədəbiyyatda Xanım Fatimeyi-Zəhranın (s.ə) şəninə yazılmış məlumatları topladım. Onların Azərbaycan qadınına faydalı ola biləcəyini nəzərə alaraq oxucum üçün hazırladım. Bu kitabda hər oxucu üçün bir fayda nəzərdə tutulmuşdur.

Dahilərdən biri demişdir ki, "Hər güclü kişinin arxasında güclü bir qadın dayanmışdır". Allah-təala bir qadın və bir kişini bir bütöv olaraq yaratdı. Dünya bu cütlüklərin harmoniyasında mükəmməldir. Əgər bəşəriyyətin istiqbalı bu məsələnin nə qədər uğurla həll olunmasından asılıdırsa, bu müzakirəni davam etdirməyə dəyər. Bu kitab, bu istiqamətdə oxucular üçün faydalı olarsa, bir müəllif xoşbəxtliyi nəsibim olar.

İmamlar (ə.m) Allahın höccətləridirlər. Xanım Fatimeyi-Zəhra da (s.ə) onlara höccətdir. İmamlara höccət olan Xanım Zəhra (s.ə) elə kişilər üçün də böyük örnəkdir.

Allah-təala hər kəsə Xanımdan (s.ə) öyrənməyi və öyrəndiyinə əməl etməyi, ömrünün sonuna kimi haqqı o Xanım (s.ə) kimi müdafiə etməyi, zalımdan üz çevirməyi nəsib etsin!

# I HİSSƏ

## GİRİŞ

Qadın tarix boyu zülmə, həqarətə məruz qalıb. Birinci dəfə cahiliyyət dövründə, ikinci dəfə inkişaf mərhələsində. Sadəcə olaraq, zaman keçdikcə zülm və istismarın adı dəyişilib. Cahiliyyət dövründə qadın kişilərin – güclü cinsin avamlıq və cahilliyinin, ikinci dəfə isə onların mənfəətpərəstliyinin qurbanı olub. Qədim dövrlərdə dünyanın bir çox ölkələrində qadın qeyri-insani, alçaq və şər bir varlıq kimi qələmə verilərək, bir çox təhqir və alçalmalara məruz qalıb. Çində qadın ən alçaq bir əşya kimi tanınırdı, əri öldükdə diri-diri əri ilə birlikdə yandırılırdı. İranda ictimai-iqtisadi mövqeyi olmayan qadın ərə gedəndən sonra qardaşına naməhrəm olurdu. Yunanıstanda qadın əmtəə kimi alınıb-satılır, hətta hədiyyə edilirdi. Rumda mülkiyyət, ünsiyyət və həyatından məhrum olan qadın əmtəə kimi istifadə olunurdu, hətta atası ya əri onu istədiyi vaxt öldürə bilərdi. Məsələn, kilsə qadını şeytanın məzhəri, fəsad amili kimi təqdim edir, onun ruha malik olub-olmaması, ibadətə layiq olub-olması məsələsini müzakirə edirdi. Ərəblərdə qız uşağı dünyaya gələndə kişilərin qəzəbdən üzü qızarır, bunu rüsvayçılıq sanaraq, qız uşağını diri-diri torpağa basdırırdılar. Beləliklə, qədim dünyada qadın belə məhrumiyyətlərə düçar idi: 1.Qadın zəif məxluqdur, buna görə də hər bir işdə kişiyə tabe olmalıdır. 2.Qadın şeytani ruha

malikdir, deməк, insaniyyətdən uzaq, ən çoxu insanla heyvan arasında ehtirama layiq olmayan bir varlıqdır. 3.Qadının mülkiyyət hüququ yoxdur. Özü bir mal kimi sahibinə məxsusdur. 4.Qadın heç kimdən irs aparmır. Özü irs olaraq keçir. 5.Qadının ibadət hüququ yoxdur, əqli zəif olduğu üçün ibadətinin dəyəri yoxdur. 6.Ata və oğluna qanla bağlıdır, digər hüquqları (ana-övlad) hüququ yoxdur. 7.Qadın ərə gedəndə övladları atasının nəvəsi sayılmır. 8.Qadın mal, əşya kimi alınıb-satıla, icarəyə verilə və hətta öldürülə bilər. 9.Qadın yalnız ləzzət üçün, kişilərin əyləncəsi olmaq üçün yaradılıb. 10.Əsrlər boyu zülm altında inlədikdən, hər cür işgəncə, fiziki və mənəvi sarsıntılara məruz qaldıqdan sonra "inkişaf etməkdə" olan kapitalist dünyası qadının insan olduğunu anladı və ürəyi yanan həmnöv, əks cinsə "azadlıq" vermək fikrinə düşdü. Əslində, öz sərmayədar mənfəətlərini güdən Qərb dünyası qadından bu dəfə başqa cür faydalandı. Sərmayədarların, həqiqətən, böyük "tapıntısı" qadın bu dəfə də kişilərin əlində başqa cür oyuncağa çevrildi.

"Azadlıq" adı altında qadını isti ailə ocağından çıxarıb ucuz işçi qüvvəsi kimi fabrik və zavodlara çəkdilər. Evdarlıq əziyyətlərinin, övlad tərbiyə etmək əziyyətinin üstünə bir də ağır kişi işlərində işləyib, çox az bir əmək haqqı ilə kifayətlənmək, ər və övladlarını arxa plana keçirmək kimi ictimai bir "məcburiyyət" də gəldi. Qadın mağaza piştaxtaları arxasında öz naz-qəmzəsi, cazibəli bədəni ilə müştəri toplamaq, müxtəlif malları reklam etmək kimi "şərəfli" bir peşəyə sahib oldu. Öz ictimai mənliyi, insani dəyərləri hesabına tapdığına sevinən qadın bu dəfə də başqa formada öz heysiyyətini, ilahi dəyərlərini əldən verdi.

Əslində, əsrlər boyu nadanlığın, cəhalətin, xudbinliyin əlində əsir olan, həqiqi insani dəyərlərdən məhrum olan, insan kimi şərəfli bir məxluq olmağın ləzzətini bilməyən qadın bu hiylə və əxlaqsızlığın qarşısında dayana bilmədi. Sanki tarix boyu düçar olduğu mənfi niyyətlərin əvəzini çıxmaq istərkən yeni bir siyasətin qurbanı oldu.

Öz ölkələrində mənfur planlarını həyata keçirməklə müvəffəqiyyət qazanan Qərb zəif müsəlman dövlətlərini işğal etməklə həyasız "mədəniyyətlərini" burada da "tərəqqi", "qurtuluş" adı altında adətə çevirdilər.

Ziyalıları qərb fitnəsinə satılmış "biçarə" müsəlmanlar, "açıq-saçıqlıqda", "inkişafda" tezliklə onların özünü də geridə qoydu. Bu mənəviyyatsızlıq, vəhşi mədəniyyət o həddə çatdı ki, artıq adi bir hal alaraq, heç bir müsəlman kişi və qadını təəccübləndirə bilmədi.

Uzun bir elmi-texniki tərəqqi yolu keçən, elmi inkişafın ən yüksək zirvələrini fəth etməyi bacaran sivilizasiya hələ indinin özündə də qadına qiymət verməyi bacarmır. Halbuki, müqəddəs İslam dini hələ miladın VII əsrində bütün dünyaya meydan oxudu. Elmi, fikri, fəlsəfi bir inqilab edən islam azadlığı yaradılışın əsası kimi tanıtdı, insanların bir-birinin quluna çevrilməsini qətiyyətlə pislədi, azadlığı ixtiyari böyük nemət, kamala, yüksək mənəvi məqama çatmaq üçün ali bir mənbə kimi vəsf etdi. Həzrəti-Əli (ə) bu barədə belə buyurub: "Ey camaat, insan dünyaya qul və kəniz olmaq üçün gəlməyib, həqiqətən bütün qadın və kişilər azaddır".

Qadın həyatının istiqamətini və qadın haqqında ictimai düşüncəni dəyişdirmək üçün güclü bir ruh lazım gəlir. Qadın öz şəxsiyyətini yenidən əldə etməli, öz insani haqlarına ma-

lik olmalı və eyni halda təqva, paklıq və nəcabət yolundan çıxmamalı və özünəməxsus vəzifələri unutmamalıdır.

İslamın qələbə çaldığı gün, qadın həyatı tarixində bir dönüş nöqtəsi, qaranlıq keçmişi gələcəkdən ayıran bir gün idi. Qarşıdan gələn parlaq gələcəkdə qadın da keçmiş qaranlıqlardan ayrılıb, Allah-təalanın müəyyən etdiyi doğru və iftixarlı bir yolla getməli idi.

Artıq islam dini zühur etmiş və hərtərəfli bir inqilab baş vermişdi. Bu inqilab yavaş-yavaş insan həyatının bütün sahələrini əhatə etməkdə idi. İslam dini zülmə əsaslanan bütün münasibətləri dəyişdirdi. Bu işlərin hamısı İslam Peyğəmbərinin (s) qüdrəti ilə müvəffəqiyyətlə həyata keçirildi. Artıq islamın inqilabçı düşüncələrini qadın haqlarında həyata keçirmək vaxtı gəlib çatmışdı. İndi qadınların gözü qabağında yeni, gözəl bir mənzərə çəkilməli idi. Həmin mənzərə qadına şəxsiyyət, təqva və nəcabət verməli idi ki, qadın cəmiyyətdə qol-qanad aça bilsin. Bu böyük və tarixi vəzifə islam Peyğəmbərinin (s) əziz balası, mələk simasında insan və ya insan simasında mələk kimi ilahiyyat dərgahından bəşər aləminə ayaq basan, səmanın paklığını, səfasını insanlara göstərən, Öz mübarək vücudunda Allah-təalanın cənnətini əks etdirən, məhz, insanlara fəzilət və təmizliyin bədii təsvirini nişan vermək üçün həyata gələn, kamil insanın ən yaxşı nümunəsi kimi doğulan Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) öhdəsinə qoyulmuşdu.

Qurani-Kərimin meydana gəldiyi dövrlərdən əvvəl cəmiyyətlərdə qadınların vəziyyətinə nəzər saldıqda onlara münasibət məsələsində bu müqəddəs kitabın yeri daha aydın görünür. Belə ki, ərəblər arasında, eləcə də başqa xalqlarda qadın hüquqsuz bir vəziyyətdə olmuşdur. Kişi qadını

istədiyi vaxt boşaya bilərdi. Bəzi xalqların əski kitablarında qadınların murdar təmayüllərə, zəif təbiətə, pis əxlaqa malik olduqları göstərilir. Bir sıra xalqlarda, o sıradan yunanlarda qadın tənhalığa məhkum edilirdi. İslamın zühuru ərəfəsində Avropa və Bizans qaranlıqda olduğu üçün qadının vəziyyəti qeyri-müəyyən idi. Ümumiyyətlə, bütün bu cəmiyyətlərdə qadın bir şəhvət əşyası hesab edilirdi.

Qədim romalılar və yunanlar arasında da arvad bazarda satılan, hərraca qoyulan, zövqə və şəhvətə tabe olan bir varlıq olmuşdur.

Xristianlıq da qadını kiçik bir qurum kimi gördü. Xristianlıq şəraitində qadın kölə vəziyyətindən qurtula bilmədi. Artıq qadının düşüncə zəifliyi və onun ruhunun olması haqqında şübhələr yaranmağa başlamışdı. Beləliklə, cəmiyyətlərdə ictimai həyat, əxlaq və fəzilət nizamları pozulmağa doğru gedirdi. Tarixi mənbələrə əsasən, mübaliğəsiz demək olar ki, ərəblərin cahiliyyət dövrünün bütün tarixi ərzində cəmiyyətdə azacıq qədir-qiyməti olan qadınların sayı vur-tut bir neçə nəfər imiş. Çünki, deyildiyi kimi, o cür çürük quruluşu, düşkün qayda-qanunu olan cahiliyyə cəmiyyətində "qadın" anlayışı ar və eyib sayılırdı. Cahiliyyə ərəblərinin geniş yayılmış bir zərbül-məsəlində deyilir: "Qadın ardır, arı da gərək torpağa basdırasan". Belə bir şəraitdə Qurani-Kərimin müqəddəs ayələri insanlara çatdırılmış, kişili-qadınlı cəmiyyətdə nizamın qorunub saxlanması üçün islam dini meydana gəlmişdir.

"Qurani-Kərim qadının cəmiyyətdəki yerini və hörmətini yüksəklərə qaldırır, onun kişi ilə birlikdə ailədə xüsusi mövqe sahibi olduğunu, uşaqların tərbiyəsində ata ilə ya-

naşı məsuliyyət daşıdığını bildirir”[1].

İslam aləmində, Şərq dünyasında çox böyük əzəmət və nüfuz sahibi olan Həzrəti-Fatimeyi-Zəhra (s.ə.) haqqında yazmaq olduqca çətin və məsuliyyətli bir işdir. Əziz İslam Peyğəmbərinin (s) sevimli qızı, möminlər ağası Həzrəti-Əlinin (ə) bəxt ulduzu, behişt gənclərinin ağaları sayılan İmam Həsən (ə) və İmam Hüseynin (ə), Kərbəla qəhrəmanı Xanım Zeynəbin (s.ə) anası haqqında yazmaq nə qədər çətin olsa da, bir o qədər də şərəfli işdir.

Xanım Fatimeyi-Zəhranın (s.ə) adi bir insan olmadığını, 14 məsumdan biri olduğunu başa düşdükdən sonra, necə çətin bir mövzuya başladığımı hiss edib, uca Tanrıdan bu işdə mənə kömək olmasını arzuladım. Bu işdə Allah köməyim, Peyğəmbər (s) dayağım, Mövla Əli (ə) və məsum İmamlar (ə.m.) yol göstərənim olsun deyə dua etdim, mövzunu yazmağa başladım.

---

[1] H.V.Məmmədəliyev “Ön söz” Bakı-1991 Quran-tərc.

# I BÖLÜM

## HƏZRƏTİ-FATİMEYİ-ZƏHRANIN (S.Ə) HƏYATI VƏ FƏALİYYƏTİ

Həzrəti-Fatimeyi-Zəhra (s.ə) besətin 5-ci ilində, cəmadiyüs-sani ayının 20-də, cümə günü, Məkkə şəhərində dünyaya göz açdı. Bu zaman Həzrəti-Mühəmməd (s) 45 yaşında idi.

Əllamə Məclisi "Biharul-ənvar" kitabında Xanım Fatimeyi-Zəhranın (s.ə) dünyaya gəlməsini belə təsvir edir. "Bir gün Peyğəmbər (s) Əbtəh (Məkkə və Mina arasında) deyilən yerdə əyləşmişdi. Həzrəti-Əli (ə), Abbas, Həmzə, Əmmar Yasir, Müfzər ibni Zəhzah, Əbubəkr və Ömər də o Həzrətin (ə) yanında oturmuşdular. Bu zaman Cəbrail (ə) öz əsl surətində, qanadları Şərq və Qərbi əhatə etmiş halda Peyğəmbərin (s) hüzuruna gəlib salam verdi və buyurdu: "Ey Peyğəmbər (s)! Uca Tanrı sənə salam göndərir və buyurur ki, 40 gün Xədicə (s.ə) ilə yaxınlıq etməyəsən". Bu məmuriyyət Xədicəni (s.ə) çox istədiyinə görə Peyğəmbərə (s) çox ağır gəldi. Ancaq Allah-təalanın əmrini hər şeydən yüksək tutan Peyğəmbər (s) bu göstərişi qəbul etdi və 40 gün Xədicədən (s.ə) uzaq oldu. Gündüzləri oruc tutub, gecələri ibadətlə keçirən Peyğəmbər (s) axır günlər yetişən zaman Əmmar Yasiri sevimli zövcəsi Xədicənin (s.ə) yanına göndərib bu xəbəri ona çatdırmağı tapşırdı: "Ey Xədicə! Elə güman etmə ki, bir müddət səndən uzaqlaşmağım məhəbbətsizlik, ya laqeydlik üzündəndir. Allahım bunu, Öz işini yer üzündə icra etməsindən ötrü

əmr etmişdir. Bu əmrin nəticəsi üçün səadət və xeyirdən savayı bir iş fikirləşmə. Allah-təala gündə neçə dəfə ən böyük mələklərini sənin nazını çəkməyə məmur edir. Axşam düşən kimi qapını bağla və öz yatağında istirahət et. Bil ki, Mən Fatimə binti-Əsədin evindəyəm”.

Qırx gün sona çatdıqdan sonra Cəbrail (ə) Peyğəmbərin (s) yanına gələrək belə dedi: “Allah-təala Sənə salam göndərib buyurur ki, Sənə veriləcək hədiyyəni almağa hazırlaşasan”. Peyğəmbər (s) Cəbraildən (ə) soruşdu: “Allah-təalanın mənə edəcəyi töhfə nədir?” Cəbrail (ə) ərz etdi ki, bilmirəm. Elə bu zaman Allahın dörd yaxın mələkindən biri Mikail (ə) göylərdən yerə enərək behişt parçalarına bükülmüş cənnət meyvələri ilə dolu sinini Rəsuli-Əkrəmin (s) qarşısına qoydu. Cəbrail (ə) Peyğəmbərə (s) dedi: Allah-təala buyurur ki, axşam iftarını bu meyvələrlə açasan”.

Həzrəti-Əli (ə) buyurur ki, Peyğəmbər (s) bizdə idi. Adətən axşamlar iftar vaxtı mənə evin qapısını açıq qoymağımı tapşırar və “Qoy kim istəsə gəlib Peyğəmbərlə (s) birlikdə yemək yesin” söyləyən Mühəmməd (s) o gecə məni də qapının ağzında oturdub, ”Ey Əbu Talib oğlu, bu məndən başqasına haram olunmuş bir təamdır” deyə buyurdu. Mən qapının ağzında əyləşdim. Rəsuli-Əkrəm (s) evə daxil olub, sininin üstünə çəkilmiş örtüyü qaldırdı. İçində bir salxım üzüm, bir budaq da xurma gördüm Həzrət (s) onlardan bir az yeyib-doyandan sonra su içdi. Sonra yumaq üçün əlini uzatdı. Cəbrail (ə) O Həzrətin (s) mübarək əlinə su tökür, Mikail (ə) yuyur, İsrafil (ə) dəsmalla Peyğəmbərin (s) əllərini qurulayırdı. Bu zaman Peyğəmbər (s) nafilə namazı (müstəhəbb namaz) qılmaq üçün ayağa qalxdı. Cəbrail (ə) Peyğəmbərə (s) yaxınlaşıb dedi: “Ya Peyğəmbər (s), indi namaz qılmaq vaxtı deyil, gərək evə

gedib Xədicə (s.ə) ilə yaxınlıq edəsən. Çünki, Allah istəyir ki, bu gecə Sənin sülbündən pak övlad yaratsın”. Beləliklə, 40 gün tamamında Peyğəmbər (s) Xədicənin (s.ə) görüşünə getdi.

Həzrəti-Xədicə (s.ə) deyir: “Mən həmin 40 gün müddəti tək qalırdım. Axşam düşən kimi qapını bağlayıb, pərdələri çəkib, başımı bağlayıb namaz qılırdım. Namazı qurtarandan sonra çırağı söndürüb istirahət etmək üçün yatağıma gedirdim. Lakin, o gecə hələ yatmamışdım ki, qapı döyüldü. Mən “Qapını döyən kimdir ki, Peyğəmbərdən (s) başqa heç kim onu döymür?” dedim. Bu vaxt Peyğəmbərin (s) məlahətli səsini eşitdim ki, buyurdu: “Ey Xədicə qapını aç, mənəm, Mühəmmədəm”.

Sevinclə qapını açdım. Həzrət (s) evə daxil oldu. Peyğəmbər (s) hər dəfə evə gələndə bir qabda su istəyər, dəstəmaz alıb iki rükət namaz qılar, sonra yatağına girərdi. Lakin Peyğəmbər (s) o gecə su istəmədi, heç namaza da hazırlaşmadı. Mənim qolumdan tutub yatağına apardı. Allaha and olsun ki, Peyğəmbər (s) məndən hələ uzaqlaşmamışdı ki, Fatimənin (s.ə.) nurunu öz bətnimdə hiss etdim. Peyğəmbərin (s) Xədicədən (s.ə) 40 gün uzaq olmağı iki dünya xanımı, dünya qadınlarının sərvəri olan Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) məqamının uca olmasına bir nümunədir ki, bu fəziləti dil belə təsvir etməkdə acizdir.

Allahın elçisi üçün behişt meyvələrindən üzüm və xurmanın gətirilməsi bu meyvələrin daha çox bərəkətli və xeyirli olmalarından irəli gəlir. Çünki, ağacların arasında heç bir ağac xurma və üzüm kimi bərəkətli və xeyirli olmamışdır. Həmçinin, bu iki ağac Adəmin (ə) xəmirindən artıq qalmış gildən yaranmışdır və çox ehtimal ki, belə seçim pak və mübarək nəslin övladlarının çoxlu olmasına və

bərəkətinə bir işarədir.

Şeyx Səduq "Əmali" kitabında Müfəzzəl İbni-Ömərdən belə nəql edir ki, bir gün İmam Sadiqdən (ə) soruşdum: "Yəbnə Rəsulallah! Fatimə (s.ə) dünyaya necə gəldi? "İmam (ə) buyurdu: "Xədicə (s.ə) Peyğəmbər (s) ilə evləndən sonra Məkkə qadınları (İslama qarşı olan düşmənçilikləri üzündən) Xədicədən (s.ə) uzaqlaşdılar. Bu işlərdən Xədicə (s.ə) çox kədərlənir və bu çirkin əməllərin Peyğəmbərə (s) zərər yetirəcəyindən qorxurdu. Amma Xədicə (s.ə) Fatiməyə (s.ə) hamilə olduqda Fatimə (s.ə) ana bətnində onunla söhbət edərək Xədicəyə (s.ə) ürək-dirək verirdi. Xədicə (s.ə) hətta bunu da Peyğəmbərdən (s) gizlədirdi. Bir gün Allahın Rəsulu (s) evə daxil olduqda Xədicənin (s.ə) kiminləsə söhbət etdiyini eşidir və bu barədə Xədicədən (s.ə) soruşduqda, o pak qadın belə cavab verir: "Bətnimdəki uşaq mənimlə söhbər edir, o mənim munisimdir".

Peyğəmbər (s) buyurdu: Cəbrail (ə) mənə xəbər verib ki, bu uşaq qız uşağıdır və bizim mübarək pak nəslimiz də budur. Allah-təala tezliklə mənim nəslimi onunla dünyaya gətirəcəkdir. İmamlar onun nəslindən dünyaya gələcəklər. Allah-təala mənə olunan vəhy kəsildikdən sonra onları yer üzündə mənim canişin və xəlifələrim qərar verəcəkdir.

Bir müddət sonra Xədicənin (s.ə) hamiləlik dövrü başa çatdı. Həzrəti-Xədicə (s.ə) Qüreyş və Bəni-Haşim qadınlarına ona hamiləlikdən azad olmaqda kömək etmələri üçün xəbər göndərdi. Lakin, Qüreyş və Bəni-Haşim qadınları ona xəbər göndərdilər ki, sən bizi saymayıb, sözümüzü yerə saldın və Əbu Talibin (ə) himayəsində yaşayan, yetim olan Mühəmmədə (s) ərə getdin. Buna görə də, biz sənin yanına gəlməyəcəyik.

Xədicə (s.ə) bu xəbərdən çox kədərləndi. Ancaq Allah-təala onu tək qoymadı. Fatimeyi-Zəhra (s.ə) anadan olan vaxt Bəni-Haşim qadınlarına bənzəyən dörd uca boy qadın gəldi. Onlardan biri dedi: "Ey Xədicə! Biz Allah tərəfindən sənin yanına göndərilmişik və biz sənin bacılarınıq. Mən Sara, İbrahim Xəlilin həyat yoldaşıyam və bu Fironun zövcəsi Asiyadır ki, behiştdə səninlə bir yerdə oturubdurar, o birisi isə İmranın qızı Məryəmdir, o isə Musanın (ə) bacısı Gülsümdür. Allah-təala bizi sənin yanına göndərdi ki, doğuş vaxtı sənə kömək edək".[1]

Sonra dörd qadından biri Xədicənin (s.ə) sağ tərəfində, o biri sol tərəfində, üçüncüsü isə üzbəüz, dördüncüsü isə arxa tərəfində əyləşdi. Fatimə (s.ə) pak-pakizə bir halda dünyaya gəldi. Dünyaya gəldiyi zaman ondan saçan nur bütün Məkkə evlərini işıqlandırdı. Behişt hurilərindən on nəfər, əllərində cənnətdən gətirdikləri teşt və Kövsər suyu ilə doldurulmuş kuzə evə daxil oldular. Xədicənin (s.ə) qarşısında duran qadın Fatiməni (s.ə) götürüb Kövsər suyu ilə yudu. Ağappaq, ətirli iki parçadan biri ilə Fatiməni (s.ə) bələyib, digəri ilə başını bağladı. Sonra Fatiməni (s.ə) dindirdi. Fatimə (s.ə) dil açıb Allahın birliyinə və Məhəmmədin (s) Onun Rəsulu olmasına şəhadət verərək dedi: "Əşhədu ən la ilahə illəllah və ənnə əbu rəsulullah seyyidül ənbiya və ənnə bəli seyyidül övsiya və vəladət sadətul əsbat – Şəhadət verirəm ki, yeganə Allahdan başqa ibadətə layiq məbud yoxdur. Atam Allahın Rəsulu, peyğəmbərlərin başçısıdır. Ərim övliyaların sərvəri və iki övladım isə behişt cavanlarının ağasıdır".

---

[1] Şeyx Abbas Qummi, Beytul-əhzan, səh. 19-20

Sonra o dörd qadından hər birinə ayrı-ayrılıqda salam verərək onların hər birini öz adı ilə səslədi. Qadınlar böyük sevinc və şadlıqla Fatimənin (s.ə) mübarək mövludu münasibətilə təbrik söyləyib müjdə verdilər. Hurilər səmada ilk dəfə olaraq elə bir nur gördülər ki, hələ ondan qabaq belə bir nuru heç bir vaxt görməmişdilər.

Əhli-beyt (ə.m) şairi S.Nurəddin Dərafərin "Mövludi-Zəhra (s.ə.) adlı qəzəlində qeyd olunan rəvayət və hadisələri obrazlı şəkildə belə verir:

Yetişib Mövludi-Zəhra, nə gözəl gündü bu gün,
Olunub din evi bərpa, nə gözəl gündü bu gün.

Hər tərəfdən ucalır göylərə təbrik səsi,
Bürünüb nur ilə dünya, nə gözəl gündü bu gün.

Göz açıb dəhri-fəna içrə Peyəmbər balası,
Gözün aydın ola, Mövla, nə gözəl gündü bu gün.

Öz adı Fatimədir, amma ki, Zəhra ləqəbi,
Həm də "Siddiqeyi-Taha" nə gözəl gündü bu gün.

Bir Xanım ki, adı dillərdə İmamət anası,
Arifa, ver buna məna, nə gözəl gündü bu gün.

Həzrəti-Fatimənin (s.ə.) dünyaya gəlməsi barədə bəzi ixtilaflı rəvayətlər də mövcuddur. Bəzi tarixçilər deyirlər ki, Fatimə (s.ə) Fil hadisəsindən 25 il keçdikdən sonra dünyaya gəlib. Şeyx Mühəmməd İmam Mühəmməd Baqirdən (ə) nəql edir ki, Məbəsdən 5 il keçdikdə Fatimə (s.ə.) dünyaya gəlib. Və "Rövzətül-vaizin"də yazılıbdır ki,

Xədicə (s.ə) Fatiməyə (s.ə) hamilə olduqda Həzrəti-Rəsul (s) buyurdu ki, “Ey Xədicə, Cəbrail (ə) mənə xəbər verdi ki, bətnində olan o şəhanə inci bir qızdır ki, adı Fatimədir. Onun nəsli qiyamətədək davam edəcək”.

Əhli-beyt (ə.m) aşiqi M.Füzuli iki dünya xanımının dünyaya gəlməsini “Hədiqətüs-sühəda” əsərində belə vəsf edir:

Şər’ gülzarına rövnəq verdi bir növrəs nihal,
Asimani-dinə pərtöv saldı bir fərrux hilal,
Ol nihalın bərgü barından dolub daməni-dəhr,
Ol hilalə qıldı ənvari-hidayət intiqal.

(Şəriət gülzarına bir yeni ağac rövnəq verdi,
Din səmasına bir mübarək ay işıq verdi,
Dünyanın ətəyi o ağacın yarpaq və meyvəsindən dolub
Ol aya hidayət işığı bəxş olunub).

“Rövzatül-əhbab”da Aişədən nəql olunub ki, ondan sual etdilər: “Həzrəti-Rəsul (s) qadınlardan kimə artıq hörmət edərdi?” Aişə dedi: “Fatimənin hörmətini artıq tutardı.” Dedilər: “Kişilərdən kimə ehtiram bəsləyərdi?” Dedi: “Əli ibn Əbu Talibə[1].

Digər bir rəvayətdə deyilir: “Bir gün Rəsuli-Əkrəm (s) Xədicənin (s.ə) mənzilinə daxil olanda orada danışıq səsi eşitdi. Peyğəmbər (s) buyurdu: “Ya Xədicə, kiminlə danışırsan?” Xədicə (s.ə) cavab verdi ki, Ya Rəsulallah (s) bətnimdə olan uşaq mənimlə söhbət edir. O, mənim munisimdir”. Rəsuli-Əkrəm (s) buyurdu: “O uşaq qızdır, mənim nəslim ondan törəyib artacaq. Cəbrail (ə) mənə xəbər verib ki, onun adı asimanlarda Mənsurə, yerdə isə Fatimə-

[1] M.Füzuli “Hədiqətüs-sühəda” əsəri

dir. "Fatimə" kəsən, ayıran mənasındadır. Yəni, o Banu (s.ə) öz şiələrini cəhənnəmdən, düşmənlərini isə öz məhəbbətindən və cənnətdən qət edib ayırıbdır. O Xanım (s.ə) öz dostlarına axirətdə kömək edəcəyi üçün, göylərdə ona Mənsurə deyirlər."

Rəsuli-Əkrəm (s) buyurub: "Fatimə (s.ə) zahirdə insan şəklindədirsə də, batində Huriyyədir."

Həzrəti-Fatimə (s.ə) 5 yaşında ikən, besətin 10-cu ilində anası Xədicə (s.ə) vəfat etdi. Rəsuli-Əkrəm (s) Mədinəyə hicrət edəndən sonra Ümmi-Sələməni (s.ə) özünə nikah elədi və Fatiməni (s.ə) ona tapşırdı ki, onun tərbiyəsi ilə məşğul olsun. Həmin vaxt Fatimənin (s.ə.) 8 yaşı var idi.

Həzrəti-Xədicədən (s.ə) sonra Peyğəmbərin (s) ən sevimli zövcəsi Ümmi-Sələmə (s.ə) idi. Ümmi-Sələmə (s.ə) deyərmiş ki: "Allaha and olsun, Mən özüm Fatimədən (s.ə) ədəb öyrənirəm, az yaşlı olmasına baxmayaraq, O hər şeyi məndən və başqalarından çox bilir".

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) adları

Yunis İbni-Zəyban deyir ki, İmam Sadiq (ə) buyurdu: "Fatimənin (s.ə.) Allah dərgahında 9 adı vardır: Fatimə, Siddiqə, Mübarəkə, Tahirə, Zəkiyyə, Raziyyə, Mərziyyə, Mühəddəsə, Zəhra". Sonra buyurdu: "Fatimə adının mənasını bilirsənmi?" Ərz etdim ki, ey mənim sərvərim, onun mənasını mənə başa sal". Həzrət (ə) buyurdu: "Futimət minəşşər (Hər cür pislikdən ayrılmış və ya seçilmiş, təmizlənmiş)". Sonra İmam (ə) buyurdu: "Əgər möminlər ağacı Əli (ə) olmasaydı, Adəmdən (ə) tutmuş ta qiyamətə qədər yer üzündə Fatimə (s.ə.) üçün həyat yoldaşı tapıl-

mazdı”[1].

Digər bir mənbədə rəvayət olunur ki, Fatiməyə (s.ə) aşağıdakı səbəblərə görə “Fatimə” deyirlər:

1. O hər bir pislikdən və çirkinlikdən uzaqdır.

2. O və onun şiələri (tərəfdarları) cəhənnəm odundan uzaqdırlar.

3. Fatimə (s.ə.) yüksək elm və kamal dərəcələrinə malik olduğu üçün başqalarından seçilirdi. (Fatimə “Fətəmə” kəlməsindəndir, yəni kəsən və ayıran).

4. Fatiməyə (s.ə.) ona görə Fatimə deyildi ki, insanlar onu tanımaqda acizdirlər, Xanımın həqiqətini dərk edə bilməzlər. Bu, Fatimənin “Ümmi-Əbiha” məqamına dəlildir.

5. Həzrəti-Fatimənin (s.ə.) Fatimə adlandırılmasının səbəblərindən biri də budur ki, Fatimənin (s.ə.) ən kamil nümunəsi “Qədr gecəsi”dir. Zəhra (s.ə.) Allahın qədr gecəsidir. “Qədr gecəsi” sirli olduğundan, Zəhra da sirli bir varlıqdır və heç kəsin əqli onu dərk etməyə çatmaz. Əgər bir kəs “Qədr gecəsi”ni dərk edə bilsə, Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) da məqam və mənzilətini dərk edə bilər.

İmam Həsən Əsgəri (ə) buyurur: “Fatimeyi Zəhranın (s.ə.) “Zəhra” adlanmasının səbəbi bundan ibarətdir ki, hər gün üç dəfə onun camalının nuru Həzrəti-Əli (ə) üçün cilvələnirdi. Fatimeyi-Zəhranın (s.ə.) parlaq çöhrəsi səhərin ilk başlanğıcında günəş kimi, günorta vaxtı ay kimi, gün batan vaxtı ulduz kimi nur saçırdı”.

Zəhra adın Xuda ona bəxş etdi dəhrdə,
Çün səcdə qıldı sidq ilə Sübhanə Fatimə[*]

---

[1] “Üsuli-Kafi” 1-ci cild, səh 461.
[*] Axund Hacı Soltan “Məsumnamə”.

Xanım Fatimənin (s.ə.) digər adlarının mənasını mənbələrdə belə açıqlayırlar: Siddiqə (məsumə, ismətli, günah etməyən), Mübarəkə (elm, fəzilət və kamalda bərəkətli), Tahirə (nöqsanlardan pak olan), Zəkiyyə (xeyir işlərdə və kamalda yüksək olan), Raziyyə (Allahın qəzasına razı olan), Mərziyyə (Allahın və onun dostlarının bəyənilmişi), Mühəddəsə (mələklə danışan), Zəhra (həm zahiri, həm də mənəvi cəhətdən nurani).

Gözəl təbli Əhli-beyt (ə.m) şairəsi Pünhan Səda Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) bu mübarək adlarını "Anam Zəhra" adlı bir şeirində nəzmə çəkmişdir. Həmin şeiri olduğu kimi sizə təqdim edirik:

**Anam Zəhra**

Səmaların Mənsurəsi,
Bu dunyanın Huriyyəsi,
Allahın pak Mərziyyəsi,
Nə zinətdir, anam Zəhra!

"Dürrətül-Beyza, Tahirən,
Bəz'əti nurdu tənimdən" –
Bu söz Rəsuli-Əkrəmdən
Vəsiyyətdir, anam Zəhra!

Əmin oğlu Əli yarın,
Tacidarın, vəfadarın!
Başdan-başa o sərdarın
Şücaətdir, anam Zəhra!

Zeynəb, Gülsüm, Hüseyn, Həsən
Namü nişandı şənindən.
Əhli-beyt Mühəmməddən
Əmanətdir, anam Zəhra!

Tükənməz şanı, şövkəti,
Şərəfyab etdi milləti.
Məqamının ziyarəti
Fəxarətdir, anam Zəhra!

Fərağınla olub giryan,
Fəğan eylər Səda Pünhan.
Kənizin olmaq şöhrət, şan,
Şərafətdir, anam Zəhra!

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) künyələri

1.Ümmül-Əimmətil-məsumeyn
2.Ümmül-Həsəneyn
3.Ümmül-Xiyərə
4.Ümmül-Fəzail
5.Ümmül-Əxyar
6.Ümmül-Nücəba
7.Ümmül-Əzhar
8.Ümmül-Ülum
9.Ümmül-Kitab.

## "9" rəqəmlər içində möcüzəli rəqəmdir

Peyğəmbər (s) 63 yaşında vəfat edib, 6+3 =9
Həzrəti-Əli (ə) 63 yaşında vəfat edib.

Doqquz rəqəmini hansı rəqəmə vursan, cavabda alınan rəqəmləri toplayanda 9 edir. Məsələn:

9x9=81
8+1=9
9x2=18
1+8=9
9x15=135
1+3+5=9

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) ləqəbləri

1.Bətul – heyz, nifas və s. kəsafətlərdən pak olan;
2.Xeyrün-nisa – qadınların ən yaxşısı;
3.Seyyidətün-nisail-aləmin – aləm qadınlarının sərvəri və xanımı;
4.İbnətül-Muxtar – Peyğəmbərin (s) qızı;
5.Əzra – pakizə, bakirə;
6.Bəzətin-nübuvvə – Peyğəmbərin (s) bədəninin bir parçası;
7.Dürrətul-beyza – ağ dürr.[1]

Həzrəti-Fatimə (s.ə) imamların anası olması ilə yanaşı, Peyğəmbərin (s) nəslinin ondan doğulub qiyamətə kimi davam edəcək yadigarıdır. O, iki dünya qadınlarının xanımıdır. O, sözündə və danışığında Peyğəmbərə (s) ən çox oxşayan şəxs olmuşdur. O, Peyğəmbərin (s) yanına gələndə, Həzrəti-Rəsul (s) onu mehribanlıqla qarşılayar və onun əlindən öpərdi.

[1] Hədisi-Qüdsi

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) mehvəriyyət təşkil etməsi

Həzrəti-Fatimə (s.ə) bir neçə mühüm məsələdə mehvəriyyət təşkil edir:

1.İmkan aləmini xilqətində birləşdirir. Allah-təala Peyğəmbərə (s.) xitabən buyurur: "Lövlakə, lövlakə və ma xaləqtul-əflak. Lövla Əliyyun və ma xaləqtuq, lövlə Fatimətu və ma xaləqtukuma" – "Ya Mühəmməd (s) əgər sən olmasaydın, fələkləri yaratmazdım. Əgər Əli (ə) olmasaydı, səni yaratmazdım. Əgər Fatimə (s.ə.) olmasaydı, sizin heç birinizi yaratmazdım".

Mövlanə Məhəmməd Füzuli bu müqəddəs hədisə istinadən bir qəzəlində deyir:

Ey vücudin əsəri xilqəti-əşya səbəbi,
Nəbi ol vəqti ki, bil fel gərəkməzdi Nəbi!

Bu beytdə şair haqlı olaraq ilk yaranışın Həzrəti-Mühəmmədin (s) pak nurunun olduğunu qeyd edir. Lakin "Hədisi-Qüdsi"də Allah-təala bütün mövcudatdan qabaq 5 kimsənin nurunu yaratdığını buyurur: "Mühəmməd (s), Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseynin (ə) mübarək nurları". Haqq aşığı Dədə Ələsgər də bu hadisəyə əsaslanaraq, Ruzi-Ələstdə bu beş kimsənin nurunun mövcudluğunun Xilqət aləmindən əvvəl yarandığını qeyd edir və bir divanisinin birinci bəndində onu qeyd edərək deyir:

"Ələst"dən bəli dedim, nə xoş iqbaldı yüküm,
Beş gözəlin aşiqiyəm, vəsfi-kəmaldı yüküm.
Mətahım mətah olunca, bazarım bazar olsun,
Nə alınmır, nə satılmır, xeyli zavaldı yüküm.

2.İlahi mərifətdə Həzrəti-Fatimə (s.ə.) mehvəriyyət təşkil edir. Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) behiştdə çox yüksək məqamı vardır. Furat ibn İbrahimin təfsirində nəql olunur ki, Əli (ə) buyurmuşdur: “Bir gün Peyğəmbər (s) Fatimənin (s.ə.) yanına gəldikdə xanımın kədərli olduğunu hiss etdi. Həzrət (s) bir az Qiyamət günü barədə danışıb bu yerə yetişdi: “Ey Fatimə, Sən Cənnət qapısına yetişən zaman o vaxta qədər heç bir kəslə görüşməyən və səndən sonra da görüşməyəcək 12 min Behişt hurisi səni qarşılayar. Onların əlində nurdan düzəldilmiş silah olar. Onlar nurdan ibarət dəvəyə minərlər. O dəvələrin yəhəri qızıldan, sarı və qırmızı yaqutdan, yüyəni isə təmiz mirvaridən olar. Hər dəvənin üstündə də sıx-sıx düzülmüş parlaq incilərlə bəzədilmiş “Sundus” süfrəsi açılar. Behiştə daxil olan zaman cənnət əhli sənin qədəmlərindən şad-xürrəm olarlar. Sənin tərəfdarların üçün nurdan ibarət kürsü üzərində xüsusi süfrə hazırlayarlar. Başqaları hələ hesab-kitab verən zaman onlar yeməklərdən meyl edərlər. Sənin tərəfdarların üçün istədikləri şey həmişə və elə o dəqiqə hazır olar. Allah övliyaları Cənnətə yerləşdirən zaman Həzrəti-Adəm (ə), ondan sonra isə bütün Peyğəmbərlər (ə.m.) səni ziyarət etməyə gələrlər.

3.Həzrəti-Fatimə (s.ə.) Allah məhəbbətində də mehvəriyyət təşkil edir. Rəsuli-Əkrəm (s) buyurur: “Hər kəs Fatiməni (s.ə.) sevsə, şübhəsiz məni sevmişdir və hər kəs də məni sevsə, şübhəsiz Allahı sevmişdir.

4.Həzrəti-Fatimə (s.ə.) Allahın razılığında və qəzəbində mehvəriyyət təşkil edir. Peyğəmbər (s) buyurub: “Həqiqətən, Allah Fatimənin (s.ə.) razı olması ilə razı olar, qəzəblənməsi ilə qəzəblənər”.

5.Həzrəti-Fatimə (s.ə.) təvəssül olunmaqda da mehvə-

riyyət təşkil edir. Təvəssül duasında oxuyuruq: "İlahi, Səni and verirəm Fatimənin (s.ə.) həqqinə, onun atasının, onun ərinin və onun oğlanlarının həqqinə, salavat göndər Həzrəti-Mühəmmədə (s) və Onun Əhli-beytinə (ə.m), mənim barəmdə mənim bəyəndiyim şeyləri deyil, özün məsləhət bildiyin şeyləri rəva gör!

6.Peyğəmbər (s) Fatiməni (s.ə.) "Ümmi-Əbiha" – yəni, "atasının anası" deyə səsləyərdi. "Ümm" kəlməsi "ana" mənasından başqa "əsil" və "kök" mənasına da işlənmişdir. Necə ki, Məkkəyə "Ümmül-qura" və şəraba "Ümmül-xəbais" deyirlər. Buna görə, "Ümmi-əbiha" da vilayət və nübüvvətin əsli, kökü mənasınadır. Həqiqətən, Fatimeyi-Zəhra (s.ə.) kölgə salan bir ağac idi. O, imamət və vilayətin şirin meyvələrini yetişdirdi. Peyğəmbər (s) öz əziz və sevimli qızına "Ümmi-əbiha" ləqəbi verdi[1].

7.Həzrəti-Fatimeyi-Zəhra (s.ə.) "Kisa" və "Mübahilə" əshablarından biridir. Fatimeyi-Zəhra (s.ə.) o şəxslərdən idi ki, onların şəni haqqında "Təthir" (Əhzab surəsi, ayə 33) ayəsi nazil olmuşdur. Həzrəti-Fatimə (s.ə.) İmamların (ə.m.) anası və Allah Rəsulunun (s) yadigarı idi. Peyğəmbərin (s) nəsil-nəcabəti Qiyamət gününə qədər o xanımın və onun övladlarının nəslindən törənəcəkdir. O, hər iki cahanın qadınlarının sərvəri və insanların arasında Peyğəmbərə (s) ən çox oxşayan şəxsdir. Onun yaşayış tərzi və əxlaqı, Allahın Rəsulunun (s) yaşayış tərzi və əxlaqına bənzəyir.

[1] On dörd parlaq ulduz, səh.75

# II BÖLÜM

## HƏZRƏTİ-FATİMEYİ-ZƏHRA (S.Ə) QURAN AYƏLƏRİ İŞIĞINDA

Həzrəti-Fatimənin (s.ə) böyüklüyü, əzəməti və müqəddəsliyi haqqında çox söz deyilmiş və çox yazılmışdır. Amma bütün bunlardan daha üstün olan Xanım Fatimənin (s.ə.) barəsində nazil olan Quran ayələridir. Allah-təala Qurani-Kərimdə bir çox ayələrdə dünya xanımlarının fəxri olan Fatiməyə (s.ə.) böyük ehtiram etmişdir.

Doğrudan da, Fatimeyi-Zəhra (s.ə) elə bir nümunə və örnəkdir ki, Quranda onun bərəkətli vücudu Peyğəmbər (s) üçün Kövsərə, tükənməz və ən dəyərli hədiyyələrə bərabər tutulmuş, Həzrəti-Mühəmmədin (s) müqəddəs adının, şəfqətli məqamının və pak nəslinin davamı hesab olunmuşdur. O zamanlar kafir və müşriklərdən bir dəstə Peyğəmbəri (s) "nəsli kəsilmiş və sonsuz" adlandırdılar. Lakin Allah öz Rəsuluna (s) "Kövsər" surəsini nazil edərək bildirdi ki, qızı Fatimənin (s.ə.) varlığı, onun övlad və nəvələri Peyğəmbər (s) nəslinin davamı üçün böyük bir dəlildir.

### Həzrəti-Fatimeyi-Zəhra (s.ə) haqqında nazil olan ayələr

Səmavi kitabımız olan Qurani-Kərimdə ən kiçik surə olan "Əl-Kövsər" surəsi Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) barəsində nazil olmuşdur. Quranın 108-ci surəsidir, 3 ayə-

dən ibarətdir. Bu surə Məkkədə nazil olub, ona görə də Məkkə surələrindən sayılır.

Bu surəni oxumağın savabı və fəziləti barədə İslam Peyğəmbəri Həzrəti-Mühəmməd (s) buyurub. "Bu surəni oxuyan hər kəsi Xudavəndi-Aləm behişt bulaqlarının suyundan sirab edəcəkdir. Allah bəndələrinin bayram günü kəsdikləri qurbanların sayı qədər ona əcr veriləcəkdir."[1]

## Surənin nazil olma səbəbi

Müşriklərin başçılarından olan As ibn Vail Peyğəmbəri-Əkrəmi (s) Məscidül-həramdan çıxan zaman gördü, onunla bir müddət söhbət etdi. Qüreyş qəbiləsi ağsaqqallarından bir qrup məsciddə oturmuşdu və bu mənzərəni uzaqdan seyr edirdi. As ibn Vail məscidə daxil olduqda ona dedilər: "Sən kiminlə danışırdın?". O cavab verdi: "Bu əbtər kişi ilə!".

As ibn Vail bu sözü ona görə dilinə gətirdi ki, Peyğəmbərin (s) Abdullah adlı bir oğlu təzəcə dünyadan köçmüşdü. Ərəblər isə oğlu olmayan kişiyə "əbtər" (sonsuz) deyirdilər. Qüreyşilər Peyğəmbərin (s) oğlunun vəfatından sonra bu sözü ona aid etmişdilər.

"Kövsər" surəsi məhz bu zaman nazil oldu və Peyğəmbəri-Əkrəm (s) çoxlu nemətlər, Kövsər verilməsi ilə müjdələndi və onun düşmənlərinin özünü Allah "əbtər" (sonsuz) adlandırdı.

---

[1] "Məcməül-bəyan"c. 10. səh. 348.

### *“Kövsər” surəsi*

Bismilləhir-rahmanir-rahim.

1.İnnəəə ə'ataynəəkəl-kəvsər.

2.Fəsalli lirabbikə vənhər.

3.İnnə şəəni`əkə huvəl əbtər.

Tərcüməsi: Bağışlayan və Mehriban olan Allahın adı ilə! 1.(Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsəri bəxş etdik! 2.Ona görə də (Bu nemətlər üçün şükr edərək) Rəbbin üçün namaz qıl və qurban kəs! 3.Həqiqətən, sənə sonsuz, nəsli kəsilmiş deyən düşmənin (As bin Vail) özü sonsuzdur (əbtərdir).

Bu surənin adı “Kövsər”dir və bu ad birinci ayədən alınmışdır. “Kövsər” sözü “Kəsrət” (çoxlu) sözündən götürülmüşdür və çoxlu xeyir-bərəkət mənasını verir.

“Məcməül-bəyan” kitabının müəllifi (c. 10, səh. 549) yazır: “Kövsər” sözünün mənası “Çoxlu xeyir”dir.

“Təfsiri-Müstənəd” müəllifi yazır: “Kovsər” dedikdə, çoxlu xeyir olan Xanım Fatimeyi-Zəhra (s.ə.) və onun övladları nəzərdə tutulmuşdur ki, həm kəmiyyətcə, həm də keyfiyyətcə böyük xeyirdir və Yer üzünün zinətləridir. Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: “Allah-təala mənim nəslimə yer üzündə zinət vermişdir və mənim nəslim Əli (ə), Fatimə (s.ə.), Həsən (ə), Hüseyn (ə) və onların övladlarıdır”.

“Əl-Mizan” təfsirinin müəllifi yazır: “Əgər Kövsər sözü ilə Peyğəmbərin (s) nəslinin artması nəzərdə tutulmasaydı, onda bu surənin 3-cü ayəsi mənasız olardı”.

Fəxri Razi də özünün “On beş söz” əsərində “Kövsər” sözündən bəhs etmişdir. Bütün təfsirlərin hamısı “Kövsər” sözünün çox geniş mənaya malik olduğunu qeyd etmişlər.

2. “Ona görə də (bu nemətlər üçün şükür edərək) Rəbbin üçün namaz qıl və qurban kəs!” Doğrudan da bu böyük nemət və bolluq, xeyir bərəkət böyük şükranlıq tələb edir. Hərçənd ki, Xaliqin bəxş etdiyi bu gözəl və əvəzsiz nemətlərin haqqını şükür etməklə ödəmək mümkün deyildir. Ona görə 2-ci ayədə buyurur: ”Bir halda ki belədir, onda sən yalnız öz Pərvərdigarın üçün namaz qılmalı və qurban kəsməlisən”. Bəli, bütün nemətləri əta edən Odur, ona görə, Rəbbindən başqa bir qeyrisi üçün namaz qılmaq, ibadət etmək, qurban kəsmək mənasızdır.

“Təfsirül-Mizan” müəllifi yazır: “Bu ayə aşağıdakı mənanı verir: “Bir halda ki, biz sənin boynuna minnət qoyduq və çoxlu xeyir və bərəkət verdik, bu böyük nemət üçün sən namaz qıl və qurban kəs!”

3.Üçüncü ayədə buyurulur ki, (Ya Peyğəmbər! Oğlun Qasim, Abdullah, yaxud İbrahim vəfat etdiyi zaman sənə sonsuz, nəsli kəsilmiş deyən) düşməninin (As ibn Vailin) özü sonsuzdur!”

Bu ayədə müşriklərin başçılarının Peyğəmbərə (s) verdiyi əzab və əziyyətlər müqabilində Allah-təala buyurur ki, Peyğəmbər (s) sonsuz və nəsli kəsilmiş deyildir, onun düşməni sonsuzdur.

“Əbtər” – sözü əslində “quyruğu kəsilmiş heyvan”, “kor ocaq” mənasındadır və Həzrəti-Peyğəmbərin (s) qəlbinə bu söz yarasını vuran şəxs As ibn Vail olmuşdur. İslamın düşmənləri bu sözü Peyğəmbərin (s) qəlbini incitmək üçün seçmişdilər və bunun özü aydın göstərir ki, onlar öz düşmənliklərində ən adi ədəb qaydalarına belə riayət etmirdilər. Buna görə də Allah-təala buyurur ki, bu ləqəb onların özlərinin ləqəbidir, Peyğəmbəri-Əkrəmin (s) yox!

Əhli-Beytin (ə.m) barəsində nazil olmuş surələrdən biri də 29-cu cüzvdə gələn "Həl-əta" surəsidir. Bu surə başdan-başa Əhli-beytin (ə.m) şəninə nazil olmuşdur. Bu surənin
8 və 9-cu ayələrində Əhli-beytin (ə.m) yetimə, miskinə və əsirə etdikləri ehsandan və bunun müqabilində yalnız Allahın rizayətini qazanmaqdan bəhs olunur.[1]

**Əhli-beytin (ə.m) yoxsula, yetimə və əsirə münasibəti**
***"İnsan" surəsi, ayə 8 / 9***

Bismilləhir-rahmənir-rahim. 8.Və yutimunət-taəmə alə hubbihi miskinən və yətimən və əsira. 9.İnnəmə nutimukum livəchilləhi lə nuridu minkum cəzə-ən vələ şukura.

Tərcüməsi: Bağışlayan və Mehriban olan Allahın adı ilə. 8."Onlar (Əhli-beyt (ə.m) öz iştahları çəkdiyi, özləri yemək istədikləri halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər". 9.(Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər) "Biz sizi ancaq Allah rizasından ötrü yedirtdik. Biz sizdən (bu ehsan müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik".

Bu ayələrin haqqında Fəxri Razi öz təfsir kitabında nəql edir ki, Həsəneyn (ə.m.) (Həsən və Hüseyn) xəstə olmuşdular. Əşrəfi-məxluqat və əyani-ərəb onları görməyə gəldilər və dedilər: "Ya Əli (ə), nəzr et, bu uşaqların səhhətinə". Həzrəti-Əli (ə) nəzr etdi ki, əgər Allah-təala onlara sihhət (şəfa) versə, 3 gün oruc tutarlar. Elə ki, Allah-təala onlara şəfa verdi, onlar oruc tutdular.

Həzrəti-Əli (ə) yəhudidən üç sa arpa aldı ki, Xanım Fa-

---

[1] Hacı Əbdürrəhman Yusifnur "Qurani-Kərim"in otuzuncu cüzvünün təfsiri", 2-ci cild.

timə (s.ə) arpanın bir saını əl dəyirmanı ilə üyüdüb, beş kömbə çörək bişirdi. Elə ki, axşam oldu, Xanım Fatimə (s.ə.) həmin çörəyi süfrəyə gətirdi ki iftar etsinlər, gördülər qapı döyüldü. Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) kənizi Xanım Fizzə qapıya çıxıb gördü ki, bir nəfər fəqirdir. Peyğəmbərin (s) Əhli-Beytinin (ə.m) qapısına gələn bu fəqir xanım Fizzəni görcək hacətini dilə gətirərək deyir: "Mən bir nəfər fəqirəm, Ali-Mühəmmədin (s) fəqirlərindənəm, Allah-təalanın sizə nemət verdiyi təamdan mənə də ikram edin. Peyğəmbərin (s) Əhli-beyti (ə.m) hər birisi öz təamını özü yeməyib fəqirə verdi, özləri isə su ilə iftar etdilər. İkinci gecə də həmin qərarla Peyğəmbərin (s) Əhli-beyti (ə.m) iftar edən vaxtda bir ehtiyaclı yetim Əhli-beytin (ə.m) qapısına gələrək yemək üçün müraciət etdi. Bu minvalla üçüncü gecə də iftar vaxtı bir əsir Əhli-beytin (ə.m) qapısına gələrək yemək istədi. Peyğəmbər (s) Əhli-beyti (ə.m) bu üç gecənin hər birisində də özləri ac qalıb, çörəklərini ehtiyacı olanlara verdilər, özləri su ilə iftar etdilər. Elə ki, dördüncü gün oldu, Həzrəti-Əli (ə.m) Həsəneyni (ə.m.) özü ilə birlikdə Peyğəmbərin (s) xidmətinə gətirdi, bu o halda idi ki, asari-zə'f, yəni zəiflik haləti onlarda aşkar görünürdü. Nəticə etibarilə, bu ayeyi-şərifə nazil oldu.[1]

Əhli-beytin (ə) bu fəzilətinə ədəbiyyat nümunələrində də rast gəlinir. Nümunə üçün Namiq Kamal Dərbəndinin bir beytini burada veririk:

Üç günün ruzisini bəzl elədin əl açana,
Yetimə, həm fəqirə, miskinə şahanə, Əli.

---

[1] Şeyxül İslam Mühəmməd Həsən Mövlazadeyi-Şəkəvi "Kitabul-bəyan fi Təfsiril-Quran", 2-ci cild.

## Ali-Mühəmmədin (ə.m) haqqı
### *"İsra" surəsi, ayə 26*

Bismilləhir-rahmənir-rahim. Və əti zəl-qurbə həqqahu vəl-miskinə vəbnəssəbili və lə tubəzzir təbzira.

Bağışlayan və Mehriban olan Allahın adı ilə. "Və qohumların haqqını və yoxsulun və yolda qalmışın haqqını ver. Və heç bir şəkildə israf və artıq xərc etmə".

Bu ayə nazil olduqdan sonra Peyğəmbər (s) qızı Xanım Fatiməni (s.ə.) çağırıb "Fədək" adlı yeri ona verdi. Çox keçmədi ki, Peyğəmbərin (s) Quran ayəsi əsasında qızı Fatiməyə (s.ə.) verdiyi "Fədək" kəndini ondan aldılar.

"Fədək" Xeybərin yaxınlığında və Mədinədən 18 fərsəx məsafədə yerləşən bir kənd idi. Onun illik gəliri 24-70 min dinar (qızıl pul) məbləğində qeyd edilmişdir. İbn Şəhr Aşub, "Mənaqib" kitabında yazır: "Peyğəmbər (s) onu Xanım Fatiməyə (s.ə) bağışladı və onun məhsullarını qızı üçün göndərdi. Sonra səhabələr onun evinə yığışdılar. Həzrət (s) buyurdu: "Bu mal-dövlət Fatiməyə (s.ə.) aiddir". Fatimə dedi: "Atacan nə qədər ki, Sən sağsan, onda təsərrüf etmək istəmirəm". Amma Peyğəmbər (s) vəfatından bir az əvvəl onu rəsmi şəkildə Fatiməyə (s.ə.) təhvil verdi. Əbu Bəkrin tərəfindən alındığı vaxta qədər "Fədək" Xanım Fatimənin (s.ə.) ixtiyarında idi.

Bu barədə Aişə deyir: "Atam Əbu Bəkr Peyğəmbər (s) mirasından Fatiməyə (s.ə) heç nə vermədi və ondan qalanların hamısını müsadirə edib Beytül-mala qatdı. Fatimə də Əbu Bəkrdən incidi, Peyğəmbərdən (s) altı ay sonra vəfat etdi və ömrünün sonuna qədər onunla danışmadı. Əli (ə) onu, vəsiyyətinə əsasən, Əbu Bəkrə xəbər vermədən gecə dəfn etdi və təklikdə ona cənazə namazı qıldı".

Fədək bir neçə qaladan və bağlardan ibarət idi ki, müharibə etmədən yəhudilərdən alınmışdı.

Cəbrail (ə) Rəsuli-Əkrəmə (s) nazil olub xəbər verdi ki, Allah-təala buyurur: "Fədəki Fatiməyə (s.ə) ver ki, onun özünün və qiyamət gününə qədər onun övladlarının malı olsun, onunla məaş etsinlər".

Rəsuli-Əkrəm (s) Allahın əmri ilə Fədəki Fatiməyə (s.ə) verdi. Peyğəmbər (s) sağ olduğu müddətdə Fədək Fatiməyə (s.ə) məxsus bir mülk idi.

Peyğəmbər (s) vəfat etdikdən sonra Əbu Bəkr xilafəti Əlidən (ə) qəsb etməklə bərabər Fədəki də Fatimədən (s.ə) qəsb etdi. Bundan ötrü Peyğəmbər (s) dilindən bir saxta hədis də düzətdilər ki, Peyğəmbər (s) guya belə buyurub: "Biz peyğəmbərlər özümüzdən miras qoymarıq". Bu yalan hədisə əsaslanıb, Fatimənin (s.ə) işçilərini Fədəkdən çıxarıb, ona sahib oldular.

Əbu Bəkr qorxurdu ki, Fədəkdən gələn mədaxili fəqirlərə paylamaqla xalqın Əliyə (ə) rəğbəti artar, bu da onun xilafətinə təhlükə yaradar.

Xanım Fatimə (s.ə) aldığı zərbələrdən və Möhsünün siqt olmasından nəhayət dərəcədə zəifləmişdi. Həzrəti-Fatimə (s.ə) Bəni-Haşim qadınlarının köməyi ilə Əbu Bəkrin yanına gəlib buyurdu: "Ey Əbu Bəkr, Peyğəmbər (s) Fədəki mənə və mənim övladlarıma verib. Məgər bilmirsən ki, O Həzrət öz itrətini, biz Əhli-beyti (ə.m) öz ümmətinə tapşırıb və onların haqqına riayət etməyi sizlərə vacib bilib?"

Xanımın bu sözlərinə Əbu Bəkr mütəəssir olub istədi ki, bir namə yazıb Fədəki Fatiməyə (s.ə) qaytarsın. Ömər dedi ki, Fədəkin ona Peyğəmbər (s) tərəfindən bağışlanması haqqında şahid gətirməsə, ona belə bir namə vermək

olmaz. Fatimə (s.ə) Həzrət Əli (ə), İmam Həsən, İmam Hüseyn və Ümmi-Əyməni sahid gətirdi.

Ömər dedi ki, Əlinin (ə) şəhadətinin faydası yoxdur, çünki, bu şəhadət onun özünün xeyrinədir, Həsən (ə) və Hüseyn (ə) uşaqdırlar, Ümmi-Əymən isə əcəm (qeyri-ərəb) bir qadındır, onun da şəhadəti qəbul deyil. O, bu bəhanələrlə Fatimənin (s.ə) şahidlərini etibardan saldı. Halbuki, Peyğəmbər (s) buyurur: "Ümmi-Əymən Behişt qadınlarındandır".

Bu cür rəftardan sonra Peyğəmbərin (s) ciyərparəsi olan sevimli qızı Fatimə (s.ə) Bəni-Haşim qadınlarına təkyə edərək məscidə gedib, pərdə dalından camaatə, o münafiqlərə müraciətlə çox bəlağətli bir xütbə oxuyub, Fədək barəsində Həzrəti-Rəsulun (s) buyurduqlarını onlara xatırladıb buyurdu: "Ey camaat, siz yaxşı bilirsiniz ki, Peyğəmbər (s) dəfələrlə buyurub: "Fatimə (s.ə) mənim bədənimin bir parçasıdır, kim ona əziyyət etsə, mənə əziyyət etmiş olar. Kim mənə əziyyət etsə, Allaha əziyyət etmiş olar". Ey camaat, şahid olun ki, Əbu Bəkr və Ömər mənə əziyyət və zülm etdilər. Sonra da Xanım (s.ə) "Əhzab" surəsinin 57-ci ayəsini oxudu: "Bismilləhir-rahmənir-rahim. İnnəlləzinə yuzunəllahə və Rasuləhu lə`anəhumullahu fiddunyə vəl-əxirati və ə`addə ləhum a`zəbən muhinə.

Bağışlayan və Mehriban olan Allahın adı ilə. "O kəslər ki, Allahı və onun Rəsulunu incidir, Allah onlara dünya və axirətdə lənət edir, onlar üçün xar edici bir əzab hazırlayır."[1]

[1] Fədək barədə geniş məlumat almaq istəyənlər Ş.A.Quminin "Beytül-Əhzan" kitabına müraciət edə bilərlər.

**“Təthir” ayəsi**

***“Əhzab” surəsi, ayə 33***

Bismilləhir-rahmənir-rahim. “İnnəmə yuridullahi liyuzhibə ənkumur-ricsə əhləl-bəyti və yutahhirakum tathira”.

Bağışlayan və Mehriban olan Allahın adı ilə. “Siz ey (Peyğəmbərin (s) ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istər”.

Təfsir və hədis kitablarına görə Əhli-beyt (ə.m) sözündə məqsəd Peyğəmbərin (s) xanədanıdır və onlar “Əli, Fatimə, Həsən və Hüseyndən (ə.m.) ibarətdir”. Peyğəmbər (s) bu ayənin barəsində buyurmuşdur. “Təthir ayəsi 5 nəfərin haqqında nazil olmuşdur: Mən, Əli, Fatimə, Həsən və Hüseyn (ə.m). Peyğəmbər (s) Əhli-beytinin (ə.m) kimlərdən ibarət olması barədə ixtilafları nəzərə alıb, mötəbər sünni kitablarından “Təthir” ayəsinin kimlərə şamil olduğunu izah edəcəyik.

“Təthir” ayəsinin əvvəlində Allah-təala Peyğəmbərlərin (s) zövcələrinə (həyat yoldaşlarına) nəsihət verir, onları yaxşı işlərə dəvət edir, fəsaddan və tuğyançılıqdan çəkindirir. Bunların hamısında qadınlara məxsus olan **“kunnə”** əvəzliyi gətirilir. Amma ayənin sonunda, Əhli-beytə (ə.m) çatanda əvəzlik dəyişilir, kişilərə xitab olunaraq **“kum”** kəlməsindən istifadə edilir. Lakin ayədə açıq-aydın göstərilən əvəzliyi nəzərə almayan əhli-sünnə qardaşlarımız bu ayəni Peyğəmbərin (s) xanımlarına aid edirlər.

Gəlin, sünni rəvayətlərinə nəzər yetirək. Əhli-sünnə məhzəbinə malik olan Həkim ibni-Səid deyir: “Ümmi-Sələmənin yanında Əli (rəziyəllahu ənhu) haqqında söhbət gedirdi. Ümmi-Sələmə bu münasibətlə “Təthir” ayəsini oxudu, sonra dedi: “Bu ayə mənim evimdə nazil oldu. Bir

gün Peyğəmbərə (s) xitab etmək iftixarı mənə qismət olmuşdu. Həzrət (s) bu gün istəyirdi ki, evdə tək olsun və bizim evimizə gəlsin. Buna görə də mənə tapşırdı ki, bu gün heç kəsə evə gəlməyə icazə verməyim. Amma Fatimə (raziyyəllahu ənha) gəldi, mən onu geri qaytarmağa utandım. Bir azdan sonra Həsən, sonra Hüseyn, daha sonra isə Əli (rəziyyəllahu ənha) bu minvalla bizim evimizə gəldilər və Peyğəmbərin (s) ətrafında oturdular. Elə bu vaxt ayə ("Təthir" ayəsi) nazil oldu. Peyğəmbər (s) bu dörd nəfəri bir yerə yığıb öz əbasını onların başına çəkdi, belə dua etdi: "Pərvərdigara! Mənim Əhli-beytim (ə.m) bu 4 nəfərdən başqa heç kəs deyildir. İlahi, onları çirkinliklərdən uzaq et!" Peyğəmbər (s) onları dua edəndən sonra, mən dedim: "Ey Allahın Rəsulu, bəs mən?!" Peyğəmbər (s) buyurdu: "Bu dua və ayə sənə şamil deyil. Lakin, bil ki, sənin gələcəyin parlaqdır". Ümmi-Sələmə bu söhbətin axırında dedi: "Onların yığıncağı çox bərəkətli idi".

Əbu Səid Xudri nəql edir ki, Ümmi-Sələmə dedi: "Təthir" ayəsi mənim evimdə nazil oldu. Bu ayə nazil olan günü Əli, Fatimə, Həsən və Hüseyn (rəziyəllahu ənhum) Peyğəmbərin (s) dövrəsində toplaşmışdılar. Mən qapının astanasında oturmuşdum. Ayə nazil olandan sonra Peyğəmbərdən (s) soruşdum: "Ey Allahın Rəsulu, məgər mən Əhli-beytdən (ə.m) hesab olunmuram?" Peyğəmbər (s) buyurdu: "Sənin aqibətin xeyirlidir. Sən Peyğəmbərin zövcələrindənsən, ləyaqətli qadınsan, amma Əhli-beytdən (ə.m) hesab olunmursan."

Digər bir rəvayətdə Əbu Səid deyir: Peyğəmbər (s) buyurdu: "Təthir" ayəsi beş nəfərin – Mən, Əli, Fatimə, Həsən və Hüseynin (ə.m) haqqında nazil olmuşdur." Şeybənin qızı Səfiyyə nəql edir ki, Aişə dedi: "Bir gün sübh tez-

dən Peyğəmbər (s) naxışlı yun paltarlarını geyib evdən çıxdı. Həsən, Hüseyn, Fatimə və Əli (ə) də ona qoşuldular. Peyğəmbər (s) onları bir-bir əbasının altına salandan sonra “Təthir” ayəsini oxudu”.

İbni-Həvəşin əmisi oğlu deyir: “Mən və atam birlikdə Aişənin (rəziyəllahu ənha) evinə getdik. Ondan Əli (rəziyəllahu ənhu) haqqında sual etdim. Aişə (rəziyəllahu ənha) dedi: ”Sən elə bir şəxs haqqında soruşursan ki, Peyğəmbərə (s) hamıdan sevimli idi. Peyğəmbərin (s) qızı da onun ixtiyarında idi. Hansı ki, Peyğəmbərin (s) ən çox istədiyi şəxs idi. Bir gün gördüm ki, Peyğəmbər (s), Əli (ə), Fatimə (s.ə.), Həsən (ə) və Hüseyni (ə) (Allah onlardan razı olsun) öz yanına çağırdı, öz əbasını onların başının üstünə çəkib buyurdu: “Pərvərdigara! Bunları çirkinliklərdən, günahlardan qoru!” Aişə deyir: “ Mən onlara tərəf yaxınlaşdım və Allahın Rəsuluna (s) dedim: “Mən də sənin Əhli-beytindənəm (ə)?” Peyğəmbər (s) buyurdu: “Xeyr! Buradan uzaqlaş. Sən mənim Əhli-beytimdən (ə.m) deyilsən. Amma yaxşı adamsan!”

İslamın əziz Peyğəmbəri Həzrəti-Mühəmməd (s) dəfələrlə bu hədisi (hədisi-səqəleyn) ümmətinə çatdırmış və buyurmuşdur: “Sizin aranızda iki əmanət qoyub gedirəm. Allahın kitabını və itrətimi (nəslimdən olan məsum imamları). Bunlar qiyamətdə Kövsər hovuzu kənarında mənim hüzuruma varid olana qədər bir-birindən ayrılmazlar.”![1]

Bu hədisdə Peyğəmbər (s) (Quranla Əhli-beytin (ə) qiyamətə qədər davam edəcək qırılmaz rabitəsini müsəlmanlara çatdırır. Həzrəti-Əli (ə) isə Əhli-beytin (ə) ilk şəxsiyyəti və İmamların (ə.m) sərvəridir.

[1] Əllamə Tehrani “İmamşünasi” 6-c. Səh.145.

## “Mübahilə ayəsi”
## *“Ali-İmran” surəsi, ayə 61*

Bismilləhir-rahmənir-rahim. Fəqul tə`alləv nəd`u əbnəənə və əbnəəkum və nisəənə və nisəəkum və ənfusənə və ənfusəkum summə nəbtəhil fənəca'əl lə'nətəllahi aləl-kəzibin.

Bağışlayan və Mehriban olan Allahın adı ilə. “(Ya Peyğəmbər (s) (İsanın (ə) haqqında) Sənə göndərilən elmdən sonra, (yenə də) səninlə mübahisə edənlər olsa, onlara) De: “Gəlin biz öz oğullarımızı, siz öz oğullarınızı, biz öz qadınlarımızı, siz öz qadınlarınızı, biz də özümüzü, siz də özünüzü (bizim canımız kimi olan kəsləri) çağıraq, sonra bir-birimizə nifrin edək, beləliklə, Allahın lənətini yalançılara yağdıraq”.

Bu ayəyə “Mübahilə” ayəsi deyilir. “Mübahilə” lüğətdə “bəhl” kökündən olub, “öz başına buraxmaq və bir şeydən qeyri-şərti götürmək deməkdir. Bu ayədə onun mənası iki nəfərin bir-birlərinə etdikləri lənət mənasındadır. Belə ki, bir dinin mühüm məsələsi barədə bir-birləri ilə mübahisəsi olan şəxslər bir yerə toplaşaraq Allaha yalvarıb yalançılara lənət etməsini diləyirlər.

Mübahilə məsələsi qeyd olunan şəkildə o zaman ərəblər arasında yayılmışdı. Bu elə bir yol idi ki, Peyğəmbərin (s) dəvətinin doğruluğunu sübut edirdi.

Mübahilənin adı çəkilərkən, Nəcran məsihilərinin nümayəndələri bu barədə fikirləşmək üçün Peyğəmbərdən (s) möhlət istədilər. Onlar öz böyükləri ilə bir şura təşkil edib məsləhətləşdilər və mübahilədə iştirak etmək istəyən nümayəndələrinə göstəriş verdilər ki, əgər Mühəmmədin (s) hay-küylə, bir çox cəmiyyətlə mübahiləyə gəlməsini müşahidə etsəniz, qorxmayın, onunla mübahilə edin. Əgər böyük bir cəmiyyətlə mübahiləyə gəlsə, deməli, onun də-

vətində heç bir həqiqət yoxdur. Yox, əgər öz yaxın adamlarından olan az bir dəstə ilə, balaca uşaqlarla mübahiləyə gəlsə, bilin ki, O, Allahın Peyğəmbəridir. Belə olan təqdirdə, onunla mübahilə etmək təhlükəlidir.

Onlar əvvəlcə məscidə gəldilər. Birdən gördülər ki, Peyğəmbər (s) Hüseyni (ə) qucağına almış, Həsənin də (ə) əlindən tutmuşdur. Əli (ə) və Fatimə (s.ə.) onunla birgədirlər. Peyğəmbər (s) onlara deyir ki, hər dəfə mən dua etsəm, siz də, "amin" deyin. Məsihilər bunu görcək qorxuya düşdülər. Mübahilə etməyib, "zimmə" şəraiti ilə sülh etməyə razılaşdılar.

Şiə və sünni təfsirçilərinin dediklərinə görə, Mübahilə ayəsi Peyğəmbərin (s) Əhli-beyti (ə.m) barəsində nazil olmuşdur. Həzrəti-Peyğəmbər (s) özü ilə mübahiləyə apardığı şəxslər Əli (ə), Fatimə (s.ə.), Həsən (ə) və Hüseyn (ə) olmuşdur. Ayədə qeyd olunan "əbnaəna" (oğlanlarımızı) kəlməsindən məqsəd İmam Həsən (ə) və İmam Hüseyn (ə), "nisaəna" (qadınlarımızı) kəlməsindən məqsəd Həzrəti-Fatimə (s.ə.), "ənfüsəna" (özümüzü) kəlməsindən məqsəd Həzrəti-Əlidir (ə).

Dedi haqqında Quran "ənfüsanə ənfüsəkum",
Allahın zatı təcəlla eləyən üz, Əlidir.[1]

Sünnilərin əsas mənbələrinə müraciət etdikdə görürük ki, bu hədisləri təkcə şiələr deyil, həm də sünni alimləri öz kitablarında nəql etmişlər.

Qazi Nurullah Şüştəri "İhqaqul-Həqq" kitabında belə yazır: "Təfsirçilərin bu məsələ barəsində fikir birliyi vardır.

---

[1] Hacı Soltan

Ayədə qeyd olunan “əbnaəna” (oğlanlarımız) İmam Həsən (ə) və İmam Hüseynə (ə) “nisaəna” (qadınlarımız) Həzrəti-Fatiməyə (s.ə.), “ənfüsəna” isə Həzrəti-Əliyə (ə) işarədir.”

Bu alim həmən kitabın haşiyəsində sünni alimlərinin təqribən 60 nəfərini qeyd edir ki, onların hamısı “Mübahilə” ayəsinin Əhli-beyt (ə.m) barəsində nazil olmasını etiraf ediblər. Bu mətləbi nəql edən ən böyük şəxsiyyətlərdən bəzilərinin adlarını qeyd edirik.

1.Müslüm ibn Həccac Nişaburi. Səhihi Buxari. c.7. səh. 120. Misir, Məhəmməd Əli Sübeyh çapı.

2.Əhməd İbn Hənbəl. Musnəd. c.1.səh.185. Misir çapı.

3.Təbəri. Təfsiri-Təbəri. c. 3. səh. 192. Misir, Meymənur.

4.Hakim. Mustədrək. c. 3. səh. 150. Heydərabad çapı.

5.Zəməxşəri. “Kəşşaf” təfsiri. c. 1. səh. 193. Mustafa Mühəmməd çapı.

## “Məvəddət ayəsi”

### *“Şura” surəsi, ayə 23*

Bismilləhir-rahmənir-rahim.

Qul lə əs'əlukum aleyhi əcran illəl-məvəddətə fil-qurbə.

Bağışlayan və Mehriban olan Allahın adı ilə.

“(Ey Peyğəmbər, müsəlmanlara) De: “Sizdən bunun (ilahi tapşırıqların çatdırılmasının, risalətin) müqabilində (qarşılığında) qohumlarımın, (Əhli-beytimin (ə.m) barəsində məhəbbətdən başqa (bir şey) bir muzd istəmirəm”.

Təfsir, hədis və tarix kitablarında qeyd olunduğu bu ayədəki (Peyğəmbərin yaxın adamları) kəlməsindən məqsəd Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseyndir (ə).

Zəməxşəri öz “Kəşşaf” təfsirində belə yazmışdır: “Bir gün müşriklər “Mühəmməd (s) öz peyğəmbərliyi üçün mükafat

istəyirmi?" deyə danışırdılar ki, bu ayə nazil oldu: "Ey Peyğəmbər (s) (müsəlmanlara) de ki, Mən sizdən Peyğəmbərlik müqabilində Əhli-beytimi (ə.m) sevməkdən başqa bir şey istəmirəm".

Zəməxşəri sözünə davam edərək deyir: "Rəvayətə görə bu ayə nazil olandan sonra, Həzrəti-Peyğəmbərdən (s) soruşdular: "Ya Rəsulallah! Bizə dostluq və məhəbbəti vacib olan adamların kimlərdir? Peyğəmbər (s) cavabında buyurdu: "Onlar Əli (ə), Fatimə (s.ə) və iki oğlanları Həsən (ə) və Hüseyndir (ə). (Fəxri-Razi. Təfsiri-kəbir. "Şura" surəsi, ayə 23 təfsiri).

Etmişəm 23 il şamü səhər xidmət sizə,
Cahiliyyətdən qutardım, verdim əmniyyət sizə.
Bir əmanətdir bu gün Quran ilə itrət sizə,
Gülsitanımdan güli-rənanı tapşırdım sizə.

Bu ayədə Allah-təala Peyğəmbərə (s) əmr edir ki, de: "Peyğəmbərliyimin müqabilində mən sizdən heç bir əcr və əvəz istəmirəm. Yalnız Əhli-beytimə (ə.m) məhəbbət!"

Peyğəmbərin (s) vəfatından sonra İslam dininin yaşamasında Əhli-beytin (ə.m) mühüm rolu olduğu üçün Allah-təala bu ayəni nazil edir. Bu ayənin nazil olmasında ən mühüm məsələ imamət və xilafət məsələsidir, yəni insanların hidayəti və düz yolda saxlanılması məsələsidir. Bu sözümüzə sübut olaraq Peyğəmbərin (s) Əhli-beyt (ə.m) barədə buyurduğu hədislərə diqqət edək.

"Mənim Əhli-beytimə (ə.m) arxalansanız, zəlalətə düşməzsiniz". "Mənim Əhli-beytimi (ə.m) öz aranızda başın bədənə olan münasibəti kimi, başda da gözün başa olan münasibəti kimi qərar verin. (Bilin ki,) Baş yalnız gözlərin

vasitəsilə hidayət olunur”. “Həqiqətən mənim Əhli-beytimin (ə.m) məsəli Bəni-İsrailin “Hittə”qapısına bənzəyir, hər kəs oraya daxil olsa, günahları bağışlanar”.[1]

Bu hədislərdən aydın olur ki, bu ayədə əsas məsələ imamət və xilafət məsələsidir.

Əlvida, ey ümmətim, dünyanı tapşırdım sizə,
Can sizin, can itrətim, Quranı tapşırdım sizə.

Gərçi mən Peyğəmbərəm, nazil olub Quran mənə,
Azimi-rahi-bəqayəm, çün yetib fərman mənə,
Müntəzirdir Ədndə dərvazədən Rizvan mənə,
Dini təkmil etmişəm, imanı tapşırdım sizə.

Peyğəmbər (s) buyurmuşdur: “Əgər camaat Əli ibn Əbu Talibin (ə) məhəbbəti ilə onun başına toplaşsaydı, Allah-təala cəhənnəm odunu yaratmazdı”.

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) Həzrəti-Məryəmlə (s.ə) oxşarlığı

***Ali-İmran surəsi, ayə 37***

Bismilləhir-rahmənir-rahim.

“Fətəqabbəlhə Rabbuhə biqabulin həsənin və ənbətəhə nəbətən həsənən və kəffəlhə Zəkəriyyə. Kulləmə dəxalə aləyhə Zəkəriyyəl - mihrabə vəcədə i`ndəhə rizqan. Qalə Yə Məryəmu ənnə ləki həzə. Qalət huvə min i`ndilləhi. İnnəllahə yərzuqu mən yəşəu biğayri hisəb”.

Bağışlayan və Mehriban olan Allahın adı ilə.

“Rəbbi onu (Məryəmi) yaxşı və layiqli şəkildə qəbul et-

[1] Şəbban “Əsafur-rağibin”, Şeyx Yusif Nəbhani “Əşşərəful Müəbbət”.

di, onu gözəl bir fidan kimi yetişdirdi (bəslədi) və onun qəyyumluğunu Zəkəriyyaya (ə) tapşırdı. Zəkəriyya (ə) (Məryəmin (s.ə) ibadət etdiyi mehraba girdikdə orada xususi bir yemək olduğunu görərdi. Ondan "Məryəm, bunu haradan gətirmisən?" – deyə soruşduqda o: "Bu Allah tərəfindəndir! Allah istədiyi şəxsə saysız-hesabsız (və ya heç bir sorğu-sualsız) ruzi verər" – deyə cavab verərdi.

Bu ayənin təfsirinə gəldikdə, təfsir alimləri belə təfsir edirlər ki, Məryəmin (s.ə) qız olmasına baxmayaraq, Allah-təala onun anasının nəzirinə, oğlan əvəzində qız verdi və Beytül-Müqəddəsdə xidmətçilik etməsinə razı oldu. Bu da Allah tərəfindən onun barəsində bir mərhəmət idi. Allah onun böyüyüb boya-başa çatmasını gözəl qərar verdi, tərbiyəsini gözəl şəkildə yerinə yetirdi, bütün hallarda onun işlərini islah etdi. Yəni, Allah-təala Məryəmi (s.ə) Zəkəriyyanın (ə) əhli-beytinə qovuşdurdu, onu Həzrəti-Məryəmin (s.ə) başçısı və hamisi qərar verdi ki, onun məsləhətlərinə zəmanət versin. Zəkəriyya (ə) hər vaxt onun mehrabına daxil olurdusa, mövsümü olmasa da təzə meyvələr görür, "bunlar sənin üçün haradandır?" deyə soruşduqda, Məryəm (s.ə) də onların behiştdən gəldiyini bildirirdi. Bu da Allah tərəfindən Məryəmin (s.ə) barəsində edilən böyük bir mərhəmət idi.

"Kəşşaf" təfsirində nəql olunur ki, Peyğəmbəri-Əkrəm (s) quraqlıq və qıtlıq illərində bir gün çox acmışdı. Fatimə (s.ə) iki çörək götürdü və bir qədər ət xörəyi hazırlayıb atasına hədiyyə göndərdi və beləliklə də atasını (s) sevindirdi. Peyğəmbər (s) o hədiyyəni götürüb Fatimənin (s.ə) evinə qayıtdı. Evə daxil olan zaman buyurdu: "Qızım, yaxına gəl!" Fatimə (s.ə) yaxına gəldikdə Peyğəmbər (s) ta-

bağın üstündəki parçanı götürdü. Gördülər ki, həmin tabaq çörək və ətlə doludur. Fatimə (s.ə) bunu görərkən heyrətləndi və onların Allah tərəfindən göndərildiyini bildi. Peyğəmbər (s) soruşdu: "Bunlar haradandır?" Fatimə (s.ə) ərz etdi: "Allah tərəfindəndir!" Peyğəmbər (s) buyurdu: "Allaha həmd edirəm ki, səni (yəni, Fatiməni) Bəni-İsrailin qadınlarının Xanımı (yəni, Məryəm) kimi qərar vermişdir." Sonra Peyğəmbər (s), Həzrəti-Əli (ə), İmam Həsən (ə), İmam Hüseyn (ə), bütün Əhli-beyt (ə.m) o tabağın ətrafında oturub hamısı o təamdan doyunca yedilər. Hətta, doyduqdan sonra da yemək qalmışdı (sanki ona heç əl vurulmamış və azalmamışdı). Fatimə (s.ə) onu qonşuların arasında bölüşdürdü.[4]

Allah hər kəsə istəsə hesabsız ruzi verər. Çünki Allahın qüdrəti və mülkü sonsuzdur, onun tərəfindən olanlar bu mülkün azalmasına səbəb ola bilməz.

# III BÖLÜM

## PAKLIQ VƏ ÜLVİLİK MÜCƏSSƏMƏSİ

Hər bir müsəlman üçün sonsuz hörmət və dəyər sahibi olan, paklıq və ülvilik nümunəsi sayılan Həzrəti-Fatimeyi-Zəhra (s.ə) İslam dünyasında özünəməxsus yüksək məqama malik olan Xanımdır. Bu müqəddəs Xanımın ali dəyərlərlə zəngin həyatı, bütün ictimai-siyasi sahələri əhatə edən mənalı ömrü insanlığa nümunə olan kamil və bənzərsiz bir qadının həyat yoludur. Bu sözlərimizə sübut olaraq İslam Peyğəmbəri Həzrəti-Mühəmmədin (s) bir hədisinə diqqət yetirək: “Kamil, ləyaqətli, inkişaf etmiş kişilər çoxdur, ancaq, hər cəhətdən kamil, yetkin, fəzilətli və nümunə ola biləcək qadın 4 nəfərdir: İmranın qızı Məryəm (s.ə), Xüvəylidin qizi Xədicə (s.ə), Asiya (s.ə) və mənim qızım Fatimə (s.ə).

Bu hədisdə Həzrəti-Peyğəmbərimizin (s) adlarının çəkdiyi 4 qadından biri, Həzrətin (s) sevimli və istəkli qızı, dünya və axirət xanımlarının rəhbəri Həzrəti-Fatimeyi-Zəhradır (s.ə). Xanım Fatimə (s.ə) bütün qadınlardan daha kamil, hamıdan üstün və bütün əsrlərin qadınlarının bütün təbəqələrinə nümunə ola biləcək bir Xanım olmuşdur. Tərbiyədə, övladlıqda, həyat yoldaşına xidmət göstərməkdə, təqvada, ismətdə, abır-həyada, elm və kamalda, ibadət və itaətdə, zöhddə, mübarizə və cihadda onun bənzəri olmayıb. Çünki, O, Peyğəmbər (s) tərbiyəsi görmüş, Allahpərəst və tövhid ocağında böyümüşdür.

Həzrəti-Fatimə (s.ə) özünəməxsus, səciyyəvi imtiyaz və xüsusiyyətlərinə görə elə bir yüksək zirvədə dayanmışdır ki, digər böyük qadınlar, dini şəxsiyyətlər onun şüası altında qalmışdır. Bunun da səbəbi məlumdur. Həzrəti-Fatimə (s.ə) Peyğəmbərin (s) tərbiyə məktəbində doğulub tərbiyə aldıqdan sonra, möminlər ağası Həzrəti-Əlinin (ə) isti və müqəddəs ocağında yaşamışdır. Bu şəxsiyyətlərin hər biri isə övliya və Peyğəmbərlər aləminin ən böyük əxlaq-tərbiyə sahiblərindən sayılır. Həzrəti-Fatimənin (s.ə) mübarək vücudunun dəyərini Həzrəti-Mühəmməd (s) və İmam Əlinin (ə), Həsən və Hüseynin (ə), Zeynəb və Gülsümün (ə) dəyərlərini nəzərə almaqla ölçmək olar. Çünki, onların hər biri öz-özlüyündə mənəviyyat və fəzilət, elm və əməl, tərbiyə və təqva aləminin ən böyük və parlaq simalarıdır. Həzrəti-Fatimə (s.ə) bu yüksək insani keyfiyyətləri, bəşəriyyətin xilaskarı, elmin şəhəri, peyğəmbərlərin sonuncusu və əşrəfi sayılan Həzrəti-Mühəmməddən (s) qazanmış və həyat yoldaşı, möminlərin ağası, elmin qapısı, Peyğəmbərin (s) həqiqi canişini və vəsisi Mövla Əlinin (ə) xidmətində olmaqla davam etdirmişdir.

Həzrəti-Fatimənin (s.ə) bütün həyatı misilsiz kamal və fəzilətlərdən xəbər verir. O xanıma məxsus bu keyfiyyətləri dünya tarixində nəinki heç bir qadında, hətta pak peyğəmbərlik məqamından və müqəddəs imamlıq nəslindən olan başqa heç bir kişidə belə tapmaq mümkün deyil. Kərbəla qəhrəmanı, Seyyidüş-şühəda İmam Hüseyn (ə) buyurmuşdur: "Məndə olan şücaət anam Zəhradan (s.ə) mənə keçmişdir. Çünki, O məni tərbiyə etmiş və o paklıq onun südü ilə mənim ürəyimə daxil olmuşdur".

"Həzrəti-Fatimədə (s.ə) olan bu kamal və fəzilətlər ha-

radan başlayır?" sualını verənlərə cavabımız budur: "Fatimə (s) nəsihət və moizələri çox dinləmiş, atası Rəsuli-Əkrəmdən (s) həyat dərsi almış, Qurani-Kərimin ayələrini yaxşı dərk eləmiş və bu səmavi kitabdakı misilsiz fəzilətləri, sonsuz əxlaqi-mənəvi dəyərləri incəliklərinə qədər anlamışdı. Onu da qeyd etmək lazımdır ki, Fatimənin (s.ə) atasına olan münasibəti adi bir qızın atasına bəslədiyi hisslərdən qat-qat güclü və alovlu idi. O, atasını dərin bir məhəbbətlə sevirdi. Atası Peyğəmbər (s) qürbətdə və tənha olarkən onun təsəlli bəxş edəni, qəmli, kədərli anlarında qəm çəkəni, Şibi-Əbu Talibdə mühasirədə olarkən daima yanında olan bu əzəmətli Xanımı, Peyğəmbər (s) haqlı olaraq "Ümmi-Əbiha" – "Atasının anası" adlandırır.

Həzrəti-Fatimə (s.ə) möhtərəm atasının ən ali əxlaq və davranış qaydalarını, ən yüksək tərbiyə və ilahi həyat qanunlarını öyrənsə də, yenə elm və bilik qazanmağa, müxtəlif məlumatlarla bilik dairəsini genişləndirməyə səy göstərirdi. Əxlaq və tərbiyədə çatdığı ən yüksək mərhələ ilə əsla kifayətlənmir və Allaha daha yaxın olmaq, bəndəlik qaydalarını daha yaxşı və mükəmməl surətdə yerinə yetirmək üçün həmişə oxumağa, biliyini artırmağa çalışırdı. Həzrəti-Zəhra (s.ə) möminlər ağası Əlinin (ə) evinə köçəndən ev işləri ilə əlaqədar vaxtının azlığına baxmayaraq, İslama dair bilik qazanmaqdan, məlumatlarını artırmaqdan qalmırdı.

Həzrəti-Fatimə (s.ə) öz övladlarının tərbiyəsinə böyük məsuliyyətlə yanaşırdı. Çünki, onun övladları İslam dünyasının rəhbərliyini öz öhdəsinə götürməli idi. Ona görə də elə uşaqlıq çağlarında onlarda təqva və pəhrizkarlıq hissi tərbiyə edir, onlara əzəmət, qəhrəmanlıq və fədakarlıq dərsi verirdi.

Həzrəti-Fatimə (s.ə) 9 il Həzrəti-Əlinin (ə) ömür-gün yoldaşı oldu və bu pak ailədə dörd övlad böyütdü: Həsən (ə), Hüseyn (ə), Zeynəb (ə), Gülsüm (ə). Beşinci övladı Möhsin dünyaya gəlməmiş şəhid oldu.

Balaca ikən Həsəni (ə) qucağında böyüdən Fatimə (s.ə) oğluna deyərdi: "Oğlum, atan kimi şücaətli və Allahpərəst ol". "Haqqı müdafiə et və nahaqqın kəndirini onun boynundan aç". "Bağışlayan Allaha pərəstiş et". "Kinli adamlarla dostluq etmə".

Həzrəti-Fatimə (s.ə) nəinki uşaqlarına mehriban ana, ərinə gözəl həyat yoldaşı idi, O, İslamın parlaq təlimlərinin yayılmasında və müsəlman qadınlarına yol göstərməkdə də böyük xidmətlər göstərirdi.

Peyğəmbərin (s) xanımlarından olan Ayişə Fatimeyi-Zəhra (s.ə) haqqında belə demişdir: "Heç kəs fəzilət və şəxsiyyətdə Peyğəmbərdən (s) başqa, Fatimədən (s.ə) üstün deyildi".

Həzrəti-Fatimənin (s.ə) şəxsiyyəti ilə bağlı bir mühüm cəhət də ondan ibarətdir ki, o ağıl-kamal sahibi, fəzilətli xanım əsla bir nöqtədə dayanmır, fəzilət və kamal aləminin bir mərhələsindən başqa mərhələsinə keçir, hətta onun ən yüksək zirvəsi ayaqları altında qalır. Allaha ibadət həyatının bünövrəsi və əsası olsa da, ictimai-siyasi məsələlər də onun üçün əhəmiyyətli və dəyərli idi.

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) ibadəti

Tanınmış zahid Həsən Bəsri deyir: "İslam ümməti arasında heç kim ibadətdə Fatimənin (s.ə) misli ola bilməz. O xanım ayaqları qabar olana qədər ibadət edərdi". Peyğəmbər (s)

Fatiməyə (s.ə) buyurdu: “Qadın üçün ən yaxşı şey nədir?” Fatimə (s.ə) cavab verdi: “Ən la təra rəculən və la yəraha rəculin” – “Naməhrəm kişiyə baxmaya və naməhrəm də onu görməyə”. Peyğəmbər (s) bu sözü eşitcək, Fatiməni (s.ə) bağrına basdı və bu ayəni oxudu: “Zürriyyətən bə zuhə əla bəzin” – “Onlar bir-birindən tutulmuş övladlardır (Ali-İmran, 34-cü ayə).

Həzrəti-İmam Həsəndən (ə) belə nəql edilmişdir: “Anam Fatimə (s.ə) bir cümə gecəsini səhərə qədər ibadətlə - rüku və səcdə halında keçirdi, sonra mömin və möminələrin adlarını zikr edərək onlar üçün (Allaha) dua etdi. Amma, özü üçün heç bir dəfə də olsun dua etmədi. Soruşdum: “Ana, nə üçün başqalarına dua etdiyin kimi özünə də dua etmirsən?” Belə cavab verdi: “Oğlum, əvvəl qonşular, sonra özümüz”.

Bir qadın Xanım Fatimənin (s.ə) yanına gəlib dedi: “Mənim bir zəif anam vardır ki, namazın bəzi məsələlərini bilmir. Məni sizin yanınıza göndərib ki, məsələləri sizdən öyrənəm”. Həzrəti-Fatimə (s.ə) o qadının bütün suallarına cavab verdi. Beləliklə, o qadın on sual soruşdu və hamısının da cavabını aldı. O qadın çox sual soruşduğundan utanıb dedi: “Ey Allah rəsulunun (s) qızı, bundan artıq sizə zəhmət vermirəm.”[1]

Həzrəti-Fatimə (s.ə) buyurdu: “Ağır bir yükü yerdən damın üstünə qaldırmaq üçün günü yüz min misqal muzd alan bir kəs yorğunluq hiss edərmi?”

O qadın “yox” dedikdə Həzrəti-Fatimə (s.ə) buyurdu: “Mən də Allah tərəfindən sənin hər bir sualına cavab vermək üçün əsir olmuşam. Buna görə də mənə yerlə göy

---

[1] Ş.A.Qummi “Beytül-Əhzan”, səh. 24.

arası qədər mirvari muzd versələr də sənin suallarına verdiyim cavabların muzdundan az olacaqdır. Mən isə yorğunluğa məğlub olası deyiləm”.[1]

Mərhum Şeyx Səduq nəql edir ki, Fatimə (s.ə) buyurdu: “Rəsuli-Əkrəmdən (s) eşitdim ki, cümə günündə elə bir saat vardır ki, əgər bir müsəlman Allahdan bir şey istəyə, hökmən Allah-təala onun istədiyini verər”. Soruşdum: “O hansı saatdır?” Cavab verdi ki, günəşin yarısı üfüqdə batıb, yarısı qalan zaman”. Həzrəti-Fatimə (s.ə) öz qulamına buyurardı: “Yuxarı çıx, nə vaxt gördün günəşin yarısı batdı, mənə xəbər ver ki, dua edim”.

Rəvayətdə nəql olunur ki, O Həzrət (s.ə) mehrabda dayanıb ibadət edən zaman onun nuru səma əhli üçün ulduz kimi parıldardı.

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) zöhdü

Ümmi-Sələmədən (s.ə) rəvayət olunur ki, dedi: “Surətdə, xasiyyətdə və xilqətdə Fatimədən (s.ə) artıq Peyğəmbərə (s) oxşayan şəxs görməmişəm.

Rəsuli-Əkrəm (s) nə vaxt səfərə çıxsaydı, son görüşdüyü şəxs yalnız Fatimə (s.ə) olardı. Səfərdən qayıdanda da onun ilk görüşdüyü şəxs Fatimə (s.ə) idi. Döyüş səfərlərinin birindən Mədinəyə qayıdanda Peyğəmbər (s) Fatimənin (s.ə) evinə yaxınlaşdıqda qapıda yaraşıqlı pərdə, Həsən (ə) və Hüseynin (ə) qolunda isə gümüş qolbaq görür. Peyğəmbər (s) evə daxil olmayıb geri qayıdır. Fatimə (s.ə) məsələdən xəbərdar olduqda başa düşür ki, Peyğəmbərin (s) geri qayıtmağının səbəbi o pərdə və gümüş qolbaqdır.

[1] Fəxrəddin Altan. Könül oxşayan sözlər. “Qum”, 2001, səh. 49.

Cəld pərdəni açıb o qolbaqları Həsən (ə) və Hüseynin (ə) qolundan çıxardır və onlar əllərində o əşyalar ağlaya-ağlaya Peyğəmbərin (s) hüzuruna gedirlər. Peyğəmbər (s) o qolbaqları onlardan alıb Səubana (qullarından biri) buyurdu: "Bunları filan yerə apar. Bunlarla Fatimə (s.ə) üçün "əsəb" ağacından hazırlanmış bir ədəd boyunbağı və fil sümüyündən hazırlanmış iki ədəd qolbaq al gətir".[1]

Həzrəti-Əli (ə) buyurur: "Fatimə (s.ə) uşaqları saxlamaqla bərabər ev işlərini görür və əl dəyirmanında taxıl çəkib, çörək üçün lazım olan un hazırlayırdı. O Xanımın əlləri qabar olmuşdu. Bir gün Rəsuli-Əkrəmə (s) demək istədi ki, ona bir kəniz köməkçi versin. Lakin, həya ona mane oldu, deyə bilmədi. Peyğəmbər (s) isə o Xanımın fikrindən xəbərdar idi. Odur ki, O Həzrət (s) buyurdu: "Peyğəmbər (s) qızına layiq deyil ki, mütəkəbbir şəxslər kimi evində qulluqçu saxlasın. Kəniz əvəzində sənə bir şey təlim edim ki, kənizdən daha çox faydalıdır: "34 dəfə Allahu Əkbər, 33 dəfə Əlhəmdulillah, 33 dəfə Sübhənallah".

Bu üç zikrin cəmi yüz ədəd olur ki, təsbih onun üçün qərar verilib, odur ki, bu üç zikrə "Təsbihi-Fatimeyi-Zəhra" deyirlər.

## Məsum İmamların (ə.m.) Fatimeyi-Zəhranın (s.ə) zikri haqda buyurduqları

İmam Baqir (ə) buyurmuşdur: "Hər kəs Həzrəti-Fatimənin (s.ə) zikrini deyib sonra bağışlanmaq diləsə bağışlanar. O dildə yüzdürsə, mizanda mindir. O şeytanı uzaqlaşdırar və Rəhmanı razı salar".

---

[1] Ş.A.Qummi. "Beytül-əhsan", səh. 33.

İmam Sadiq (ə) buyurmuşdur: "Hər kəs Həzrəti-Fatimənin (s.ə) zikrini desə, həqiqətən, Allahı çox zikr etmişdir. Biz öz övladlarımıza namazı əmr etdiyimiz kimi bu zikri yerinə yetirməyi də əmr edirik".

Həzrəti-Fatimənin (s.ə) zikrinin faydaları haqda İmam Sadiq (ə) buyurmuşdur: "Hər kəs bu zikri vacib namazdan sonra yerindən qalxmamış desə bağışlanar".[1]

Digər bir hədisdə İmam Sadiq (ə) belə buyurmuşdur: "Hər gün hər namazdan sonra Həzrəti-Fatimənin (s.ə) zikri mömin üçün hər gün qılınan min rükət namazdan daha sevimlidir".

## İslamın ictimai-siyasi məsələlərində Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) rolu

Həzrəti-Zəhra (s.ə.) özünün və ailəsinin hüququnun müdafiəsi yolunda bir dəqiqə belə sükut etmirdi. Bu, əslində müsəlman cəmiyyətinin və məhrumlar təbəqəsinin müdafiəsi demək idi. Çünki, öz hüquqları tapdalandıqda cəmiyyətin də hüquqları tapdalanır və deməli, islam dininin həqiqəti ayaqlar altına atılırdı. O, qarşısına çıxan hər bir çətinliyin müqabilində dağ kimi dayanır və vuruşurdu. Məscidə gedir, alovlu çıxışları, aydın nitqləri ilə özünün və ailəsinin hüquqlarını bildirir, o dövrün hakimlərinin iç üzünü açıb göstərir və yolunu azmış başçıları, onların qəlbiqara davamçılarını haqqın yoluna dəvət edirdi.

Həzrəti-Zəhranın (s.ə.) bu açıq-aşkar əməlləri, işləri aydın göstərir ki, Peyğəmbərin (s) sevimli qızı, möminlərin

---

[1] Ə.Əhmədov "Allahın höccətləri", səh.214.

ağası Əmirəl-möminin Əlinin (ə) həyat yoldaşı haqq-ədalət İmamlarının (ə.m) anası təkcə ev qadını və ocaq sahibi deyildi, həm də mübarizə qadını idi. Həyatın bütün sahələrində ləyaqətli bir qəhrəman və döyüşkən qadın olmaqla yanaşı, həm də fəzilət və bilikdə ən yüksək bir şəxs idi.

Həzrəti-Fatimə (s.ə.) qadınlar cəmiyyətinin həyatını birdəfəlik dəyişdirdi və qadınlar üçün yeni bir proqram yazdı. İslam tərbiyəsi və əxlaqının bərəkəti ilə ev mühitindən səfa və səmimiyyətlə, lütf və mehribanlıqla dolu bir cəmiyyət yaratdı, böyük bir tərbiyə ocağı qurdu. Bu tərbiyə ocağında Həsən (ə) və Hüseyn (ə) kimi oğullar, Zeynəb (s.ə) və Ümmi-Gülsüm (s.ə) kimi aslana bənzər qızlar böyütdü.

Həzrəti-Fatimə (s.ə.) fərdi və ictimai həyatda əsl həqiqətləri tez görə bilir və bütün məsələlərə elə incəliklə yanaşırdı ki, onlardan hər biri bizim islam cəmiyyətində də yaşayan qızların və xanımların üzləşdiyi bir çox ailəvi çətinliklərin və problemlərin həll olunmasında açar ola bilər.

Həzrəti-Fatimənin (s.ə.) tərbiyə məsələsində bir mühüm cəhətinə xüsusi diqqət yetirmək lazımdır. Peyğəmbər (s) buyurub: "Əziz qızım Fatimə, bu dünyada öz işini özün gör, çünki, sabah mən sənin üçün heç bir iş görə bilmərəm".[1]

Bu dərin mənalı hədis göstərir ki, hər kəs gərək öz səy və imanı ilə özüylə Allahı arasındakı əlaqəni düzgün istiqamətlə qursun. Əks təqdirdə, hətta Allahın Peyğəmbərinin (s) qızı olmaq da qiyamət günündə insanın çətinlik düyününü açmır.

Peyğəmbərin (s) buyurduğu bu hədis elə dərin mənanı

[1] İslamın nümunəvi xanımı. Səh.156

ifadə edir ki, əgər hər bir müsəlman qadını və kişisi onu dərk edib həyatda ona əməl etsə, səadət və xoşbəxtliyə qovuşar. Ancaq, belə bir böyük kəlamı bütöv dərinliyi ilə dərk edən və bütün varlığı ilə ona əməl edən bircə nəfər olmuşdur ki, o da Həzrəti-Fatimeyi-Zəhradır (s.ə.). Bu kəlam xanımlar Xanımı Fatimənin (s.ə.) bütün duyğu və düşüncələrinə, fikir və əməllərinə hakim kəsildi və onu böyük atasının parlaq nümunəsinə çevirdi.

Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) şərəfli vücudu cahanda Xəlifətullahın ali dəyərlərinin təhəqqüqüdür.

Bir insan ünvanında qadın və insanın hədəfi bir cür xüsusiyyətlərə və dəyərlərə, həmçinin dünyaya baxışda cəmiyyətin hədəfi Allaha tərəqqübdür. Buna görə bütün ictimai işlər, vəzifələr, fürsətlər, hüquq və ixtiyarlar hamılıqla hədəfə nail olmaq üçün məcradır, ictimai və fərdi səviyyələrdə rəftar qaydaları bu ölçü və hədəflərdə qərar tutur. Qadının əsas məqsədi İlahi yolunda lüzumu və islamın ən ali məqsədlərinə yetməsidir.

# IV BÖLÜM

## NÜMUNƏVİ XANIM

Xanım Fatimeyi-Zəhra (s.ə) böyük insan, əxlaq müəllimi və mürəbbilərdəndir ki, bəşər onu öz rəftar və həyatı üçün ən gözəl ülgü və nümunə bilir.

### Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) ibadəti

**a)** ***Möcüzəvi hadisə:*** İmam Baqir (ə) buyurur: “Bir gün Peyğəmbər (s) Salmanı mühüm bir xəbəri çatdırmaq üçün Fatimənin (s.ə.) evinə göndərdi. Salman deyir: O Həzrətin (s.ə) qapısı arxasında azca qaldıqdan sonra salam verdim. Onda evin daxilindən Fatimənin (s.ə.) Quran oxuduğunu eşitdim. Otaqdan kənarda isə dəyirman daşı fırlanmaqda idi. Hadisəni Peyğəmbərə (s) xəbər verdim. O Həzrət (s) təbəssüm edərək buyurdu: “Ey Salman! Allah-taala qızım Fatimənin (s.ə) qəlbini və bədən üzvlərini bütünlüklə imanla doldurmuşdur. Qızım özünü Allahın ibadət və itaətində qərar verib. O zaman Allah-taala “Züqabil” ləqəbli Cəbrail (ə) mələyi göndərib ki, onun əvəzinə dəyirman daşını fırlatsın”.

**b)** ***İlahi mənzilət və məqamı:*** “Allahın Rəsulu (s) nəql edir ki, Allah-təala buyurur: “Ey mələklərim! Bir baxın, görün, Fatimə qarşımda necə durub və mənim qorxumdan bədən üzvləri necə titrəyir!? Mən onun qəlbini öz ibadətimlə məşğul etmişəm. Şahid olun ki, mən onun dost və şiələrini Cəhənnəm atəşindən amanda saxlayacağam”.

Seyid Əliəkbər Ocaq Nijad ağa bir qəzəlində yazır:

Əhli-kitab hübbünə qəlbdə kim yer verər,
Həqqini cübran edər yövmi-cəza, Fatimə!

## Xanım Fatimeyi-Zəhranın (s.ə) atası Peyğəmbərə (s) yüksək səviyyədə ehtiram göstərməsi

"Peyğəmbəri (s) öz aranızda bir-birinizi çağırdığınız kimi çağırmayın!" – Şərif ayəsi Peyğəmbərə (s) nazil olan zaman Həzrəti-Fatimədə (s.ə) atasına "Ya Rəsuləllah!" kəlməsi ilə xitab edərdi. İmam Hüseyn (ə) anası Fatimeyi-Zəhradan (s.ə) nəql edir ki, anam: "Bu ayə Peyğəmbərə (s) nazil olan gündən O Həzrətin (s) heybət və əzəməti mənim ona "Ata" deməyimə mane oldu. Bu səbəbdən "Ya Rəsuləllah!" deyirdim. Peyğəmbər (s) bu işi məndə müşahidə edən kimi buyurdu: "Qızım! Bu ayə sən və sənin Əhli-beytin (ə.m) barədə nazil olmamışdır, çünki sən məndənsən və mən də səndənəm. Əksinə, bu ayə mənə ehtiram etməyən təkəbbürlülər və cəfa əhli barədə nazil olmuşdur. Qızım! "Atacan" de! Bu, mənim qəlbimi dirildir və Allahı razı salır" deyib mənim alnımdan öpdü...".

## Həzrəti-Fatimeyi-Zəhra (s.ə) və hicab

Həzrəti-Fatimə (s.ə) çox həyalı, ismətli və həm də islami hicab və geyimə çox ciddi şəkildə diqqət yetirən pak bir xanım olmuşdur. O Xanım Allahın müqəddəs kitabı Qurani-Kərimin göstərişlərinə uyğun şəkildə hicabın hökmlərinə əməl etməyə sadiq idi.

Həzrəti-Əli (ə) buyurur: "Bir kor kişi Fatimənin (s.ə) evinə daxil olmaq üçün icazə istəyir. O əziz Xanım üzünü

gizlədir. Atası Peyğəmbər (s) buyurur ki, o kordur, səni görmür, niyə üzünü örtürsən? Fatimə (s.ə) cavab verir ki, o məni görməsə də, mən hiss edirəm ki, onun hissiyatı sağlamdır. Allahın elçisi buyurdu: "Şahidlik edirəm ki, sən mənim canımın parasısan." Fatimə (s.ə) atası Peyğəmbərin (s) "Qadınlar üçün hansı əməl yaxşıdır?" sualına belə cavab vermişdir: "Qadın üçün ən yaxşı əməl odur ki, onlar kişiləri görməsin və kişilər də onları görməsin". Peyğəmbərin (s) "Qadınlar nə vaxt öz Allahına yaxın olurlar?" sualını isə Xanım Zəhra (s.ə) belə cavablandırmışdır: "Qadın o zaman öz Allahına yaxın ola bilər ki, evinin altında sakin olsun, ev işləri və övladlarının tərbiyəsilə məşğul olsun." Bu cavabı eşidən Peyğəmbər (s) buyurmuşdur: "Həqiqətən, Fatimə (s.ə) mənim canımın parasıdır."[1] Hər bir namuslu və pak müsəlman xanıma məsləhətdir ki, iki dünya xanımlarının Seyyidəsi və Qiyamət gününün şəfaətçisi Xanım Fatimeyi-Zəhranı (s.ə) özünə nümunə götürsün və özünü ona bənzətməyə çalışsın.

## Salam verməkdə qabaqlamaq

Xanım Zəhra (s.ə) da Allah Rəsulu (s) kimi salam verməyə çox əhəmiyyət verərdi. Hədisdə gəlmişdir ki, bir nəfər dedi: "Həzrəti-Fatimənin (s.ə) hüzuruna daxil oldum. Məni görən kimi salam verdi və bu gözəl işdə məni qabaqladı...".

---

[1] Biharul-ənvar cild, 43, səh. 92

## Qiyamət gününün vəhşəti

Xanım Zəhra (s.ə) Qiyamət günü və onun çətinliyindən çox nigaran idi və o, atasından Qiyamət hadisəsi və necə dirilmək barədə çoxlu suallar edərdi. Əllamə Məclisi (r.ə.) belə yazır: ”Və doğrudan da onların hamısının vədə yeri Cəhənnəmdir. Onun yeddi qapısı var, hər qapıdan onların müəyyən bir dəstəsi (daxil olar). (“Hicr” surəsi, 43, 44) şərif ayələr Peyğəmbərə (s) nazil olduğu zaman o Həzrət (s) şiddətlə ağladı və səhabələri də Həzrətin (s) bu halından təsirlənib ağladılar. Amma heç kəs bilmirdi ki, Peyğəmbər (s) niyə ağlayır. Xanım Zəhra (s.ə.) bu xəbəri eşitdikdə kədərləndi və Peyğəmbərin (s) hüzuruna gəlib soruşdu: “Atacan! Canım sənə fəda olsun! Sənin ağlamağına səbəb nədir? Allahın Rəsulu (s) xanım Fatimənin (s.ə) cavabında vəhy mələyi Cəbrayılın (ə) ona nazil etdiklərini söylədi. Xanım Fatimə (s.ə) qorxu və vəhşətin şiddətindən belə dedi: “Vay olsun, cəhənnəmə daxil olan şəxslərin halına”.

## Başqaları üçün dua etmək

Xanım Zəhra (s.ə) Allah-təala ilə necə danışmağı və hansı formada dua etməyi insanlara öyrətdi. O dua etməkdə də fədakarlıq edir və hamını özündən önə salırdı. İmam Həsən Muctəba (ə) buyurur: “Anam Fatimənin (s.ə) bir cümə axşamında sübhə kimi rüku və səcdə halında olduğunu gördüm və eşitdim ki, mömin qadın və kişilərin adlarını çəkir və onlar üçün çoxlu dua edirdi. Amma bir dəfə də olsun özü üçün dua etməsini eşitmədim. Təəccüblənərək soruşdum: “Ana, başqaları üçün dua etdiyin kimi, niyə özün üçün dua etmirsən? Anam cavabında buyurdu: “Oğlum! Əvvəl gərək qonşunu nəzərdə tutasan, sonra isə özünü”.

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) təsbih zikrinin savabı

İmam Sadiq (ə) Səhabəsi Əbu Haruna buyurur: "Biz öz övladlarımıza namazı əmr etdiyimiz kimi, Fatimeyi-Zəhranın (s.ə) təsbihatını zikr etməyi də əmr edirik. Sən də özünü bu işə vadar et. Çünki, hər hansı bir bəndə onu zikr etməsə, bədbəxtliyə düçar olar". İmam Sadiq (ə) "Fatimənin (s.ə) təsbihi nədir?" sualına belə cavab verir: "34 dəfə Allahu əkbər, 33 dəfə Əlhəmdulillah, 33 dəfə Subhənallah zikridir".

Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) mübarək zikrinin saylarına diqqətlə nəzər salsaq, bu saylar bizə zehnlərdən gizli qalmış bir neçə məsələni açıqlayar. 34 dəfə ***"Allahu Əkbər",*** 33 dəfə***"Əlhəmdulillah",*** 33 dəfə ***"Subhənallah".*** Əgər biz 34 rəqəmini ayrı-ayrılıqda bir-birinin üzərinə gəlsək **(3+4)=**7 rəqəmini əldə etmiş olarıq. Yeddi (7) rəqəmi Quranda ən gözəl bir surənin ayələrinin sayıdır. Həmin surə ***"Fatihə"*** surəsidir. Peyğəmbərin (s) hədisinə əsasən də ***"Fatihə"*** surəsi Quranın tam mənasıdır. 7, yəni Allahın kitabı olan ***Qurani-Kərimdir.*** Əgər Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) zikrinin digər (33-33) hissəsinə nəzər salsaq və həmin rəqəmləri bir-birinin üzərinə gəlsək, 12 rəqəmini əldə etmiş oluruq. **(3+3=6, 6+3=9, 9+3=12).** 12 rəqəmi isə Peyğəmbərin (s) Əhli-beyti (ə.m) olan İmamlarımızın (ə.m) sayı ilə bərabərdir.

Habelə Qurani-Şərifin 33-cü surəsinin, 33-cü ayəsində Allah buyurur: "Həqiqətən Allahın iradəsi bu olmuşdur ki, Siz Əhli-beyti (ə.m) bütün çirkinliklərdən münəzzəh və pak etsin". Xanım Zəhranın (s.ə) zikrlərinin digər 33-33 sayı eynilə bu ayəni xatırladır.

Bəs 7, yəni ***Kitabullah*** və 12, yəni ***Əhli-beyt*** (ə.m.)?

Peyğəmbər (s) buyurub: "Mən sizin yanınızda iki şey əmanət qoyub gedirəm. Allahın kitabı Quran və mənim itrətim (Əhli-beyt). Bunlar heç vaxt bir-birindən ayrılmaz". Əgər biz 7 rəqəmini 12 rəqəminin üzərinə gəlsək, 19 rəqəmi alınar: (7+12=19). Quran və Əhli-beyt (ə.m) bir-birindən ayrılmaması, burada da sübut olunur. Belə ki, 19 rəqəmi, ***"Bismilləhir-Rahmənir-Rahim"*** ayəsindəki hərflərin sayına bərabərdir.

Allah bizi və bütün müsəlmanları bir an da olsa belə, ***"Bismilləhir-Rahmənir-Rahim"dən*** ayrı salmasın və bizləri qiyamət günündə həmin ayə ilə məşhur etsin. Allah bu ***"Təsmiyyə"*** ayəsinə xatir müsəlmanları və millətimizi bütün pisliklərdən və bəlalardan hifs etsin. ***İnşəallah!***

## Həzrəti-Fatimeyi-Zəhranı (s.ə) ziyarət etməyin və ona salavat göndərməyin savabı

Allah Rəsulu (s) buyurur: "Ey Fatimə! (s.ə) Hər kəs sənə salavat göndərsə, Allah-təala onun günahlarını bağışlayar və onu Cənnətdə mənə qovuşdurar". "Əllahummə salli alə Fatimətə və əbiha və bəliha və bəniha ədədə ilmillah, zinətə ərşillah, baqiyətən bi bəqaillah, daimətən bi dəvami mulkillah, ədədə ma xaləqə və ma yuxləq, vəl-ən əədaəhum kəzalik" – "Allahım, Fatiməyə (s.ə), onun atasına, həyat yoldaşına, iki oğluna Allahın elmi qədər, Allah ərşinin ağırlığı qədər, Allahın sonsuzluğu qədər davamlı, Allahın səltənəti davam edənədək, yaradılmışlar və gələcəkdə yaradılacaqların sayı qədər rəhmət göndər və onların düşmənlərini Öz rəhmətindən uzaqlaşdır".

Xanım Zəhranın (s.ə.) ziyarətnaməsi belədir: "Əssəlamu ələyki ya mumtəhənətu imtəhənəkil-ləzi xələqəki, fə-

vəsədəki lima imtəhənəki sabirətən, ənə ləki musəddiqun, sabirun əla ma əta bihi əbuki və vəsiyyuhu, sələvatullahi əleyhima və ənə əs-əluki in kuntə səddəqtuki illa əlhəqtini bi təsdiqi ləhuma li tusərrə nəfsi fəşhədi ənni zahirun bi-vilayətiki və vilayəti ali beytiki sələvatullahi əleyhim əcməin".

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) nurlu hədisləri

"Sizin dünyanızdan üç şeyi sevirəm: Qurani Kərimi tilavət etmək; Peyğəmbərin (s) müqəddəs çöhrəsinə tamaşa etmək; Allah yolunda infaq (ehsan) etmək".

Ananın haqqını müqəddəs bilən Xanım Fatimeyi-Zəhra (s.ə.) Peyğəmbərin (s) analar haqqında buyurduğu hədisi xatırlayaraq söylərdi: "Ona qayğı çəkməkdə çalış ki, Cənnət onun (ananın) ayaqları altındadır". Doğrudan da kamil və xoşbəxt o insandır ki, İmam Əlini (ə) yaşadığı və vəfatından sonrakı dövrdə sevmiş olsun"[1]. Həzrəti-Fatimə (s.ə.) Allahın Rəsulundan (s) rəvayət edərək buyurdu: "Öz ərini qəzəbləndirən qadının vay olsun halına, əri ondan razı qalan qadının xoş halına"[2].

## Zühuru vəd olunmuş Həzrəti-Mehdi (əc.f) Həzrəti-Fatimə (s.ə) övladıdır

Allahın Rəsulu (s) ömrünün son günlərində mübarək əlini İmam Hüseynin (ə) çiyninə qoyaraq Həzrəti-Fatimeyi-Zəhraya (s.ə.) xitab edərək buyurdu: "Ümmətin Mehdi-

[1] Yənabiul-Məvəddət, cild.1, səh. 376
[2] Vəsailuş-şiə, c. 14, səh.156

si onun nəslindəndir. Hüseynin (ə) övladlarından bir kişi qiyam etməmiş dünya sona yetməz. O dünyanı zülm və sitəmlə dolduğu kimi ədalət ilə dolduracaqdır".

İmam Hüseyn (ə) buyurur: "Allahın Rəsulu (s) anam Fatimeyi-Zəhraya (s.ə.) buyurdu: "Ey Fatimə! Sənə müjdə olsun ki, Mehdi (əc.f) Sənin övladlarındandır"[1].

Ey gözəl insan! Fatimənin (s.ə.) əziz övladı olan İmam Mehdini (əs.f.) unutma! Həzrəti-Mehdi (əc.f) dövrümüzün İmamıdır. Dövrümüzün İmamını tanımaq bizə vacibdir. İmamın (əc.f) tez zühur etməsi üçün lazım olan şəraitin qurulmasında ciddi şəkildə və daha çox çalışmalıyıq. Biz buna görə məsuliyyət daşıyırıq. Zühurun tezləşməsi üçün lazım olan şəraitin yaradılmasında hansı əməllərin rolu olduğunu bilirsənmi və bu barədə maraqlanırsanmı? Xanım Zəhranın (s.ə.) İmamının (Həzrəti-Əliyə (ə) işarədir) tənha və qərib halını görməyə taqəti çatmadı. İmamına (ə) olan sədaqətini göstərdi. Həqiqi mömin bu cür olmalıdır. İmamı (əc.f) qeybdə olan şəxs rahat yaşaya bilməz. Ən azından ayrılıq dərdi onu əldən salar. Dua etmək sadə bir işdir. Zühurun tezləşməsi üçün ürəkdən dua edirsənmi? Ədalətli olmağa çalışırsanmı? Cəmiyyət arasında olan fəsad və dinə zidd əməllərlə mübarizə aparırsanmı? Xanım Zəhradan (s.ə.) ibrət al və dövrünün İmamına yardım et.

İlahi, Həzrəti-Zəhranın (s.ə.) Sənin dərgahında olan məqamına xatir zühuru tezləşdirməklə həm İmam Zamanın (əc.f.) və həm də onun müntəzirlərinin qəlbini şad et. İlahi, Fatimeyi-Zəhranın (s.ə.) qatillərinə lənət et. İlahi, bütün xanımlara Xanım Zəhranın (s.ə.) ismət, iffət və həyasından bəxşiş et! Amin, Ya Rəbbəl-aləmin.

---

[1] Əl-Burhan, səh. 94

## Həzrəti-Fatimeyi-Zəhra (s.ə) rəvayətlərin dili ilə

Quran ayələri baxımından Həzrəti-Fatimənin (s.ə) yüksək məqamı ilə tanış olduqdan sonra, rəvayət və hədislərdə O Həzrət (ə) haqqında olan fikirlərə nəzər salaq.

Peyğəmbərin (s) sevimli qızı Fatimənin (s.ə) yüksək və əzəmətli mövqeyi haqqında mötəbər mənbələrdə və hədis kitablarında o qədər yazılmışdır ki, onların adlarını çəksək belə böyük bir siyahı alınar. Ona görə də burada biz yalnız bir neçə hədis və rəvayət nəql etməklə kifayətlənəcəyik.

Mötəbər mənbələrdə qeyd olunmuş hədislərə əsasən, İslam Peyğəmbəri (s) buyurmuşdur: “Bəşəriyyət tarixində dörd görkəmli və fəzilətli qadın var: İmranın qızı Məryəm (s.ə), Məzahimin qızı Asiya (s.ə), Xuveylidin qızı Xədicə (s.ə) və mənim qızım Fatimə (s.ə)”.

Peyğəmbər (s) buyurdu: “Məryəm öz dövrünün xanımlarının Xanımı idi, Fatimə (s.ə) isə bütün dövrlərin xanımlarının Xanımıdır”.

Həzrəti-Mühəmməd (s) buyurur:

“Hər kəs qızım Fatiməni sevərsə, o mənimlə cənnətdə olar. Və hər kəs Fatiməni qəzəbləndirərsə, o, cəhənnəm odunda yanar”.

Həzrəti-İmam Baqir (ə) buyurur: “Həzrəti-Fatimənin (s.ə) itaəti Allah-taalanın bütün yaratdıqlarına: cinlərə, insanlara, quşlara, vəhşi heyvanlara, peyğəmbərlərə və mələklərə, vacib idi.

Həzrəti-Mühəmməd (s) buyurur: “Fatimə insan şəkilində yaradılan bir huridir”.

İmam Cəfəri-Sadiq (ə) buyurur: “Hər kəs Fatiməni (s.ə) o cür ki, haqqıdır, tanısa, həqiqətdə “Qədr” gecəsini dərk etmişdir”.

İmam Cəfəri-Sadiq (ə) yenə buyurur: “Adı Fatimə olanlara hörmət edin”.

“...İndi ki, qızının adını Fatimə qoymusan, onu söymə, ona lənət və nifrin demə və onu döymə...”.

Həzrəti-Mühəmməd (s) buyurur: “Ey Fatimə! Əgər Allahın göndərdiyi bütün peyğəmbərlər və bütün müqərrəb mələklər Səninlə düşmənçilik edənin və Sənin haqqını qəsb edənin cəhənnəm odundan çıxarılması üçün şəfaət etsələr belə, yenə də Allah onu (sənin düşmənini) cəhənnəm odundan xilas etməyəcəkdir.”

## Həzrəti-Peyğəmbərin (s) Xanım Fatimeyi-Zəhraya (s.ə) olan məhəbbəti

Peyğəmbər (s) buyurmuşdur: “Hər zaman behişti arzulasam, Fatimənin (s.ə) boğazından öpürəm”.

Bütün tarixçilər və hədis nəql edənlər Peyğəmbərin (s) qızı Fatiməyə (s.ə) xüsusi əlaqə və məhəbbət göstərdiyini qeyd ediblər. Məlum məsələdir ki, Peyğəmbərin (s) bu cür məxsusi məhəbbəti təkcə ata-övlad əlaqəsinə xatir deyildi. Peyğəmbərin (s) Fatiməyə (s.ə.) olan məhəbbəti barədə buyurduğu hədislər göstərir ki, bu məhəbbətdə ölçü tamam başqa şeydir. Bu məhəbbət məhəbbətlərdən ayrıdır. Allahın məhbubunu sevmək Allahı sevməkdir. Peyğəmbərin (s) məhbubu (sevimlisi) kişilərdən Əli (ə), qadınlardan isə Fatimədir (s.ə)”.

Peyğəmbər (s) buyurub: “Fatimə (s.ə) hər iki dünyanın xanımıdır, seyyidəsidir”.

Digər bir hədisdə Peyğəmbər (s) buyurub: “Fatimə (s.ə) mənim bədənimin bir parəsidir. Kim onu sevindirsə, məni sevindirib, hər kəs onu incitsə, məni incitmişdir”.

Peyğəmbər (s) Fatiməni (s.ə) elə istəyirdi ki, hər zaman səfərə getsəydi, vidalaşdığı axırıncı şəxs Fatimə (s.ə) olardı, eyni zamanda səfərdən qayıtdıqda, ilk görüşdüyü şəxs yenə Fatimə (s.ə) olardı.

Allaha daha yaxın olanlar öz övladlarını, yaxın qohum-əqrəbalarını və dostlarını nəfsani duyğular üzündən sevməmişlər. Belə şəxslərin məhəbbəti ixlas üzündən, habelə Allaha görə olmuşdu. Allah-təaladan digərlərinə olan sevgiləri isə yenə də Allahın özünə qayıdır və ona xatir olur.

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) gələcəkdə başına gələn müsibətlər haqda Peyğəmbərin (s) buyurduqları

Məhrum Şeyx Səduq ibni-Abbasdan nəql edir ki, Peyğəmbər (s) Əhli-beytin (ə.m) başına gətiriləcək müsibətlərdən xəbər vermiş və Fatimənin (s.ə) barəsində belə buyurmuşdur: "Qızım Fatimə əzəli və əbədi olaraq iki dünyanın qadınlarının Xanımıdır. O, mənim cismimin bir parəsi, gözümün nuru, qəlbimin meyvəsi və vücudumda olan ruhumdur. O, "Huril-insiyyə"dir. Mehrabda Allah qarşısında ibadət etməyə başladığı vaxt nuru ulduz kimi səma mələkləri üçün parlayar. Bu zaman Allah-təala mələklərinə buyurar: "Ey mələklər, mənim qarşımda ibadət üçün dayanmış kənizlərimin sərvəri olan kənizimə tamaşa edin. Görün mənim qarşımda bədəni necə əsir. O bütün varlığı ilə mənə ibadət edir. Sizi şahid tuturam ki, onun şiələrini cəhənnəm atəşindən amanda saxlayacağam".[1]

Müəllif yazır: "Peyğəmbər (s) bu sözdən sonra buyurdu: "Mən nə vaxt Fatiməyə baxıram, yadıma məndən son-

---

[1] Ş.A.Qummi. "Beytul-Əhzan", səh.34

ra ona üz verəcək hadisələr düşür. Sanki, qəm və kədərin onun evinə necə varid olmasını və ona ediləcək ehtiramsızlığı və haqqının əlindən alınmasını, öz işinə yetişə bilməməsini, qabırğasının sındırılmasını, bətnində olan və hələ dünyaya gəlməmiş uşağın siqt olunmasını, onun "Ya Muhammədahu" çağırmasını elə indidən görürəm. Kömək istəyir, lakin bir cavab eşitmir, heç kim də ona kömək etmir. Məndən sonra həmişə hüznlü, qəmli və gözüyaşlıdır. Hərdən belə fikirləşir ki, vəhy evindən kəsilib, mənim ayrılığıma mübtəla olubdur, gecələr hövlnak olur. Ona görə ki, gecə namazı vaxtı mənim Quran oxumağımı eşidərdi, indi isə eşitmir. Sonra özünün atasının sağlığında necə əzizlənib, nəvaziş edildiyini xatırlayıb qəmli-qəmli, için-için ağlayır. Bu zaman Allah-təala mələkləri onun munisi edir. Mələklər Həzrəti-Məryəmlə (s.ə) həmsöhbət olduqları tək onunla da elə həmsöhbət olarlar.

"Ya Fatimətu innəllahə istəfaki və təhhərəki vəstəfaki əla nisail aləminə, Ya Fatimətu uqnuti lirəbbikə vəscudi vərkəi məər-rakiin" – "Ey Fatimə, Allah-təala səni seçdi və pak etdi. Səni bütün qadınların Xanımı etdi. Ey Fatimə, Allahına ibadət və səcdə et. Allah dərgahında rükuda olanlarla rüku elə".

Sonra elə bil görürəm ki, O, dərddən və qübardan xəstələnibdir. Qulluğa ehtiyacı var. Allah-təala İmranın qızı Məryəmi (s.ə) ona baxmağa göndərər. Bu vaxt O, Allah-təala ilə belə dərdi-dil edər: "İlahi, həyatdan doyub yorulmuşam. Dünyapərəst insanların əlindən artıq cana gəlmişəm. Məni atama qovuşdur". Allah-təala da onu mənə yetirər. O, mənim Əhli-beytimdən (ə.m) qəmli, kədərli, haqqı qəsb olunmuş və öldürülmüş halda mənə yetişəcək ilk şəxsdir. Bu vaxt Allaha yalvarıb deyərəm: "İlahi, ona zülm edən

şəxsləri öz rəhmətindən uzaq et. Onun haqqını qəsb edənləri cəzalandır. Onu pərişan edənləri və kədərləndirənləri xar elə. Onu hamilə ikən zərbə ilə vurub uşağını siqt edənləri isə əbədi olaraq cəhənnəm atəşinin sakini et". Bu zaman mələklər deyərlər: "Amin!" "İlahi, bu duanı müstəcəb elə".

İbni-Babeveyh mötəbər rəvayətlə İbn Abbasdan nəql edir ki, bir gün Həzrəti-Rəsul (s) bir dəstə səhabə ilə məsciddə əyləşmişdi. Birdən İmam Həsən (ə) məscidə daxil oldu. Peyğəmbər (s) onu görüb ağlamağa başladı, sonra onu çağırıb sağ dizi üstə oturtdu. Bir qədər sonra İmam Hüseyn (ə) məscidə daxil oldu. Həzrət (s) onu görcək gözləri yaşardı və onu çağırıb sol dizi üstə oturtdu. Bir qədər sonra Həzrəti-Fatimə (s.ə) gəldi. Onu da görcək Peyğəmbər (s) ağlamağa başladı. Sonra O Xanımı çağırıb öz qabağında oturtdu. Bir az sonra Həzrəti-Əli (ə) məcsidə gəldi. Həzrəti-Peyğəmbər (s) onu da çağırıb özünün sağ tərəfində oturtdu.

Səhabələr soruşdular: "Ya Rəsulallah (s) nə üçün Əhlibeytin (ə.m) hər biri daxil olanda ağladın?"

Peyğəmbər (s) buyurdu: "Bilin ki, mən və bu 4 nəfər Allah-təala yanında ən əziz kəslərik. Əli ibni-Əbu Talib (ə) mənim əmioğlum, həmsöhbətim, dünyada və axirətdə mənim ələmdarım, qiyamət günündə ümmətə şəfaət edən, Kövsər suyunun saqisidir. Məndən sonra mənim xəlifəm və canişinim, ümmətin rəhbəridir. Hər kəs onu dost tutsa, məni dost tutmuş olar, kim onu düşmən tutsa, məni düşmən tutmuş olar. Ağlamağımın səbəbi odur ki, məndən sonra cəfakar ümmət ona məkr və hiylə qurub, xilafəti ondan qəsb edərlər, onu ən şər adamların əlində köməksiz və yalqız qoyarlar. O, bütün bu zülümlərə səbr edər, ta ki, O cənabın (ə) mübarək başını yarıb ağ saqqalını başının qanı ilə boyayarlar".

Əhli-beytin (ə.m) ikinci böyük şəxsi Fatimədir (s.ə) ki, mənim bədənimin bir parçasıdır. O, dünyanın keçmiş və gələcək qadınlarının ən yaxşısı və xanımıdır. O, mənim ğözümün işığı, canımın meyvəsidir. O, ibadət mehrabında namaza dayananda çöhrəsinin ixlas nuru yeddi asimanı işıqlandırır. Allah-təala mələklər qarşısında onunla fəxr edir. Məndən sonra ümmətin ona edəcəyi cəfa və zülümləri xatırlayıb O məzlumənin halına ağlayıram. Məndən sonra O məzlumənin həqqini əlindən alarlar, ona hörmətsizlik edərlər, bədəninə cərahət (xəsarət) yetirərlər. Mənim fərağımda gecə-gündüz ağlayar, "atam vay" deyib nalə edər, onun köməyinə yetişən olmaz, hətta nalə etməyinə də mane olarlar. Məndən sonra Əhli-beytimdən (ə.m) mənə mülhəq olanların (mənə yetişənlərin) əvvəlincisi O Xatun (s.ə) olar.

Həsən (ə) və Hüseyin (ə) isə mənim gözümün nuru, ümmətimin höccətləri, behişt cavanlarının ağalarıdır. Ümmətimin nankor zalimləri və münafiqləri onların birini zəhərləyib ciyərini doğrayarlar, o birini susuz halda şəhid edib, başını qurbanlıq qoyun başı kimi kəsib nizəyə vurarlar, əhli-əyalını əsir edib şəhərbəşəhər gəzdirərlər. Bütün bunları xatırlayıb onların halına ağlayıram"[1].

İslam mədəniyyəti tarixində olduqca dəyərli yer tutan son dərəcə əhəmiyyətli olan "Əl-Qədr" kitabının müəllifi Əllamə Əmini Əhli-sünnə alimlərinin mötəbər kitablarından Fatimə (s.ə) haqda məlumatları topladıqdan sonra ibni-Kəsirin belə bir fikrini qeyd edir ki, Allahın Rəsulu (s) buyurmuşdur: "Fatimə mənim qəlbim və ruhumdur. Kim onu incitsə məni incitmişdir. Ona əziyyət verən mənə əziyyət vermişdir".

---

[1] Ə.Əhmədov. "Allahın hüccətləri", səh. 220-221.

# V BÖLÜM

## HƏZRƏTİ-PEYĞƏMBƏRİN (S) VƏFATINDAN SONRA HƏZRƏTİ-FATİMƏNİN (S.Ə) FACİƏLİ HƏYATI VƏ ŞƏHADƏTİ

Allahın Rəsulu (s) vəfat edən zaman böyük-kiçik, kişi-qadın, qoca-cavan, ümumiyyətlə bütün Mədinə əhalisi matəm saxlamışdı. Elə bir müsəlman tapmaq olmazdı ki, Peyğəmbərin (s) vəfatına görə qəmgin olmasın. Peyğəmbərin (s) vəfatı ən çox yaxınlarına, məxsusən əmisi oğlu və kürəkəni, möminlər ağası Həzrəti-Əliyə (ə) daha çox təsir etmişdi. Əgər bu qəm-qüssə dağlara üz tutsaydı, dağların belə buna dözümü çatmazdı. Ancaq bu qədər adamın içində heç kim Həzrəti-Fatimə (s.ə) kimi qəmgin deyildi. Onun bu qəm-qüssəsini Allah-təaladan başqa heç kəs bilmirdi. Get-gedə qəm-qüssə artır, göz yaşı isə dayanmırdı.

Yıxılıb dinin evi, rehlət edib xətmi-Rəsul,
Çırpılıb din qapısı Həzrəti-Zəhra başına.[1]

Həzrəti-Mühəmmədin (s) vəfatı münasibətilə Həzrəti-Fatimə (s.ə) bir neçə misra şeir söyləyir. Şeirin tərcüməsi belədir: “Peyğəmbər (s) türbətinin (qəbrinin torpağının) xoş ətrini iyləyən bir kəs uzun müddət başqa ətirləri iyləməsə nə olar? (Yəni, ömrünün sonuna qədər Peyğəmbər türbətinin ətri ona kifayət edər). //Qəm və qüssə yağışını

---

[1] S.M.Şəhriyar. Türk divanı.

canıma yağdıran kimsə, onu işıqlı bir günə yağdırsaydı, gecə kimi qaralardı. //Canıma yağan bu qəm, bu qüssə, günlərə yağsaydı, o günlər gecə kimi qaralardı".

Başqa bir şeirdə Xanım (s.ə.) söyləyir: "Qəm qübarı göyləri tutdu, günəş tutuldu və gündüz qaranlıqlaşdı". //Peyğəmbərin (s) rehlətindən (vəfatından) sonra yer üzü qaraldı, (matəmə düşdü) və təəssüf olsun yerə ki, onun ayrılığından lərzəyə düşəcəkdir. Rəvadır ki, dünyanın Şərq və Qərbi O Həzrətin (s) ayrılığında qan ağlasın, Müzir və bütün Yəmən qəbilələri göz yaşı töksünlər. Varlığın əzəmətli dağı göz yaşı axıtsın, örtülmüş Kəbə və onun dirəkləri ağlasın. //"Ey Peyğəmbərlərin sonuncusu, (ki, nurun dünya bərəkətinin səbəbidir) Quranı nazil edən Allahın salamı sənə olsun!" //"Səndən sonra fitnələr qalxdı, müxtəlif sədalar ucaldı, əgər sən olsaydın, bəlkə ixtilaf və inhiraflar olmazdı. //Sən bizim aramızdan köçdün, daha bizim halımız yağış görməyən yerin vəziyyətinə oxşayır. Sənin qövmün bütün işlərin intizamını pozub, Sən şahid ol və onların işlərinə göz qoy".

Ravi deyir: Peyğəmbərin (s) vəfatından 7 gün sonra, səkkizinci gün Fatimə (s.ə) atasını ziyarət etmək niyyəti ilə evdən ağlaya-ağlaya çıxaraq qəbir üstünə yollandı. Atasının qəbri üstünə çatıb, ağlaya-ağlaya söylədi: "Atacan! Qüvvətim tükənib, səbrim qurtarıb, düşmənim sevinir, qəm-qüssə isə məni öldürür. Ey əziz Atam! Daha tənha qalmışam, səndən sonra səsim kəsilib, belim bükülüb, həyatım bir-birinə dəyib. Atacan! Səndən sonra dəhşətli günlərimi tək keçirirəm. İndi məni sakitləşdirən də yoxdur". Sonra nalə edərək bu sözləri buyurdu: "Qəm-qüssə günü-gündən artır. Atacan! Səndən sonra kim bu ümmətin

fəryadına yetişəcək? Ey Ata! Səndən sonra camaat bizdən üz döndərdi. Görəsən nə vaxt yanına gələcəyəm? İlahi, mənim ölümümü tezliklə yetir, çünki, dünya və həyat mənim üçün daralıb”.[1]

Fətal Nişaburinin “Rövzətül-vənzin” kitabında belə nəql olunur ki, Həzrəti-Fatimə (s.ə) 40 gün yataqda xəstə oldu və 40 gündən sonra vəfat etdi. Ölümün yaxınlaşdığını hiss etdikdə Əlini (ə) yanına çağırdı və Mövla Əliyə (ə) belə ərz etdi: “Ey əmim oğlu! Ölüm xəbəri mənə çatıb, elə bilirəm ki, az bir müddətdən sonra atam Peyğəmbərə (s) yetişəcəyəm. Ürəyimdə olanı sənə vəsiyyət edirəm”. Həzrəti-Əli (ə) buyurdu: “Ey Peyğəmbərin qızı! İstədiyini vəsiyyət elə”. Həzrəti-Fatimə (s.ə) ərz etdi: “Ey əmim oğlu! Mənimlə evləndiyin gündən məndən xəyanət görməmisən və heç vaxt səninlə müxalifət etməmişəm”. Əli (ə) buyurdu: “Xeyr, heç vaxt səndən elə şeylər görməmişəm. Sən həmişə daha agah, daha yaxşı və daha əziz olmusan. Səndən ayrılmaq mənə çox çətindir. And olsun Allaha, elə bil Peyğəmbərin (s) şəhadət müsibəti mənim üçün təkrarlanır. Səndən ayrılmaq və sənin yoxluğun mənim üçün çox böyük bir müsibətdir”. Həzrəti-Fatimə (sə) ərz etdi: “Ey əmim oğlu! Allah sənə xeyir və mükafat versin”.

Sonra belə vəsiyyət eylədi: 1.Məndən sonra Əmamə ilə evlən. 2.Mənim üçün tabut düzəlt. 3.Mənə zülm edənlərdən və haqqımı tapdalayanlardan heç biri mənim cənazəmin yanına gəlməsinlər, mənim üçün namaz qılmasınlar. Onlara itaət edənlər də gəlməsinlər. 4.Məni gecə camaat yuxuya gedəndən sonra dəfn edərsən”.

---

[1] Fəxrəddin Altan “Könlü oxşayan sözlər”

"Misbahul-ənvar" kitabında İmam Sadiqin (ə) atasından nəql etdiyi bir rəvayətdə belə oxuyuruq ki, Fatimə (s.ə) ehtizar (can üstündə olanda) vaxtında Əmirəl-mömininə (ə) belə vəsiyyət etdi: "Mən dünyadan gedəndə özün mənə qüsul ver, kəfənə tut, cənazəmə namaz qıl, qəbrə qoy, mənim ləhədimi düz və qəbrimə torpaq tök. Sonra başımın üstündə, üzümün müqabilində otur. Çox Quran oxu və dua et, çünki, o vaxt meyyitin dirilərlə ünsiyyətdə olmasına çox ehtiyac var. Mən səni Allaha tapşırıram və vəsiyyət edirəm ki, övladlarımla yaxşı rəftar edəcən".

Elə ki, gecənin bir hissəsi keçdi, Həzrəti-Əli (ə), İmam Həsən (ə), İmam Hüseyn (ə), Əmmar, Miqdad, Əqil, Zübeyr, Əbuzər, Salman, Bureydə və Bəni-Haşimdən bir neçə xüsusi şəxs Fatimeyi-Zəhranın (s.ə) cənazəsini evdən çıxarıb ona namaz qıldılar və gecə yarısı Xanımı torpağa tapşırdılar.

Həzrəti-Əli (ə) Fatimeyi-Zəhranın (s.ə) qəbrinin ətrafında 7 qəbir, başqa bir rəvayətə əsasən 40 qəbir qazdı ki, Fatimeyi Zəhranın (s.ə) qəbri tanınmasın.

Bu rəvayətlərdən də aydın görünür ki, Həzrəti-Fatimənin (s.ə) şərəfli qəbri dəqiq məlum deyil. Böyük ehtimala əsasən, bu üç yerdən birində dəfn olunubdur: 1.Peyğəmbərin (s) qəbrinin kənarında; 2.Bəqi qəbristanlığında; 3.Məscidül-Nəbidə Peyğəmbərin (s) qəbri ilə minbərinin arasında.

### Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) vəsiyyətnaməsi

Həzrəti-Əli (ə) Fatimeyi-Zəhranın (s.ə) üzündən parçanı götürdükdə, O Həzrətin (s.ə) başı üzərində bir məktub gördü. Onu götürdü və baxdı ki, o məktubda yazılıbdır:

“Bağışlayan və mehriban Allahın adı ilə. Bu Allahın Rəsulunun (s) qızı Fatimənin (s.ə) vəsiyyət etdiyi məktubdur: Fatimə şəhadət verir ki, bir olan Allahdan başqa Tanrı yoxdur, Mühəmməd (s) Allahın qulu və Peyğəmbəridir, Cənnət və Cəhənnəm haqdır, Qiyamətin bərpa olmasında heç bir şəkk-şübhə yoxdur. Allah-təala ölüləri qəbirdən çıxaracaqdır. Ey Əli (ə)! Mən Mühəmmədin (s) qızı Fatiməyəm (s.ə). Allah-təala məni səninlə evləndirdi ki, dünya və axirətdə sənin olam. Sən başqalarından mənə daha layiqsən. Mənə gecə hənut vur, qüsul ver, kəfənlə, gecə mənə namaz qıl və məni torpağa basdır və heç kəsə xəbər vermə. Səni Allaha tapşırıram və övladlarıma qiyamət gününə qədər salam göndərirəm”.

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) şəhid olmasının səbəbi

İmam Sadiq (ə) buyurur: “Fatimeyi-Zəhranın (s.ə) şəhid olmasının səbəbi bundan ibarətdir ki, 2-ci xəlifənin əmri ilə Qunfuz adlı qul qılıncın qını ilə Fatimeyi-Zəhraya (s.ə) bir zərbə vurdu. Həzrəti-Fatimənin (s.ə) bətnində olan övladı Möhsün bu zərbədən siqt oldu. Bu hadisə Xanımın (s.ə) şiddətli xəstəliyinə səbəb oldu və xəstəliklə də dünyadan köçdü”.

“Əl-Mənar”, “Qurtubi”, “Məraqi”, “Ruhul-Bəyan”, “Kəbir” təfsirlərində qeyd olunduğu kimi dünya qadınlarının önündə dörd qadın durur: “Məryəm (s.ə), Asiya (s.ə), Xədicə (s.ə) və Fatimə (s.ə)”. Əhli-beyt (ə.m) rəvayətlərində də qeyd olunmuşdur ki, Məryəm (s.ə) öz dövrünün ən üstün qadını olmuş, Həzrəti-Fatimə (s.ə) isə bütün dö-

vrlərin ən üstün Xanımıdır. Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) müqəddəs vücudunda müşahidə olunan nadir və misilsiz üstünlük və fəzilətlər O əziz Xanımı onunla bir sırada olan digər qadınlardan daha uca və şərəfli etmişdir. O, bu xüsusiyyətləri bəşəriyyətin kamil insanı, əziz İslam Peyğəmbəri Həzrəti-Mühəmməddən (s) qazanmış və möminlərin ağası Əmirəl-mömininin Əlinin (ə) müqəddəs ocağında yaşamaqla davam etdirmişdir. O Xanım 4 gözəl övlad böyütmüş və 4-ü də cəmiyyətin səadətə çatması yolunda əziz canlarından keçmiş və bəşəri zəlalətdən qurtarmaq yolunda əllərindən gələni əsirgəməmişlər. Fatimeyi-Zəhra (s.ə) bəşər tarixində ən uca bir zirvədə və parlaq bir nöqtədə dayanan müqəddəs simadır. Onun İlahi şəxsiyyəti bizim dərk və vəsf edəcəyimizdən daha ali və yüksəkdir. O xanım bütün haqsevər və ədalətpərəst insanların qəlbində iffət, şücaət və fəzilət siması tək daim yaşayacaqdır. Allahın rəhməti, bərəkəti və salamı olsun Həzrəti-Fatiməyə (s.ə) və onu sevənlərə!

# II HİSSƏ

## I BÖLÜM
## XANIM FATİMEYİ-ZƏHRANIN ƏSL-NƏCABƏTİ

### Həzrəti-Mühəmməd (s) kimdir?

İslam Peyğəmbəri Həzrəti-Mühəmmədin (s) babası Əbdülmüttəlibin on oğlu olmuşdur: Haris, Həmzə, Abdullah, Abbas, Əbu Talib, Zübeyr, Qiybaq, Məğum, Zirar və Əbu Ləhəb. Abdullah (ə) və Əbu Talib (ə) eyni xanımdan, qalanları isə digər xanımlardan dünyaya gəlmişdilər. Peyğəmbərin (s) doqquz əmisindən Əbu Ləhəbi çıxmaq şərtilə səkkizi sonralar İslamı qəbul etmişlər.

Əbu Ləhəb Həzrəti-Mühəmmədin (s) əmisi olmasına baxmayaraq, o Həzrətin (s) qatı düşmənlərindən olmuşdur. Belə ki, oğlanları Utbə və Uteybə İslamiyyətdən əvvəl Peyğəmbərin (s) qızları Ümmi-Gülsüm və Rüqəyyə ilə evlənmişdilər. Lakin, Həzrəti-Mühəmmədə (s) risalət verildikdən sonra Əbu Ləhəb o Həzrətə (s) əzab vermək üçün qızlarını boşatdırmışdır. Bununla da sakitləşməyən Əbu Ləhəb daim Həzrəti-Peyğəmbəri (s) izləmiş, Rəsulallaha (s) insanlar arasında Allahın əmrlərini çatdırmağa imkan verməmişdir. Əbu Ləhəbin arvadı Ümmi-Cəmil də ərindən geri qalmırmış, Peyğəmbərin (s) getdiyi yollara tikan düzmüş, Rəsulallahın (s) başına zibil tökmüşdür. Qurani-Kərimin “əl-Hicr” surəsinin 94 və 95-ci ayələrinin nazil olmasından

sonra Həzrəti-Peyğəmbər (s) Səfa təpəsinə çıxaraq insanları Allahın dininə dəvət etmək istəyərkən, Əbu Ləhəb o Həzrətə (s) qarşı çıxaraq Rəsulallaha (s) doğru daş atmışdır. Bu zaman Allah qatından müqəddəs Quranın "əl-Məsəd" ("Təbbət") surəsi nazil olmuş və Əbu Ləhəb ilə arvadının Cəhənnəm əhli olduğu bildirilmişdir.

Həzrəti-Mühəmməd (s) Amul-fil ilindən iki ay sonra, Miladi tarixlə 570-ci ildə, əhli-sünnəyə görə, Rəbiül-əvvəl ayının 12-də, əhli-şiəyə görə isə rəbiül-əvvəl ayının 17-də Məkkədə dünyaya gəlmişdir. Atası Abdullah ibn Əbdülmüttəlib (ə), anası isə Amənə binti-Vəhəbdir (s.ə). Abdullah Amənə ilə evləndikdən bir neçə ay sonra ticarət üçün Suriyaya getmiş və geri dönərkən yolda xəstələnib vəfat etmişdir[1]. Bundan üç ay sonra dünyaya gələn Həzrəti-Mühəmməd (s) doğma anası Amənədən cəmi üç gün süd əmmiş, sonra isə, islami mənbələrə görə iki xanım – Subiyə və Həlimə Həzrəti-Mühəmmədə (s) süd vermişlər. Həzrət-Mühəmmədin (s) əmisi Əbu Ləhəbin kənizi olan Subiyə o Həzrətə (s) dörd ay süd vermiş, süd analığı etmişdir. İslami mənbələrə görə Subiyə Həzrəti-Mühəmmədin (s) əmisi Həzrəti-Həmzənin də süd anası olmuşdur[2]. Subiyənin bu yaxşılığını unutmayan Həzrəti-Mühəmməd (s) onu alıb, azad etmək istəsə də, əmisi Əbu Ləhəb buna razı olmamışdır. Bəni-Əsəd qəbiləsindən olan Həlimə binti-Əbu Züeyb Həzrəti-Mühəmmədə (s) süd verən ikinci xanımdır. Tarixi mənbələrə görə, Həzrəti-Mühəmməd (s) təxminən beş il Bəni-Əsəd qəbiləsində qalır. Bu müddət ərzində Həlimə o

---

[1] Möhsin əl-Əmin. Əyamuş-Şiə. Icild, səh218; İbn Səd, Təbəqat, I cild, səh 99-100.
[2] Cəfər Sübhani. Həzrəti-Mühəmməd (s), səh 97.

Həzrəti (s) iki və ya üç dəfə anası Amənənin ziyarətinə gətirir. İlk dəfə südəmərlik dövrü başa çatdıqdan sonra Həzrəti-Mühəmmədi (s) Məkkəyə gətirən Həlimə bir neçə gündən sonra o Həzrəti (s) yenidən özü ilə Bəni-Əsəd qəbiləsinə qaytarır.

Həzrəti-Mühəmmədin (s) ikinci dəfə Məkkəyə gətirilməsinin səbəbi Həbəşistan (indiki Efiopiya) ruhanilərinin Bəni-Əsəd qəbiləsinə gəlməsi olmuşdur. Onlar Həzrəti-İsadan (ə) sonra dünyaya gələcək sonuncu peyğəmbərin nişanələrini Həzrəti-Mühəmməddə (s) gördükdə, o Həzrəti (s) özləri ilə Həbəşistana aparmaq istəmişlər[1]. Beş ildən sonra Həlimə Həzrəti-Mühəmmədi (s) anası Amənəyə qaytarır. Bu vaxtdan etibarən o Həzrət (s) anası ilə birlikdə babası Əbdülmüttəlibin (ə) yanında yaşamağa başlayır[2].

Bir müddət sonra vəfat etmiş əri Abdullahın qəbrini və qohumlarını ziyarət etmək məqsədilə Əbdülmüttəlibdən icazə alan Amənə Həzrəti-Mühəmmədi (s) və köməkçisi Ümmi-Əyməni də götürərək Yəsribə (Mədinəyə) səfər edir. Lakin, bu səfər Həzrəti-Mühəmmədin (s) acı xatirələr yaşamasına səbəb olur. Atası Abdullahın və dayılarının qəbrini ziyarət edib geri qayıdarkən Əbva adlı məntəqədə anası Amənə dünyasını dəyişir. Beləliklə, o Həzrət (s) altı yaşında olarkən ata-anadan yetim qalır. Ümmi-Əymənin köməkliyi ilə Məkkəyə gəlib çatan Həzrəti-Mühəmməd (s) altı yaşından səkkiz yaşınadək babası Əbdülmüttəlibin himayəsində yaşayır.

Miladi tarixlə 578-ci ildə Əbdülmüttəlibi də itirən Həzrəti-Mühəmməd (s) səkkiz yaşından əlli yaşınadək əmisi

---

[1] Cəfər Sübhani. Həzrət Mühəmməd (s), səh 102

[2] Sireyi ibn Hişam. I c, səh.167.

Əbu Talibin (ə) himayəsində yaşamışdır. Bu illər o Həzrətin (s) həyatında əlamətdar hadisələrlə zəngin olmuşdur.

Tarixi mənbələrə görə, Həzrəti-Mühəmmədi (s) on beş və ya iyirmi yaşında olarkən, Qureyş və Həvazin qəbilələri arasında baş verən Ficar (haram aylarda baş verdiyi üçün belə adlanmışdır) döyüşündə iştirak etmiş, lakin, bu döyüşdə heç kimi öldürməmişdir. Ümumiyyətlə, İslamiyyətdən əvvəl ərəblərin tarixində dörd Ficar döyüşü baş vermişdir ki, Həzrəti-Mühəmməd (s) yalnız onların sonuncusunda iştirak etmişdir.

Gənc yaşlarında olarkən Həzrəti-Mühəmmədin (s) həyatında baş verən önəmli hadisələrdən biri də "Hilful-Füzul" adlı ittifaqın bağlanmasıdır. İbn Əsirə görə ittifaqı bağlayanların hər üçünün adı Fəzl olduğu üçün o, belə adlanmışdır.

Qureyşilərin də bir-biri ilə bağladığı ittifaqın məzmunu eyni olduğundan o da "Hilful-Füzul" adlandırılmışdır. Məzlumların hüquqlarının qorunmasına xidmət edən bu mərasimdə Həzrəti-Mühəmməd də (s) iştirak eimişdir. Sonralar o Həzrət (s) bu ittifaq barəsində belə buyurmuşdur: "Abdullah ibn Cədanın evində bağlanmış ittifaqa məni indi də dəvət etsələr, yenə qəbul edərəm".

Əmisi Əbu Talibin (ə) himayəsi altında boya-başa çatan Həzrəti-Mühəmməd (s) uşaqlıq illərində çobanlıq etmiş, yeniyetmə yaşlarına çatanda isə Əbu Taliblə (ə) birlikdə ticarətlə məşğul olmuşdur. Yalanla arası olmayan və heç zaman yalan danışmayan, əmanətə xəyanət etməyən Həzrəti-Mühəmməd (s) hələ iyirmi yaşına yetməmiş Məkkədə "Əmin" ləqəbi ilə məşhurlaşmışdır.

İyirmi beş yaşına çatan zaman Əbu Talibin (ə) məsləhə-

ti ilə Əsəd qəbiləsindən olan və İslam tarixinə Xanım Xədicə (s.ə) adı ilə düşən Xədicə binti-Xüveylid adlı zəngin bir qadının ticarət karvanına qoşulan Həzrəti-Mühəmməd (s) Şama yola düşdü. Bu haqda böyük İslam alimi Əllamə Məclisi belə deyir: "Əbu Talib (ə) Həzrəti-Mühəmmədin (s) yanına gəlib dedi: "Ya Mühəmməd! Səni evləndirmək istəyirəm, amma, bunun üçün mənim heç bir malım yoxdur. Xədicə bizim yaxınlarımızdandır. O hər il Qureyşə öz malından verib onlarla ticarət edir. Onlar ondan yük dəvələri götürüb səfərə çıxırlar. Sən də ticarət etmək istəyirsənmi?" O Həzrət (s) buyurdu: "Bəli". Əbu Talib (s.ə) Xanım Xədicənin (s.ə) yanına gəlib əhvalatı danışdı. O Xanım (s.ə) bundan sevinib xidmətçisi Meysərəyə buyurdu: "Sən və bu malların hamısı Mühəmmədin (s) ixtiyarındasınız…". Beləliklə, Həzrəti-Mühəmməd (s) həmin səfərə çıxdı və çoxlu gəlirlə geri döndü. Meysərə o Həzrətə (s) dedi: "Ya Mühəmməd (s), əgər icazə versən Məkkəyə səndən tez yetişər, çoxlu gəlirlərimizin olması haqqında Xanım Xədicəyə (s.ə) xoş xəbər verərəm". Həzrəti-Mühəmməd (s) Meysərəni dediyi kimi yola saldı. Onlar Məkkəyə yetişəndə Xanım Xədicə (s.ə) otağında qadınlarla oturmuşdu. O Xanım (s.ə) Həzrəti-Mühəmmədi (s) minikdə başı üstündə bir parça bulud, sağ tərəfində bir, sol tərəfində isə digər bir mələk görüb heyrətləndi və belə buyurdu: "Bu minik əhli böyük əzəmət sahibidir…". Sonradan Xanım Xədicə (s.ə) Həzrəti-Mühəmmədə (s) evlənmək təklifini verdi. Əbu Talib (ə) bu təklifi qəbul etdi və nikah əqdini oxudu. Həzrəti-Mühəmməd (s) əmisi ilə evə dönmək istədikdə o Xanım (s.ə) buyurdu: "Evinizə gedirsinizmi? Mənim evim sənin evindir, mən isə xidmətçinəm".

Bu müqəddəs evlilikdən Həzrəti-Mühəmmədlə (s) Xanım Xədicənin (s.ə) altı övladı oldu: dördü qız (Zeynəb, Ümmi-Gülsüm, Rüqəyyə və Fatimə), ikisi isə oğlan (Qasim və Təyyib ya Tahir ləqəbli Abdullah)[1]

Həzrəti-Mühəmmədin (s) Xanım Fatimədən (s.ə) başqa bütün uşaqları o Həzrətin (s) sağlığında vəfat etmişlər. Sonralar Həzrəti-Mühəmmədin (s) Mariya Qibti adlı bir qadından İbrahim adlı oğlu olmuşdu ki, o da on səkkiz aylığında ikən Həzrətin (s) sağlığında vəfat etmişdi[2].

Həzrəti-Mühəmməd (s) mübarək ömrünün 40 yaşınadək hissəsini Məkkənin ətrafında olan Hira mağarasında Allaha ibadətlə keçirmiş, miladi 610-cu ildə Allah tərəfindən o Həzrətə (s) ilahi kəlam (vəhy) nazil olmuşdur. Əhli-beytdən (ə.m) gələn mötəbər xəbərlərə görə, Həzrəti-Mühəmmədə (s) 40 yaşında ikən Rəcəb ayının 27-ci günündə insanlıq üçün ali məqam sayılan Peyğəmbərliklə vəzifələndirilmişdir. İslami mənbələrə görə, Peyğəmbərə (s) ilk nazil olan ayələr bunlar idi: “Yoxdan yaradan Rəbbinin adı ilə oxu”. “O, insanı laxtalanmış qandan yaratdı”. “Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir”. “O Rəbbin ki, qələmlə öyrətdi, o Rəbbin ki, insana bilmədiklərini öyrətdi”.[3]

Bu ayələr Hira mağarasında nazil olarkən Rəsulallah (s) qorxu içərisində evə Xanım Xədicənin (s.ə) yanına gəlmiş və yatağına girərək üstünün örtülməsini istəmişdir[4]. Allahtəala tərəfindən Peyğəmbər (s) (ilahi elçi) seçilən Həzrəti-Mühəmmədə (s) ilk iman gətirən şəxs elə Xanım Xədicə olmuşdur.

---

[1] Əyənuş-Şiə. I c., səh 223
[2] Həmin mənbə.
[3] “Ələq”, 1-5
[4] Əyənuş-Şiə. I c.

Həzrəti-Mühəmmədin (s) Peyğəmbər seçilməsi ilə Allah-təala peyğəmbərliyə (ilahi elçiliyə) son qoymuş, əvvəlki peyğəmbərlərin (ə) Allahın hökmü ilə gətirdikləri şəriətləri aradan qaldırmış (nəsx etmiş) və bununla da irqindən, millətindən, sosial vəziyyətindən asılı olmayaraq bütün insanların vahid birliyə – İslama girmələrini vacib buyurmuşdur. Həmçinin, Allah-təala Həzrəti-Mühəmmədin (s) vasitəsilə yer üzərindəki xurafat, əqidəsizlik və pozğunluğun kökünü kəsdi. Dünyanın bütün bölgələrinə car çəkib xəbərlər göndərən Peyğəmbər (s) insanları imana, sonuncu kamil din olan İslama dəvət etdi. O Həzrət (s) tez bir zamanda ətrafında olan insanların böyük əksəriyyətini təkallahlılıq inancına "Allahdan başqa ibadətə layiq məbud yoxdur və Mühəmməd (s) onun Rəsuludur" ifadəsi altında birləşdirərək Qiyamətədək əbədiyaşar İslam dinini qurdu. Rəsulallah (s) bütün mömünlərin qardaş olduğunu, onların bir-birilərindən yalnız təqvaya görə üstün olduğunu bəyan edərək qanuni, ədalətli və azad bir cəmiyyət yaratdı. On iki ilə yaxın bir müddət ərzində İslam dinini Məkkədə yayan Peyğəmbər (s) sonda Yəsribə (Mədinəyə) hicrət etdi. 622-ci ilin ortalarında Yəsribə gələn Peyğəmbər (s) orada tarixində heç vaxt misli görünməmiş federativ bir dövlət qurdu. Tarixdə Peyğəmbərlik missiyası ilə yanaşı böyük bir dövlət xadimi kimi də yad edilən Həzrəti-Mühəmmədi (s) etdiyi əməllər, atdığı addımlar ilahi vəhyə dayanmışdır. İslam alimi Məhəmməd Həmdullah Peyğəmbərin (s) qurduğu dövlətin 47 maddədən ibarət Konstitutsiyasının olduğunu qeyd edir[1].

---

[1] Məhəmməd Həmdullah. İslam Peyğəmbəri. I c.

Mədinə şəhərində 10 il İslamı təbliğ edən Həzrəti-Mühəmməd (s) çox qüdrətli bir dövlət yaratmış, pərakəndə olan ərəb qəbilələrini bir araya gətirmiş, bir sözlə Ərəbistan yaramadasında güclü vahid cəmiyyət yaratmışdır. Bundan əlavə o Həzrət (s) qonşu dövlət başçılarına məktublar göndərmiş və onları islama dəvət etmişdir. Həmçinin, Peyğəmbər (s) İslam uğrunda gedən müxtəlif döyüşlərdə iştirak etmiş, əsgəri bir həyat yaşayaraq, bacarıqlı bir sərkərdə kimi Allah yolunda cihad etmişdir. Mənbələrin verdiyi məlumatlara görə, Peyğəmbərin (s) şəxsən işitrak etdiyi döyüşlərin sayı 28 və ya 27 olmuşdur.[1] Lakin, Rəsulullahın (s) şəxsən göstərişi ilə yaranan, amma, müəyyən səbəblər üzündən orada iştirak etmədiyi döyüşlərin (səriyyə) sayı 45 və ya 47 olmuşdur[2].

Həzrəti-Mühəmmədin (s) qəzvə və səriyyələrinə, ümumiyyətlə, bütün həyatına nəzər salınsa, məlum olacaqdır ki, o Həzrətin (s) İslama dəvəti heç də müharibə və insan qətli üzərində qurulmamışdır. Rəsulullahın (s) İslama dəvəti ilahi hikmətə və gözəl moizəyə əsasən yayılmışdır. Bəlkə də elə bu səbəbdəndir ki, Peyğəmbərin (s) ecazkar səsini (dəvətini) eşidən toplumun böyük əksəriyyəti cəm halında İslama daxil olmuş, əqidələrini bu ilahi din vasitəsilə təmizə çıxarmışlar. Beləliklə, 40 yaşında Peyğəmbər olan Həzrəti-Mühəmməd (s) təxminən 23 il Allahdan aldığı vəhy və ilahi əmrə tabe olaraq İslam dinini təbliğ etmiş və 63 yaşında vəfat etmişdir. Məzarı Müqəddəs Mədinə şəhərindədir və insanların ziyarətgahıdır.

---

[1] "Ayənuş-Şiə", I cild, səh. 245
[2] Həmin mənbə

## Həzrəti-Xədicə (s.ə) kimdir?

Xanım Xədicə (s.ə) Həzrəti-Peyğəmbərin (s) ilk həyat yoldaşı, o Həzrətə (s) inanan ilk insan, Qureyşin Rəsulullahı (s) təkzib etdiyi, Rəsulallaha (s) qarşı düşmən mövqeyində durduğu zaman Peyğəmbəri (s) dəstəkləmiş və dediklərini təsdiq etmiş nəcib bir qadındır. Atası Xuveylid, anası Fatimədir[1]. Xanım Xədicənin (s.ə) ata tərəfdən soyu Quseydə Peyğəmbərin (s) ata tərəfdən soyu ilə birləşdiyi kimi, ana tərəfdən də soyu yenə Rəsulallahın (s) ata tərəfdən babası olan Lübeydə birləşməkdədir[2].

Ticarətlə məşğul olan Xədicə zəngin, heysiyyətli və şərəfli bir qadın idi. Həzrəti-Mühəmmədin (s) doğru sözlü, gözəl əxlaqlı və son dərəcə güvənilən bir insan olduğunu öyrənincə, o Həzrəti (s) ticarətinə ortaq olmağa dəvət etdi. Həzrəti-Mühəmməd (s) Xədicənin bu təklifini qəbul etdikdən sonra Xədicə (s.ə) o Həzrətin (s) başçılığı altında Şama bir ticarət karvanı göndərdi. Ticarət boyunca Həzrəti-Mühəmmədin (s) yanında olan Meysərə (Xədicənin köləsi) o Həzrətin (s) gözəl davranışlarının bir daha şahidi oldu. Geri qayıtdıqdan sonra həm ticarətin uğurlu olmasından, həm də Həzrəti-Mühəmməd (s) haqqında Meysərənin dediklərindən razı qalan Xanım Xədicə (s.ə) o Həzrətə (s) evlənmək təklif etdi[3].

Əmirəl-möminin Əlinin (ə) atası Əbu Talibin (ə) razılığından sonra Miladi tarixlə 595-ci ildə bu müqəddəs evli-

---

[1] Ibn İshaq əs-Sirə. Nesr. Muhəmməd Hamdillah, səh. 60
[2] M.Asim Köksal. İslam tarihi, Mekke devri, səh. 96.
[3] Ibn İshaq əs-Sirə. Nesr. Muhəmməd Hamdillah, səh. 59

lik baş tutdu. Nikah da Əbu Talib (ə) tərəfindən kəsildi[1]. Mənbələrə görə həmin vaxt Həzrəti-Mühəmməd (s) 25, Xədicə isə 40 yaşında idi[2].

Bu izdivacdan Həzrəti-Mühəmmədin (s) Abdullah, Qasim adlı oğlanları, Zeynəb, Rüqəyyə, Ümmi-Gülsüm və Xanım Fatimə (s.ə) adlı qızları dünyaya gəlmişdir. Övladlarından Xanım Fətiməni (s.ə) çıxmaqla digərləri Həzrəti-Mühəmmədin (s) sağlığında vəfat etmişlər. Xanım Fatimə (s.ə) isə Həzrəti-Mühəmməddən (s) 75 gün sonra vəfat etmişdir.

Xanım Xədicənin (s.ə.) Peyğəmbərin (s) yanında olmaqla Allahın dininin qələbəsi naminə nümayiş etdirdiyi əzəmətli mövqeyi əvəzsizdir. İsmail Buxari "Əs-Səhih" əsərində, eləcə də digər rəvayətçilər Xanım Aişədən belə rəvayət edirlər: "Rəsulallah (s) Hira mağarasında ilk dəfə ona vəhy nazil olduqdan sonra evə qayıdaraq Xədicə (s.ə) Xuveylid qızının yanına gəlib buyurur: "Özümə görə qorxdum". Cavabında Xədicə (s.ə.) belə deyir: "Əsla qorxma! And olsun Allaha ki, o, Səni heç vaxt rəzil etməz. Həqiqətən, Sən qohum-əqrəba ilə daimi ünsiyyətdə olan, kimsəsizlərin əlindən tutan, yoxsulun ehtiyacını ödəyən, qonağın qulluğunda duran və məzluma yardım edənsən". Sonra Xədicə (s.ə) Onu Cahiliyyə dövründə nəsraniliyi qəbul etmiş əmisi oğlu Vəraqa bin Nofəl bin Əsəd bin Abdul Uzzanın yanına gətirərək deyir: "Ey əmioğlu, qardaş oğluna qulaq as!". Vəraqa ona deyir: "Ey qardaş oğlu, nə bilirsən?". Rəsulullah (s) mağarada gördüklərini ona danışır. Vəraqa deyir: "Bu, Allahın Musaya (ə) nazil etdiyi

[1] İbn Səd. Təbaqat. VIII c, səh. 9
[2] İbn Həcər. əl- İsabə. səh. 539

vəhydir. Kaş ki, sənin qohum əqrəbanın (qövmünün) sənə təzyiq göstərəcəyi (səni qovacaqları) zaman sağ olaydım". Rəsulallah (s) buna təəccüb edərək soruşur: "Onlar mənə təzyiq göstərəcəklər (məni qovacaqlar)?". Vəraqa deyir: "Bəli, sənin qarşılaşdığın vəziyyətlə qarşılaşan hər kəs təzyiqə məruz qalmış, düşmənçiliklə üzləşmişdir. Əgər o günü görsəm, səni dəstəkləyəcəyəm".

Möminlərin anası Xanım Xədicə (s.ə.) Qureyşin sərtliyinə, inadkarlığına və gücünə yaxşı bələd idi. Eyni zamanda, Xanım Xədicə (s.ə) Həzrəti-Mühəmmədin (s) qohum-əqrəbasının o Həzrətə (s) qarşı təzyiqlər edərək müharibəyə başlayacağını da eşitmişdi. Lakin, bütün bünlara baxmayaraq o Xanım gözlənilən fırtınaya qarşı duraraq, Allah yolunda hər cür əziyyət və məşəqqətin Qureyşə qarşı çıxmaq kimi çətin bir vəzifənin öhdəsindən gəlmək qərarına gəlmişdi. Buna görə də Rəsulullah (s) Xanım Xədicəni (s.ə) Allahın izni ilə cənnətlə müjdələmişdi. Belə ki, İsmail əl-Buxari "Əs-Səhih" əsərində və digər rəvayətçilər Əbu Hüreyrədən rəvayət edirlər: "Cəbrail (ə) Peyğəmbərin (s) yanına gedərək buyurmuşdur: "Ey Allahın elçisi, bu, Xədicədir (s.ə), onunla sənə içərisində yağ, (qatıq), yemək və içmək olan bir qab gəlmişdir. O, yanına gələndə uca və əzəmətli Rəbbindən və məndən ona salam de, onu Cənnətdə səs-küysüz, dərdi-sərdən uzaq möhtəşəm bir ev ilə müjdələ[1]".

Həzrəti-Peyğəmbər (s) həyat yoldaşı Xanım Xədicənin (s.ə) o Həzrəti (s) və Allahın dinini necə dəstəklədiyi barədə belə buyurmuşdur: "O, insanların küfr etdiyi zaman iman gətirmiş, insanların məni təkzib etdikləri zaman mənə dəstək vermiş və insanların məni öz var-dövlətim-

---

[1] İbn Hişam. Sirə, I c. səh. 257

dən məhrum etdikləri zaman məndən öz var-dövlətini əsirgəməmişdir”; “Xədicə (s.ə) Allah və Rəsuluna (s) inanan və dediklərini təsdiq edən ilk insan olmuşdur. Bununla da Allah Peyğəmbərə (s) təskinlik vermişdir. Allahın elçisi ona qarşı çıxmaq kimi sevmədiyi bir şey eşitdiyi zaman o Onu təsbit edər və insanların bu kimi əməllərini onun gözündə yüngülləşdirərdi”.

Xanım Xədicə (s.ə) Haşim oğulları Əbu Talib (ə) dərəsindən çıxdıqdan sonra Besətin sonuncu ilinin ramazan ayının onunda 65 yaşında ikən vəfat etmiş, Həcun məzarlığında dəfn edilmişdir.[1] Xanım Xədicəni (s.ə) Rəsulallah (s) özü qəbrə qoymuş, sonra evləndikləri gündən etibarən özünə yardımçı olduğu, son nəfəsinə qədər yanında cihadına ortaq olduğu sevimli həyat yoldaşına vida edib, kədər içində evinə yollanmışdı. Qızları Ümmi-Gülsümü və Fatiməni (s.ə) bağrına basan Peyğəmbər (s) onlara təsəlli vermiş, rastlaşdıqları müsibətə görə onlara dəstək olmağa çalışmışdır.

Həzrəti-Peyğəmbər (s) yəqin etmişdi ki, Xanım Xədicənin (s.ə) vəfatından sonra Məkkədə yaşamaq o Həzrət (s) üçün çətin olacaq. Əmisi Əbu Talibin (ə) və həyat yoldaşı Xanım Xədicənin (s.ə) ölümündən sonra Rəsulallahın (s) başına müxtəlif fəlakətlər də gəlmişdi.

Xanım Xədicə (s.ə) Həzrəti-Peyğəmbərin (s) İslami yöndən sadiq yardımçısı olmuşdur. Peyğəmbər (s) o Xanımı (s.ə) anmadan evdən çıxmazmış.

Həzrəti-Peyğəmbərin (s) həyatına Xanım Xədicədən (s.ə) sonra başqa qadınlar girsə də, aralarında uşağı olanlar, gözəl olanlar, soylu olanlar olsa da onların heç biri o Xanımın (s.ə) tutduğu mövqeyi qazana bilməmişdi.

---

[1] M.Asim Köksal. İslam tarihi, Mekke devri, səh. 302

Rəsulallah (s) həyatının sonuna qədər qəlbi, mənəvi dünyası və səmimiyyəti ilə Xanım Xədicəyə (s.ə) sadiq qalmışdır. Peyğəmbərin (s) Bədr zəfərindən sonra qureyş əsirlərinin fidyə qarşılığında sərbəst buraxılmasına şahid olmuş, Xanım Xədicəyə (s.ə) aid bir gərdanlığın, qızı Zeynəb (s.ə) tərəfindən əri Əbul-As ibn Rəbiənin əsirlikdən qurtarılması üçün fidyə olaraq göndərdiyini görmüş, qəlbi kədərdən sıxılmış, zəfər əldə etmiş dostlarından bu gərdanlığın qızı Zeynəbə (s.ə) iadə edilib Əbul-Asın sərbəst buraxılmasını istəmişdir.

Peyğəmbərin (s) həyat yoldaşı Xanım Aişə belə nəql edir: "Xədicənin (s.ə) bacısı Halə Mədinəyə gəlmişdi. Rəsuli-Əkrəm (s) evinin önündə Halənin mərhum xanımının səsinə bənzəyən səsini eşidincə həyəcanla: "Aman Allah! Bu Halə!.." deyə nalə etdi. "Mən özümü saxlaya bilməyərək: "Allah sənə ondan daha xeyirlisini vermişkən, Qureyşin qoca qadınlarından olan bu qadını nə çox xatırlayırsan?" dedim. Bu vaxt Rəsulallahın (s) rəngi dəyişdi, əsəbi halda mənə buyurdu: "Vallahi, Allah mənə ondan daha xeyirlisini vermədi; insanlar məni inkar etdiyində o mənə inandı, insanlar məni yalanladığında o məni təsdiq etdi, insanlar məni (mühasirəyə alıb, hər şeydən) məhrum etdiyində malıyla o dəstəklədi. Digər qadınlardan olmadığı halda, Allah onunla mənə uşaq ehsan etdi". Mən: "Vallahi, bundan sonra onu heç dilimə almayacağam" dedim və səsimi kəsdim".

Bir gün Rəsulallah (s) Xanım Xədicəni (s.ə) anınca xanım Aişə belə dedi: "Sanki dünyada Xədicədən başqa qadın yox kimi…". Rəsulallah (s) da bu qarşılığı verdi: "O, belə, belə… idi. Mənim ondan övladım da oldu..".

Xanım Aişə Rəsulallahın (s) hər dəfə bir qoyun kəsdiyində: "Onu Xədicənin dostlarına göndərin" – deyə buyur-

duğunu görüb dayanırdı. Bir dəfə Xanım Aişə bu mövzuda danışınca Peyğəmbər (s) buyurdu: "Mən Xədicənin (ə) sevdiklərini sevirəm". "Səhihi-Müslim"dəki bir rəvayətdə Peyğəmbərin (s) belə buyurduğu zikr edilir: "Mənə onun sevgisi bəxş edildi". Yəni, Xanım Xədicəni (s.ə) sevmək islami bir fəzilətdir. Peyğəmbər (s) Məkkəni fəth edərkən, Xanım Xədicənin (s.ə) vəfatından 10 ildən artıq bir müddət keçməsinə baxmayaraq, fəthə nəzarət etmək üçün o Xanımın qəbrinin yaxınlığını seçmişdi. Fəthdən sonra istər Kəbəni təvaf edərkən, istər bütləri yıxarkən, istərsə də zaman-zaman Xədicənin (s.ə) evinə gedərkən Rəsulallah (s) o xanımın mənəvi varlığıyla yaxınlıq hiss etmişdi.

Fəxrün-nisadan (Xanımlar fəxrindən) (s.ə) sonra milyonlarla qadın islamı qəbul etsə də, o xanım İslam Peyğəmbərinin (s) həyatındakı rolu üçün Allahın seçdiyi ilk qadın özəlliyini qoruyub saxlamışdı.

Həzrəti-Mühəmmədə (s) həyat yoldaşı kimi Xanım Xədicənin (s.ə) yeri boş qalmışdı. Çünki, o xanım Rəsulallaha (s) nümunəvi sevgi, sədaqət və vəfa bəxş etmiş, malından, yeri gələndə isə canından belə keçmişdir[1].

Tarix şəfqət və cəfada Xanım Xədicədən (s.ə) daha şərəfli bir qadına şahidlik etməmişdi. Çünki, o Xanım (s.ə) dünya durduqca müsəlman qadınlarına hər yönü ilə nümunəvi islam qadını olmağa davam edəcək, adı hörmət və rəhmətlə çəkiləcək, Qiyamətə qədər dillərdən düşməyəcək. Xanım Xədicə (s.ə) əməli saleh qadın nümunəsidir. İman və səbrdə, iffət və gözəl əxlaqda bənzərsiz bir xanımdır. Xanım Xədicə (s.ə) Uca Allahın salamına və Rəsulallahın

---

[1] Abdulaziz əş-Şennari. Sahabe hayatından tablolar. (Hanım sahabiler), Uysal kitab evi. 3/9-27.

(s) sevgisinə nail olacaq dərəcədə fəzilətli və şərəfli bir qadındır. Rəsulallah (s) buyurmuşdur: “Məsihi qadınlarının ən xeyirlisi İmranın qızı Məryəm (s.ə), müsəlman qadınlarının ən xeyirlisi isə Xüveylidin qızı Xədicədir (s.ə)”.

Bü bölümü el şairi Kərəm Kürqıraqlının “Xədiceyi-Kübranın (s.ə)” şəninə həsr etdiyi bir şeirlə yekunlaşdırırıq:

Peyğəmbərə olan məhəbbətiylə,
Eşqin binasıydı Xədiceyi-Kubra.
Cəmi qadınlığın başının tacı,
Rəsul sonasıydı Xədiceyi-Kubra.

Talеləri birgə ötüşməsəydi,
Məqamı çatanda bitişməsəydi,
Ali-peyğəmbərə yetişməsəydi,
Daim yanasıydı Xədiceyi-Kubra.

Əli yetişdikcə sərvətə, vara,
Rəsul müşkülünə çatırdı kara.
Əhli-beyt yolunda Rəsuldan sonra
Ömrün mənasıydı Xədiceyi-Kubra.

Hopsa da ruhuna həm fəryad, həm ün,
Onun vücudunda qərarlaşdı din.
Cəm on dörd məsumun, həm Əhli-beytin
Qanlı sinəsiydi Xədiceyi-Kubra.

Kərəm, mətləbimi qoy eyləyim car,
O, bir yaqut idi, Rəsul xiridar.
Daha bundan böyük nə xəzinə var,
Zəhra anasıydı Xədiceyi-Kubra.

## Bəs Həzrəti-Fatimeyi-Zəhra (s.ə) kimdir?

Adı: Fatimə (s.ə)
Ləqəbi: Zəhra (s.ə)
Künyəsi: Ümmül-əimmə (İmamların anası)
Atası: Allahın Rəsulu Həzrəti-Mühəmməd (s)
Anası: Xədiceyi-Kubra (s.ə)
Təvəllüdü: Be`sətin 5-ci ili cəmadiyüs-sani ayının 20-si (miladi 615-ci il), Məkkə şəhəri
Həyat yoldaşı: Əmir`əl-möminin Əli ibn Əbu Talib (ə)
Övladları: Həsən (ə), Hüseyn (ə), Zeynəb (s.ə), Ümmi-Gülsüm (s.ə), Möhsin (ə). ("Tasul-əruz" və "Lisanul-ərəb" kitablarında yazılıb: "Şübbər, Şübeyr və Müşəbbər Həzrəti-Musanın (ə) qardaşı Harunun (ə) övladlarının adı olmuşdur. Həzrəti-Əli (ə) Allahın əmri və Peyğəmbərin (s) təklifi ilə bu adları öz övladlarına qoydu).
Şəhadət zamanı: Hicrətin 11-ci ili cəmadiyüs-sani ayının 3-ü (miladi 632-ci il)
Qatili: Qunfuz
Müqəddəs məzarı Mədinə şəhərində. (İndiyə qədər o Xanımın (s.ə) dəfn olunduğu yer dəqiq məlum deyil və öz vəsiyyətinə görə gizli saxlanılmısdır.)
Ömrü: 18 il.

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) əxlaqi keyfiyyətləri

Hər bir müsəlman üçün sonsuz hörmət və dəyər sahibi olan, paklıq və ülvilik nümunəsi sayılan Xanım Fatimeyi-Zəhra (s.ə) İslam dünyasında özünəməxsus yüksək məqama malikdir. Bu müqəddəs xanımın ali dəyərlərlə zəngin

həyatı, bütün ictimai-siyasi sahələri əhatə edən mənalı ömrü insanlığa nümunə olan kamil və bənzərsiz bir qadının həyat yoludur.

Xanım Fatimə (s.ə) pak və ismətli bir qadın olmaqla yanaşı, eyni zamanda yorulmaz və şücaətli bir mübariz idi. Elə bir mübariz qadın ki, həqiqət yolundan azmış zülmkarların, nifaq salanların, öz mənfəətlərini güdən siyasətbazların, İslama qarşı çıxanların qarşısında öz haqq səsini ucaldaraq bu yolda qətiyyətlə irəliləmiş, hətta öz canını belə qurban verməkdən çəkinməmişdir. Xanımlar xanımı Fatimeyi-Zəhra (s.ə) tarixi və ictimai-siyasi hadisələrə dərindən bələd olan bir şəxs olmaqla bərabər, həm də kamil bir zahid, ilahi elmlər üzrə yetkin bir alim, nümunəvi bir ana, ən yüksək dərəcəli müəllim, sədaqətli və vəfalı həyat yoldaşı idi. Ata evində atasının ən yaxın dostu və yardımçısı olan Xanım Zəhra (s.ə) məsum ərinin evində də bu hərəkət və davranışını davam etdirmiş, onun ən yaxın köməkçisi və sirdaşı olmuşdur. Allahın Rəsulu (s) o əziz Xanım (s.ə) haqqında dəfələrlə buyurmuşdur: "Fatimə mənim bir parçamdır. Hər kəs Fatiməni razı salsa, məni razı salmış və məni razı salan isə Allahı razı salmışdır. Və hər kəs Fatiməni qəzəbləndirsə, məni və Allahı qəzəbləndirmişdir".

Xanım Fatimeyi-Zəhra (s.ə) elə bir nümunə və örnəkdir ki, Qur`ani-Kərimdə onun bərəkətli vücudu İslam Peyğəmbəri (s) üçün Kövsərə, tükənməz və ən dəyərli hədiyyələrə bərabər tutulmuş, Həzrəti-Mühəmmədin (s) müqəddəs adının, şəfqətli məqamının və pak nəslinin davamı hesab olunmuşdur. O zamanlar kafir və müşriklərdən bir dəstə Peyğəmbəri (s) "nəsli kəsilmiş və sonsuz" adlandırır, onun nəslinin davamı yoxdur, ondan çoxlu övladlar və nə-

vələr olmayacaq, xələfsiz və arxasız qalacaq" deyirdilər. Lakin Allah-təala öz Rəsuluna (s) Kövsər surəsini nazil edərək bildirdi ki, qızı Fatimənin (s.ə) varlığı, onun övlad və nəvələri Peyğəmbər (s) nəslinin davamı üçün böyük bir dəlildir. Həmçinin, ona deyilən tənəli sözlərin əvəzində xəbərdar etdi ki, düşmənlərinin özü nəsli kəsilmiş və sonsuzdurlar. Böyük təfsirçilər və İslamşünas alimlər surədəki "Kövsər" sözünü Həzrəti-Fatimənin (s.ə) və övladlarının varlığına işarə edildiyini bildirmişlər.

Xanım Fatimeyi-Zəhranın (s.ə) müqəddəs vücudunda müşahidə olunan nadir və misilsiz üstünlük və fəzilətlər o əziz xanımı onunla bir sırada olan digər qadınlardan daha uca və şərəfli etmişdir. O, bu xüsusiyyətləri bəşəriyyətin böyük müəllimi, əziz və hörmətli atasından - Allahın Rəsulundan (s) qazanmış və möminlərin mövlası Həzrəti-Əlinin (ə) müqəddəs ocağında yaşamaqla davam etdirmişdir. O xanımlar Xanımı Həsən, Hüseyn və Zeynəb (s.ə) kimi uşaqlar tərbiyə etmişdir. Onların hamısı cəmiyyəti səadətə doğru aparmaqda rəhbərlik etmiş və bəşəri zəlalətdən qurtarmaq yolunda öz canlarını belə əsirgəməmişlər. Seyyidüş-şühəda İmam Hüseyn (ə) buyurmuşdur: "Məndə olan şücaət anam Zəhradan (s.ə) mənə keçmişdir. Çünki o məni tərbiyə etmiş və o paklıq onun südü ilə mənim ürəyimə daxil olmuşdur".

Bəli, Xanım Fatimeyi-Zəhra (s.ə) bəşər tarixində ən uca bir zirvədə və parlaq bir nöqtədə dayanan müqəddəs bir simadır. Onun ilahi şəxsiyyəti bizim dərk və vəsf edəcəyimizdən daha ali və yüksəkdir. O xanım bütün haqq sevər və ədalətpərəst insanların qəlbində iffət, şücaət və fəzilət timsalı tək daim yaşayacaqdır.

Allahın salamı olsun Ona və Onu sevənlərə.

## İlahi məqam sahibi

Allahın Rəsulu (s) sevimli qızı Xanım Zəhraya (s.ə) bənzərsiz sevgi bəsləyirdi. Həzrəti-Mühəmməd (s) buyurur: ”Qızım Fatimə (s.ə) camaat arasında mənə ən sevimli şəxsdir. Həqiqətən, Allah Fatimənin (s.ə) qəzəbi ilə qəzəblənir və onun razılığı ilə razı qalır. Mən qızımın adını Fatimə (s.ə.) qoydum. Çünki Allah onu və onun dostlarını Cəhənnəm odundan uzaq etmişdir”.

İslam Peyğəmbəri (s) sevimli qızına xüsusi ehtiram göstərərdi. Peyğəmbərin (s) olduğu yerə Xanım Zəhra (s.ə) qədəm qoyduqda Allahın Rəsulu (s) əzəmətli Xanımın müqabilində ayağa qalxar və əllərini öpərdi və yaxud səfər zamanı öz Əhli-beyti (ə.m) ilə vidalaşdıqda onların axırıncısı Xanım Fatimə (s.ə) olardı və səfərdən qayıtdıqda da Allah Rəsulunun (s) ilk görüşdüyü şəxs Xanım Fatimə (s.ə) idi.

Rəsuli-Əkrəm (s) sevimli səhabəsi Salmani-Mühəmmədə (r.ə) belə buyurub: “Ey Salman, Fatiməni (s.ə) sevmək yüz yerdə fayda verər. Onların ən asanı ölüm (canvermə), qəbir evi, mizandır (tərəzidir). Fatiməni (s.ə) sevən hər bir şəxs Cənnətdə mənimlə birgə olacaq və ona düşmənçilik edən hər bir şəxs isə Cəhənnəmdə olacaqdır ”.

## Həzrəti-Fatimeyi-Zəhra (s.ə) cənnət hurilərindəndir

Həzrəti-Mühəmməd Peyğəmbər (s) buyurur: “Fatimə (s.ə) insan şəkilində yaradılan bir huridir”.

Bu hədisin mənası çox böyükdür və hər kəsdə bu hədisi dərk etmə qüdrəti yoxdur. O cümlədən, Həzrəti-Zəhraya

(s.ə) zülm edənlər, bu hədisi dərk etməkdə aciz idilər. Həzrəti-Fatimənin (s.ə) həqiqətdə huri olmasını bəyan edən bu hədis, atası Peyğəmbərin (s) öz qızını çox istədiyinə görə tərifləməsi deyil. Həzrəti-Peyğəmbər (s) heç vaxt öz şəxsi maraq və ya həvavü həvəs üzündən danışmayıb və danışa da bilməz. Çün, Quran ayəsi buyurur ki, Peyğəmbərin (s) dediyi sözlərin istisnasız olaraq hamısı vəhydir. ("Ən-Nəcm" surəsi, ayə 3 və 4). Həzrəti-Fatimənin (s.ə) insan surətində bir huri olması da qeyb xəzinəsindən bir xəbərdir. Bu kəlamın aləmdə heç bir kəsin barəsində işlənmədiyini nəzərə alsaq deyə bilərik ki, Həzrəti-Fatimə (s.ə) yeganə bir varlıqdır ki, onun vücudunun həqiqəti və varlığı cənnət hurilərinin varlığındandır. Başqa sözlə desək, Həzrəti-Fatimə (s.ə) həqiqətdə insan surətində olan cənnət hurisidir. Daha dəqiq desək, bütün hurilərin şahzadə xanımı Həzrəti-Zəhradır (s.ə.).

İndi təsəvvür edin ki, ikinci xəlifə cənnət hurisinin qapısına od vurub və bu hurini qapı ilə divar arasında qoyaraq şəhadətə çatdırıb. Sizcə, Allahın yer üzərində olan cənnət hurisini öldürən şəxsi cənnətə buraxarlar?

## Rəsuli-Əkrəmin (s) Xanım Fatimeyi-Zəhraya (s.ə) nəsihəti

Bir gün Xanım Fatimeyi-Zəhra (s.ə) Peyğəmbərin (s) hüzuruna gedib, atasından istədi ki, ona bir qulluqçu versin. Məşhur sünni alimi Əbubəkr Şirazinin kitabında nəql olunur ki, Həzrəti-Fatimeyi-Zəhra (s.ə) Peyğəmbərə (s) öz şərtini söyləyib, kəniz istəyən zaman, Peyğəmbər (s) ağlayıb buyurdu: "Ey Fatimə, and olsun məni Peyğəmbərliyə

seçən Allaha, məsciddə dörd yüz nəfər kişi vardır ki, nə yeməkləri var, nə də geyimləri. Əgər sənin fəzilətinin itmək qorxusu olmasaydı, mən sənin istədiyini verərdim. Mən istəmirəm ki, sənin əcrin və mükafatın səndən alınıb sənin kənizinə verilsin."

Sələbinin təfsirində İmam Baqirdən (ə), Qüşeyrinin təfsirində isə Cabir ibni-Əbdullah Ənsaridən (r.ə) nəql olunan digər bir hədisdə deyilir ki, Peyğəmbər (s), Fatimənin (s.ə.) əynində yun paltar, dəyirmanda un üyüdə-üyüdə uşağa süd verdiyini gördükdə o Həzrətin (s) gözləri yaşardı və buyurdu: "Ya bintahu təəccəli mərarətuddünya bihəlavətil axirəti." – (Ey qızım, axirətin şirinliyi üçün dünyanın çətinliyinə döz!).

Xanım Fatimə (s.ə) ərz etdi: "Ya Rəsulullah (s), Əlhəmdu lillahi əla nə`maihi və şukru lillahi əla alaihi." - Ey Allahın Rəsulu (s), Allaha, nemətlərinə və əta etdiklərinə görə həmd və şükr olsun."

## Həzrəti-Əli (ə) ilə Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) oxşar cəhətləri

Qurani-Kərimin "Əhzab" surəsinin 33-cü ayəsi vasitəsilə İmam Əli (ə) və Xanım Fatimənin (s.ə) Allah tərəfindən məsum olduğu bildirilir: Mübarək ayədə buyurulur: "Ey Əhli-beyt (ə.m), həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) aparmaq və sizi pakdan-pak etmək istər!" Bütün İslami mənbələrdə qeyd olunan məlumatlara əsasən, sözü gedən ayə məhz, Peyğəmbər (s) və Əhlibeytinə (ə.m) yəni Həzrəti-Əliyə (ə), Xanım Fatiməyə

(s.ə), Həzrəti-Həsənə (ə) və Həzrəti-Hüseynə (ə) aiddir[1].

1.Qurani-Kərimin "Şura" surəsinin 23-cü ayəsi vasitəsilə Allah İmam Əli (ə) və Xanım Fatimənin (s.ə) insanlar tərəfindən seçilməsi barədə əmr və göstərişlər verir. Mübarək ayədə buyurulur: "De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumlara məhəbbətdən (Əhli-beyt (ə.m.) başqa bir şey istəmirəm".

İslami mənbələrdə qeyd olunan məlumatlara əsasən, Həzrəti-Peyğəmbərdən (s) Əhli-beytin (ə.m) kim olduğunu soruşduqda, o Həzrət (s) belə buyurmuşdur: "Əli (ə), Fatimə (s.ə) və onların dünyaya gələn iki övladı (Həsən və Hüseyn (ə.m)". Məhəbbət bəsləməyin vacib olduğu şəxslərdən biri İmam Əlidirsə (ə), digəri Xanım Fatimədir (s.ə).

2.Qurani-Kərimin "Ali-İmran" surəsinin 61-ci ayəsi İmam Əli (ə) və Xanım Fatimənin (s.ə) Peyğəmbərin (s) yaxınları olduğunu göstərir. Mübarək ayədə belə buyurulur: "(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) Sənə göndərilən elmdən (məlumatdan) sonra buna (İsanın əhvalatına) dair Səninlə mübahisə edənlərə de: "Gəlin, biz də oğlanlarımızı, siz də oğlanlarınızı biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) dua edib yalançılara Allahın lənətini diləyək!".

Tarixi mənbələrə görə hicrətin 7-ci ilində Peyğəmbər (s) Nəcran xristianları ilə "Mübahilə"yə (üz-üzə dayanaraq lənətləşməyə) gedərkən yanında yalnız Həzrəti-Əli (ə), Xanım Fatimə (s.ə), Həzrəti-Həsən (ə) və Həzrəti-Hüseyn

[1] Siyuti. Əl-İtqan. II c., səh. 563; Fəxrəddin Razi. Məfatihul-ğeyb, VI c. səh. 7; Tarixi Bağdadi, X c., səh. 278; Təfsiri Xəməxşəri, I c., səh. 369; Buxari Fədulbəyan, II c, səh. 265; Siyuti. Əbdurrul-Mənsur, V c., səh 198.

(ə) olmuşdur. Buradan məlum olur ki, İmam Əli (ə) Peyğəmbər (s) üçün necə əziz idisə, Xanım Fatimə (s.ə) də o qədər əziz olmuşdur[1].

3.Qurani-Kərimin "İnsan" surəsinin 5-22-ci ayələrində də İmam Əli (ə) və Xanım Fatimənin (s.ə) üstünlüklərindən bəhs olunur: "Şübhəsiz ki, yaxşı əməl və itaət sahibləri (Cənnətdə) kafur qatılmış (şərabla dolu) qədəhdən içəcəkdir". "O (kafur) elə bir çeşmədir ki, Allahın bəndələri ondan içəcək və onu (istədikləri yerə) asanlıqla axıdacaqlar". "Onlar (Cənnnətdə nail olacaq müttəqilər) elə kimsələrdir ki, verdikləri sözü (etdikləri nəzəri) yerinə yetirər və dəhşəti (aləmi) bürüyəcək (şəri hər tərəfə yayılacaq) gündən (Qiyamət günündən) qorxarlar". "Onlar öz iştahları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər". "Və sonra da o kimsələrə belə deyərlər: "Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. (Bu ehsan müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik". "Həqiqətən, biz çox sərt, çətin bir gündə Rəbbimizdən qorxuruq!" "Allah da onları o günün şərrindən qoruyaraq, onlara gözəllik və sevinc bəxş edəcəkdir". "Və onları etdikləri səbr müqabilində cənnətlə və ipəklə mükafatlandırılacaqdır". "Onlar orada taxtlara söykənəcək, orada nə Günəş, nə də sərt soyuq görəcəklər". "Cənnət ağaclarının" kölgələri üstünə düşəcək, meyvələri də onların ixtiyarında olacaqdır". "(Cənnətdəki xidmətçilər) onların ətrafında gümüş qablar və büllur qədəhlərlə dolanacaqlar". "Gü-

---

[1] Səhihi Vüslim. IVc., səh. 1871, VII c., səh. 130, Sünəni Termizi. II c, səh. 166, Müsnədi-Əhməd. I c., səh. 185, Qunduzi Hənəfi. Yənabul-məvəddət, səh. 281. Müstədrəki-Hakim, I c, səh. 193; Əbdurrulmənsur, III c., səh. 38

müşdən olan elə büllur qədəhlər ki, xidmətçilər onları sahiblərinə münasib ölçüdə etmişlər”. “Orada onlara zəncəfil qatılmış badə də içirdiləcəkdir”. “(Zəncəfil) orada (Cənnətdə) bir çeşmədir ki, (suyu boğazdan çox rahat keçdiyi üçün) səlsəbil adlanır”. “Onların dövrəsində həmişəcavan (xidmətçi) oğlanlar olacaqdır. Onları gördükdə, sanki (ətrafa) səpilmiş inci olduqlarını zənn edərsən”. “(Orada) hara baxsan, nemət və böyük bir mülk görərsən”. “(Cənnət əhlinin) əyinlərində taftadan və atlazdan (nazik və qalın ipəkdən) yaşıl libaslar olacaq, onlara gümüşdən bilərziklər taxılacaqdır. Rəbbi onlara çox pak bir şərab içirdəcəkdir”. “(Onlara belə deyiləcəkdir:) “Bu sizin (dünyada etdiyiniz yaxşı əməllərə görə) mükafatınızdır. Zəhmətiniz (Allah yanında) məqbuldur (qəbul olunmuşdur)!”

İbn Abbasdan belə nəql olunur: “Bir gün Həsən və Hüseyn (ə) xəstə idilər. Peyğəmbər (s) və bəzi səhabələr onları ziyarətə gəlmişdilər. Onlar Əliyə (ə) belə dedilər: “Ey Əbul Həsən (ə), övladlarının sağalması üçün nəzir etsəydin yaxşı olardı”. Bundan sonra Əli (ə), Fatimə (s.ə) və xidmətçiləri Fizzə, Həsən və Hüseynin (ə.m) sağalması üçün dua edib, üç gün oruc tutacaqları barədə nəzir etdilər və Əli (ə) məndən üç nəfərlik yemək üçün arpa aldı. Onlar üç gün ardıcıl oruc tutmağa qərar vermişdilər. Fatimə (s.ə) onun üçdə bir hissəsini una çevirib, çörək bişirdi. Onlar iftar açacaqları bir zamanda qapılarını bir fəqir döyüb dedi: “Salam olsun sizə, ey Mühəmmədin Əhli-beyti (ə.m)! Müsəlmanların fəqirlərinin ən fəqiriyəm. Sizdən bir parça yemək verməyinizi xahiş edirəm. Allah sizə mərhəmət edib, Cənnət nemətlərindən bəxş etsin”! Qapılarına gələn miskin şəxsin bu istəyini öz nəfslərinin istəklərindən üstün tutduqları üçün hər kəs öz payını fəqirə verdi və o axşam

yalnız su ilə iftar etdilər. İkinci gün yenə nəzir oruclarını tutub, iftar yeməyinə hazırlaşdıqları vaxt qapılarını bir yetim döydü. Yetim ona kömək edərək təam vermələrini istədi. Əhli-beyt (ə) yenə fədakarlıq göstərib həmin günün iftarı üçün hazırladığı yeməyi yetimə verdi. Üçüncü gün yenə iftar vaxtı öz yeməklərini qapılarına gələn əsirə verdilər. Özləri əvvəlki kimi su ilə iftar etdilər. Səhər olduqda Əli (ə) oğlanları Həsən (ə) və Hüseynin (ə) əlindən tutaraq Peyğəmbərin (s) yanına getdi. Rəsulallah (s) onların acından titrədiklərini və rənglərinin saraldığını gördü. Rəsulallah (s) onlarla birlikdə Fatimənin (s.ə) yanına gəldikdə onu da mehrabında ibadətlə məşğul olan gördü. Qızının da aclıqdan halının olmamasını görən Peyğəmbərə (s) Cəbrail (ə) nazil olaraq belə buyurdu: “Ya Mühəmməd (s), bu surəni al. Şübhəsiz ki, Allah sənin Əhli-beytinlə (ə.m) iftixar etməkdədir”. Daha sonra Cəbrail (ə) Peyğəmbərə (s) “İnsan” surəsini oxudu[1].

4.İsmət və paklıq məqamı həm İmam Əliyə (ə) həm də Xanım Fatiməyə (s.ə) aiddir. Buna Peyğəmbərin (s) onların haqqında etdiyi dua sübutdur. Rəsulallahın (s) duası belədir: “İlahi, sən şahid ol ki, bunlar mənim Əhli-beytimdir (ə.m)! İnsanların içində mənə əziz olan insanlar bunlardır! İlahi! Bunlara düşmən olanlarla sən də düşmən ol! Bunları sevənləri sən də sev! Onlara kömək edənlərə sən də kömək ol! İlahi, bunları bütün çirkinliklərdən uzaq et və məsum qərar ver!”.

---

[1] Şahlar Şərifov. İslam tarixi, səh. 120-122; əlavə məlumat üçün mənbələrə müraciət edə bilərsiniz: Təfsiri-Zəməxşəri. IV c. səh. 670; Fəxrəddin Razi. Əl-Vəsit. III c, səh 244; Alusi. Ruhul -məani. XXIXc. səh. 158. Şəblənci. Nurul-əbsar, səh. 62.

5. İmam Əli (ə) ilə Xanım Fatimənin (s.ə) təkvini və təşrii vilayətləri var. Allah-təala o müqəddəsləri (ə) yaratdıqdan sonra vilayətlərini Yerə və Göyə təqdim etdi. Peyğəmbər (s) buyurur: "Mən meraca gedəndə Allah mənə buyurdu: "Ya Mühəmməd (s)! Səni, Əlini, Fatiməni, Həsən və Hüseyni (ə.m) Öz nurumdan yaratmışam. Sizin vilayətinizi Göyə və əhlinə, yerlərə və əhlinə təqdim etdim. Hər kəs sizin vilayətinizi qəbul etsə, Mənim yanımda müzəffər insandır. Hər kəs sizin vilayətinizi dansa, mənim yanımda kafərlərdən olacaqdır".

6.İslami mənbələrə nəzər saldıqda məlum olur ki, İmam Əli (ə) Qiyamət günü şəfaət edirsə, Xanım Fatimə (s.ə) də atasının ümmətinə şəfaət edəcək[1]. Bir gun Peyğəmbər (s) İmam Əliyə (ə) belə buyurdu: "Ya Əli (ə)! Qiyamət günü sənin tərəfdarların nicat tapacaqlar. Hər kim sənin tərəfdarlarından birini təhqir etsə, sənə qarşı hörmətsizlik etmişdir. Hər kim sənə hörmətsizlik etsə, mənə hörmətsizlik etmiş olar. Hər kim mənə hörmətsizlik etsə, Allah həmin şəxsi əbədi olaraq cəhənnəmdə yandıracaq və dönüş yeri çox pis olacaq. Ya Əli (ə), mən özüm Qiyamət günü Mahmud məqamında (şəfaət) dayandığım zaman sənin tərəfdarlarına şəfaət edəcəyəm. Bu xəbəri şiələrinə müjdə ver".

Peyğəmbər (s) Xanım Fatimənin (s.ə) şəfaəti haqqında belə buyurur: "Qiyamət günü Fatimə (s.ə) cənnət dəvələrinin birinin üstündə əyləşərək məhşərə daxil olacaq. Sağdan-soldan mələklər onun ətrafını alaraq müşayiət edəcəklər. Elə o zaman bütün məşhər əhlinə belə nida olunar: "Hamınız gözlərinizi yumun! Çünki, Fatimə (s.ə) camaa-

---

[1] Seyyid Əli Əkbər Ocaq Nejad. "Ümmi-Əbiha", səh.180.

tın içindən keçib, Cənnətə getmək istəyir". Bütün Peyğəmbərlər (ə), şəhidlər hamısı gözünü yumarlar. Fatimə (s.ə) məhşər əhlinin arasından keçib cənnətə gedər. O halda Allah tərəfindən Fatiməyə (s.ə) belə nida olunar: "Ey mənim sevdiyim insan və ey mənim sevdiyim insanın qızı! Məndən nə diləyin varsa istə. İstəyin hamısı veriləcək. Kimə istəyirsən şəfaət et. Sənin şəfaətin qəbul olunacaq". Fatimə (s.ə) deyər: "İlahi, Səndən mənim övladlarımı, şiələrimi, mənim övladlarımın şiələrini, məni sevənləri və məni sevənlərin də nəslini istəyirəm!". Allah tərəfindən məhşər əhlinə belə nida olunar: "Haradadır Fatimənin (s.ə) nəsli, Fatimənin (s.ə) şiələri, Fatiməni (s.ə) sevənlər və Fatimənin (s.ə) nəslini sevənlər"? Bir qrup insan digərlərindən ayrılıb, bir yerə toplaşaraq deyər: "Bizik". O zaman mələklər gəlib onların ətrafında dayanacaqlar. Fatimə (s.ə) onların önünə düşüb, hamısını cənnətə aparacaq".

7. Zöhd və zahidlik baxımından da İmam Əli (ə) və Xanım Fatimə (s.ə) bir-birinə bərabərdir. İmamın (ə) bəzi insanların əqlini başından alan bu dünyaya üç dəfə talaq verməsi, dünya gözəlliklərindən uzaq durması islami mənbələrdə dönə-dönə təsdiqlənir. Xanım Fatiməyə (s.ə) gəldikdə isə İmam Əli (ə) o Xanımın (s.ə) haqqında belə buyurur: "Fatimə (s.ə) həyat yoldaşım olduğu gündən ömrünün axırına qədər məndən bir şey istəmədi. Bir dəfə də olsun demədi ki, "mənə filan şey al, gətir". Soruşardım: "Ya Fatimə (s.ə), nə üçün məndən heç nə istəmirsən?!" Deyərdi: "Atam mənə tapşırıb ki, Əlidən (ə) heç nə istəmə, birdən istədiyini alıb gətirə bilmədiyi üçün xəcalət çəkər".

8.Həzrəti-İmam Əlinin (ə) "Nəhcül-Bəlağə"si olduğu kimi Xanım Fatimənin (s.ə) də qiyamətə qədər baş verə-

cək hadisələrdən bəhs edən "Müshəfi-Fatimə"si vardır.

9.Həzrəti-İmam Əli (ə) İmamətin atasıdırsa, Xanım Fatimə (s.ə) İmamətin anasıdır.

10.Həzrəti-İmam Əli (ə) kimi Həzrəti-Fatimə (s.ə) də şəhiddir.

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) buyurduğu hədislər

1. "Ey Allah bəndələri, sizin aranızda Quran bir rəhbər kimidir. O Sizinlə bağlanan bir əhd-peymandır. Quran Allahın doğru danışan natiq bir kitabıdır. Quranın nur saçan işığı parlaqdır. Onun dəlilləri aşkardır, sirrləri açıqdır. Quranın ümməti həmişə yadları həsrətdə qoymuşdur".

2. "Allahın kitabına itaət etmək behiştə doğru getməyə səbəb olar. Onun göstərişlərini dinləmək isə insanı nicat tapmağa yönəldir. O kitabla Allahın aydın höccət dəlilləri, onun aşkar qayda-qanun, hüdud və vəzifələri hasil olur.

Bu bir kitabdır ki, halal, haram məsələlərini aşkar dəlilləri və kifayətedici sübutları, yüksək dəyərləri və müqərrər qayda-qanunları əhatə edir".

3. "Namaz – Allahınızın müqabilində başınızı səcdəyə qoyub onun əzəmətli dərgahına təvazökarlıq etmək üçündür".

4. "Zəkat – ürəklərdə xeyirxahlıq, mehribanlıq, hər növ dostluq və məhəbbət ruhunun yaranması üçündür. Zəkat sizin var-dövlətinizin artmasına səbəb olar".

5. "Ədalət – cəmiyyət arasında müsavat, bərabərlik və nizam-intizamın qorunması üçündür".

6. "Cihad – İslamın əzəmət, şövkət və izzətini qorumaq üçündür".

7. "Allah "imanı" sizlər üçün küfrün və şirkin çirkinliklərindən təmizlənmək vəsiləsi qərar verdi".

8. "Allah "namazı" təkəbbürdən uzaqlaşmağınız üçün vacib etdi".

9. "Allah "orucu" ixlasınızın sabitləşməsi üçün qərara aldı.

10. "Allah "zəkatı" nəfsin təmizlənməsi və ruzinin artması üçün vacib etdi".

11. "Allah "Həcci" din sütunlarının güclənməsi üçün qərara aldı.

12. "Allah yaxşılığa dəvət etməyi və pislikdən çəkindirməyi cəmiyyətin islahı üçün təyin etdi".

13. "Allah "cihadı" islamın izzətini saxlamaq, küfr və nifaq əhlini zillətə düçar etmək üçün vacib etdi".

14. "Allah "ata-anaya" yaxşılıq etməyi iffət və paklığı qorumaq üçün tapşırdı".

15. "Allah "qohumlarla yaxşı münasibətdə olmağı" ömrün uzanması üçün qərara aldı".

16. "Allah "nəzir-niyazı" yerinə yetirməyi günahların bağışlanması üçün bir vəsilə etdi".

17. "Allah "pisliklərin" qarşısını almaq üçün şərab içməyi haram etdi".

18. "Allah "oğurluğu" tərk etməyi iffət və paklığı qorumaq üçün tapşırdı".

19. "Allah "ədaləti" konüllərin bir-birinə yaxınlaşması üçün qərara aldı".

20. "Allah "səbri" ilahi mükafata çatmaq üçün vəsilə etdi".

*Nübuvvətlə imamət səndə tapdı ülfəti,*
*Sən oldun Mürtəzanın həyatının zinəti.*
*Səndən aldı Həsənin, Hüseynin təravəti,*
*Ey ümmətə bəxş edən imaməti, Fatimə,*
*Ey Müstəfa ömrünün səadəti, Fatimə!*[1]

Allahın Rəsulu (s) Həzrəti-Fatiməyə (s.ə) buyurdu: "Allah sənin qəzəbinlə qəzəblənir və sənin sevincinlə şad olur"[2].

"Qızım Fatimə (s.ə) dünya xanımlarının xanımıdır"[3]

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) kənizi Xanım Fizzənin elminə bir baxış

*Xoş olmaq istəsən, xoş dostlar tanı,*
*Xoşbəxt xoşbəxt edər çünki insanı.*
*(N.Gəncəvi "İsgəndərnamə")*

***Bismilləhir-Rahmənir-Rahim***

Əbülqasim Qüreyşi öz kitabında bəzi səhabələrdən nəql edir ki, Zəhranın **(**s.ə.**)** kənizi Fizzə səhrada həcc karvanından geriyə qalıb itmişdi. Karvandan arxada qalmış Abdullah Mübarək adlı bir nəfər deyir ki, səhrada bir nəfər yalqız qadın gördüm. Mən dəvə ilə onun yanına gedib ondan hər nə soruşdum, Quran ayəsi ilə aşağıdakı surətdə mənə cavab verdi. Ondan soruşdum: "Sən kimsən?" Dedi: "Və qul səlamun fəsəufə yələmun." "Və de salam olsun sizlərə,

---

[1] Kərbəlayi Kamil Sərbəndi
[2] "Kənzul-Ümmal", hədis 37725
[3] "Biharul-ənvar", s. 43; səh. 22. hədis-13

tezliklə biləcəklər."[1]Ona salam verib dedim: "Sən burada neyləyirsən?" Dedi: "Və mən yəhdillahi fəma ləhu min muzillin." "Allah-təala hər kəsi hidayət etsə yolunu azmaz."[2] Başa düşdüm ki, yolu azıbdır. Dedim: "Cinlərdənsən, yoxsa insanlardan?" Dedi: "Yə bəni Adəm xuzu zinətəkum." "Ey Adəm övladları bəzəklərinizi, zinətlərinizi örtün."[3] Başa düşdüm ki, Adəm övladıdır. Dedim: "Haradan gəlirsən?" Dedi: "Yunadəunə min məkanin bəidin." "Onlar uzaq yerdən səslənərlər."[4] Başa düşdüm ki, uzaq yoldan gəlir. Dedim: "Hara gedirsən?" Dedi: "Və lillahi ələnnasi hiccül bəyti." "Allah-təala imkanlı şəxslərə Kəbənin həccini vacib etdi."[5] Başa düşdüm ki, Məkkəyə gedir. Dedim: "Karvandan nə vaxt ayrı düşmüsən?" Dedi: "Və ləqəd xələqnəs səmavəti vəl ərzi fi sittəti əyyamin." "Biz göyləri və yeri və yerin içində olanları altı günə yaratdıq."[6] Başa düşdüm ki, altı gündür karvandan ayrı düşüb. Dedim: "Yemək istəyirsənmi?" Dedi: "Və la cəəlnahum cəsədən la yəkulunəttəmə." "Biz onları yemək yeməyən cəsədlər tək yaratmadıq."[7] Başa düşdüm ki, acdır. Dedim: "Tələs, tez gəl." Dedi: "La yukəllifullahu nəfsən illa vusəha." "Allah-təala heç kimin boynuna gücündən artıq yük qoymaz."[8] Başa düşdüm ki, yorulub, yeriməyə taqəti yoxdur. Dedim: "Gəl dəvəyə min, arxada əyləş." Dedi: "Ləv

---

1 "Zuxruf" surəsi, ayə 89
2 "Zumər" surəsi, ayə 37
3 "Əraf" surəsi, ayə 31
4 "Fussilət" surəsi, ayə 44
5 "Ali-imram" surəsi, ayə 97
6 "Qaf" surəsi, ayə 39
7 "Ənbiya" surəsi, ayə 8
8 "Bəqərə" surəsi, ayə 286

kanə fihima alihətun illəllahu ləfəsədəta." "Əgər yerdə və göydə yeganə Allahdan başqa Allahlar olsaydı yer-göy bir-birinə dəyərdi."[1] Başa düşdüm ki, mənimlə birgə dəvədə oturmağa həya edir. Dəvədən düşüb onu təkcə mindirdim. Elə ki, dəvəyə mindi, dedi: "Sübhanəlləzi səxxarə ləna haza." "Pak və münəzzəhdir o Allah ki, bunu bizə müti[2] etdi."[3] Karvana çatan zaman ondan soruşdum: "Karvanda sənin qohum-əqrəban varmı?" Dedi: "Ya Davudu inna cəəlnakə xəlifətən fil ərzi." "Ey Davud, biz səni Yer üzündə öz xəlifəmiz etdik (qərar verdik)."[4] "Və ma Mühəmmədin illa rəsulun." "Mühəmməd (s), peyğəmbərdən başqa bir şey deyildir."[5] "Ya Yəhya xuzil kitabə biquvvətin." "Ey Yəhya, kitabı möhkəm tut."[6] "Ya Musa inni ənəllah." "Ey Musa, mənəm Allah."[7] Başa düşdüm ki, karvanda ona qohum olan Davud, Mühəmməd, Yəhya və Musa adında şəxslər vardır. Onları çağırdım. Dörd nəfər cavan o qadına tərəf gəldilər. Ondan soruşdum: "Bunlar sənin nəyindir?" Dedi: "Əlmalu vəl bənunu zinətul həyatid-dünya." "Mal və övlad dünya həyatının bəzəyidirlər."[8] Başa düşdüm ki, onlar onun övladlarıdır. Onlar qadının yanına gələndə o dedi: "Ya əbəti əstəcirhu innə xeyrə mənistəcərtəl qəviyyul əmin." "Ey ata, onu qulluğa götür. Çünki, yaxşı bir insanı qulluğa götürürsən. O, qüvvətli və

---

[1] "Ənbiya" surəsi, ayə 22
[2] Muti, yəni itaət edən, tabe olan.
[3] "Zuxruf" surəsi, ayə 13
[4] "Sad, surəsi, ayə 26
[5] "Ali-İmran, surəsi, ayə 144
[6] "Məryəm" surəsi, ayə 12
[7] "Qəsəs" surəsi, ayə 30
[8] "Kəhf" surəsi, ayə 46

əmin bir şəxsdir.”[1] Başa düşdüm ki, onlar deyir ki, mənim muzdumu versinlər. Onlar mənə bir miqdar pul verdilər. Qadın dedi: “Vallahu yuzaifu limən yəşau.” “Allah-təala o mükafatı hər kim üçün istəsə neçə dəfə artırar.”[2] Başa düşdüm ki, onlara deyir ki, bir az çox muzd verin. Onlar mənə bir az da pul verdilər. Onlardan soruşdum: “Bu xanım kimdir?” Dedilər: “Bu qadın Həzrəti-Zəhranın (s.ə.) kənizi, bizim anamız Fizzədir. O, iyirmi ildir ki, Quran ayələrindən başqa bir söz danışmır.”

## Həzrəti-Fatimeyi-Zəhra (s.ə.), onun şiələrinin fəziləti və behiştdəki məqamları

Əbu Cəfər Təbəri “Bəşarətul-Mustafa” kitabında Həmmam Əbi Əlidən nəql edir ki, Kəbul Əhbardan soruşdum: “Əli ibni-Əbu Talibin (ə) şiələri barədə nəzəriniz nədir?” Dedi: “Ey Həmmam, mən onların Quranda vəsfini tapmışam. Onlar Allahın hizbi[3] İslamın köməkçiləri, Allah vəlilisinin ardıcılları, insanlar arasında Allahın alicənab və məxsus bəndələridirlər. Allah-təala onları öz dini üçün seçib behişti üçün yaratmışdır. Onlar behiştdə Firdovsi-əlada şəffaf mirvari dənəsindən və ləl-cəvahirdən düzəldilmiş otaqlarda yaşayarlar. Onlar müqəddəs şəxsiyyətlərin arasındadırlar. Belə şəxslər hələ əl dəyməmiş içkilərdən içərlər. Bu içki onlara məxsus ***“Təsnim”*** adlı bulağın suyundandır. ***“Təsnim”*** Allah-təalanın Həzrəti-Fatiməyə (s.ə.) əta etdiyi bulaqdır. Bu bulağın mənbəyi, qübbəsi soyuq-

---

[1] “Qəsəs” surəsi, ayə 26
[2] “Bəqərə” surəsi, ayə 261
[3] Hizb, yəni zümrə, hissə, qism.

luqda kafur, dadı zəncəfil, iyi isə müşk kimi olan bir sütunun dibindəndir. O bulaq arxlara axar, Xanım Fatimənin (s.ə.) şiələri və dostları da ondan içərlər. O qübbənin dörd sütunu vardır. Onun bir sütunu ağ mirvaridəndir. Bu sütunun dibində ***"Təhur"*** adlı bir bulaq vardır. Onun bir sütunu da yaşıl zümrüddəndir. Bu sütunun dibində isə təhur və baldan olan şərabla dolu daha iki bulaq vardır. Bu çeşmələrdən hər biri behiştin aşağı hissəsində axır. Təkcə "Təsnim" çeşməsi behiştin yuxarı hissəsində axır. Bundan yalnız behiştin xüsusi adamları içəcəklər. Onlar Əlinin (ə) şiələri və dostlarıdır. Budur, Allah-təalanın Quranda buyurduğu kəlamın təfsiri: "Yusqəvnə min rəhiqin məxtumin əynən yəşrəbu bihəl müqərrəbun. – "Onlar ağzı bağlı əl dəyməmiş şərabla sirab olarlar. O elə bir çeşmədir ki, ondan yalnız Allahın ən yaxın adamları içəcəklər."[1] Sonra Kəbul Əhbar dedi: "Allaha and olsun, şiələri ancaq Allahın əhd-peyman bağladığı şəxslər sevir."

Xanəndə Hacıbaba Hüseynov bir beytində bu hadisəni belə vermişdir:

Mənə lütf eylə, ey saqi, şərabi-biğəşin camın,
Bütün istəklərim Səndən o camın içrə bir Cəmdir.

[1] "Mutəffifin" surəsi, ayə 25-28

# II BÖLÜM

## FƏDƏK NƏ İDİ VƏ HARADA İDİ

Fədək cərəyanı İslam Peyğəmbəri Həzrəti-Mühəmmədin (s) qızı Xanım Fatimeyi-Zəhranın (s.ə) həyatında xüsusi, Əhli-beytin (ə.m.) həyatında ümumi və İslam tarixində isə daha geniş iz buraxmışdır. Ümumiyyətlə, "Fədək hadisə"si İslam aləmində ən qəmli və qovğalı (mübahisəli) hadisələrdən sayılır. Belə ki, bu hadisə siyasi məqsədlərlə zəngindir və İslamın ilk illərinin bəzi müəmmalarını açmaq üçün mühüm bir istinad nöqtəsidir.

Bu mövzunu araşdırmağa başlamazdan əvvəl aşağıdakıları bilmək lazımdır.

Tarixçilərin və lüğət kitablarının yazdığına əsasən, Fədək Hicaz məntəqəsində Xeybər qalasının yanında abad və torpağı məhsuldar olan bir bağdır. Belə ki, Mədinədən iki və ya üç günlük yol məsafəsində və ya qeyd olunana əsasən, 140 kilometrlik bir məsafədə yerləşən bir ərazidir. Orada coşub-çağlayan bulaq və çoxlu xurmalıq sahəsi var. Fədək bağı Xeybər qalasından sonra Hicazda yəhudilərin ikinci sığınacaq yeri sayılırdı.

Bu abad və münbit ərazinin Xatəmul-ənbiyanın (s) əlinə necə gəldiyi haqqında ən məhşur fikir belədir ki, Allahın Rəsulu Mühəmməd (s) Xeybər qalasının fəthindən sonra evə qayıdış yolu üzərində Allah yəhudilərdən ibarət olan Fədək əhalisinin qəlbinə qorxu saldı. Belə ki, onlar bir nəfəri yol üzərində hərəkətdə olan Allahın Peyğəmbərinin (s) hüzuruna göndərib, Fədəkin yarısını o Həzrətin

(s) ixtiyarına verməklə onunla sülh bağlamaq niyyətində olduqlarını bildirdilər. Peyğəmbər (s) onların bu təklifini qəbul edərək sülh razılaşmasını imzaladı.

Bu yolda Fədək Peyğəmbəri-Əkrəmin (s) şəxsi əmlakına çevrildi. Çünki Qurani-Məcidin aydın göstərişinə əsasən müsəlmanların əlinə döyüş aparmadan çatan bütün mallar Rəsuli-Əkrəmin (s) haqqıdır və bu mallar müharibə qənimətləri kimi bölüşdürülmür. Peyğəmbər (s) bu hökmə əsasən, Fədəki öz ixtiyarına alıb gəlirini səfər əsnasında imkanları tükənən və bu qəbildən olan insanlar üçün sərf edirdi. Dediklərimizin təsdiqi olaraq aşağıdaki mənbələrə müraciət edə bilərsiniz: (Mucəmul-buldan Yaqut ibn Abdullah Rumi Həməvi "Lisanul-Ərəb", Muhəmməd ibn Mukərrəm Misri Ənsari (ibn Mənzur) "Tarix", Şeyx Hafiz İmaduddin Əbu Cəfər Mühəmməd ibn Əbul-Qasim ibn Cərir Təbəri "Kamil", Əli ibn Əbul-Kərim Mühəmməd Şeybani (ibn Əsir Cəzəri ) və s.

Bir çox tarixçilər Peyğəmbərin (s) hələ həyatda ikən Fədək bağını qızı Xanım Fatimeyi-Zəhraya (s.ə) hədiyyə etdiyini yazmışlar. Bunun ən bariz dəlillərindən biri də bir çox tədqiqatçıların, o cümlədən məhşur əhli-təsənnü təfsir alimi Əllamə Cəlaləddin Siyutinin "Əd-durrul-mənsur fit-təfsiril-mənsur" kitabında "İsra" surəsinin 26-cı ayəsini təfsir edərkən Əbu-Səid Xidridən nəql etdiyi hədisdir. Hədisin məzmunu belədir: "İsra" surəsinin "Öz yaxınlarına onların haqqını ver" ayəsi nazil olandan sonra, Allahın Rəsulu Həzrəti-Mühəmməd (s) Fatimeyi-Zəhranı (s.ə) çağırıb Fədəki ona bağışladı. Bu ayənin təfsirində ibn Abbasdan da eyni məzmunda bir hədis nəql olunub.

Müddəamıza başqa bir canlı şahid Möminlərin Əmiri Həzrəti-İmam Əlinin (ə) "Nəhcül-bəlağə"də Fədək barə-

sində buyurduğu sözləridir. Həzrəti-Əli (ə) buyurur: "Bəli, asimanın kölgə saldıqlarının içərisində əlimizdə yalnız Fədək qalmışdı. Lakin bir dəstə insan ona göz dikdilər. Başqa bir dəstə isə səxavətkarcasına ora göz yumdular, Allah ən ədalətli hakimdir".

Yuxarıda nümunə olaraq nəql etdiklərimiz, Həzrəti-Peyğəmbərin (s) zamanında Fədəkin möminlərin əmiri Həzrəti-İmam Əlinin (ə) və Xanım Fatimeyi-Zəhranın (s.ə) ixtiyarında olduğunu təsdiq edir. Lakin sonradan, İmamın (ə) buyurduğu kimi, hakimiyyət başında olan bir sıra şəxslər oraya göz dikmiş və nəticədə Həzrəti-Əli (ə) və həyat yoldaşı Xanım Zəhra (s.ə) məcbur qalaraq ona göz yummuşdular. Heç şübhəsiz ki, bu göz yumma razılıqla olmayıb, əks təqdirdə Allahı hökm çıxartmağa sələməyin və "Ən ədalətli hakim Allahdır" deməyin bir mənası olmazdı. Böyük şiə alimlərinin əksəriyyəti bu barədə mövcud olan hədisləri öz əsərlərində yazmışlar. Həmin alimlərdən aşağıdakıların adını qeyd etmək olar: (Əbu Cəfər Mühəmməd ibn Yəqub ibn İshaq əl-Kuleyni Razi "Üsuli-Kafi siqatul-islam"; Mühəmməd ibn Məsud Səlimi Səmərqəndi (Əyyaşi) "Təfsir"; Şeyx Əbul Fəth Əli ibn İsa İrbili "Kəşful-ğunnə fi mərifətil əimmə"; Şeyx Səduq və b.)

İndi baxaq görək niyə və hansı dəlilə əsasən Fədəki Həzrəti-Fatimeyi-Zəhradan (s.ə.) aldılar?

## Fədəkin qəsb olunmasının siyasi amilləri

Fədəkin alınması Xanım Fatimeyi-Zəhra (s.ə) üçün təkcə maddiyyatla bağlı sadə bir məsələ deyildi. Əslində məsələnin iqtisadi tərəfi Peyğəmbəri-Əkrəmdən (s) sonra İslam cəmiyyətinin əsas siyasi məsələlərinin kölgəsində qal-

mışdı. Həqiqət bundan ibarətdir ki, Fədək mövzusunu həmin dövrün digər hadisələrindən ayırmaq olmaz. Bu böyük zəncirin bir halqası, silsiləvari tədbirlərin bir hissəsi idi.

Tarixin bu böyük qəsbkarlıq biabirçılığının səbəblərini aşagıdaki kimi sıralamaq olar:

1) Fədək bağının Peyğəmbər (s) ailəsinin əlində olması, bu ailə üçün böyük bir mənəvi imtiyaz hesab olunurdu. Bu onların Allah dərgahında xüsusi bir məqam sahibi və Allahın Rəsuluna (s) ən yaxın olmalarının göstəricisi idi. Xüsusi ilə qeyd etmək lazımdır ki, əhli-şiə və əhli-sünnə hədislərində Peyğəmbərin (s) Xanım Fatiməni (s.ə) çağıraraq Fədək ərazisini ona bağışlaması hadisənin məhz "Öz yaxınlarının haqqını ödə" ayəsinin nazil olmasından sonra baş verdiyi nəql edilir. Aydın məsələdir ki, bu hökmün işığında Fədəkin Peyğəmbər (s) xanədanının əlində olması, heç şübhəsiz ki, insanların Allahın Rəsulunun (s) başqa miraslarının, xüsusən də, xilafət və canişinlik məsələsini də Əhli-beytdə (ə.m) axtarmasına səbəb olacaqdı. Bu, xilafətin başqalarına keçməsinin tərəfdarı olan qrupun qəbul edə biləcəyi bir mətləb deyildi.

2) Fədək iqtisadi cəhətdən də mühüm idi və onun siyasi idarəçiliyə ciddi təsiri var idi. Çünki, Əli (ə) və ailəsi nə qədər çox iqtisadi sıxıntılar içərisində qalsaydı siyasi gücü də bir o qədər zəifləyəcəkdi. Başqa sözlə desək, Fədəkin onların əlində qalması, əllərində bir sıra imkanların mövcud olması demək idi ki, onlar vilayət məsələsini də gündəmə gətirə biləcəkdilər. Necə ki, Həzrəti-Xədicənin (s.ə) var-dövləti Xatəmul-Ənbiya Həzrəti-Mühəmmədin (s) peyğəmbərliyinin ilk çağlarında İslamın irəliləyişi üçün böyük dayaq idi. Bu dünya tarixində təcrübədən keçirilmiş və hər tətbiq olunduğunda müvəffəqiyyətlə nəticələnmiş

bir sınaq idi. "Zəiflətmək" dedikdə, yəni istənilən böyük şəxsiyyətin və ölkənin ilk öncə iqtisadi mühasirəyə alınması nəzərdə tutulur. İslam tarixində bu taktikaya nümunə olaraq, ƏbuTalib dərəsində müsəlmanların müşriklər tərəfindən iqtisadi təzyiqə məruz qalmasını göstərə bilərik.

"Münafiqun" surəsinin "Əgər Mədinəyə qayıtsaq, güclülər zəifləri qovarlar" ayəsində münafiqlər tərəfindən həmin plana bənzər bir planın qurulmasına işarə edilir. Lakin Allahın lütfü ilə həmin plan beşikdəcə boğulur.

Deməli, müxaliflərin həmin böyük sərmayəni Peyğəmbər (s) ailəsinin əlindən almaları və bu yolla onları zəiflətmək uğrunda var qüvvə ilə çalışmaları heç də təəccüblü deyildir!

3) Əgər həmin dövrün hakimiyyəti Peyğəmbərin (s) mirası olaraq və ya qızı Həzrəti-Zəhraya (s.ə) hədiyyəsi adı altında Fədək bağını Xanım Zəhranın (s.ə) ixtiyarına verməyə hazır olsaydı, o zaman Əhli-beyt (ə.m) xilafət məsələsini də onlardan tələb edə bilərdi. Bu həqiqəti əhli-sünnənin məhşur alimi Əbdül Həmid ibn Mühəmməd Motəzili (İzzətdin ibn Əbil Həmid) "Şərhul-"Nəhcül-bəlağə"də incə bir şəkildə etiraf etmişdir: "Bir gün ustadım və eyni zamanda Bağdad mədrəsəsinin müəllimi olan Əli ibn Faruqidən soruşdum: "Həzrəti Xanım Fatimə (s.ə) Fədək bağına olan iddiasında haqlı idimi? Faruq cavab verdi: "Bəli". Dedim: "Bəs niyə 1-ci xəlifə bunu ona vermədi, axı, Həzrəti-Fatimə (s.ə.) haqlı idi?" O bir az təbəssüm edərək (adətən zarafat etməzdi) belə cavab verdi: "Əgər Əbu Bəkr həmin gün Fədəki Həzrəti-Fatimənin (s.ə) iddiası ilə ona vermiş olsaydı, səhəri gün yenidən onun yanına qayıdıb ərinin xilafətə haqlı olduğunu iddia edərdi. Bununla da

Əbu Bəkri məqamından kənarlaşdırardı və xəlifənin özünü müdafiə etmək üçün heç bir dəlili qalmazdı. Çünki, Fədəki qaytarmaqla, bunu qəbul etmiş olurdu. Xanım Fatimə (s.ə) hər nə iddia etmişsə, doğru demişdir, heç bir dəlilə və şahidə də ehtiyac yoxdur”. Sonra ibn Əbil Hədid deyir: “Bu, bir həqiqətdir. Baxmayaraq ki, ustadım onu zarafatcasına bəyan etdi”. Əhli-sünnənin bu iki aliminin belə açıq etirafı Fədək hadisəsinin siyasi yönümünə sübutdur.

Əgər İslamın başlanğıcından başlayaraq bir neçə əsr davam edən bir prossesə hər bir xəlifənin Fədək barəsində özünəməxsus bir şəkildə çıxardığı hökmə və onu əl-ələ ötürmələrinə nəzər yetirsək, Fədəkin siyasi bir alətə çevrildiyini açıq-aşkar görərik. Biz Allahın lütfü ilə sonrakı yazımızda da bu bəhsə toxunacağıq.

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) “Fədək” barədə haqqını sübut etməsi

Xanım Fatimeyi-Zəhra (s.ə) ilk əvvəl Fədək bağlarını tələb etmişdir. Çünki bu bağlar Peyğəmbərin (s) öz sağlığında ona (s.ə) bağışladığı hədiyyə idi. Lakin Peyğəmbər (s) xilafətini qəsb edənlər buna qarşı çıxaraq, dedilər ki, bu dəlilə ehtiyacı olan iddiadan başqa bir şey deyil. Bu səbəbdən Həzrəti-Fatimeyi-Zəhra (s.ə) Həzrəti-İmam Əlini (ə), Həzrəti-İmam Həsəni (ə), Həzrəti-İmam Huseyni (ə) və Ummi-Əyməni şahid gətirdi. Ancaq onların da şəhadəti rədd edildi. Xanım Fatimeyi-Zəhradan (s.ə) dəlil tələb etmək, iddiaçıya qəti dəlil etiraz edənə and lazımdır. Əl (yəni bir şeyin insanın ixtiyarında olması) mülkiyyətin dəlili və nişanəsidir. Ancaq Peyğəmbər (s) xilafətini qəsb edən-

lərin bu addımı bu kimi İslam qanunlarına zidd və əcaib bir hərəkət idi. Aydındır ki, Fədək bağları Xanım Fatimeyi-Zəhranın (s.ə) əlində idi və onu idarə edirdi, Həzrəti-Fatimeyi-Zəhra (s.ə) hələ Atası Həzrəti-Peyğəmbərin (s) sağlığında oradan istifadə edirdi. Rəvayətlərdə də deyildiyi kimi, mülkiyyətin sahibi olduğu üçün, mülkiyyət də onun əlində olduğu üçün həmin şəxsdən sübut tələb edilə bilməz. Çünki, mülkiyyətin sahibindən sübut tələb edilmir. Əksinə, mülkiyyətə etiraz edən iddiaçıdan sübut tələb edilir. Ən qəribəsi də odur ki, Həzrəti-Əli (ə), Həzrəti-Həsən (ə) və Həzrəti-Huseyn (ə) kimi müqəddəs pak və sədaqətli şəxslərin şəhadəti rədd edildi. "Əhzab" surəsinin 33-cü ayəsində buyrulur: "Siz ey Əhli-beyt (ə.m), Allah sizdən çirkinliyi yox etmək və sizi tər-təmiz, pak etmək istər". Elə isə Xanım Fatimeyi-Zəhranın (s.ə) davası necə rədd edilə bilər? Həm də o halda ki, Aişənin dediyi kimi, "Xanım Fatimə (s.ə) Atasından sonra ən sadiq şəxs olmuşdur. Atasından başqa onun qədər sadiq birini görmədim". Fatimə (s.ə.) dünya qadınlarının xanımıdır yalan iddia etməsi mümkün deyil. Çünki o xanım (s.ə) məsum və pak Əhli-beytdəndir (ə.m.).

Hədiyyənin inkar edilməsindən sonra, Xanım Fatimeyi-Zəhra (s.ə) hədiyyə qaranlığı üzərindən pərdəni götürdü və vərəsə qissəsi yolu ilə öz haqqını isbat etdi. Belə ki, Fədək bağları Peyğəmbərin (s) sağlığında bağışladığı hədiyyə olmasaydı belə, öz təbii halı ilə onun vəfatından sonra Fatimənin (s.ə) mirası olacaqdı. Çünki Fədək Peyğəmbərə (s) məxsus idi. Xanım Zəhra (s.ə) irs barəsində əsaslı şəkildə danışaraq buyurur: "Ey müsəlmanlar, məgər öz irsimi zorla almalıyam?" Sonra Əbu Bəkrə müraciət edərək deyir:

“Ey Əbu Quhafənin oğlu, məgər Allah-təalanın kitabında yazılıb ki, sən atana vərəsə olursan, mən yox? Yalan danışır və saxtakarlıq edirsən. Siz məqsədli olaraq Allahın kitabını tərk edib, ondan üz çevirirsiniz? Çünki Allah-təala Qurani-Kərimdə buyurur: “Süleyman (ə) Davuda (ə) vərəsə oldu”. Həmçinin, Yəhya ibn Zəkəriyya (ə) qissəsində buyurur: “Mənə öz dərgahında bir vəli bəxş et ki, həm mənə, həm də Yəqub nəslinə varis olsun”. Sonra demişdir: “Allahın kitabında qohumların bəzisi bəzisindən daha üstündür”. Başqa bir yerdə isə Allah-təala deyir: “Allah övladlarınız haqqında sizə tövsiyyə edərək buyurur ki, oğula iki qız hissəsi qədər pay düşür”. Digər bir yerdə isə Allah-təala buyurur: “Sizin hər birinizi ölüm haqlayan zaman özündən sonra bir xeyir qoyacaqsa, ata-anaya və yaxın qohumlarınıza vəsiyyət etməyiniz zəruridir. Bu müttəqilərə vacibdir”.

Fədək bağları Allah Rəsulunun (s) zamanında “Qohumlarının haqqını ödə” ayəsinin tələbinə uyğun olaraq Həzrəti-Fatimeyi-Zəhraya (s.ə) hədiyyə edilmişdir. Bu mətləbi yalnız şiə təfsirçiləri deyil, bir sıra əhli-sünnə alimləri də məhşur səhabə Əbu Səid Xidridən nəql etmişlər. Həmin hədislərin sənədlərini əvvəlki yazımızda qeyd etdik. Peyğəmbərin (s) vəfatından sonra o dövrün hakim dairələri Fədəkin üzərinə əl qoyub Fatimənin (s.ə) nümayəndələrini oradan çıxartdılar. Bunu əhli-sünnənin məhşur alimi Sahabuddin Əhməd ibn Həcər Heysəmi Məkki “Əssəvaiqül-Mühriqə” kitabında, Əllamə Nurəddin Əli ibn Abdullah Səmhudi “Vəfaul-Vəfa” kitabında və Əbdulhəmid ibn Mühəmməd Motəzili İzzəddin ibn Əbil Hədid “Şərhul-“Nəhcül-Bəlağə” kitabında etiraf etmişdir.

Həzrəti-Zəhra (s.ə) öz haqqını bərpa etmək üçün iki yola əl atdı. Belə ki, ilk öncə hamının bildiyi həqiqəti ortaya

çəkib, Fədəkin bir Peyğəmbər (s) hədiyyəsi olduğunu bəyan etdi. Bu xilafəti qəsb edən kəslər tərəfindən qəbul olunmadıqda isə Fədəkin ən azından bir irs payı kimi ona yetişdiyini xatırlatdı. Həzrəti-Zəhra (s.ə) ilk mərhələdə Həzrəti-Əlini (ə) və Ümmi-Əyməni (Peyğəmbər (s) xanımını) şahid qismində birinci xəlifənin yanına dəvət etdi. Lakin xəlifə iddianı isbat etmək üçün iki kişi şahidin lazım olduğu bəhanəsi ilə onların şahidliyini rədd etdi. Daha sonra da Allahın Rəsulunun adından (s) yalandan nəql etdikləri: “Biz Peyğəmbərlər özümüzdən sonra miras payı saxlamırıq, bütün varidatımız sədəqədir”. Belə bir saxta hədisə istinad edərək miras payı təklifinin də üzərindən xətt çəkdilər. Kiçik bir araşdırma hakim rejimin bu hərəkətində 10 böyük xətaya yol verdiyini üzə çıxartmağa kifayət edir. Onların geniş şərhini vermək mətləbin çox uzanmasına səbəb olduğu üçün sadəcə xətaları sadalamaqla kifayətlənirik:

1.Fatimə (s.ə) ev sahibi idi. Fədək faktiki olaraq onun ixtiyarında idi. Həm İslam, həm də dünya tarixində tətbiq olunan mülkiyyət haqqında qanunlara əsasən, heç zaman faktiki istifadəçidən şahid tələb olunmur. Onun istifadə hüququnun olmadığına dair ortada təkzib edilməz dəlillər olarsa, şahid tələb oluna bilər. Məsələn, əgər bir şəxs bir evdə sakindirsə və sakini olduğu evin onun mülkiyyəti olduğunu idia edirsə, nə qədər ki, evin onun mülkü olmadığını təkzib edən bir dəlil mövcud deyilsə, evi onun əlindən almaq olmaz. Həmin evdə sakin olan şəxsin özünün, evin sahibi olmasına şahid tutması da lazım deyildir. Çünki həmin evin (istər özü tərəfindən, istərsə də nümayəndəsi tərəfindən) istifadə olunması, onun evin sahibi olmasına ən üstün dəlildir.

2.Yalnız İslam Peyğəmbərinin (s) qızı Fatimənin (s.ə) bu məsələdə şahid olması əslində kifayət edirdi. Çünki o, Xanım (s.ə) Quranın “Allah siz Peyğəmbərin (s) ailə üzvlərindən çirkinliyi yox etmək və sizi tər-təmiz, pak etmək istəyir” ayəsinə və bir çox əhli-sünnənin mötəbər mənbə və səhihlərində nəql olunan “Kisa” hədisinə əsasən məsumdurlar. Allah bütün növ çirkinlik və günahı Həzrəti-Peyğəmbərdən (s), Həzrəti-Əlidən (ə), Həzrəti-Fatimədən, (s.ə) Həzrəti-Həsəndən (ə) və Həzrəti-Huseyndən (ə) uzaqlaşdırmış, onları hər növ günahdan pak etmişdir. Allahın məsum qərar verdiyi belə bir şəxsin şəhadət və iddiası necə şübhə altına alına bilər?!

3.Bu məsələdə yalnız Əli ibn Əbu Talibin (ə) şahidliyidə kifayət edərdi. Çünki oda məsum idi. Onu da qeyd edək ki, yuxarıdaki “Təthir ayəsini” sadalamaqla bitməyəcək saysız-hesabsız ayə və hədislərdən savayı aşağıdakı qeyd etdiyimiz hədis də o Həzrətin (ə) pak və günahsız olduğuna dair qəti dəlildir. “Haqq Əli (ə) ilə, Əli də (ə) haqq ilədir. Əli (ə) hara dönərsə haqq da ora tərəfdir”. Həqiqətən, həqiqət necə Əlinin (ə) varlıq məhvərində fırlanır ki onun şahidliyi qəbul edilmir? Sünnilərin və şiələrin nəql etdiyi bu Peyğəmbər (s) sözündən sonra kimin cürəti var - ki, onun şahidliyini rədd etsin?!

4.Yalnız Ümmi-Əymənin də şahidliyi kifayət edirdi. Çünki İbn Əbilhədidin də nəql etdiyi kimi, Ümmi-Əymən onlara dedi: “Məgər siz Peyğəmbərin (s) mənim barəmdə “O, cənnət əhlidir” dediyini etiraf etmirsiniz?! (Əgər bunu etiraf edirsinizsə, bəs necə olur şahid ifadəmi rədd edirsiniz?!).

5.Bunlardan başqa məhkəmə hakimi müxtəlif əlamətlərdən yəqin hasil edərsə, bu hökm çıxarmaq üçün kifayət

edər. Əgər belədirsə, faktiki istifadəçilərin və şahidlərin hər birinin ifadələrinin ayrı-ayrılıqda həqiqəti isbat etmək üçün kifayət etməsi hakimin yəqin hasil etməsinə kifayət etmirmi?!

6.Peyğəmbərlərin (ə.m.) özlərindən sonra miras saxlamamaları barəsində hədis başqa şəkildə və başqa mənadadır, Fədəki qəsb edənlərin nəql və təfsir etdikləri kimi deyil. Çünki, başqa mənbələrdə həmin hədis aşağıdakı kimi göstərilmişdir. "Peyğəmbərlər (s) özlərindən sonra dirhəm, dinar, miras saxlamadılar. Onların mirası elmdir. Kim onların elmindən daha çox faydalanarsa, daha çox miras payı əldə etmişdir." Göründüyü kimi bu hədis Peyğəmbərlərin (ə.m.) mənəvi mirasından söz açır, mal mirasına heç bir aidiyyatı yoxdur. Bu həmin mətləbdir ki, məhşur hədisdə ifadə olunub ki, "Alimlər Peyğəmbərlərin (ə.m.) varisləridir". Göründüyü kimi, "Bizim bütün varidatımız sədəqədir" cümləsi, ümumiyyətlə, hədisdə yoxdur. Məgər Quranla açıq-aşkar zidd olan bir hədisin Peyğəmbərin (s) dilindən səslənməsi mümkündürmü? Çünki, Qurani-Məcidin bir çox ayələrində Peyğəmbərlərin (ə) özlərindən sonra miras saxladıqları açıq-aydın bəyan edilir. Bu ayələrdə təkzibedilməz işarələr mövcuddur ki, məqsəd təkcə mənəvi deyil, həm də maddi mirasdır. Elə buna görə də Xanım Zəhra (s.ə) Peyğəmbər (s) məscidində "Mühacir" və "Ənsar"ın qarşısında etdiyi alovlu nitqində həmin ayələrə istinad etdi və onlardan heç kəs Həzrəti-Peyğəmbərin (s) söylədiklərini inkar etmədilər. Bütün bunların hamısı qəsbkarların istinad etdikləri hədisin qondarma olduğunun sübutudur.

7. Əgər bu hədis doğrudursa, necə ola bilər ki, Peyğəm-

bərin (s) xanımlarından heç biri onu eşitməyib?! Niyə hamısı xəlifənin yanına gəlib özlərinin miras paylarını tələb ediblər?!

8.Əgər bu hədis doğrudursa, bəs niyə birinci xəlifə Əbu Bəkr sənəd yazıb, Fədəkin Xanım Fatimeyi-Zəhraya (s.ə) qaytarılmasına əmr vermişdi?! Lakin həmin sənədi yolda ikinci xəlifə Ömər Xanım Zəhranın (s.ə) əlindən alıb cırmışdı.

9.Fərz etsək ki, hədis doğrudur, onda Fədək sədəqə kimi fəqirlərin arasında bolüşdürülməli idi. Digər bir tərəfdən ikinci xəlifə Ömər öz hakimiyyəti zamanında iş-işdən keçəndən sonra Həzrəti-Əlinin (ə) və Abbasın yanına adam göndərərək onları çağırtdırdı və Fədəki onlara təhvil verdi. Bu hadisə tarixi kitablarda məhşur bir hadisə kimi nəql olunur.

10.Şiə və sünnilərin məşhur mənbələrində nəql edilir ki, Fatimeyi-Zəhra (s.ə) Fədəkin onun əlindən alınmasından sonra onlara (Əbu Bəkr və Ömərə) qəzəbləndi və belə buyurdu: “Mən bundan sonra sizinlə bir kəlmə də kəsməyəcəyəm!” Bu küsgünlük, Xanım (s.ə) dərd-qəm içində bu dünyaya göz yumana qədər davam etdi. Halbuki, İslam mənbələrində Peyğəmbərdən (s) aşağıdakı məşhur hədisdə nəql olunur: “Kim qızım Fatiməni (s.ə) sevərsə, məni sevmişdir. Fatiməni (s.ə) razı salan, məni razı salmışdır. Fatiməni (s.ə) qəzəbləndirən, məni qəzəbləndirmişdir!” Görəsən, bu hədisin müqabilində Həzrəti-Fatimənin (s.ə) tələb etdiyi bir haqqı onun əlindən alıb doğruluğun iyini belə almamış və Quranın “Peyğəmbərlərin (ə.m) varisləri onlardan miras payı aparır” fikri ilə təmamilə zidd olan hədisə istinad etmək nə qədər məntiqlidir?! Hər halda Fədəkin

qəsb edilməsi üçün heç bir səbəb tapmaq mümkün deyil! Bu hərəkəti heç cür yozmaq mümkün olmur! Bütün bunlar Xanım Zəhranın (s.ə) Fədəkin istifadəçisi olması, mötəbər şahidlər, Quranın aydın hökmü və müxtəlif hədislər Xanım Zəhranın (s.ə) Fədək məsələsində haqlı olduğunu göstərir. Bütün bunlardan başqa Qurani-Məciddə övladların öz valideynlərindən miras əldə etmək barəsindəki ayələri də, həmçinin, şahid hesab olunur. Bu ayələrin istisna hallarının mövcudluğuna dair hər hansı bir mötəbər dəlil olmadığından, bu İslami hökmlərə göz yummaq olmaz.

## Fədək Əhli-beytə (ə.m) necə qayıtdı

Fədəkin tarixi İslam tarixinin maraqlı səhifələrindən biri hesab olunur. Xəlifələrin hər biri bu ərazi haqqında xüsusi siyasət yürüdürdü, biri alır, digəri geri qaytarırdı. Çək-çevir o qədər davam etdi ki, sonda həmin ərazi tamamilə viran oldu. Bu kiçik kəndin başı üzərində cərəyan etmiş olayları bilmək istəyirsinizsə, aşağıdakılara diqqət yetirməniz kifayətdir:

1.Bildiyimiz kimi, Fədək Xeybərin süqutundan sonra razılaşma ilə yəhudilərdən İslam Peyğəmbərinin (s) ixtiyarına keçmişdir. Quranın "Müsəlmanların əlinə döyüş aparmadan çatan mallar Rəsuli-Əkrəmin (s) haqqıdır və bu mallar müharibə qənimətləri kimi bölüşdürülmür" ayəsinin hökmü ilə bu ərazinin külli-ixtiyarı Peyğəmbərin (s) əlində idi.

2.İslam tarixinin mötəbər sənədlərinə əsasən, Peyğəmbər (s) hələ həyatda ikən ona "Qohumlarının haqqını ödə" ayəsinin hökmünə uyğun olaraq əziz qızına bağışlamış və

bu ərazinin ixtiyarı Xanım Zəhraya (s.ə) keçmişdi.

3) Birinci xəlifə Əbu Bəkrin dövründə bu abad ərazi qəsb edilərək hökümətin ixtiyarına verildi. Hakimiyyətdəkilər qəribə bir inadkarlıqla bu ərazini öz əllərində saxlamaq üçün çalışırdılar.

4) Bu vəziyyət Ömər ibn Əbdüləzizin – Peyğəmbər (s) ailəsinə mülayim rəftarı ilə seçilən bu əməvi xəlifəsinin hakimiyyəti zamanına qədər davam etdi. Bu xəlifə özünün Mədinədəki məmuru Ömər ibn Hüzmə məktub yazmış, məktubunda "Fədəki Fatimə (s.ə) övladlarına qaytar!" deyə göstəriş vermişdir. Ancaq Mədinədəki məmurun Xəlifə Ömər ibn Əbdüləzizin göstərişini ləngitməsinə görə Ömər ibn Əbdüləziz qəzəblənərək, ona sərt bir məktub yazdı. Mən sənə məktub yazıb bir qoyun kəsməyini əmr etsəm, dərhal cavabında yazacaqsan ki, buynuzlu olsun ya buynuzsuz? Yazsam ki, bir inək kəs soruşacaqsan ki, rəngi necə olsun?! Mənim bu məktubum sənə yetişən kimi dərhal Fədəki Əli (ə) ilə Fatimə (s.ə) övladları arasında bölüşdür".

Bu minvalla və tarixin çarxının böyük dönüşü ilə, nəhayət, uzun illərdən sonra Fədək Fatimə (s.ə) övladlarının əlinə qayıtdı.

5.Çox keçmədi ki, əməvi xəlifəsi Yezid ibn Əbdülməlik onu yenidən qəsb etdi.

6.Hakimiyyət Üməyyə övladlarından Abbasi övladlarına keçdi. Məşhur Abbasi xəlifəsi Əbul-Abbas Fədəki Fatimə (s.ə) övladlarının nümayəndəsi kimi Əbdullah ibn Həsən ibn Əliyə qaytardı.

7.Çox keçmədi ki, Əbu Cəfər Abbasi onu yenidən İmam Həsən Müctəbanın (ə) övladlarından geri aldı (çün-

ki, onlar Bəni-Abbasa qarşı qiyam qaldırmışdılar).

8.Əbu Cəfərin oğlu Mehdi Abbasi onu yenidən Fatimə (s.ə) övladlarına qaytardı.

9.Başqa bir Abbasi xəlifəsi Musa Əlhadi yenidən Fədəki qəsb etdi və Harun Ərrəşid bu siyasəti davam etdirdi.

10.Məmun (Abbasi xəlifəsi) Peyğəmbərin (s) ailə üzvlərinə Əli (ə) övladlarına qarşı sevgi görüntüsü yaratmaq naminə, Fədəki xüsusi bir təntənə ilə Fatimə (s.ə) övladlarına qaytardı. Tarixdə yazılıb ki, Məmun Mədinə valisi Qəsəm ibn Cəfərə belə bir məktub yazmşdı ki, "Allahın elçisi  Mühəmməd (s) Fədəki qızı Xanım Fatiməyə (s.ə) bağışladı. Bu Peyğəmbərin (s) ailəsinin içərisində şübhə doğurmayan bir faktdır. Çünki, Xanım Fatimə (s.ə) həmişə Fədəkə iddialı idi. Belə ki, onun sözü təsdiq edilməyə ən layiqli sözdü. Məsləhət bilirəm ki, Fədək o Həzrətin (s.ə) varislərinə qaytarılsın. Onu Mühəmməd ibn Yəhya və Mühəmməd ibn Abdullaha (İmam Səccadın (ə) nəvələrinə) təslim et ki, Fədək öz sahiblərinə qaytarılmış olsun"! İbn Əbil Hədid yazır: "Bir dəfə Məmun camaatın şikayətlərinə baxırdı, diqqətini cəlb edən ilk şikayət ərizəsi Fədəkə aid idi. Şikayət ərizəsini oxuyan kimi ağlamağa başladı və məmurlardan birinə tapşırdı ki, Fatimənin (s.ə) vəkili haradadır? Çağır gəlsin! Bir qoca kişi yaxına gəldi və Məmunla çox söhbət etdi. Məmun bir fərman imzaladı və Fədəki Əhli-beytin (ə) nümayəndəsi kimi həmin kişiyə təslim etdilər. Məmun bu fərmanı imzalayan kimi Dobəl adlı (məşhur) şair ayağa qalxıb bədahətən bir şeir oxudu: "Məmunun Fədəki Bəni-Haşimə qaytarmasıyla zamanın üzü artıq gülməyə başladı!" "Fədək" kitabının müəllifi olan Qəzvini Hairi yazır: "Məmun Əbu Səid Xidrinin "Peyğəmbər (s) Fədəki Xanım Fatiməyə (s.ə) hədiyyə etdi" hə-

disinə istinad edərək, Fədəkin Fatimə (s.ə) övladlarına qaytarılmasına göstəriş verdi.

11.Amma Mütəvəkkil (Abbasi xəlifəsi) qəlbində Əhli-beytə (ə) düşmənçilik bəslədiyindən Fədəki yenidən Xanım Fatimə (s.ə) övladlarından qəsb edərək geri aldı.

12.Mütəvəkkilin oğlu Müntəzir (xəlifə) Fədəkin yenidən İmam Həsən (ə) və İmam Huseyn (ə) övladlarına qaytarılmasına göstəriş verdi.

Heç şübhəsiz ki, əldən-ələ keçən, hər gün kinli siyasətçilərin çirkin oyunlarına alət edilən bir kənd sürətlə viran olmağa doğru gedirdi. Belə bir acı tale Fədəkin ətəyini də yaxaladı, onun bütün abadlığı viran oldu, ağacları qurudu. Bu silsilə biri-birinə ötürmələr xəlifələrin Fədəkə xüsusi həssaslıqla yanaşdıqlarını, onun barəsində hər birinin öz siyasətinə uyğun qərar verdikləri həqiqətini açıq-aşkar ortaya qoyur. Bütün bu dediklərimiz əvvəlcə bəyan etdiyimiz fikrin, yəni Fədəkin İslam Peyğəmbərinin (s) qızı Xanım Fatimeyi-Zəhradan (s.ə) və ya onun övladlarından qəsb edilməsinin səbəbi iqtisadi məqsəddən daha öncə siyasi məqsəd daşıyırdı. Belə ki, əsas hədəfin Əhli-beyt (ə.m) mövqeyini İslam cəmiyyətində zəiflətmək və onlara düşmənçilik izhar etmək olduğunun növbəti təsdiqidir. Həmçinin, fikrimizcə, İslam tarixində dəfələrlə təkrarlanan Fədəkin Əhli-beytə (ə.m) qaytarılma hadisələri də siyasi bir hərəkət olaraq Peyğəmbər (s) ailəsinə məhəbbət görüntüsü yaratmaq idi!

Müsəlmanların zehinlərində Fədəkin əhəmiyyəti son dərəcədə yüksək idi. Tarixdə bu barədə belə yazılmışdır: “Mütəvəkkilin zamanında Fədək Fatimə (s.ə) övladlarının əlindən hələ alınmamış xurması öz mövsümündə belə hacılar tərəfindən təbərrük üçün çox baha qiymətə alınırdı”.

## Fədək və Əhli-beyt (ə.m) imamları

Diqqət çəkən məsələlərdən biri də Fədəkin ilk qəsb olunmasından sonra Əhli-beyt (ə.m) İmamlarından heç birinin bu məsələnin üzərinə qayıtmamasıdır. Belə ki, nə Həzrəti-Əli (ə) öz hakimiyyəti zamanında, nə də sonrakı İmamlar (ə.m) bu məsələni qaldırmadılar. Ömər ibn Əbdüləziz və hətta Abbasi xəlifəsi Məmun Fədəkin İmamlardan birinə qaytarılması barədə təşəbbüs göstərsələr də, İmamlar buna ciddi yanaşmadılar. Onların bu məsələdəki susqunluğu sual doğurur.

Bütün İslam ölkələri üzük qaşının (hakimiyyət) altında olarkən niyə Həzrəti-Əli (ə) bu haqqı həqiqi sahibinə qaytarmadı? Nə üçün Məmun Həzrəti-İmam Əli ibn Musər-Rzaya (ə) zahirdə də olsa məhəbbət göstərməsinə baxmayaraq, Fədəki o Həzrətə (ə) yox, Bəni-Haşimin nümayəndəsi kimi Zeyd ibn Əli ibn Huseynin (ə) nəvəsinə təqdim etdi? Bütün bu mühüm tarixi sualların cavabını belə izah etmək olar ki, Həzrəti-İmam Əli (ə) həmin qısa kəlamında lazım olanların hamısını bəyan edib. “Bəli asimanın kölgə saldığı dünyada əlimizdə yalnız Fədək var idi. Bir dəstə insan ora göz dikdilər, digərləri ( bizlər) səxavət göstəricisinə görə ordan əl götürdülər. Allah ən ədalətli hakimdir! Fədəkdən başqa bir ərazidə də gözümüz yoxdur. Sabah onsuz da hamımız torpağa basdırılacağıq”!

Bu böyük şəxsiyyət əməli şəkildə sübut etdi ki, Fədəki bir gəlir yeri, iqtisadi mənbə kimi istəmir. Həm özü, həm də xanımı tərəfindən gündəmə gətirdikləri vaxt məqsədləri yalnız vilayəti təsbit etmək, İslam Peyğəmbərinin (s) xilafətini əyri yollara yuvarlanmaqdan qorumaq olmuşdur. İn-

di ki, iş-işdən keçib və Fədək artıq maddi surət alıbdır, onu geri istəməyin nə faydası var?

Şiələrin böyük alim və tədqiqatçısı Ələmul Huda Seyyid Mürtəza Əbul Qasim Əli ibn Huseyn ibn Musa Musəvinin bu zəmində gözəl bir sözü vardır: "Həzrəti-Əli (ə) zahirdə xilafət başına gətirildikdən sonra, Fədəkin öz sahiblərinə qaytarılması haqqında söhbət açıldıqda, Həzrət Əli (ə) belə cavab verdi: "Mən Allahdan utanıram ki, Əbu Bəkrin vermədiyi və Ömərin də bunu imzaladığı bir şeyi əsl sahiblərinə qaytarım! Həzrət (ə) bu sözüylə özünün böyüklüyünü göstərdi. Belə ki, O bununla, həm maddi bir sərmayə və mənbə kimi Fədəkə qarşı etinasızlığını nümayiş etdirir, həm də onu sahibindən qəsb edənlərin adını çəkirdi.

Zahirdə də olsa Peyğəmbər (s) ailəsinə hörmət etdiklərini nümayiş etdirən bəzi xəlifələrin Fədəki Əhli-beyt İmamlarına (ə.m) deyil, məsələn, Zeyd ibn Əlinin nəvələrinə və ya Fatimə (s.ə) övladlarının nümayəndəsi qismində bəzi tanınmayan şəxslərə verməlөrinə gəlincə, bunun mümkün olan iki səbəbi ola bilər:

1.Hidayət İmamları (ə) Fədəki qəbul etmək istəmirdilər. Çünki bu, həmin zaman mənəvi məsələdən daha çox, maddi məsələ kimi görünərdi. Bəlkə də insanlar tərəfindən mənəvi imtiyaz kimi yox, dünya malına məhəbbət kimi dəyərləndiriləcəkdi. Başqa sözlə desək, İmamların (ə) həmin şəraitdə Fədəki qəbul etmələri onlar üçün kiçiklik sayılacaqdı. Bundan əlavə, onların zalım rəhbərlərlə mübarizədə əl-qollarını da bağlamış olacaqdı. Çünki bu təcrübə olunmuş bir həqiqət idi. Əhli-beyt (ə.m) mübarizəyə qalxmaq istədikdə, Fədəki onların əlindən alardılar. Necə ki, İmam Həsən (ə) övladları Abbasi xəlifəsi Əbu Cəfərin ha-

kimiyyətinə qarşı mübarizəyə qalxdıqları zaman xəlifə Fədəki onlardan geri almışdı.

2.Zalım xəlifələr Əhli-beyt (ə.m) İmamlarının (ə.m) maddi imkanlarının genişlənməsini istəmirdilər. Harun Ər-Rəşidin məhşur bir dastanı var. Belə ki, Harun Ər-Rəşid bir səfərində Mədinəyə gələndə Musa ibn Cəfərə (ə) çox böyük hörmət nümayiş etdirdi və bu onun oğlu Məmun üçün yeni bir şey idi. Lakin növbə hədiyyə paylamağa gələndə İmam (ə) üçün çox kiçik bir hədiyyə göndərdi. Məmun buna çox təəccübləndi, səbəbini soruşduqda atasından təxminən bu məzmunda bir cavab aldı: “Elə bir iş görməliyik ki, onlar qüdrətlənib bizim əleyhimizə qiyam qaldırsınlar”.

Harun Ər-Rəşid İmam Musa ibn Cəfərə (ə) Fədəkin sərhədlərini bəyan et, sizə qaytarım deyəndə Həzrəti-İmam Museyi-Kazim (ə) cavab vermək istəmədi. Harun israr etdikdən sonra İmam Museyi-Kazim (ə) buyurdu: “Mən Fədəki yalnız həqiqi sərhədləriylə geri alaram!” Harun dedi: “Həqiqi sərhədlər haradır?” İmam Museyi-Kazim (ə) buyurdu: “Mən onları desəm, əminəm ki razılaşmayacaqsan.” Harun dedi: “And olsun baban Peyğəmbərin (s) haqqına, sən de (mən qaytaracağam)!” İmam Museyi-Kazim (ə) buyurdu: “Bir tərəfdən sərhəddi Ədən ərazisidir”. Harun (üzü bozarmış halda) dedi: “Əcəb, əcəb”. İmam Museyi-Kazim (ə) buyurdu: “İkinci sərhəddi Səmərqənddir! (Harunun üzündə narahatçılıq cizgiləri dahada artırdı)”. İmam Museyi-Kazim (ə) sözünə davam edərək buyurdu: “Üçüncü tərəfdən sərhəddi Afrikadır!” Harun (sifəti narahatçılıqdan qaralmış halda) dedi: “Əcəb”. İmam Museyi-Kazim (ə) buyurdu: “Dördüncü tərəfdən

sərhəddi Xəzər dənizinin sahilləridir!” Harun dedi: “Bizim üçün heç nə qalmadı ki, elə isə qalx mənim yerimdə əyləş, camaata hökümətlik et! (Mənası budur ki, sənin sadaladığın sərhədlər bütövlükdə İslam ölkəsinin sərhədləridir). İmam Museyi-Kazim (ə) cavabında buyurdu: “Sənə demədim ki, həqiqi sərhədləri bəyan etsəm, onu mənə verməyəcəksən?!” deyə İmam (ə) əvvəldə dediyi sözü ona xatırlatdı. Məhz bu andan etibarən, Harun öz zehnində İmamı (ə) qətlə yetirməyin planını fikirləşdi.

Bu mənalı hədis Fədəklə xilafət məsələsinin bir-birinə bağlı olduğunun aydın dəlilidir. Məsələnin əsas mahiyyəti Allah Rəsulunun (s) xilafətinin qəsb olunmasıdır. Harun həqiqətdə Fədəki İmama (ə) təhvil verməmək istəmirdi, bu yalnız siyasi bir gediş idi. Belə ki, bu siyasi gedişi ilə xalqın gözündə özünə ədalətli xəlifə portreti çəkmək istəyirdi. Əgər Fədəki əsl sahibinə qaytarsaydı, onda xilafəti də haqqı olduğu xanədana, yəni İmam Musa ibn Cəfərə (ə) qaytarmaq məcburiyyətində qalacaqdı. Bu məntiqlə İmamın (ə) istənilən zaman qüdrət əldə edib onu xilafət taxtından endirə biləcəyi ehtimalı ilə Xəlifə Harunun planlarına yeni bir cinayət əlavə olundu, Həzrəti-İmam Museyi-Kazimi (ə) şəhadətə yetirmək!

Nəticə olaraq deyə bilərik ki, Həzrəti-Peyğəmbərin (s) rehlətindən sonra baş verən “Fədək hadisəsi” və digər kədərli hadisələr Əhli-beyti (ə.m) İslami xilafət və hökumətdən uzaqlaşdırmaq, onların vilayət və imamət məqamını görməməzliyə vurmaq məqsədini daşıyırdı. Siyasi oyunçular, İslamın ilk dövrlərindən xüsusilə də Bəni-Üməyyə və Bəni-Abbas tayfalarının hakimiyyətləri zamanından başlayaraq Əhli-beyti (ə.m) hər cəhətdən sındırır, onların

adlarından istifadə edir, haqlarını əllərindən alırdılar. Bəni-Üməyyə və Bəni-Abbas hakimiyyətləri dövründə İslam ölkəsinin ərazi sərvətlərinin həcmi və büdcə gəlirlərinin dünya tarixində nadir rastlanan və ya nümunəsi çox az gözə çarpan miqdar və miqyasda tərəqqi etməsi faktı danılmazdır. Təbii ki kiçik bir kənd olan Fədəkin ərazisi və gəliri ölkənin ümumi göstəricilərinin yanında hesaba gəlməyəcək qədər kiçikdir. Amma şeytani düşüncələr yenə də hakimiyyətdəkilərə Fədək sahiblərinin Fədək ərazisi sayəsində qüdrət əldə edə biləcəkləri qorxusu olduğu üçün bu haqqı öz sahiblərinə qaytarmağa icazə vermirdi.

"Fədək hadisəsi" həqiqətdə İslam tarixinin gizli planlar və tarixi təxribatlarla zəngin elə bir səhifəsidir ki, onu mütaliə edənlər, Peyğəmbər (s) xanədanının məqamını, məzlumiyyətini (haqlarının tapdalanmasını) düşmənlər tərəfindən sıxışdırılaraq siyasət meydanından kənarlaşdırıldıqlarını açıq-aşkar görə bilərlər.

Fədək hər bir dövrdə Əhli-beyt (ə.m) üçün xilafət rəmzi olmuşdur. Belə ki, Həzrəti-Fatimeyi-Zəhra (s.ə) Fədək bağlarındakı haqqını tələb etdiyi zaman, onu maliyyə tərəfi maraqlandırmırdı. Çünki sadə və pəhrizli həyata alışmış Xanım Fatimeyi-Zəhra (s.ə) üçün dünya həyatının heç bir qiyməti yox idi. Həzrəti-Əli (ə) dünya həyatından danışaraq deyirdi: "Bəli, göy üzünün kölgələndirdiyi bu dünya üzündə əlimizdə bir Fədək vardı, ona da cəmiyyətin bir qismi həris oldu və bir qismi də səxavət göstərdi. Mən neyləyirəm Fədəki və yaxud ondan başqa bir yeri ki, bu nəfsin məkanı sabah məzardır".

Həmçinin bu barədə belə nəql edilir ki, Harun Ər-Rəşid İmam Museyi-Kazimə (ə) təklif etmişdir ki, Fədək bağla-

rına sərhəd qoysun ki, onu Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) varislərinə qaytarsın. İmam Museyi-Kazim (ə) isə cavabında buyurmuşdur: "Onu yalnız kamil şəkildə götürə bilərəm"!

Yuxarıda qeyd olunanlardan bir daha bu anlaşıldı ki, Fədək Xanım Fatimeyi-Zəhranın (s.ə) nəzərində (və eləcədə Əhli-beyt İmamlarının (ə.m.) nəzərində) Həzrəti-İmam Əlinin (ə) xilafətdəki haqqına keçid körpüsü olmuşdur. Çünki "Qədir-Xum" hadisəsinin unudulmaması üçün Xanım Fatimeyi-Zəhra (s.ə.) ömrünün sonuna qədər mübarizə apardı ki, Həzrəti-Əlinin (ə) Peyğəmbərin (s) həqiqi canişini olduğunu Quran ayələri və Peyğəmbər (s) hədisləri işığında gələcək nəslə çatdırsın.

# III BÖLÜM

## XANIM FATİMEYİ-ZƏHRANIN (S.Ə) ŞƏHADƏTİNƏ SƏBƏB OLAN GİZLİ HƏQİQƏTLƏR

Süleyman ibn Qeys Peyğəmbərin (s) şəhadətindən sonra baş verən hadisələri Salmani-Mühəmməddən (r.ə) belə nəql edir: “Həzrəti-Əli (ə) Xanım Fatimeyi-Zəhra (s.ə) ilə birlikdə “Mühacir” və “Ənsar”ı köməyə çağırsa da, yenə biz dörd nəfərdən başqa o Həzrətin (ə) səsinə səs verən olmadı. Biz Əmirəl-möminin Həzrəti-Əlinin (ə) buyruğuna əsasən, başımızın tüklərini ülgüclə qırxıb o Həzrətin (ə) yolunda öz canımız və malımızdan keçməyə hazır olduq. Lakin Həzrəti-Əli (ə) köməksiz olduğunu görüb evdə oturmağa məcbur oldu”.

Rəvayət edirlər ki, Ömər Əbu Bəkri yenə də Həzrəti-Əlinin (ə) ziddinə təhrik edərək dedi: “Nə üçün Əlinin beyət etməməsinə səbr edirsən? O və ona yardım edən üç-dörd nəfərdən başqa hamı sənə beyət edib. Çağır, onlar da beyət etsinlər”. Əbu Bəkr dedi: “Bəs onları çağırmağa kimi göndərim? Ömər dedi: “Qunfuzu göndər”(Qeyd edək ki, Qunfuz Bəni-Təmim qəbiləsindən olub, çox kobud və qəddar şəxs idi. Məkkə fəth olunduqda o da Allah yolunda bağışlanan kafirlərdən idi). Əbu Bəkr Qunfuzu bir dəstə camaatla Həzrəti-Əlinin (ə) evinə göndərdi. Qunfuz ora gedib Həzrəti-Əlinin (ə) evinə daxil olmaq üçün izn istədi. Həzrəti-Əli (ə) onun evə daxil olmasına icazə vermədi.

Bundan sonra Qunfuzla gələnlər məscidə qayıtdılar. Qunfuzla bərabər olanlar qayıdıb camaatı Ömər və Əbu Bəkrin ətrafında yığışan görüb dedilər: "Həzrəti Əli (ə) bizə evə daxil olmağa icazə vermədi". Ömər dedi: "Gedin, icazə verməsə də, onun evinə daxil olun". Onlar qayıdaraq Həzrəti-Əlidən (ə) evə daxil olmağa izn istədilər. Xanım Fatimeyi-Zəhra (s.ə) onlara dedi: "Həzrəti-Əlinin (ə) izni olmadan bu evə daxil olmağa qoymaram". Qunfuz orada qaldı, camaat Ömər və Əbu Bəkrin yanına gəlib dedilər: "Fatimə bizi daxil olmağa qoymayıb dedi ki, heç kəsi bu evə iznsiz daxil olmağa qoymaram". Ömər qəzəblənərək dedi: "Bizim qadınlarla nə işimiz var?!" Sonra o, camaata əmr edərək dedi: "Gedin, özünüzlə odun-taxta aparın". Ömər özü də onlarla birlikdə yanacaq əşyalar götürdü, sonra onları Həzrəti-Əlinin (ə) evinin qapısının qabağına və evinin ətrafına tökdülər. Daha sonra Ömər Həzrəti-Əliyə (ə) və onun ailəsinə eşitdirmək üçün uca səslə qışqırıb dedi: "And olsun Allaha, ya çıxıb Peyğəmbərin xəlifəsinə beyət edin, ya da mən sizin evinizə od vurub, yandıracağam". Sonra üzünü Qunfuza tutub dedi: "Əgər xoşluqla Əbu Bəkrə beyət etməyə gəlməsələr, zorla evə daxil olub onu məscidə beyət etməyə gətirin! Əgər evə daxil olmağa qoymasalar, evlərinə od vurub yandırın". (Ömərin dediyi bu sözlərdən yaxşı bilinir ki, o, Həzrəti-Əlinin (ə) evinə od vurmağa yandıracaq əşyalar gətirmiş, o Həzrəti-Əlinin (ə) evinə od vurmağa səy göstərmişdir. Bir şəxsin kimsəni öldürməsə də, özü ilə silah gəzdirməsi ümumi və ictimai baxımdan cinayət sayılır. Ömər də Əlinin (ə) evinə od vurmağa müvəffəq olmasa da, əvvəla, o evə zorla da olsa, daxil olmağa əmr etmiş, ikincisi daxil olmağa icazəsi ve-

rilməyəcəyi təqdirdə, oraya od vurulmasına göstəriş vermişdir).

Qunfuz və yanındakı camaat Ömərin göstərişi və tapşırığı ilə qapını təpikləyərək iznsiz o evə daxil oldular. Əmirəl-mömininin Əli (ə) onların evə hücum çəkdiyini görüb əlini qılınca atmaq istədi. Lakin onlar o Həzrətə (ə) qılınca əl atmağa imkan verməyib onu dövrəyə aldılar, əl-qolunu tutaraq boynuna qara bir ip salıb məscidə aparmağa səy göstərdilər. Xanım Fatimeyi-Zəhra (s.ə) Əmirəl-mömininin (ə) əlindən tutaraq onun zorla məscidə aparılmasına mane olub, Həzrəti (ə) qapıdan çıxarmalarına imkan vermirdi. Qunfuz xanım Zəhranın (s.ə) bu cur mane olduğunu gördükdə, əlindəki qamçı ilə o xanımın qolundan elə möhkəm vurdu ki, Xanım Fatimeyi-Zəhra (s.ə) vəfat edənədək o qamçının yeri xanımın (s.ə) qolundan getməmişdi. Peyğəmbərin (s) vəfalı qızı Xanım Fatimeyi-Zəhra (s.ə) yenə də Həzrəti-Əlidən (ə) əl çəkməyib onunla birlikdə evdən çıxaraq, Məscidə gəlmək istəyirdi. Əbu Bəkr Fatimeyi-Zəhranın (s.ə) bu hərəkətini bildikdə bir nəfərə dedi: "Get, Qunfuza de ki, onu vur, qapıdan çıxaraq məscidə gəlməyə qoyma!" Qunfuz və onunla olan camaat Fatimeyi-Zəhranın (s.ə) Əlinin (ə) ardınca qapıdan çölə çıxmasına mane olaraq, Xanımı zorla itələyib qapı ilə divar arasında sıxdılar. Onların etdiyi bu cinayət Xanımın qabırğa sümüyünün zədələnərək sınması ilə nəticələndi. Elə o səbəbdən xanımın bətnində olan uşaq düşdü. (Qeyd etdiyimiz hadisənin bənzəri Xəlil ibn Eybəkin kitabında nəql olunan hədisə əsasən, xanım Zəhranın (s.ə) bətnindəki uşağı salmasına və xanımın vəfat etməsinə səbəb olan zərbə Ömərin vurması ilə göstərilir. Bu hadisə tarix kitablarında iki cür nəql

edilərək yazılmışdır. Bu iki hədisdən, həmçinin, başqa tarix kitablarından nəql etdiyimiz rəvayətlərdən belə mə'lum olur ki, Fatimeyi-Zəhranın (s.ə) bətnindəki uşağı salmasına və şəhid olmasına səbəb o Xanımın (s.ə.) Qunfuzun vasitəsilə qapı ilə divar arasında qalması və ya Ömərin zərbəsi olmuşdur. Bir hadisənin müxtəlif şəkildə nəql olunması həmin hadisənin baş verməsinə dəlalət edir. Məsələn, eyni bir vilayətdə yaşayan iki şəxs yaşadıqları vilayətə yağış yağmasını nəql edir. Belə ki, onlardan biri yağışın səhər yağdığını, digəri isə günorta yağdığını deyir. Buradan belə qənaətə gəlmək olar ki, istər səhər olsun, istərsə də günorta, həmin vilayətə yağış yağmışdır). Məhz buna görə də, onlar Həzrəti-Əlini (ə) beyət etmək üçün zorla məscidə aparmaq fikrindən daşındılar.

İmam Cə'fəri-Sadiqdən (ə) nəql olunan rəvayətə əsasən, bir neçə gündən sonra həmin şəxslər yenidən Həzrəti-Əlidən (ə) beyət almaq üçün o Həzrəti (ə) məscidə aparmağa gəldilər ("Ehticaci-Təbərsi", c. 1, səh. 113). Ömər tərəfindən Həzrəti-Əlini (ə) zorla məscidə apardıqlarını görən Xanım Fatimeyi-Zəhra (s.ə) xəstə olmasına baxmayaraq, dözməyib məscidə gəldi və Əbu Bəkrə, həmçinin ona beyət edən zalım camaata xitab edərək uca səslə xütbə söylədi: "Buraxın, əmim oğlunu! And olsun o Allaha ki, atam Mühəmmədi (s) haqq yolu ilə peyğəmbərliyə çağırdı. Əgər Əlini (ə) buraxmasanız, başımdan hicabı götürərək saçlarımı yolaram. Atam Peyğəmbərin (s) köynəyini başıma salıb fəryad çəkərək sizə qarğış edərəm. Nə Həzrəti-Saleh (ə) peyğəmbərlikdə atam Rəsulallahdan (s) üstün deyil, nə dəvəsi məndən üstün deyil, nə də o dəvədən ayrılan mənim Möhsinimdən üstün deyildir".

Haşiyə: Tarix və təfsir kitablarında Saleh peyğəmbərin (ə) on altı yaşında peyğəmbərlik məqamına çatdığı göstərilir. Bu peyğəmbər (ə) yüz iyirmi yaşına qədər öz qövmü, qəbiləsi arasında təbliğat apardı. Lakin onlar Saleh Peyğəmbərə (ə) iman gətirmədilər. Nəhayət, o Həzrətə (ə) dedilər: "Əgər sən möcüzə göstərərək, Rəbbindən bu dağdakı daşın içindən bətnində bala olan dişi bir dəvə çıxartsan, peyğəmbərliyini təsdiq edərik, sənə iman gətirərik". Həzrəti-Saleh (ə) Allahdan bu möcüzəni həyata keçirməsini dilədi. Allah-təala o dağda olan böyük bir daşın içindən bətnində bala olan bir dəvə çıxartdı. Az bir müddətdən sonra dəvə bətnindəki balasını dünyaya gətirdi. Bu möcüzə baş verdikdən sonra camaatın bəzisi Saleh peyğəmbərə (ə) iman gətirdi, bəzisi isə kafirliyində qalmağa davam etdi. Kafirlər Saleh peyğəmbərə (ə) əziyyət vermək üçün onun möcüzəsi olan dəvəni balasının gözü qabağında öldürdülər (bu dəvəni öldürən şəxsin adı Qəddar ibn Salif olmuşdur. Hal-hazırda zülm edən şəxslərin barəsində işlətdiyimiz "qəddar" sözü elə həmin tarixdən qalma sözdür). Dəvənin balası anasının qətlə yetirilməsini görüb qorxusundan qaçaraq, dağa pənah apardı. Orada üç dəfə elə həzin və qüssəli bir şəkildə fəryad etdi ki, oradakı camaatın hamısı onun bu halına kədərləndilər. Sonra isə həmin körpə dəvə Allahın möcüzəsi ilə gözdən itərək qeyb oldu. Nəhayət, Saleh peyğəmbərin (ə) qövmü o Həzrətlə (ə) bağladıqları əhd-peymanı sındırdıqlarına, dəvəni qətlə yetirdiklərinə, həmçinin, bala dəvəni anasından ayırdıqlarına görə Mütəal Allah onlara bəla nazil etdi[1].

---

[1] "Məcməul-bəyan", səh. 680-682. "Nurus-səqəleyn", c. 2, səh. 374-375

Bu səbəbdən Xanım Fatimeyi-Zəhra (s.ə) yuxarıda qeyd etdiyimiz “Nə Saleh (ə) peyğəmbərlikdə atam Rəsulullahdan (s) üstün deyil, nə də o dəvədən ayrılan bala mənim balamdan (Möhsündən) üstün deyildir” söyləyərkən, bunu demək istəyir ki, Allah-təala Saleh peyğəmbərin (ə) qövmünə əhd-peymana vəfa etmədikləri, dəvəni qətlə yetirməklə onun balasını qəm-qüssəyə düçar etdiklərinə görə bəla nazil etmişdir. Siz də Peyğəmbərlə (s) bağladığınız əhd-peymana vəfa etmədiniz. Məni qapı arasında qoyub balam Möhsinin ölməsinə səbəb oldunuz.

Salmani-Mühəmmədi (r.ə) deyir: “Həzrəti-Fatimeyi-Zəhra (s.ə) camaata bu sözləri dedikdən sonra az qalırdı ki, o xanım sözünə əməl edərək qarğış etsin. Mən Peyğəmbər (s) məscidinin divarlarının Xanım Fatimeyi-Zəhranın (s.ə) etdiyi nalə və fəryadına görə az qala yıxılacağını gördüyümdən, Xanıma (s.ə) yaxınlaşıb ərz etdim: “Ey Xanım (s.ə), ey mənim mövlam! Mütəal Allah sənin atanı bu ümmətə rəhmət olaraq göndərib. Sən bunlara bəla nazil olmasına razılıq vermə!” Salman (r.ə) deyir: “Mən Peyğəmbərin (s) məsumə qızı Xanım Fatimədən (s.ə) xahiş etdikdən sonra, Həzrəti-Zəhra (s.ə) daha onlara qarğış etmədi. Xanım Zəhra (s.ə) onlara qarğış etmək fikrindən daşındıqdan sonra, mən məscidin lərzəyə gəlmiş divarlarının sakitləşdiyini görərək sevindim”.

Xanım Fatimeyi-Zəhra (s.ə) məsciddən qayıtdıqdan sonra elə bu hadisə ilə əlaqədar, həmçinin qabırğasının yaralanmasına görə xəstələnərək yatağa düşdü. Elə bu xəstəliklə də az bir müddətdən sonra vəfat edərək şəhid oldu.

Haşiyə: Bir rəvayətə görə, xanım Zəhra (s.ə.) atası Peyğəmbərin (s) vəfatından yetmiş beş gün sonra, başqa bir

rəvayətə görə isə doxsan beş gün sonra vəfat etmişdir. Müqəddəs islam dinində iman, əqidə və haqqı müdafiə etmək yolunda ölənlərə çox üstünlük verilir, onlar şəhid hesab olunur. (Bu şəhidlik istər müharibə meydanında, istərsə digər yerlərdə olsun.) Onların ölümünə səbəb olanlar isə qatil, zalim və cinayətkar sayılır. Məhz buna görə də, nəql olunan rəvayətlərdə Xanım Fatimeyi-Zəhra (s.ə) şəhid, bu xanımın vəfatına səbəb olanlar isə qatil, zalim və cinayətkar adlandırılır).

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) haqq mübarizəsi və qiyamı

Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) haqq mübarizəsində qiyamı və inqilabı olduqca böyük əhəmiyyətə malik idi. Xanım Fatimeyi-Zəhranın (s.ə) Fatimiyyəsi İslamın qorunmasında Kərbəladan az əhəmiyyətə malik deyil. Lakin o da qeyd edilməlidir ki, Fatimeyi-Zəhranın (s.ə) qiyamı olduqca qarışıq bir dövrə təsadüf edib, qarışıq və mürəkkəb şəraitdə baş verdi. Fatimiyyədə baş verən qarşıdurma zahirən neçə nəfərin arasında olsa da, həmin hadisələrin həqiqəti və batini tamam başqa idi. Ümumiyyətlə, hadisələrin zahirinə baxıb düzgün nəticə çıxarmaq olmur. Çünki çox zaman zahir insanı aldadır, insanların çoxu da zahirpərəst olduqlarından, ancaq zahiri görürlər. Düşmənlər də hər zaman bundan məharətlə istifadə edirlər. Tarixdən bir misal çəkək. Əbu Musa Əşəri Peyğəmbər (s) səhabələrindən biri idi. Həzrəti-Əli (ə) ilə Muaviyə (l.ə) arasında döyüş baş verən vaxt müsəlmanlar Əbu Musadan məsləhət soruşurlar. O isə cavab verir: “Mən özümü xatırladığımdan Bəni-

Üməyyə ilə Bəni-Haşim bir-birilə müharibədədir. (Bəni-Üməyyə Müaviyyənin (l.ə) qəbiləsidir, Bəni-Haşim Həzrəti-Peyğəmbərin (s) və Əlinin (ə) qəbiləsidir). Bunların ixtilafları çoxdanın məsələsidir". Əslində, o düz deyirdi. İslamdan qabaq bu iki qəbilə bir-biri ilə düşmən idi. Ancaq məsələ bundadır ki, elə əvvəldən də bu iki qəbilənin davası haqq və batil davası idi. Peyğəmbərin (s) qəbiləsi olan Bəni-Haşimin hamısı İbrahim peyğəmbər (ə) kimi fəzilətli insanlar və İbrahimin (ə) dinində idi. Bəni-Üməyyə isə əvvəldən-axıra qədər azğın yolda olanlar idi. Əbu Musa Əş`əri hadisənin zahirindən istifadə edib camaatın zehnini azdırırdı. Guya bu müharibənin İslama heç bir aidiyyatı yoxdur və bu sırf iki qəbilənin davasıdır. Xanım Zəhranın (s.ə) qiyami inqilabında belə məqamlar çox idi. Çünki Peyğəmbərin (s) xilafətinə göz dikən və bu səbəblə də Peyğəmbər (s) ailəsinin haqqını pozaraq, Peyğəmbər (s) xilafətini qəsb edən batil əhli, Haqq əhli olan Peyğəmbər (s) Əhli-beytini (ə.m) batil əhli kimi, özlərini isə haqq əhli kimi tanıtmışdır.

## Xanım Fatimeyi-Zəhranın (s.ə) şəhadəti

Həzrəti-Əli (ə) xanımını çağıranda "Ey Peyğəmbərin (s) qızı" deyə səsləyər, Xanım Fatimə (s.ə) isə ərini "Ya Əmirəl-möminin (ə)" deyə çağırardı.

Hicrətin üçüncü ilində Həzrəti-Fatimənin (s.ə) ilk uşağı dünyaya gəldi və adını Həsən qoydular. Bir il sonra isə ikinci övladı Hüseyn (ə) dünyaya gəldi. Bu uşaqların dünyaya gəlişi ürəyinə Qasim və Tahir dağı çəkilmiş Peyğəmbəri (s) də hədsiz dərəcədə sevindirmişdi. Peyğəmbər (s)

dünyadan köçəndən sonra Fatimənin (s.ə) bədəninə sanki ağır bir zərbə endirilmişdi. Az sonra isə ona yeni bir zərbə endirildi ki, o da ərinə qarşı olan cinayət idi.

Xanım Fatimeyi-Zəhra (s.ə.) əvvəlki kimi yenə də fədakarlıqla ərinin qəsb olunmuş haqqını müdafiə edirdi. Bu məqsədlə də o, bir gün üzünü Həzrəti-Əliyə (ə) tutub buyurdu: "Nəyə görə haqqını müdafiə etmirsən?" Belə olan halda Həzrəti-Əli (ə) belə buyurdu: "Atanın adının məscidlərdə ucalmasını istəyirsənmi? Atanın hədəflərinin məhv olmasını istəyirsənmi? Əgər onların istədiyi kimi mən də qılınca əl aparsam, atanın və ərinin zəhmətləri puça çıxar və hamımız məğlub olarıq". Xanım Fatimeyi-Zəhra (s.ə.) heç bir söz danışmadı və öz sükutu ilə mübarizəsinə davam etdi.

Həzrəti-Əli (ə) iyirmi beş il susaraq məzlumluğunu aləmlərə əməli ilə car çəkib nümayiş etdirdi. Ancaq Xanım Zəhra (s.ə) Peyğəmbər (s) ümmətinin onların haqlarının pozulmasına qarşı laqeyd yanaşmasına və onlara edilən zülmlərə görə artıq yaşaya bilmirdi. Bu səbəbdən də Xanım Zəhra (s.ə) gün keçdikcə Tanrısına qovuşmaq üçün səbirsizləşirdi.

Həzrəti-Zeynəb (s.ə) nəql edir: "Anam gecə yarısı dua edirdi. Gördüm mədinəliləri dua edir (həmin mədinəliləri ki, öz sükutları və laqeyidlikləri ilə ona edilən zülmə bais oldular). Biz sevindik, anamızın dövrəsini aldıq, axı xəstə adam dua edəndə şəfa istəyər. Biz əyləşdik anam Zəhranın ətrafında ki, o şəfa istəyəndə biz də "amin" deyək. Anam əlini qaldırdı və mədinəliləri dua etdikdən sonra dedi: "İlahi! Ölümümü yaxınlaşdır".

Nəhayət, hicri ikinci ilinin cəmadius-sani ayının üçüncü bazar ertəsi günü, atasının vəfat etdiyi ildə, uşaqlarını

öpüb onlarla vidalaşdı.

Qoy bütün nəsillər bilsin ki, Peyğəmbərimizin (s) qızı Xanım Zəhra (s.ə) öz əcəli ilə ölməmişdir. Onu və bətnindəki körpəsini xəyanətkar zalımlar şəhid etmişlər. Xanım Zəhra (s.ə) atası və ərinin qəsb olunmuş haqqını müdafiə etdiyi, həqiqətin tərəfində dayandığı üçün xəyanətkarlar tərəfindən amansızcasına qətlə yetirilmişdir.

O vida gecəsi Xanım Zəhra (s.ə) ailəsi ilə bir-bir halallaşdı: yeddi yaşında olan Həsən (ə) ilə; altı yaşında olan Hüseyn (ə) ilə; beş yaşındakı Zeynəb (s.ə) ilə; üç yaşında olan Ümmi-Gülsüm (s.ə) ilə; lap axırda Həzrəti-Əli (ə) ilə vidalaşdı. Dünyanın ən ağır vida anları bu ailənin üzərinə çökmüşdü. Nə çətin idi o vida anları...

Xanım Fatimə (s.ə) qüsl etmək üçün su istədi. Allahı ilə görüşə getdiyi üçün təzə paltar geydi. Sonra isə üzü qibləyə tərəf uzandı və gözləməyə başladı. Bir az sonra gözlərini yumub dünyadan köçməsi ilə Əlinin (ə) evində yanan bir şam artıq sönmüşdü. Həzrəti-Əli (ə) Xanım Fatimənin (s.ə.) vəsiyyətinə əməl edərək ona özü qüsl verdi, kəfənləyib dəfn etdi.

Xanım Zəhra (s.ə) vəsiyyət etmişdi ki, qəbrinin yeri gizli qalsın. Həzrəti-Fatimə (s.ə) bu vəsiyyəti ilə gələcək nəsillərə demək istəyirdi ki, mənə zülm olundu, ürəyim qəmlə doludur, intiqam gününü gözləyirəm. Tənha və yalqız qalan Əli (ə) Fatimeyi-Zəhranın (s.ə) qəbrinin yanında oturub Peyğəmbərin (s) qəbrinə xitabən dedi: “Ey Allahın Peyğəmbəri (s)! Mənə tapşırdığın əmanəti sənə qaytarıram. Səndən sonra başıma gələn bütün əhvalatları qızın sənin üçün olduğu kimi danışacaqdır. Bütün sualların cavabını ondan soruş, O hamısını sənə deyəcəkdir”.

Həzrəti-Əli (ə) Peyğəmbərin (s) vəfatından sonra Xanım Zəhra (s.ə) ilə təskinlik və rahatlıq tapırdı. Xanım Zəhra (s.ə) dünyanı tərk etdikdən sonra Həzrəti-Əli (ə) ilk növbədə qürbətə düşdü. Xanım Zəhra (s.ə) Peyğəmbərin (s) yanında şagirdlikdə Həzrəti-Əlinin (ə) dostu idi. Ona görə deyilmişdir ki, Həzrəti-Əli (ə) olmasaydı, Xanım Fatimeyi-Zəhraya (s.ə) layiqli ər tapılmazdı. Çünki ağlı onun ağlı, qəlbi onun qəlbi idi. İnsan öz varlığını təmsil edən yaxın birini itirəndə özünü qürbətdə hiss edir. Biz bunu Şərif Rəzinin "Nəhcül-Bəlağə" əsərində rəvayət etdiyi Həzrəti-Əlinin (ə) sözündən hiss edirik. Belə ki, İmam Huseyndən (ə) rəvayət edilir ki, Həzrəti-Əli (ə) deyir: "Ey Allahın Elçisi (s), məndən və yaxınlığında dəfn olunan, sənə tez qovuşan qızından sənə salam olsun". Bu onu göstərir ki, Həzrəti-Əli (ə) Xanım Zəhranı (s.ə) Peyğəmbərin (s) yaxınlığında dəfn etmişdir. "Ey Allahın Elçisi (s), sənin seçilmiş qızından ayrıldığıma görə səbrim azaldı". Yəni o həddə gəlib catmışam ki, artıq səbrimi tamam itirmişəm. Təbii ki, bu itginin təsirindən irəli gələn bir mübaliğədir, yoxsa Həzrəti-Əlinin (ə) səbri kimi səbr yoxdur. "Gücüm qalmadı, dözə bilmirəm, lakin sənin ayrılığının acısını və müsibətinin ağırlığını gördükdən sonra buna da səbr etməliyəm". Yəni, artıq səndən ayrılmışam, sən daha əzəmətli, daha böyük və daha yaxın idin. Biz səni itirməklə səmadan bizə enən vəhyi itirdik. Səni torpağa tapşırdım". Çünki Peyğəmbəri (s) o dəfn etmişdi, həm də bu zaman camaat başqa bir işlə məşğul idi. "Nəfsim (ruhum) boğazımla sinəm arasından çıxaraq əmanət qaytarıldı". Çünki Xanım Fatimeyi-Zəhra (s.ə) Həzrəti-Əlinin (ə) yanında əmanət idi. Başqalarının dediyi kimi deyil, əksinə,

Həzrəti-Əli (ə) onu var gücü ilə qoruyurdu. Girov alındı o atasının yanında girov oldu. “Hüznümə gəlincə”, qəlbdə yaşayan bir hüzn, missiya ilə əlaqədar bir hüzn, elə bir hüzn ki, onun mənasını itirən bir şəxs hiss edir, sonsuzdur yəni əbədidir. “Gecəmə gəlincə, Ey Allahın Elçisi (s) Ey gecə mənə dost olan! Səni itirmişəm, gecəmin sirdaşı Zəhranı (s.ə) itirmişəm. Yuxusuzluqdur. Bütün bunların qarşısında yatmaq üçün gözümə sahib çıxa bilmirəm. Sizin ikinizin xatirələri məni yuxusuzluğa məhkum edir və bu hal Allah məni sənin yanına seçib aparıncaya qədər davam edəcək. Mən yalqızam, gecə yalqız yaşayır və gündüzü yalqız gəzirəm, bütün insanlar mənimlə olsalar belə”. Çünki Peyğəmbərlə (s) Həzrəti-Əli (ə) arasındaki dərin əlaqə bənzərsiz idi. Peyğəmbər (s) tərbiyədə Həzrəti-Əlinin (ə) atası, müəllimi, yol göstərəni, qardaşı və dostu idi. Buna görə də Peyğəmbərlə (s) Həzrəti-Əli (ə) arasında boşluğu olmayan bir bağlılıq yaranmışdı. “Ümmətinin mənə zülm etmək üçün birləşdiyini O sənə xəbər verəcək”. Yəni, məruz qaldığım zülmü sənə bildirəcək, təkrarən ondan soruş. İnsan bir şəxsi tərk edərkən sonradan problemlər yaranır və bu barədə suallar vermək istəyir, vəziyyəti ondan xəbər al. “Və bütün bunlar sənin bizim aramızdan getməyindən çox keçmədən və xatirən unudulmadan baş verdi. Sənin xatirənlə yaşayıram. Salam olsun sizin ikinizə, incimiş və küsmüş adamın salamı ilə yox, vidalaşan adamın salamı ilə. Ayrılıb getsəm, bezdiyimdən deyil, oturub dərdimi söyləyərəmsə, Allahın səbr edənlərə verdiyi vədə sui-zəndən deyil, qəbrin üstündə dayanmağım ahü zar etmək deyil. Səbrsizlik etmirəm, Allahın qəza və qədərini də inkar etmirəm”.

Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) şəhadəti ilə bağlı bir çox şairlər müxtəlif səpgili şeirlər yazmışlar. Həmin şairlərdən biri də Pünhan Sədadır. Belə ki, Səda xanım Pünhanın Həzrəti-Xanım Fatimeyi-Zəhranın (s.ə) şəhadəti ilə bağlı yazdığı şeiri burada qeyd edirik:

Nə halindir, anam Zəhra gözün giryanə, giryanə.
Küləklər naləvü ahın yayar hər yanə, hər yanə.

Həsən ağlar, Hüseyn ağlar, səmalər qarələr bağlar,
Balan Zeynəb açar başın, gələr əfğanə, əfğanə.

Yanar qapın görənlər didələrdən qan çilər əl'an,
Həya etməz ləin zalim, durar şahanə, şahanə.

Rəsuli-həqqin övladı rəvamı zülmə xar olsun?
Sığışmaz bu əməl heç bir ədəb-ərkanə, ərkanə.

Cahana gəlməmiş Muhsin bətində qanına qəltan,
Nə cür qıydın, aman zalım, güli-reyhanə, reyhanə.

Əmin oğlu Əli naçar baxar solğun bənizinə,
Nə söylər həqqin uğrunda gedən qurbanə, qurbanə.

Qələm lövh üzrə çeşmi-xun səpib bir şe’r icad etdi,
Görən layiqmi ol icad dili-buryanə, buryanə.

Səda layiq deyil olsun, xanım, tay xaki-payinə,
Həşrdə rəhm elə, nola kəniz Pünhanə, Pünhanə.

## Ömərin Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) qəbrini açmaq istəyi

“Bizə Əli bin Əhməd rəvayət etdi və dedi: “Bizə Əbül-Əbbas Əhməd bin Mühəmməd bin Yəhya rəvayət etdi və dedi: “Əmr bin Miqdam və Ziyad bin Abdullah hər ikisi (imam Sadiqdən (ə) rəvayət edib dedilər: “… İmam Əli (ə) Xanım Fatiməyə (s.ə) namaz qıldı və onu gecə ikən dəfn etdi. Səhər açılınca Əbu Bəkr və Ömər xanım Fatiməyə (s.ə) baş çəkmək üçün (İmam Əlinin (ə) evinə) yollandılar. Yolda Qüreyşdən olan bir nəfərlə qarşılaşdılar və ona dedilər: “Hardan gəlirsən?” Həmin şəxs dedi: “Fatiməyə (s.ə) görə Əliyə (ə) baş sağlığı verdim”. Onlar dedilər: “O ölübmü?” Həmin şəxs dedi: “Bəli. Gecə yarısı dəfn edilib”. Əbu Bəkrlə Ömər çox böyük təşvişə düşdülər. İmam Əlinin (ə) yanına gəlib ona dedilər: “Allaha and olsun, bizə etmədiyin yamanlıq və pislik saxlamadın. Bütün bunlar sənin qəlbində bizə qarşı olan bir şeyə görədir. Daha öncə Allah Rəsuluna da (s) bizsiz təkbaşına qüsl verdin və bizi yanına daxil etmədin…İmam Əli (ə) (onların sözlərinə cavab olaraq) buyurdu: “…Fatimə (s.ə) həmin xanımdır ki, mən sizin üçün ondan icazə istədim. Onun sizə necə cavab verdiyini gördünüz. Allaha and olsun, o mənə vəsiyyət etdi ki, siz onun cənazəsinə gəlməyəsiniz və ona namaz qılmayasınız. Mən onun sizinlə bağlı vəsiyyətinə müxalifət edəsi deyildim”. Ömər dedi: “Mən indi qəbiristanlığa gedib onu qəbrindən çıxaracağam və ona namaz qılacağam!” Əli (ə) ona dedi: “Allaha and olsun! Əgər gedib belə bir şey etmək istəsən, biləsən ki, bunu etməzdən qabaq başın bədənindən ayrılacaq! Sən belə bir şey etmə-

yə çalışsan mən səninlə yalnız qılıncla davranacağam!" "Mühacir" və "Ənsar" oraya toplaşdılar və dedilər: "Allaha and olsun, Allah Rəsulunun (s) əmisi oğlu, qardaşı və vəsisi barəsində belə bir şeyin deyilməsi ilə razı olmarıq". Az qalırdı ki, fitnə düşsün, o zaman Əli (ə) ilə Ömər bir-birlərindən ayrıldılar".[1]

## Həzrəti-Fatimeyi-Zəhraya (s.ə) əziyyət verən kafirdir

Allah Quranda belə buyurur: "Allah və Onun Rəsulunu (s) incidənlərə Allah dünya və axirətdə lənət etmiş və onlara rüsvayedici əzab hazırlamışdır ("Əhzab" surəsi: 57)

Peyğəmbər (s) demişdir: "Fatimə mənim bədənimin bir parçasıdır. Kim ona əziyyət versə, mənə əziyyət vermişdir və kim mənə əziyyət versə, Allaha əziyyət vermişdir".[2]

"Kənzul-ummal", c. 6, səh. 220
"Feyzul-Qadir" c. 4, səh. 421
Əhməd ibni Hənbəl "Müsnəd", c. 4, səh. 328
"Hilyətul-övliya", c. 2, səh. 40
Müslim "Səhih", hədis: 4483
Tirmizi "Sünən", c. 2, səh. 319
Hakim "Müstədrək", c. 3, səh. 159
"Əsədul-ğabə", c. 5, səh. 522
"Əl-İsabə", c. 8, səh. 159
İbn Yəla "Müsnəd", c. 1, səh. 190

[1] Şeyx Səduq Əbu Cəfər Məhəmməd bin Əli bin Hüseyn bin Musa bin Babaveyh əl-Qummi, "İləluş-Şəraiə" kitabı, I c., səh. 186-187, 149-cu bab, II hədis.
[2] Buxari "Səhih", hədis 3427-3483

Tarixdə yazılmışdır ki, Əbu Bəkr və Ömər o qədər Xanım Fatimeyi-Zəhraya (s.ə) əziyyət etdilər ki, Xanım (s.ə) onlara belə dedi: "Həqiqətən, mən Allahı və mələkləri şahid tuturam ki, siz ikiniz məni həqiqətdə (əməlli-başlı) qəzəbləndirdiniz və məni razı salmaq istəmədiniz və mütləq Peyğəmbərlə (s) görüşərkən ona sizin ikininizdən şikayət edəcəyəm"[1].

"Səhihi-Buxari"də 6230-cu rəvayətdə belə gəlmişdir ki, Xanım Fatimə (s.ə) Əbu Bəkrə qəzəb etdi, onunla rabitəni kəsdi (küsdü) və vəfat edənə qədər onunla danışmadı. Elə ki, dünyadan köçdü, İmam Əli (ə) onu gecə dəfn etdi, Əbu Bəkrə xəbər vermədi və İmam Əlinin (ə) özü onun cənazə namazını qıldı.

İbni-Əbil-Hədid Mötəzili özünün "Nəhcul-bəlağə"nin şərhi" kitabında (c. 6, səh. 50) belə yazır: "Həqiqətən, Xanım Fatimə (s.ə) Əbu Bəkr və Ömərdən incimiş halda vəfat etdi".

Göründüyü kimi, Əbu Bəkr və Ömər Xanım Fatiməyə (s.ə) çox əziyyət etmişlər və kim ona əziyyət etmişsə, Allah və onun Rəsulunu (s) incitmişdir. Elə buna görə də Əbu Bəkr və Ömər Allah-təalanın əzabına layiqdir. "Ey Fatimə (s.ə.), Əgər Allahın məbus etdiyi bütün Peyğəmbərlər (ə) və müqərrəb mələklər sənə qəzəblənib haqqını qəsb edənə şəfaət etsələr, Allah əsla onu atəşdən çıxarmayacaqdır (Hz . Mühəmməd (s.ə.v.a.v)[2].

Məndən sonra qızım Fatiməyə zülm edən, haqqını qəsb edən və onu qətl edən məl'undur, məl'undur (Hz.Mühəmməd (s.ə.v.a.v)[3].

---

[1] Buxari. "Səhih", c. 5, səh. 26; Muslim "Səhih", c. 4, səh. 193.
[2] "Biharul-ənvar", c. 76 s. 254
[3] "Biharul-ənvar" c.73 s. 353.

## Əhli-beyt (ə) əhli-sünnə alimlərinin qələmində

Əhli-sünnə alimi və Şafei məzhəbinin banisi sayılan Şafeiyə məxsus olan bu şerində, (şifahi tərcüməsində) Şafei deyir:

Ey süvari, Mina çölündə bir az dur.
Xif bölgəsində yatmışlara,
Yaxud ayıq olanlara nida eylə.
Səhər vaxtı Hacılar Minadan keçəndə,
Böyük bir çay axıb gedəndə söylə.
Əgər Mühəmmədin (s) Əhli-beytini (ə.m.) sevmək rafizilikdirsə,
Bütün insanlar və cinlər şahid olsunlar ki, mən rafiziyəm.

Şafei xütbələrinin birində belə demişdir: "Peyğəmbər (s) ailəsi Allah-təalaya doğru mənim vəsiləmdir. Ümidvaram ki, onların xatirinə sabah Qiyamət günü əməl dəftərim sağ əlimə verilsin". Şafei başqa bir şeirində isə Peyğəmbər (s) və onun Əhli-beytinin (ə) ilahi məqamı barəsində deyir:

Ey Peyğəmbərin Əhli-Beyti (ə.m),
Sizi sevmək Allahın buyurduğu bir vacibdir
Ki, bunu Quranda nazil etmişdir.
Əzəmətli fəxr olaraq sizə bu kifayət edər ki,
Sizə Salavat söyləməyənin namazı düzgün sayılmaz.

Şafei camaatın Əhli-beytin (ə.m) fəzilətləri barədə sözlər dinləmək istəmədikləri, belə sözlər söyləyənlərin rafizi adlandırdıqlarını eşitdikdə dedi: "Bir məclisdə Əlini (ə), iki oğlunu və günahdan təmiz Fatiməni (s.ə) yad etdiyimiz

zaman həddi aşdığımız söylənilərək deyilir: “Ey cammat! bunlar rafizilərin sözləridir!” Fatiməyə (s.ə) bağlı şəxsləri sevənləri rafizi görən camaatdan bezar olub, Mühəymin olan Allaha sığınıram” (Xətib Bağdadi “Tarixu-Bağdad”, c. 4; “Kənzul ummal”, c. 6. (İbn Əzakir bunu İbn Məsuda istinadən nəql edib). Əssəvaiqul-Muhriqə “Nurul-Əbsar”).

“Mühəymin” Allahın adlarından biridir. Yaratdıqlarını qoruyan, qorxularını uzaqlaşdıran hər şeyə şahid olan və muhafizə edən deməkdir. (“Nurul-əbsar” Şəblənci).

Şeyx Şə'rani deyir:

Məxluqlar Əhli-beytə (ə.m) tay ola bilməz,
Çünki Əhli-beyt (ə.m) başçılığa layiq şəxslərdir.
İnsanın onlara nifrət bəsləməsi həqiqətən bir ziyandır,
Onları sevməksə ibadətdir.

İbn Ərəbi deyir:

Baxmayaraq ki, yaxınlarım mənə
Uzaqlaşmağı miras qoymuşdular,
Amma mən Ali-Tahanı (ə) sevməyi vacib bildim.
Göndərilmiş Elçi hidayətin təbliği üçün mükafat istəmədi, yalnız ən yaxın qohumlarına məhəbbətdən başqa[1].

## Ali-Mühəmmədi (ə) sevməyin ilahi məqamı

Həzrəti-Mühəmməd Peyğəmbər (s) buyurur: “Sizin aranızda ən yaxşı kişiniz Əli ibn Əbu Talib (ə), Ən yaxşı gənciniz Həsən (ə) və Huseyn (ə), ən yaxşı qadınınız isə Mühəmməd qızı Fatimədir (s.ə)”.

---

[1] Futuhat, İbn Həcər "Əssəvaiqul-Muhriqə"; Xarəzmi "Məqtəlul-Huseyn".

Rəsuli-Əkrəmin (s) əmisi İbn Abbasın belə söylədiyi nəql olunur: “Bir gün Peyğəmbərin (s) qarşısında əyləşmişdim. Onun yanında Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseyn də (ə) vardı. Bu vaxt Cəbrail (ə) yerə endi və onun əlində bir alma var idi. Cəbrail (ə) almanı Peyğəmbərə (s) uzatmaqla onu salamladı. Peyğəmbər (s) almanı aldı. Onunla Əli ibn Əbu Talibi də (ə) salamladı, o da salamı alıb, almanı öpüb Peyğəmbərə (s) qaytardı. Ardınca Həsəni (ə) salamladı, o da salamı alıb, almanı öpərək Peyğəmbərə (s) verdi. Sonra Hüseyni (ə) salamladı, Hüseyn (ə) salamı alıb, almanı öpdü və onu Peyğəmbərə (s) qaytardı. Xanım Fatiməyə (s.ə) verdikdə, o da salamı alaraq, almanı öpdü və Peyğəmbərə (s) verdi. Sonra yenidən Əli ibn Əbu Talibə (ə) uzatdı və o da salamı aldı, onu Peyğəmbərə (s) qaytarmaq istədikdə, alma barmaqlarının ucundan sürüşərək yerə düşdü və iki yerə bölündü. Almanın içindən nur yüksəldi ki, işiğı ta dünya səmasına yetişdi. Onun üzərindən iki nur sızmışdı Rəhman və Rəhim olan Allahın adı ilə. Bu, Mühəmmədi-Mustafaya (s), Əliyyən-Murtəzaya (ə), Xanım Fatimeyi-Zəhraya (s.ə), Peyğəmbərin (s) iki nəvəsi Həsən (ə) və Huseynə (ə) Allahın salamı və qiyamət günü onları sevənlər üçün cəhənnəm odundan amannamədir”.

Ali-Mühəmmədin (ə.m) ilahi məqamına işarət edən bir hədisində Peyğəmbər (s) buyurur: “Hər kim Ali-Mühəmmədin (ə.m) məhəbbətiylə ölsə, şəhid olaraq ölər. Bilin və agah olun ki, hər kim Ali-Mühəmmədin (ə.m) məhəbbətiylə ölsə, bağışlanmış olaraq ölər. Bilin və agah olun ki, hər kim Ali-Mühəmmədin (ə) məhəbbətiylə ölsə, tövbə etmiş halda ölər. Bilin və agah olun ki, hər kim Ali-Mühəm-

mədin (ə.m) məhəbbətiylə ölsə, imanı kamilləşmiş mömin kimi ölər. Bilin və agah olun ki, hər kim Ali-Mühəmmədin (ə.m) məhəbbətiylə ölsə, ölüm mələyi, sonra Nəkir və Münkər ona cənnət müşkü verər. Bilin və agah olun ki, hər kim Ali-Mühəmmədin (ə.m) məhəbbətiylə ölsə, gəlin, bəy evinə aparılan kimi (hörmətlə) cənnətə aparılar. Bilin və agah olun ki, hər kim Ali-Mühəmmədin (ə.m) məhəbbəti ilə ölsə, onun qəbrindən cənnətə iki qapı açılar. Bilin və agah olun ki, hər kim Ali-Mühəmmədin (ə.m) məhəbbətiylə ölsə, uca Allah onun qəbrini mələklər üçün ziyarətgah edər. Bilin və agah olun ki, hər kim Ali-Mühəmmədin (ə.m) məhəbbəti ilə ölsə, sünnə və şəriət qanunu əsasında ölmüşdür. Bilin və agah olun ki, kim Ali-Mühəmmədə (ə.m) nifrət edərək ölsə, qiyamət günü alnında Allahın rəhmətindən "naümid" sözü yazılan halda gələr. Bilin və agah olun ki, kim Ali-Mühəmmədə (ə.m) nifrət edərək ölsə, kafir olaraq ölmüşdür. Bilin və agah olun ki, hər kim Ali-Mühəmmədə (ə.m) nifrət bəsləyərək ölsə, cənnət qoxusunu belə duymaz".

Həzrəti-Mühəmməd (s) başqa bir hədisdə isə buyurur: "Biz Əhli-beytin (ə.m.) sevgisini özünüzə vacib bilin. Kim bizi sevdiyi halda Allahla görüşsə, bizim şəfaətimizlə cənnətə daxil olar. Canım əlində olana (Allaha) and olsun ki, haqqımızı tanımayan bəndəyə əməlləri heç bir fayda verməz".

Əhli-beyt (ə.m) sevgisinin dünya və axirət faydalarını insanlara çatdıran Allahın Rəsulu (s) buyurur: "Sirat üzərində ən sabit qədəm Əhli-beytimi (ə.m) ən çox sevənindir".

Peyğəmbər (s) digər bir hədisində isə Əhli-beyt (ə.m) sevgisi haqqında belə buyurur: "Ali-Mühəmmədi (ə.m) bir gün sevmək bir il ibadətdən xeyirlidir".

## Əhli-beytin (ə) fəzilətləri və üstün cəhətləri

Əhli-beytin (ə.m) 6 fəziləti:

1) Elm;
2) Helm;
3) Səxavət;
4) Fəsahət;
5) Şücaət;
6) Qəlblərdə məhəbbət.

Əhli-beytin (ə.m) 7 üstünlüyü vardır:

1.Allahın seçilmiş Rəsulu Həzrəti-Mühəmməd (s) onlardandır;

2.Doğru danışan Həzrəti-Əli (ə) onlardandır;

3.Cənnətdə mələklərlə uçan Cəfəri-Təyyar (ə) onlardandır;

4.Allahın şiri Həzrəti-Həmzə (ə) onlardandır;

5.Bu ümmətin iki böyük rəhbəri İmam Həsən (ə) və İmam Hüseyn (ə) onlardandır;

6.Xanım Fatimeyi-Zəhra (s.ə) onlardandır;

7.Dünyanın xilaskarı 12-ci İmam Həzrəti-Mehdi (əc.f) onlardandır.

# IV BÖLÜM

## HƏZRƏTİ-FATİMEYİ-ZƏHRA (S.Ə) HƏDİQƏTÜS-SÜHƏDA İŞIĞINDA

Qəddar zəmanənin və zülmkar dünyanın vəfasızlığına bu şahid yetər ki, Bətuli-Zəhra (s.ə) kimi pakizə gövhər dünyaya gəldiyi zamandan əbədi aləmə köçənədək bir an kədərsiz olmadı. Qit`ə:

Bəh ki, dövrani-fələk Fatimeyi-Zəhranın
Qönçeyi-lalə kimi qıldı qara bağrını qan.
Bir zaman keçmədi əyyami-həyatından kim,
Dili-pürxunini yandırmadı min daği-nihan.

Həzrəti-Rəsulun (s) Xədiceyi-Kübradan (s.ə) altı övladı olub, ikisi oğlan: biri Qasim və biri Abdullah (ə.m) və pak qızlarından biri Zeynəb (s.ə), biri Rüqəyyə (s.ə), biri Ümmi-Gülsüm (s.ə) və biri Fatimə (s.ə). Və bütün övladları İslam zamanında doğulub, hamısından kiçiyi Fatimə (s.ə) idi. Fatimənin (s.ə) dünyaya gəlməsində ixtilaflı rəvayətlər çoxdur. Bəziləri deyirlər ki, Fil hadisəsindən 25 il keçdikdə dünyaya gəlib. Şeyx Mühəmməd İmam Mühəmməd Baqirdən nəql edir ki, məbəsdən beş il keçdikdə dünyaya gəlib. Və Rövzətül-vaizində yazılıbdır ki, Xədicə (s.ə) Fatiməyə (s.ə) hamilə olduqda Həzrəti-Rəsul (s) buyurdu ki, "Ey Xədicə (s.ə), Cəbrail (ə) mənə xəbər verdi ki, bətnində olan o şahanə inci bir qızdır ki, adı Fatimədir (s.ə). Onun nəsli Qiyamətədək davam edəcək".

Rəvayətdir ki, hamiləlik müddəti sona yetib doğum za-

manı yaxınlaşdıqda Xədicə (s.ə) Qüreyş xanımlarından mama tələb etdi. Qüreyş və Bəni-Haşim xanımları dedilər: "Sən bizə itaət etməyib Əbu Talibin himayəsində olan yetimə ərə getməyə razı oldun, biz sənə kömək etməkdən ar edirik". Xədicə bu xəbərdən kədərləndi. O an gizlincə dörd qadın Qüreyş və Bəni-Haşim xanımlarının arasından çıxıb ona təzim etdilər. Xədicə (s.ə) onları ərəb qəbilələrindən təsəvvür edib əslü nəsəblərini soruşduqda dedilər: "Ey Xədicə (s.ə), Həq bizi sənin xidmətinə göndərib". Bu xanımlardan biri Xəlilin zövcəsi Sara (s.ə), biri Məryəm (s.ə) binti-İmran, biri Musanın sirdaşı Gülsüm (s.ə) və biri də Fironun zövcəsi Asiyə (s.ə) idi. Sonra biri sağında, biri solunda, biri önündə, biri başının üzərində qərar tutdu və Fatimə (s.ə) beləcə dünyaya gəldi. Şeir:

Şər` gülzarına rövnəq verdi bir növrəs nihal,
Asimani-dinə pərtöv saldı bir fərrux hilal,
Ol nihalın bərgü barından dolub daməni-dəhr,
Ol hilalə qıldı ənvari-hidayət intiqal.

(Şəriət gülzarına bir yeni ağac rövnəq verdi. Din səmasına bir mübarək ay işıq verdi. Dünyanın ətəyi o ağacın yarpaq və meyvəsindən dolub. Ol aya hidayət işığı bəxş olunub).

Rəvayətdir ki, o saatda cənnətdən on ədəd huri bir qab su ilə hazır oldu. Mama olan qadın o qablardan su töküb Fatiməyə (s.ə) qüsl verdi. Fatiməni (s.ə) bir ağ parçaya büküb, Xədicəyə (s.ə) təslim edib, qeyb oldular. Həzrəti-Rəsul (s) Fatimənin mövludundan xəbərdar olub, otağa girdikdə Xanım Xədicə (s.ə) Fatiməni (s.ə) o parça ilə Həzrəti-Rəsulun (s) yanında qoydu. Həzrət (s) ona Fatimə (s.ə) adı verdi və künyəsi Ümmi-Məhəmməd, ləqəbi Raziyyə,

Mərziyyə, Mühəddəsə, Zəkiyyə və Zəhradır. Onun fəziləti həddən artıqdır, qabiliyyəti hesaba gəlməzdir. "Rövzətül-Əhbab"da Aişədən nəql olunub ki, ondan sual etdilər: "Qadınlardan Həzrəti-Rəsul (s) kimə artıq hörmət edərdi?" Aişə dedi: "Fatimənin (s.ə) hörmətini artıq tutardı". Dedilər: "Kişilərdən kimin ehtiramını daha çox saxlayırdı?" Dedi: "Əli ibn Əbu Talibin (ə)".Və bu xəbər də səhihdir ki: Fətimə (s.ə) biz`ətun minni (Fatimə (s.ə) məndən bir parçadır).

Rəvayətdir ki, Həzrəti-Rəsul (s) bir döyüşə getmişdi, Mürtəza (ə) da onunla idi. Həsən və Hüseyn (ə.m) kiçik olduğundan evdə qalmışdılar. Həmin günlərdə Hüseyn (ə) Mədinə xurmalığında seyr edərkən, Saleh bin Ruqey adlı yəhudi fürsət tapıb Hüseyni (ə) aparıb mənzilində gizlətdi. Ayrılıq atəşi Zəhranın (s.ə) ciyərini yaxdı, yetmiş dəfə qapıya gəlib kimsəni tapmadı ki, onu axtarmağa yollaya. Nəhayət, İmam Həsənə (ə) dedi: "Ey ciyərparəm, Hüseyn yoxdur, get axtar". Həzrəti-Həsən (ə) həyəcanla Mədinə bağına gəlib, yə Hüseyn ibni Əli (ə) və yə qurratə eynənnəbiyyi eynə əntə (Ey Əlinin oğlu Hüseyn, ey Peyğəmbərin (s) göz-bəbəyi, haradasan?) deyə axtararkən bir guşədən bir ceyran çıxdı. İmam Həsən (ə) dedi: Yə zəbiy ə`raeytə əxi Huseynən (ə) (Qardaşım Hüseyni gördünmü?) Ceyran həq fərmanilə dilə gəlib dedi: "Ey Müstəfanın (s) gözünün nuru və Murtəza (ə) və Zəhranın (s.ə) sinələrinin sevinci, əxəzəhu salih əbni ruq`ə əl-yəhudi və əxbə`əhu fibeytuhu (Qardaşını yəhudi Saleh bin Ruq`ə apardı və evində saxladı). İmam Həsən (ə) yəhudi Salehin evinə gəlib dedi: "Ey Saleh, qardaşım Hüseyn (ə) sənin evindədir, mənə ver, bəhanə gətirmə, yoxsa anasına deyərəm, bir dua ilə cümlə yəhudi cinsini yer üzündən silər və ya atasına deyərəm, parlaq qılıncı ilə yer üzünü yəhudilərin qanı ilə

laləzar edər və ya babasını bu hadisədən xəbərdar edərəm, dua ilə Yəhudi tayfasına bəla göndərər". Şeir:

Həzər qıl naleyi-məzlumdan, ey səngdil zalim
Ki, tiri-ahının peykanı gərdundan güzar eylər.
Sinani-bərqdir ahi-təzəllüm, ehtiraz et kim?
Əgərçi səngdilsən, zəxmi anın daşə kar eylər,

(Ey daşürəkli zalım, məzlumun naləsindən özün gözlə ki, onun ah oxu dünyanı dəlib keçər. Zülmdən şikayət etmək parlaq nizə ucuna bənzəyir, ondan həzər et ki, əgər sən daşürəklisənsə, onun vurduğu yara daşa əsər edər).

Yəhudi Saleh bu sözdən mütəəssir olub dedi: "Ey əziz, anan kimdir?" İmam Həsən (ə) dedi: "Anam nübüvvət süləsinin rəhbəri, Bətuli-Əzra, yəni Fatimeyi-Zəhradır (s.ə)". Saleh dedi: "Anan məlum oldu, atan kimdir?" İmam Həsən (ə) dedi: "Atam Allahın şiri, şahi-mərdan, Peyğəmbərin (s) dostu Əliyyi-Mürtəzadır (ə)". Saleh dedi: "Atan da məlum oldu, baban kimdir?" İmam Həsən (ə) dedi: "Babam Xəlilin xəzinəsinin gövhəri, İsmail ağacının meyvəsi, Allahın dostu, o imam ki, Məkkədə vacib namaz qılıb Əqsa məscidində sünnətin yerinə yetirdi, peyğəmbərlər sərvəri Mühəmmədi-Müstəfadır (s)". Şahzadə qabiliyyətini biruzə verdikcə yəhudi Salehin qəlbi küfrdən təmizləndi, ağlayaraq dedi: "Ey şahzadə, sözün məni şad etdi".

Gövhəri-dəryayi hikmətdir kəlami-dilkəşin,
Tairi-dil seydinə hər nüktəsi bir danədir.
Rişteyi-irfanə canpərvər sözün dürlər düzər.
Söz budur kim, sən dedin, qeyrin sözü əfsanədir.

Ey gözümün nuru, qardaşını sənə o vaxt verərəm ki, məni imana çəkib İslam kəlməsini ərz edəsən". İmam Həsən (ə) ona imanı təlqin etdi, yəhudi Saleh təmiz qəlblə

müsəlman oldu. Həzrəti-Hüseyni (ə) evindən çıxarıb, bir tabaq dirhəm də Həsənə (ə) verdi. Həsən və Hüseyni (ə.m) Fatimənin (s.ə) hüzuruna gətirdi. Beyt:

Ol ki, eşq içrə məni şöhreyi-dövran etdi,
Getdi qəm, gəldi fərəh, cümlə küdurət getdi.

Yəhudi Saleh bir gündən sonra yetmiş nəfər yəhudini də müsəlman edib, paklıq evinin ziyarətinə gəlib yalvardı ki: "Ey Mə`sumə səhv etdim, günahımı bağışla". Fatimə (s.ə) dedi: "Ey Saleh, mən günahından keçdim, amma atasına da de ki, o övliyaların sərvəri və seçilmişlərin öndə gələnidir". Müxtəsər, yəhudi Saleh Həzrəti-Mürtəza (ə) səfərdən gələnədək səbr elədi. Səfərdən qayıdanda Mürtəzanın (ə) xidmətinə gedib hadisəni söylədikdə, Həzrəti-Mürtəza (ə) dedi: "Ey Saleh, mən günahından keçdim, amma babasından da bağışlanma dilə ki, peyğəmbərlərin ağası və xəlq olunmuşların fəzilətlisidir". Saleh gözü yaşlı Həzrəti-Rəsulun (s) xidmətinə gəlib ərzi-hal etdikdə Həzrəti-Rəsul (s) buyurdu ki: "Mənə İslam şərti ilə üzrün qəbuldur, amma Həsən (ə) və Hüseyn (ə) Allahın möhtərəm bəndələridir, onlara əziyyət edəni Allah bağışlamaz". Biçarə Saleh səhralara düşüb fəryadü fəğan edərdi ki,

Ya Rəb, əsiri-dami-bəlavü müsibətəm,
Müstəqrəqi-təlatümi-bəhri-zəlalətəm,
Bərqi-günah yaxdı binayi-vücudimi,
Rəhm et ki, zillət ilə tələbkari-rəhmətəm.

(Ya Rəb, müsibət və bəla toruna əsir düşmüşəm. Təlatümlü zəlalət dənizinə qərq olmuşam. Günah alovu vücudumun binasını yandırdı. Rəhm et ki, zəlilanə rəhmətini istəyirəm).

On yeddi gün divanə olub təəssüflə ağlayıb səhranı dolandı. On səkkizinci gün Cəbrail (ə) Həzrəti-Rəsula (s) Allahın salamını yetirib dedi: "Ey Kainatın Ağası, o biçarənin tövbəsini qəbul etdim və günahına qələm çəkdim, müjdə ver".

Ey əziz, bax gör ki, bir kəs Həzrəti-Hüseyni (ə) bir zaman həbs edib mübarək qəlbini incitməklə nə qədər yalvarışdan sonra bağışlandı. Aya, nə olar onların əhvalı ki, o məsumu qılıncla doğrayıb, etdikləri əməldən peşman olmayalar və əsla bağışlanmalarını diləməyələr.

Ey tökən zülmilə övladi-Rəsulun qanını,
Olmamış guya xəbər qobğayi-məhşərdən sənə.
Məstü-cami-cəhlü qəflətsən özündən bixəbər,
Xövf yox Həqdən, xəcalət yox Peyəmbərdən sənə.

Hüzeyfə Yəmanidən nəqldir ki: "Bir gün Həzrəti-Rəsulun (s) xidmətində idim, Məğrib namazını qılıb qurtardıqdan sonra otağa getdi, mən də arxasınca getdim, gördüm bir şəxs xidmətinə gəlib onunla söhbət etdi və getdi. O Həzrət məni görüb dedi: "Ey Hüzeyfə, nə istəyirsən?" Dedim: "Ey Allahın Rəsulu (s), gəlmişəm ki, mənim üçün və anam üçün dua edəsən". Buyurdu ki: Qafərallahu ləkə və li ummikə (Allah sizi bağışlasın" və buyurdu ki, "Ey Hüzeyfə, o şəxs ki, mənimlə söhbət edirdi, gördünmü?" Dedim: "Bəli, ey Allahın Rəsulu (s)". Buyurdu ki: "O bir mələkdir ki, heç bundan əvvəl yer üzünə enməmişdir. Allahdan icazə alıb mənimlə salamlaşmağa gəlmişdi. Mənə müjdə verdi ki, Fatimə (s.ə) behişt qadınlarının xanımıdır və Həsən və Hüseyn (ə.m) behişt cavanlarının seyyidləridir". Sonra Fatiməyə dedi: "Ey övlad, sənə bu səadət yetər ki, dünya qadınlarının fəzilətlisisən". Həzrəti-Hüseyn ibni-Əlidən (ə) nəqldir ki, Uca Allah cənnəti Adəm (ə) və Həv-

vanın (s.ə) ixtiyarına buraxdı, bir gün Adəm (ə) diqqətlə Həvvaya (s.ə) nəzər salıb dedi: "Ey Həvva (s.ə), aya, səndən də gözəl biri ola bilərmi?" O dəm Allahdan Cəbrailə (ə) hökm oldu ki, Adəmi cənnətin Firdövs adlanan mərtəbəsinə seyrə aparsın. Adəm (ə) Firdövsə qədəm basdıqda gördü bir uca döşəmə üzrə başında tac və əynində cəvahirlə bəzənmiş bir gözəl əyləşib və gözəlliyinə huri və qılman heyran qalıb. Qit`ə:

Laleyi-rüxsari olmuş zivəri-bağı-behişt,
Xaki-payi xüld bağın eyləmiş ənbərsirişt.
Sün` memarı bina qıldıqda qəsri-hüsnini,
Müşki-nabü laleyi-həmradan xakü xişt.

(Lalə sifəti cənnət bağına gözəllik vermiş. Ayağının torpağı cənnət bağını ənbərlə qarışdırıb. Sənətkar memar gözəlliyinin qəsrini inşa edəndə xalis müşk və qırmızı lalə ilə kərpicinə suvaq çəkib).

Adəm (ə) heyrətə düşüb dedi: "Ey Cəbrail (ə), bu gözəl kimdir ki, gözəlliyindən hamı heyrətdədir?" Cəbrail (ə) dedi: "Bu Fatimeyi-Zəhradır (s.ə), Mühəmmədi-Müstəfanın (s) qızı, başındakı tac isə əri Əliyyi-Mürtəzadır (ə). Qulağındakı sırğalardan biri Həsəni-Müctəba (ə) və o biri Hüseyni-Kərbəladır (ə)". Adəm (ə) dedi: "Ey Cəbrail (ə), bunlar nə zamanın xəlqidirlər?" Cəbrail (ə) dedi: "Ey Adəm (ə) əgər ki, bunlar surət aləmində səndən zühur edəcəklər, amma yaradılışları dörd min il əvvəl olmuşdur", Qitə:

Mən sərbüləndi-aləm idim aləm olmadan,
Xaki-dərin məqamım idi Adəm olmadan.
Dövlət məni buraxmış idi asitanına,
Adəm behişt xəlvətinə məhrəm olmadan.

(Aləm olmadan mən aləmin şöhrətlisi idim. Qapının torpağı mənim yerim idi, hələ heç Adəm yaranmamışdı. Cənnətə Adəm daxil olmamışdan əvvəl dövlət məni öz astanasına daxil etmişdi).

Aişədən nəql olunubdur ki, bir gün Həzrəti-Peyğəmbər (s) Mürtəzanı (ə), Fatiməni (s.ə), Həsən və Hüseyni (ə.m) əbasının altına alıb buyurdu ki: "İnnəmə yuridullahu li yuzihibə ənkumur-ricsə əhləl-beyt (Ey Əhli-beyt (ə.m), Allah sizi hər cür murdarlıqdan pak və saf saxlamaq istəyir)". Və yenə o dörd şəxs haqqında buyurdu ki: "İnnə əhrubu li mən hərabəkum və əslim li mən saləməkum. Yəni, mən müharibə edirəm onlarla ki, sizinlə müharibə edirlər və sülh edirəm onlarla ki, sizinlə sülh edirlər".

Həzrəti-Fatimə (s.ə) səkkiz il Məkkədə Müstəfanın (s) xidmətində oldu. Bir gün Həzrəti-Rəsul (s) Məscidül-Həramda divara söykənib oturmuşdu. Ərəb qadınlarından bir dəstə onun xidmətində idilər. Dedilər ki: "Ya Mühəmməd (s), əgər ki, millətlə səndən ayrıyıq, amma bir şəhərliyik. Bu gün bir cəmiyyətimiz var, xahiş edirik ki, Fatimeyi-Zəhraya (s.ə) icazə verəsən ki, bizi şərəfləndirsin", Kainatın Seyyidi onların xahişlərini qəbul edib buyurdu ki, siz gedin mən Fatiməni (s.ə) ardınızca göndərərəm. Sonra Fatimənin (s.ə) hüzuruna gəlib dedi: "Ey gözümün nuru, bizə qəza divanından hökm olubdu ki, zülm gördükcə vəfa göstərək və biganəlik etdikcə aşinalıq edək".

Xardən xunrizlik gördükcə gül xəndan olur,
Səbr edən xeylü xəşəm bidadına sultan olur.
Möhnətə səbr eyləyən rahət bulur kim, Yusifə
Səltənət təxtinin əvvəl payəsi zindan olur.

(Tikandan qaniçənlik gördükcə gül daha da şən olur. Kobudların zülmünə səbr edən sultan olur. Kim möhnətə səbr eləyib rahatlıq tapıb. Necə ki, Yusif səltənət sahibi olmazdan əvvəl zindanda məhbus idi.)

Ey Fatimə, bu gün ərəb qadınları məndən hüzurun üçün xahiş etdilər ki, cəmiyyətlərini qədəminlə şərəfləndirəsən və mən də qəbul etdim. İndi əhdə vəfa göstər”. Fatimə dedi:

Sən şahənşahi-səriri-ədlsən,
Mən sənin bir bəndeyi-fərmanınam.
Ribqeyi-hökmündən etmən inhiraf,
Nişə kim, pərvərdeyi-ehsanınam.

(Ey ata, əhdinə vəfa edərəm, amma heyrət məni bürüyüb ki, nə paltarla o məclisə gedim?)

İndi Ümbənin, Şeybənin və Əbu Cəhlin qızı və ravi əlvan libaslarla məclisdə oturmuşlar, mən bu yamaqlı paltar və hicabla ora getsəm, ciyər yeyən Hind bir tərəfdən danlayar”. Həzrəti-Rəsul (s) dedi: “Ey gözümün nuru, onların nəzərləri qüsurludur, məna aləminə baxmazlar və surət aləmindən qeyri aləm olduğunu bilməzlər”. Beyt:

Mərdümi-surətpərəstin himməti kutah olur,
Surəti-zövqi-mənadan ol qaçan agah olur?

Bunu dedikdə, Həzrəti-Fatimənin (s.ə) gözündən yaş axdı. Həzrəti-Rəsul (s) dedi: “Ey ciyərparə, qəm çəkmə ki, bizim fəxr etdiyimiz libas təqva libasıdır”. Rübai:

Məqsudin əgər din isə dünyadan keç,
Allaha yapış, cümleyi-əşyadan keç.
Tapşır nəmi-əşkü şöleyi-ahə inan,
Yəni ki, səradan və Sürəyyadan keç.

Bu söhbət əsnasında Cəbrail (ə) nazil olub dedi: “Ey Allahın Rəsulu (s), hökm var ki, Fatiməni (s.ə) o cəmiyyətə göndərəsən ki, qədəmindən bəzi gizli cirlər aşikar olsun”. Həzrəti-Rəsul (s) buyurdu ki, ey Fatimə (s.ə), Cəbrail (ə) getməyinə fərman yetirdi. Fatimə (s.ə) dedi: “Ey Allahın Rəsulu (s), məndə müxalifət yox idi, amma mülahizə edirdim ki, dünya matəmxanadır, bu matəmxanada sevinmək nə münasib. İndi ki, Allahın hökmü təkid edir, daha nə çarə?” Sonra iffət örtüyünə bürünüb evdən bayıra çıxdı.

Tülu etdi bürcündən ol afitab,
Buraxdı cəmalından afaqə tab.
Qədəm xakə basdıqda ol nuri-pak,
Qənadili-nur oldu əczayi-xak.

Ərəb qadınları təkəbbür gözlərini açıb hazır idilər ki, Fatimə dağılmış çadra və tikə-tikə olmuş paltarda gəlib bizim kübar məclisimizi gördükdə həsrət alovu vücudunu yandıracaqdır. Birdən gördülər ki, heybətlə bir böyük xanım məclislərinə qədəm qoydu ki, camalının nurundan gözlər qamaşdı. Kim olduğunu bilməyib yubanmadan məclisə sədrlik etməyi ona tapşırdılar. Bir-birinə dedilər: “Aya bu nə şahzadədir ki, qəbiləmizdə görməmişik”. Qit`ə:

Kimdir aya bu ki, nurilə münir oldu cəhan,
Məhi-rüxsarınadır dideyi-dövran nigəran.
Özü sərvər, qədi dilbər, rəvişi canpərvər,
Oturur şəm, durur sərv, yürür ruhi-rəvan.

Heyrət və dəhşətləri gedib diqqətlə baxdıqda gördülər ki, Allahın elçisinin qızı Fatimədir (s.ə), bəzilərinin təbiətində ki, küfr şiddət tapmış idi, o möcüzəyə davam gətir-

məyib məclisdən çıxdı və bəzisi, düzəlməyə qabil idi, üzr edib dedilər: "Ey xidmətə layiq şəxsin övladı, səfa gətirdin və bizi torpaqdan götürdün, xatirin nə istərsə, hökm et, hazır olsun". Fatimə (s.ə) dedi: "Ey Qüreyşin əzizləri. Qit`ə:

Biz cahanı paymal etmiş cəhanpeymaləriz,
Qülleyi-Qafi-qənaət bəsləyən ənqaləriz.
Fəqriləndir fəxrimiz dünyayə rəğbət qılmanız,
Cifeyə meyl etməniz, tutiyi-şəkkərxaləriz.

(Bizim fəqr süfrəsindən qidamız təsbihdir və o qidadan hasilimiz təzimdir və əcuyu yəvmən və əşbəu yəvmən (Bir gün acam və bir gün toxam) kəlməsi atamın fəxridir və vilayət neməti o təbəqənin bərəkətidir. Əgər bizim xatirimizin razılığı məqsəddirsə, küfr zülmətindən iman fəzasına çıxın və etiqad otağınızda iman şamı yandırın).

Məclisdə olanların əksəriyyəti Fatimənin (s.ə) gövhər saçan sözündən təsirlənib müsəlman oldu və imanla şərəf tapdılar. "Şəvahidün-Nübüvvət"də yazılıbdır: Rəvayətdir ki, hicrətdən bir il sonra Fatimə (s.ə) 9 yaşına, bir rəvayətdə 14 yaşına və bir rəvayətdə 20 yaşına yetmişdi. Qüreyşin şərəfli böyüklərindən izdivacına rəğbət etdikcə o Həzrət (s) buyurdu ki, Fatimənin (s.ə) izdivacında vəhyi gözləyirəm. Əbul-Müəyyəd Xarəzminin "Kitabi-Mənaqib" əsərində yazılıb ki, Hafiz Əbul Məali, Hüseyn bin Əlidən (ə) nəql etmiş ki, bir gün Həzrəti-Rəsul (s) Ümmi-Sələmənin evində idi, bir mələk nazil oldu ki, 20 başı olub hər başında min dili var idi və hər dili ilə Allahı təsbih edirdi. Həzrəti-Rəsul (s) onu Cəbrail (ə) təsəvvür edib dedi: "Ey qardaş, heç səni bu şəkildə görməmişəm". Mələk dedi: "Ey risalət mülkünün sahibi, mənə Sərsail deyirlər. Həzrə-

ti-Həq mənə bir nuru bir nura tapşırmağı, yəni Fatiməni (s.ə) Mürtəzaya (ə) əqd etməyi tapşırıb". Həzrəti-Rəsul (s) İlahi hökm ilə o saatda Cəbrail (ə) və Mikail (ə) şəhadətilə Fatiməni (s.ə) Mürtəzaya (ə) əqd etdi. Şeyx Tirmizi "Nəzmi-darüs-sibteyn" kitabında Ənəs bin Malikdən zikr edir ki: "Bir gün Həzrəti-Rəsulun xidmətində idim. Mübarək görkəmində vəhy əsəri zahir olduqda buyurdu ki, "Ey Ənəs, Cəbrail (ə) gəlib mənə bu xəbəri gətirdi ki: "İnnəllahə yəmurukə ən tuzəvvicə fətimətən li əliyyun (Allah sənə əmr edir ki, Fatiməni Əliyə ərə verəsən)" İndi mühacir və ənsarı topla. Mən də əmrə uyğun Qüreyş igidlərini topladıqdan sonra o Həzrət (s) bəlağətli xütbə oxuyub dedi: "Ey tayfa, Allahın əmridir ki, Fatimeyi-Zəhranı (s.ə) Əliyyi-Mürtəzaya (ə) əqd edəm sizin şəhadətinizlə". Sonra Əliyyi-Mürtəzanı (ə) çağırıb dedi: "Ey Əli (ə), Fatiməni 400 misqal gümüş mehrlə sənə verdim, qəbul etdinmi?" Əli dedi: "Ey Allahın Rəsulu (s), qəbul etdim". Və bir rəvayət də odur ki, Həzrət dua edib buyurdu: "Cəm`ə allahu beynəkumə və ə`ədəkumə və bərakə əleykumə və əxracə minkumə kəsiran teyyibən (Allah sizi qovuşdursun, xoşbəxt və mübarək etsin, ikinizə xeyirli övlad versin)". "Mənaqibi-Xarəzmi" kitabında yazılıbdır ki, Cəbrail (ə) Həzrəti-Rəsulun (s) xidmətinə gəlib cənnətdən bir az cünbül və qərənfil gətirib dedi: "Ey Allahın Rəsulu (s), Allah buyurdu ki, cənnət zinətlənib, Tuba ağacı bəhər gətirib və Rahil adında mələk ki, İlahi dərgahın əyanlarındandır, nurdan minbər qurub fəsahətlə nikah xütbəsi oxuyur ki, Fatiməni (s.ə) Mürtəzaya (ə) əqd edə. Mən ki, Cəbrailəm (ə) bu əqdnamənin surətin bir ipəyə yazıb cənnət xəzinədarına təslim etməyə məmuram". Və bir rəvayət də odur ki, Tuba meyvəsi tikələrə parçalandı və o tikələrin hər birində bir sadiqin adı yazılıb, məzmunu bu ki, filan-

kəs cəhənnəm atəşindən azad ola və o tikələri cənnət xəzinədarı Qiyamət günü sahibinə çatdıracaq. Sonra, Həzrəti-Rəsul (s) Fatiməni (s.ə) Mürtəzaya (ə) əqd etdi. Və Ümmi-Sələməyə buyurdu ki, Əlinin (ə) otağına gedib Fatiməni (s.ə) ona tapşıra.

Rəvayətdir ki, Həzrəti-Fatimənin (s.ə) cehizi iki gümüş bazubənd, bir qətfə, bir qədəh, bir əldəyirmanı, iki kuzə, iki dəridən hazırlanan su qabı, iki tayqulaq su qabı və dörd ədəd balış olmuşdur. İmam Seyfi "Kitabi-Sünənül-Cami`ə"də nəql etmiş ki, münafiqlərin biri Mədinədə Mürtəzaya (ə) tə`n edib dedi: "Ey Əli, sən zəmanə əhlinin şücaətlisisən və bərabərin yoxdur. Necə bir kimsə ilə evləndin ki, şamı naharına vəfa etməz və nahar tapsa, şama heç bir şey tapmaz, əgər mənimlə qohum olsaydın, evimdən evinədək cehizlə doldurardım və sənin yaşayışını ömrüm varkən öhdəmə götürərdim". Mürtəza (ə) dedi: "Ey yolunu azmış, bu əmr mənim tədbirimlə deyil, "Əl-hukmu lilləhil-əliyyil-kəbir (Hökm ulu və böyük Allahındır)".

Ey mürəssə` tac məğruri olan, bil kim, fələk
Hər iki aləmdə bir rəng ilə eylər xaksar.
Lə`l sanma kim, firibi-firqeyi-ətfal üçün,
Rəng vermişdir qara torpağə dövri-ruzigar.

Və heç şəkk yox ki, Allah gözəl əhvalı bizə lütf etmişdir. Qit`ə:

Biz məta`i-mülki-dünyadan fərağət qılmışız,
Kimyayi-fəqrdən kəsbi-səadət qılmışız.
Qeyrə et, ey çərx, ərzi-cahü mülkü mali kim,
Biz qənaət əhliyik, fəqr ilə adət qılmışız.

(Biz dünya mülkünün malından asudəyik. Fəqr kimyasından səadət əldə etmişik. Ey dünya, malü mülkünü özgələrə ver. Biz qənaət əhliyik, fəqirliyə adət etmişik).

Rəvayətdir ki, Həzrəti-Əli (ə) cahillərin tənəsində mütəəssir olmayıb onların sözlərini qəbul etmədikdə nida gəldi ki: "Ey Əli (ə), üzünü asimana çevirib bax:" "Həzrəti-Əli (ə) baxıb gördü ki, ərşdən fərşə qədər inci, gövhər, müşk və ənbər yüklü dəvələr, hər birinin cilovu bir pəriçöhrə qulam əlində və hər birinin üzərində bir ayüzlü kəniz. Nida etdilər ki: "Həzə cihəzi fətimə binti Rasulallah (s) (Bu, Rəsulallahın (s) qızı Fatimənin (s.ə) cehizidir)". Həzrəti-Mürtəza (ə) bu ehsanın tamaşasından razı qalıb evə qayıtdıqda Fatimə (s.ə) dedi: "Ey Əli (ə), sənə verdiklərini mənə də verdilər. Allahın köməyi ilə cehizi gördüm". Şeir:

Mülki-dünyada bizi cahil mühəqqər görməsin,
Biz bəqa mülkün müsəxxər eyləyən sultanlarız.
Aləmi-mənada əladır qamudan qədrimiz,
Gərçi surətdə həqirü bisərü samanlarız.

Rəvayətdir ki, bir gün Aləmin Sahibi buyurdu ki, Süleyman (ə) kürəkəni üçün bir tac düzəltdirmişdi ki, 700 dənə inci ilə zinətlənmişdi. Həzrəti-Əli (ə) evə gəldikdə bunu Fatiməyə (s.ə) dedi: Fatimə (s.ə) bunu eşitcək xatirindən bu keçdi ki, əgər Əli (ə) Süleymanın (ə) qızının cehizini o əzəmətlə eşidib və mənim cehizimi bu azlıqla görüb xəyal edə ki, Həzrəti-Rəsul (s) Süleyman (ə) qədər olmaz. Bu iztirab vəfatına qədər xatirində qaldı.

Bir gecə Həzrəti-Əli (ə) yuxusunda gördü ki, cənnətdə bir zinətli təxt qurulub, üstündə Fatimə (s.ə) oturub, ətra-

fında hurilər səf çəkiblər. Və bir xoşbəxt qız nəhayətsiz gözəlliyi ilə iki qab cəvahir hazır edib, gözləyir ki, Fatimə (s.ə) ona nəzər etsin. Həzrəti-Əli (ə) Fatimədən (s.ə) soruşdu ki, aya, bu kimdir? Fatimə (s.ə) dedi ki, ey Əli (ə), bu Süleymanın (ə) qızıdır. Həq-təala mənim xidmətimə göndərmişdir. Ey Əli (ə), bu əzizənin bir gün cehizinin hekayəsini nəql etdin və bu fikir mənim xatirimdə idi və o fikirdə dərd çəkdiyimin əcrinə bu səadət müyəssər oldu. Ey Əli, o tac əvəzinə ki, Süleyman (ə) kürəkəni üçün düzəltmişdi, həmd bayrağı sənə verildi. Və həmd bayrağı bir aləmdir ki, Həzrəti-Rəsula məxsusdur. Hündürlüyü həddən artıq olub üç hissəsi var: biri Qərbdə, biri Şərqdə və biri Məkkə üzərində. Bir hissəsinin üzərində yazılıb ki: "Bismilləhir-rahmənir-rahim", birinin üzərində "Əlhəmdu lilləhi rabbil-aləmin" və birinin üzərində "Lə iləhə illəllah, Mühəmmədən-Rəsulallah". Nəqldir ki, qiyamət meydanında o bayrağı hazır edib səslənərlər ki: "Hardadır ərəb Mühəmmədin (s) ümməti?" Və Həzrəti-Nəbi o bayrağı mübarək əlinə alacaq, cümlə peyğəmbərlər və övliya və İslam əhlinin hamısı o bayraq altında cəm olacaq, necə ki, buyurmuşdu: "Adəmu və zurriyyətuhu təhtə livənyəvməl qiyəməh. (Adəm və nəsli Qiyamət günü bayrağım altındadır) və mübarək başına nurdan bir tac qoyub, yaşıl ipəkdən bir xələt geyib Büraqa minib və sair peyğəmbərlər də (ə) süvar olub, o bayrağı Həzrəti-Əliyə (ə) verib cənnətə daxil olarlar. Rəvayətdir ki, Həzrəti-Əlinin (ə) mübarək başında o bayraq bir tac şəklində nəzərə çarpacaq, səda gələcək ki, "Ey Əli bu tac əfzəldir, yoxsa o tac ki, Süleyman (ə) kürəkəninə vermişdi?" İmam Nəcməddin Ömər (Allah ondan razı olsun) rəvayət edər ki, bir gün Həzrəti-Rəsul (s) Fatimənin (s.ə) otağına gəlib onu məlul gördü, səbəbini soruş-

duqda dedi: “Ey Allahın Rəsulu (s), üç gündür ki, evimdə yemək qismində heç nə yoxdur, Həsən (ə) və Hüseyn (ə) əziyyət çəkirlər. Və bu əhvalı Həzrətinizdən gizli tuturam, amma bu gün Həsən (ə) və Hüseynin (ə) iztirabını gördüm deyirdilər ki: “Aya, aləmdə heç bir uşaq bizim kimi çətinliyə dözürmü?” Ey ata, Həzrətinizdən rüxsət olurmu ki, zəlilcəsinə dərgəhi-İlahidən bir təvəqqe edim?” Aləmin Sahibi dedi: “Ey övlad, Allah sadiqlərin zəlilliyini qəbul edər”. Fatimə (s.ə) iki rükət namaz qılıb, mübarək əllərini qaldırıb dedi: “Ey Rəbbim, bilirsən ki, qadınların və uşaqların çətinliklərə taqətləri olmaz, ya taqətimizcə möhnət ver, ya möhnətimizcə taqət müyəssər et”. Bu duanı tamam etdikdə, zəiflikdən bihuş oldu, həm də o saat Cəbrail (ə) enib dedi: “Ey Allahın Rəsulu (s), Fatimənin (s.ə) ürəkyaxıcı naləsi göydəki mələkləri həyəcana gətirdi, fəryadına yet”. Həzrəti-Rəsul (s) otağa girib gördü Fatimə (s.ə) ixtiyarsız düşüb. Mübarək başını dizi üzərinə alıb, ayı ikiyə bölən barmağını sinəsi üzərinə qoyub dua etdi ki, “Ey Rəbbim, Fatiməni (s.ə) dərd selindən qoru”. Fatimədən (s.ə) nəqldir ki: “O dua bərəkətindən həyatım olduqca özümü aclıq dərdinə mübtəla görmədim”.

“Dürəri-Məaric”də yazılıb ki, bir gün Həzrəti-Rəsul (s) - Fatimənin (s.ə) evinə gəlib dedi: “Ey övlad, halın necədir?” Fatimə (s.ə) dedi: “Ey Allahın Rəsulu (s), şükür Allaha, fəqrimiz bir həddə yetmişdir ki, mənzilimizdə üç gündür yeməkdən əlamət yoxdur”. Həzrət buyurdu ki: Allahummə ənzil ələ Muhəmədin və əhli beytihi kəmə ənzəltə ələ Məryəmi bintə imran (Allahım, nemətini Mühəmmədə (s) və Əhli-beytinə (ə) göndər necə ki, İmran qızı Məryəmə göndərmişdin!) Dedi: “Ey Fatimə (s.ə), mətbəxə gedib hikmətə tamaşa et”. Fatimə (s.ə) mətbəxə keçdi, ardıyca

Həsən (ə) və Hüseyn (ə) gəlib gördülər ki, cəvahirlə zinətlənmiş bir kasa içində bir miqdar yemək var. Fatimə (s.ə) o kasanı götürüb Həzrəti-Rəsulun (s) xidmətinə yetirdi və Həzrət (s) buyurdu ki: Qulu Bismilləh (Deyin, Allahın adı ilə!”). Sonra nəbi, kürəkən, Fatimə (s.ə), Həsən və Hüseyn (ə.m) o yeməyi yedilər. Rəvayətdir ki, yeddi gün o yeməkdən yedilər azalmadı. Bir gün İmam Həsən (ə) evdən əlində bir miqdar o yeməkdən alaraq çıxdı, bir yəhudi övrət görüb o yeməkdən istədi. İmam Həsən (ə) xəsislik etməyib xeyirxahlıq etdikdə o kasa və yemək qeyb oldu və Həzrəti-Rəsul (s) buyurdu ki, əgər bu halət baş verməsəydi heç vaxt o yemək qurtarmazdı.

Bəzi təfsirlərdə qeyd olunub ki, bir gün Həzrəti-Rəsul (s) Fatimənin (s.ə) evinə gəlib dedi: “Ey ciyərparəm, üç gündür yemək yeməmişəm, evdə yeməyə nə var?” Fatimə (s.ə) dedi: “Ey Allahın Rəsulu (s), biz də eyni gündəyik”. Həzrəti-Rəsul (s) məyus qayıtdıqda Fatimə (s.ə.) xəcalət çəkib dua etdi ki, İlahi, məni bu xəcalətdən qurtar və bir yemək göndər”. Dua bitər-bitməz Fatimə (s.ə.) gördü ki, qapı ağzında bir qərib durub, bir kasada bir miqdar yemək gətirib ki, bu hədiyyədir. Fatimə (s.ə.) o yeməyi alıb Hüseyni Rəsulun (s) hüzuruna göndərdi. Həzrət (s) gəldikdə o yeməyi hüzuruna gətirdilər. Gördü ki, əsla dünya yeməklərinə oxşamır, Soruşdu ki: “Ənnə ləki həzə (Sənə bu haradandır?)” Həzrəti-Zəhra (s.ə.) dedi: “Huvə min`indilləh yəzruku min yəşə`u biqeyri hisab (O Allahdandır ki, istədiyi kimsəyə hesabsız ruzi verir”. Bu xəbərdən Həzrəti-Rəsul (s) hali olub bildi ki, qeyb mətbəxindəndir, dedi: “Ey ciyərparə, Allaha şükür, Allah sənə İmranın qızının mərtəbəsini nəsib etdi”. Sonra Əli (ə), Fatimə (s.ə.), Həsən (ə) və Hüseyn (ə) o yeməkdən yeyib, sair ev əhlinə də göndərdilər. Şeir:

Hola gər ən`amını amm etsə xani lütfdən,
Ol ki, xasü amm xani-lütfünün mehmanıdır.
Nola gər Məryəmdən əfzun görsə nəqdi-pakını,
Ol ki, İsa bir kəminə bəndeyi-fərmanıdır.

Və bu xəbər də məşhurdur ki, Həzrəti-Rəsul (s) Fatiməni (s.ə.) cümlə Əhli-beytdən (ə.m) artıq tutardı. Və Həzrəti-Fatimə (s.ə.) o Həzrəti (s) öz canından artıq sevərdi.

Amma ciyəryaxan xəbərləri rəvayət edən bu qayda ilə hekayəti tamam etmiş ki, Aləm Sahibi fəna aləmindən əbədi mülkə getdikdə yer-göy titrədi.

Dəhr nüzhətxaneyi-iqbalı viran eylədi,
Gənci-İslamı fələk toprağə pünhan eylədi.
Tey qılıb rahət büsatın dəhrdən fərraşi-çərx,
Surəti-cəmiyyətin xəlqin pərişan eylədi.

Bu dəhşətli hadisə baş verdikdə Həzrəti-Mürtəza Fatimeyi-Zəhraya (s.ə.) dedi: “Ey Peyğəmbər (s) nəslinin seçilmişi  müsibət anında səbr etmək vəfa sahiblərinin adətlərindəndir. Olmaya ki, ciyəryaxan ahın səbrü qərar xırmanını yandıra, fəğanının sədasından naməhrəmlər xəbərdar ola. Səbr et o vaxta qədər ki, Həzrəti-Rəsulullahı (s) dəfn edib hər kəs evinə qayıda. O vaxt Həzrəti-Müstəfanın (s) şərəfli məzarını ziyarət edib dərdini ərz edərsən”.

Ey xoş ol saət ki, dildar ola, dəyyar olmaya,
Yar ola xəlvətdə, ətrafında əğyar olmaya.
Yar halın yarə izhar etməyə fürsət bulub,
Müddəi agahü naməhrəm xəbərdar olmaya.

Həzrəti-Fatimə (s.ə.) Mürtəzayi-Müctəbanın (ə) nəsihətinə qarşı çıxmayıb səbr etdi o vaxtadək ki, gecə oldu.

Həzrəti-Zəhra (s.ə.) qəm şiddətindən bihuş ikən göz açıb Həzrəti-Mürtəzadan (ə) soruşdu ki: "Ey Əli (ə), hansı vaxtdır?" Mürtəza Əli (ə) dedi: "Ey Fatimə (s.ə.), gecənin yarısıdır". Fatimə (s.ə.) dedi: "Ey Əli (ə), rüxsət müyəssərdirmi?". Əli (ə) dedi: "Bu şərtlə ki, yüksək səslə fəğan etməyəsən". Sonra Fatimə (s.ə.) Həzrəti-Mürtəza (ə) ilə birlikdə mübarək qəbrin üstünə gəldilər. Zəhranın (s.ə.) gözü Müstəfanın (s) qəbrinə düşdükdə, bu şəkildə növhə dedi:

Ey fələk, darüş-şəfayi-şər`i viran eylədin,
Əhli-dərdi mübtəlayi-daği-hirman eylədin.
Pərdeyi-idbara çəkdin çöhreyi-iqbalımı,
Cəm edib yüz qəm mənə, halım pərişan eylədin.
Asimani-şər` xurşidinə göstərdin zəval,
Mahi-mülki tirə topraq içrə pünhan eylədin.
Gər desəm kafirsən, ey gərdun, əcəb yox nişə kim,
Qəsdi-qəmli-müqtədayi-əhli-iman eylədin.

(Ey fələk, şəriətin şəfa evini dağıtdın. Dərd əhlinə məhrumiyyət dağı çəkdin. Səadət çöhrəmə fəlakət pərdəsi çəkdin. Mənə yüz qəm verib halımı pərişan elədin. Şəriət səmasının günəşinə tənəzzül olmağı göstərdin. Səltənət ayını qara topraq içrə gizlətdin. Əgər sənə kafir desəm, təəccüblü deyil, ey dünya, niyə ki, iman əhlinin rəhbərini qətl etdin.)

Ağladıqca Həzrəti-Mürtəza (ə) təskinlik verib dedi: "Ey Fatimə (s.ə.), növhədən səbr yaxşıdır". Fatimə (s.ə.) dedi: "Ey əziz əmioğlu, fəzilətli şəxsin ayrılığı müsibətlərin ən böyüyüdür. Məni ondan çəkindirmə!" Və bu bir beyt Həzrəti-Rəsulullah (s) mərsiyəsində Həzrəti-Zəhra (s.ə.) tərəfindən deyilən beytlərdəndir. Beyt:

Subbət əleyyə ləv ənnəhə,
Subbət ə`ləl-əyyami sirnə ləyaliyə.

(Başıma elə müsibətlər gəldi ki, gündüzün başına gəlsəydi, gecəyə dönərdi!)

Nəqldir ki, mübarək məzardan bir ovuc torpaq götürüb bu məzmunda növhə dedi:

Hicri bağrım qan edən gülbərgi-xəndanım qanı?
Rahəti-cani-həzinü cismi-suzanım qanı?
Dideyi-nəmnakıma tar oldu aləm, ey fələk,
Ləm`eyi-rüxsari-xurşidi-dirəxşanım qanı?

Və bu xəbər səhihdir ki, Həzrəti-Rəsulun (s) vəfatından sonra heç vaxt Fatimənin (s.ə.) üzü gülməmişdir. Bir gün Mədinə əhli onun əfqanından əziyyət çəkib dedilər: "Ey Allah Rəsulunun qızı (s.ə.), ya gündüz nalə edib gecə sakit ol, ya gecə naləyə məşğul olub gündüz səbr et ki, xəlqə bir vaxt rahat mümkün olsun". Həzrəti-Zəhra (s.ə.) xəlqin o xahişini qəbul edib gecələr növhə edib gündüz səbr ilə ciyərini dağlayıb dözərdi. İmam Cəfəri-Sadiqdən (ə) nəqldir ki, beş şəxsin naləsi həddən artıq idi: biri Adəm (ə) ki, cənnət ayrılığından ağlayırdı, biri Yəqub (ə) ki, Yusifin (ə) ayrılığından gözüyaşlı idi, biri Yusif (ə) ki, Yəqubun (ə) intizarında pərişan idi, biri Fatimeyi-Zəhra (s.ə.) ki, Həzrəti-Rəsulun (s) ayrılıq atəşində yanmışdı və biri də Əliyyi-Zeynəlabidin (ə) ki, Kərbəla hadisəsindən sonra 40 il ağlar qaldı". Rəvayətdir ki, Müflih adlı bir qulu olub, bir gün dedi: "Yəbnə Rəsulallah (s), axır ki, bu nalədən həlak olacaqsan". Dedi: "Ey Müflih, nalǝm biixtiyardır, o vaxt ki, Kərbəla mə`rəkəsində atamın, qardaşlarımın susuz şəhid olduqlarını, Əhli-beytin (ə) əxlaq-

sız topluma əsir düşdüklərini yadıma salıram, özümü naləFdən saxlaya bilmirəm”.

Düşdükdə yadıma ələmi-dəşti-Kərbəla,
Könlüm fəğanü naləyə biixtiyar olur.
Gəldikcə yadıma ləbi-xüşki-şəhi-şəhid,
Biixtiyar çeşmi-tərim əşkbar olur.
Əyyam, çün bəlalara salmışdurur məni,
Mən gördüyüm bəlaları kim görsə, zar olur.

Müxtəsər, Həzrəti-Rəsulun (s) vəfatından bir rəvayətdə 6 ay keçdikdə və bir rəvayətdə üç ay keçdikdə bir gün Həzrəti-Mürtəza (ə) evə gəlib gördü ki, Fatimə (s.ə.) bir miqdar xəmir yoğurub, şərəfli övladının başını yumağa bir miqdar gil hazırlayıb və paltarlarını yumağa bir miqdar su qoyub. Həzrəti-Mürtəza (ə) soruşdu: “Ey dünyanın hörmətli qadını (s.ə.), heç sənin bu qədər dünya işlərinə məşğul olmağını görməmişəm, aya, bu nə hikmətdir ki, bu gün üç əməlin əncamına səy edirsən?” Həzrəti-Zəhra (s.ə.) gözüyaşlı dedi: “Ey Həl-Əta tacidarı (ə) və Harun mərtəbəsinin varisi, ey vəli, “mən vələh” (Ona dost olana dost ol) bağının gülü və “ədi mən ə`dəh” (Ona düşmən olana düşmən ol) dağının atəşi, ey sidqü səfa mövqeyinin nizamı və Həzrəti-Müstəfanın (s) sirdaşı, ey həqiqət meşəsinin şiri və Həsən-Hüseyn (ə.m.) cövhərinin mə`dəni, gizli deyil ki, sizdən ayrılmağımın vaxtı yetişib”. Rübai:

Vəqt oldu ki, şami-hicr ola sübhi-visal,
Təğyirpəzir ola bu keyfiyyəti-hal.
Vəqt oldu ərusi-vəsl olub pərdənişin,
Ərz eyləyə şahidi-qəmi-hicr cəmal.

Ey Əli (ə), dünən gecə Həzrəti-Rəsulallahı (s) yuxumda gördüm, yatağımın yanında durmuşdu. Fəryada gəlib dedim: “Ey Allahın Rəsulu (s), ayrılığından həlak oldum, aya, hardasan?” Həzrəti-Rəsul (s) dedi: “Ey Fatimə (s.ə.) sənə müjdə verməyə gəlmişəm, vaxtdır ki, fani aləmdən əbədi aləmə qədəm qoyasan. Ey Fatimə (s.ə.), sən gəlməsən getmərəm. Əgər mənə qovuşmaq istəyirsən tələs və sə`y et ki, sabah gecə mənə qonaq olasan. Ey Əli (ə), əgər ki, sənin ayrılığının dərdi ciyər yandırır, amma o Həzrətin (ə) də qovuşma müjdəsi ürəyin xoşbəxtliyidir. Getmək tədarükün etməyim odur ki, sabah sən müsibətimə məşğul olduqda övladlarım yemək fikri çəkməyələr, paltarlarını yuduğum odur ki, məndən sonra başqalarından minnət çəkməyələr. Başlarını yuduğum odur ki, məndən sonra qəmxarları kim olacaq”.

Eh, əziz Fatimə (s.ə.), onların saçlarına toz qonmaqdan təlaşlanırdı və paltarlarının toza bulaşmalarından məyus olurdu. Ah, əgər Kərbəla çölündə bədənlərinin qanını torpağa bulaşmasını görsəydi.

Kərbəla dəştində Xatuni-qiyamət ah, əgər,
Qərqi-xun görseydi Şahi-Kərbəlanın halını.
Heç şəkk yox kim, qılırdı Kərbəla torpağını
Qərqi-xun, gözdən töküb seylabi-əşki-alını.

Xülasə, Mürtəza (ə) Fatimədən (s.ə.) o xəbəri eşitdikdə, gözü doldu, dedi: “Ah, bu nə möhnətdir ki, yenə üz verdi. Ey Fatimə (s.ə.), hələ atanın ayrılıq dağı məlhəm tapmamış, sən də cana bir təzə dağ çəkmək istəyirsən?”.

Ah kim, hər dəm fələk dərd üzrə dərdim artırır,
Göstərir min dərd, bir dərdinə dərman etmədən.

Bağrımı büryan edər hər ləhzə bir bərqi-bəla,
Bir bəlayi hüsni-tədbir ilə bir yan etmədən.

Fatimə (s.ə.) dedi: "Ey Əli (ə), o fəlakətə səbr etdin, bu müsibətə də səbr et". Bu sözü dedikcə, gözündən yaş axırdı və deyirdi: "Ey ciyərparələr, aya məndən sonra sizin halınız necə olur?" Həsən və Hüseyn (ə.m.) bu xəbərdən kədərlənib ağladılar. Fatimə (s.ə.) dedi: "Ey gözlərimin nuru, Bəqi məzarlığına gedib mənim üçün dua edin". Onlar getdikdə Mürtəzaya (ə) dedi: "Ayrılıq vaxtıdır, halal et". Həzrəti-Əli (ə) ah çəkib dedi. Beyt:

Va həsrəta ki, yaxdı məni atəşi-vida,
Ya Rəb ki, münqəte ola ayini-inqita.

Bundan sonra Əsma binti-Umeyşeyə dedi: "Ey Əsma, bir yemək hazırla ki, ciyərparələrim qayıtdıqda yesinlər və qoyma mənim yanıma gəlib məni bu hal ilə görüb pərişan olalar". Xülasə, şahzadələr qayıtdıqda Əsma onları qarşılayıb yemək təklif etdikdə şahzadələr dedilər: "Bizə ancaq anamız yemək verərdi". Əsma dedi: "Ey əzizlər, ananız bir az xəstədir, siz yeməyinizi yeyin". Dedilər: Ey Əsma, bizə anamızdan ayrı yemək rəva deyil". Xülasə, yemək yeməyib otağa girdikdə gördülər ki, Fatimə (s.ə.) uzanıb, Həzrəti Əli (ə) başı üzərində gözüyaşlı oturub. Şahzadələri (ə.m.) gördükdə Fatimə (s.ə) dedi: "Ey ciyərparələr, Rəsulallahın (s) qəbri üzərinə gedib dua edin". Şahzadələr (ə.m.) itaət edib getdikdə Fatimə (s.ə.) dedi: "Ey Əli (ə), yanımda ol ki, ömrün sonudur".

Həyatımdan həmən bir dəm qalıbdır olma qafil kim,
Müyəssər ola zövqi-dövləti-vəslin dəmi-axir.

Həyati müstəarim kisvətin tarac edib gərdun,
Kəfəndən əynimə geydirmək istər xəl`əti-faxir.

(Həyatımın son anıdır, yanımda ol ki, son anda vəslindən zövq alım. Fələk həyat libasımı qarət edib, əynimə kəfəndən qiymətli xələt geydirmək istəyir).

Həzrəti-Əli (ə) dedi: "Ey Fatimə (s.ə.), bu xəbəri eşitməyə qüdrətim yoxdur". Fatimə (s.ə.) dedi: "Bu xəbər tədbirsiz və təxirəsalınmaz hadisədir".

Sındırdı nihali-ömrümü badi-əcəl,
Can mürğinə dam qurdu səyyadi-əcəl.
Tən rabitəsin ruhdan istər qıla kəm,
Şəmşiri-siyasət ilə cəlladi-əcəl.

(Ölüm küləyi ömür ağacımı sındırdı. Ölüm ovçusu can quşuna tələ qurdu. Siyasət qılıncı ilə ölüm cəlladı istəyir ki, bədənin ruhla əlaqəsini kəssin).

Fatimə (s.ə.) Əli (ə) yanında bihuş olub, bir zamandan sonra özünə gəlib, Əlini (ə) gözüyaşlı görüb dedi: "Ey Əli (ə), təziyə zamanı deyil, vəsiyyət vaxtıdır". Əli (ə) dedi: "Ey Fatimə (s.ə.), vəsiyyətin nədir?" Fatimə (s.ə.) dedi: "Dörd vəsiyyətim var: biri odur ki, məndən sənə bir ədəbsizlik baş veribsə, əfv edəsən". Əli (ə) dedi: "Allah eləməsin ki, səndən ədəbsizlik baş verə, həmişə sən mənim qəmxarım idin". Dedi: "İkinci vəsiyyət odur ki, mənim övladlarımı möhtərəm tutasan, üçüncü odur ki, məni gecə vaxtı dəfn edəsən ki, həyatımda naməhrəmdən gizləndiyim kimi, vəfatımda da cənazəmə naməhrəm göz baxmaya və dördüncü vəsiyyətim odur ki, mənim ziyarətimi unutmayasan və həmişə məni dua ilə yad edəsən".

Çün məni səndən fələk naçar məhcur eyləyə,
Xaki-payindən bəlakeş başımı dur eyləyə,
İltimasım səndən oldur kim, qubari-məqdəmin
Ruhimi bir dəm mülaqatilə məsrur eyləyə.

Bu vəsiyyətdən sonra Həzrəti-Əli (ə) fəryada gəlib dedi: Rübai:

Dildar buraxdı tərhi-qəmxaneyi-hicr,
Saqiyi-zəmanə tutdu peymaneyi-hicr.
Dərda ki, sərayi-vəsl ikən təkyəgahım,
Vəqt oldu məqamım ola viraneyi-hicr.

Dedi: "Ey Fatimə (s.ə.), sənin vəsiyyətlərin qəbul oldu, amma mənim də sənə üç vəsiyyətin var, ərz edim. Biri odur ki, xidmətində bir təqsirim olubsa, Həzrəti-Rəsula (s) şikayət etmə, ikinci odur ki, Həzrəti-Rəsulallaha (s) salamımı yetirəsən, üçüncü odur ki, məndən o Həzrətə (s) şükr izhar edəsən". Fatimə (s.ə.) Əlinin (ə) vəsiyyətlərini qəbul edib söhbətləşməkdə ikən bir gurultulu səda eşidildi. Həzrəti-Əli (ə) bayıra çıxdıqda gördü Həsən və Hüseyn (ə.m.) "və umməh və musibətah" ( Vay anam, vay müsibətlərim) – deyib fəryad edərək gəldilər. İztirabla otaq qapısına gəlib dedi: Ey ciyərparələr, nə olub?" Dedilər: "Ey Allah Rəsulunun (s) elm şəhərinin qapısı (ə) , ey La Fəta meşəsinin şiri, anamızla vidalaşmağa gəlmişik". Həzrəti-Əli (ə) dedi: "Elə isə yubanmayın gedin görüşün". Səsləri Fatiməninn (s.ə.) qulağına çatıb, onları yanına çağırıb gözüyaşlı dedi: "Ey yetimlər, aya məndən sonra halınız necə olacaq?" O əsnada cümlə övladını bir yerə toplayıb onları Həzrəti-Mürtəzaya (ə) tapşırdı, nə səbəbdənsə Həsən və Hüseyni

(ə.m.) bir daha Rəsulun (s) qəbri üzərinə göndərdi. Ümmi-Sələmədən (ə) su istəyib qüsl etdi, libasını geyib yerində uzandı. Əsma binti Ümeyşə dedi: "Bir gün xəstəlik anında Cəbrail (ə) Həzrəti-Rəsulun (s) xidmətinə gəlib behiştdən bir miqdar kafur gətirib və o Həzrət (s) bir qismin özünə kəfən üçün götürüb bir miqdarın mənim üçün və bir miqdarın Əli (ə) üçün mənə vermişdi, filan yerdədir, gətir ki, öz hissəmi götürüb, Əliyə (ə) aid hissəni sənə verim". Əsma binti Ümeyşi deyilənə uyğun o kafuru gətirdi. Öz hissəni alıb Əsmaya dedi: "İndi bayıra çıx ki, mənim Allahımla dua edəcək zamanımdır". Əsma bayıra çıxdıqda eşitdi ki, Fatimə (s.ə.) deyir: "Ey Rəbbim, Rəsul (s) hörməti həqqiçün, Əliyyi-Mürtəza (ə) qədriçün və məsum övladların kəramətləri üçün, gunahkar ümmətə rəhmət elə". Bu an Əsma ağladı, Fatimə (s.ə.) onun ağladığından xəbərdar olduqda dedi: "Ey Əsma, demədimmi məni yalqız burax, bir az səbr et, məndən səs gəlsə yanıma gəl, yox əgər gəlməsə bil ki, Pərvərdigarıma qovuşmuşam". Əsma bir az bayırda durduqdan sonra səsləndi ki: "Ey Allah Rəsulunun (s) seçilmişi". Cavab eşitmədi, bir daha dedi: "Ey qadınların Seyyidi" (s.ə.). Cavab eşitmədi, iztirabla otağa girib gördü ki, əbədi aləmə köçüb. Əsma fəğana gəldikdə Həsən və Hüseyn (ə.m.) eşidib gəldilər, dedilər: "Ey Əsma, anamız necədir?" Əsma səbr etməyib daha bərk ağladı, şahzadələr (ə.m.) hadisədən xəbərdar olduqda iztirabla Həzrəti-Mürtəzanın (ə) xidmətinə yetdilər. Həzrəti-Mürtəza (ə) ibadətdə ikən Həsən və Hüseyn (ə.m.) fəryadını eşidib bihuş oldu. Orada olanlar Həsən və Hüseynə (ə.m.) dedilər: "Ey Şahzadələr (ə.m.), bu nə əfqandır ki, şücaət meşəsinin şirini və vilayət fəzasının əjdahasını əldən saldı?"

O şahzadələr (ə.m.) dedilər: “Necə fəryad etməyib ağlamayaq ki, ismət və paklıq baharını fəna xəzanı pozdu”.

Bizi fəryadə gətirdi fələki-kəcrəftar.
Necə əfqanlar edib qılmayalım naləvü zar?!
Verdi cəmiyyəti-əhvalımıza dövr xələl,
Saldı ayineyi-iqbalımıza dəhr qübar.
Qıldı növmid bizi səbzeyi-pəjmürdə kimi,
Fəqrimizdən götürüb sayəsini əbri-bəhar.

Ey qəmküsar dostlar, “Zəhra ərcəi ilə rabbiki raziyətən mərziyyəmən (Sən ondan, o da səndən razı olaraq Sahibinə tərəf dön)” karvanının yoldaşlığı ilə Darüs-Səlam tərəfə “Vallahu yəd`u ilə dəris-sələm” (Allah istədiyini salamat olan evə dəvət edər) hökmüncə getdi. Həzrəti-Mürtəza (ə) bir mərsiyə buyurdu ki, bəzi beytləri budur:

Li kulli ictimə`in min xəlileyni firqətun,
Fə kullul əza dunəl firaqi qalilu.
Və innə iftiqadi fətimətə bə`də əhmədin.
Dəlilun ələ ən lə yədumə xalilu.

(İki sevgilinin birləşməsi ayrılıqla qurtarar. Başqa iztirabın təsiri ayrılıq acısından azdır. Əhməddən (s) sonra Fatiməni (s.ə.) qeyb etməyim dostluğun davam etməsinə dəlalət edir).

Qayəti-dövri-ruzigar budur,
Hali-dövrani-bimədar budur
Ki, firaqə mübəddəl ola visal,
Yetə aləmdə hər kəmakə zəval.

# V BÖLÜM

## HƏZRƏTİ-FATİMEYİ-ZƏHRANIN (s.ə) KƏRAMƏTLƏRİ

### Bərəkətli boyunbağı

Yunis ibn Zəbiyan nəql edir ki, İmam Cəfəri-Sadiq (ə) buyurur: “Allah dərgahında Anam Fatimeyi-Zəhranın (s.ə) 9 adı var. O adlarından biri də ***“Mübarəkədir”***. Bu adın mənası ***“çox bərəkətli”*** deməkdir. Çünki Xanım Fatimeyi-Zəhra (s.ə) çox bərəkətli xanım idi.

Bir gün Həzrəti-Mühəmməd (s) namazdan sonra məsciddə öz səhabələri ilə əyləşmişdi. Bu vaxt Peyğəmbərin (s) hüzuruna yoxsul bir kişi gəlir. Bu miskin kişi Allahın Peyğəmbərinə (s) xitab edərək deyir: Ya Rəsulallah (s) mən miskin birisiyəm ki, neçə gündür acam, mənim heç nəyim yoxdur. Bu səbəbdən də Allahın Rəsuluna (s) ümid edərək, dərdimi sizə bildirirəm. Sənin qapından başqa kimin qapısına gedim, sənin qapın ilahi rəhmət qapısıdır. Həzrəti-Peyğəmbər (s) buyurdu ki, indi mənim yanımda sənə verməyə heç bir şey yoxdur. (Peyğəmbər (s) özlüyündə bu miskinin kimin qapısına göndərilməsini bilirdi. Ancaq əvvəlcə istəyirdi ki, ümmətə təbliğ olaraq, əyani şəkildə öyrədərək, bildirə ki, mənim işim sizə höccətdir). Bu səbəbdən də ümmətin hansı qapıdan ilahi bərəkət əldə edə biləcəyini çatdırmaq üçün Peyğəmbər (s) Salmanı çağırdı və buyurdu ki, bu miskini apar filan xanımımın qapısına.

Salman Həzrəti-Peyğəmbərin (s) göstərişinə əməl edərək, həmin miskini Peyğəmbərin (s) dediyi xanımının evinə apardı. Ancaq Peyğəmbərin (s) həmin xanımı qapıya gələn miskinə bildirdi ki, biz özümüz bu evdə az qala acından ölək. Bu evdə heç nə yoxdur. Bu səbəbdən də Salman həmin miskinlə bərabər Həzrəti-Peyğəmbərin (s) hüzuruna qayıtdı. Həzrəti-Peyğəmbər (s) buyurdu ki, Salman indi isə o biri xanımımın qapısına apar. Bu minvalla Peyğəmbər (s) həmin miskini Salmanla bərabər bütün Peyğəmbər (s) xanımlarının qapısına göndərsə də, onlar əliboş Peyğəmbərin (s) hüzuruna qayıtdılar. (Həzrəti-Peyğəmbər (s) özü bilərəkdən həmin miskini Salmanla bərabər Peyğəmbər (s) xanımlarının qapısına göndərməklə ümmətə bəyan edərək, bildirirdi ki, bu qapılarda bərəkət yoxdur. Həzrəti-Peyğəmbər (s) bununla həmçinin əməli surətdə onun Əhli-beytinin (ə.m) (Ev əhlinin), Ali-Mühəmmədin (ə.m) (Mühəmməd Ailəsinin) və eləcə də ilahi-bərəkətin hansı Ev əhlində olmasını ümmətə aşılayırdı). Həzrəti-Peyğəmbər (s) gördü ki, həmin miskin kişinin halı və rəngi dəyişib, çünki ac adam, yoxsul adam Peyğəmbəri (s) ümid bilərək pənah gətirib, ancaq burda da heç nə yoxdur. Odur ki, Peyğəmbər (s) həmin miskin kişiyə xitabən buyurdu: "Səni elə bir qapıya göndərəcəm ki, o qapıdan əliboş qayıtmazsan. Həzrəti-Peyğəmbər (s) Salmana buyurdu: "İndi gedin qızım Zəhranın (s.ə) evinə. Salman Həzrəti-Peyğəmbərin (s) göstərişi ilə həmin miskini Xanım Fatimeyi-Zəhranın (s.ə) evinə gətirdi. Xanım Fatimeyi-Zəhra (s.ə) qapısına gələn həmin bu miskinə bir qoyun dərisi verdi. Lakin bu miskin kişi Xanım Zəhranın (s.ə) verdiyi payı istəmədiyindən qəbul etmədi. (Ancaq

həqiqət budur ki, bu miskin kişi Xanım Zəhranın (s.ə) verdiyi payı istəmədiyindən qəbul etməməklə qələt iş gördü. Çünki Həzrəti-Mühəmməd (s) və Əhli-beytinin (ə.m) pay olaraq verdiyi kiçicik bir şeyi belə qəbul edən kəsin həyatında İlahi öz bərəkətin göstərəcəkdir. Gərək Xanım Zəhranın (s.ə) verdiyi payı qəbul edəydi.) Daha sonra Xanım Zəhra (s.ə) boynundan asdığı boyunbağını açaraq həmin miskinə pay verdi. Belə ki, bu boyun bağı qızıldan deyil, xurmanın dənələrindən hazırlanmış bir boyunbağı idi. Hansı ki, bu boyunbağını Həzrəti-Həmzənin qızı xurmanın dənələrini daşa sürtməklə gözəl şəkildə hazırladıqdan sonra Xanım Zəhraya (s.ə) hədiyyə etmişdi. Xanım Zəhra (s.ə) boyunbağını miskinə pay verdikdə, Salmanın gözləri doldu. Bundan sonra Salman həmin bu miskin kişi ilə bərabər məscidə Həzrəti-Peyğəmbərin (s) hüzuruna gəldilər. (Bu miskin kişi Xanım Zəhranın (s.ə) pay verdiyi boyunbağını götürsə də, ancaq qəlbində bu payı da istəmirdi. Çünki qəlbində narahatçılıq var idi. Düşünürdü ki, axı, neyləyirəm xurma dənəsini, heç qiyməti də yoxdur). Bu zaman Həzrəti-Peyğəmbər (s) həmin miskindən boyunbağını aldı və boyunbağıya baxaraq ağladı. Həzrəti-Peyğəmbər (s) ətrafda olan insanlara buyurdu: “Gördüyünüz bu boyunbağını satıram, hər kim bu boyunbağını alsa, onun behiştdə olmasına zaminəm. Amma bu şərtlə ki, bununla bərabər bir acı yedirdə, bir paltarsıza paltar geyindirə və bir piyada qalana minik verərsə, Allah bu boyunbağını alana behişti verir. Həzrəti-Peyğəmbərin hüzurunda cəm olan insanların arasında Əmmar Yasir də var idi. O, əyləşdiyi yerindən ayağa qalxaraq dedi: “Ya Rəsuləllah (s) o boyunbağını mən alıram. Həzrəti-Peyğəmbər (s) boyunba-

ğını Əmmar Yasirə verərək dedi: "Allahdan xeyirli olsun. Əmmar Yasir həmin miskin kişinin əlindən tutaraq evinə gətirdi. Əmmar həmin bu miskin kişiyə doyuncaya qədər yemək verdi. Həmçinin bir dəvə və yüz dirhəm də pul verdi. Həmin bu miskin kişi Əmmar Yasirin ona verdiklərini götürərək, məscidə Həzrəti-Peyğəmbərin (s) hüzuruna qayıtdı. Bundan sonra Əmmar Yasir öz qulunu çağıraraq evindəki çox dəyərli və qiymətli sayılan Yəmən parçasını və eləcə də Xanım Zəhranın (s.ə) boyunbağısını da öz quluna verərək dedi: "İlk əvvəl mənim salamımı Xanım Zəhraya (s.ə) yetir. Mən bu Yəmən parçasını da, boyunbağını da, səni də Həzrəti-Zəhraya (s.ə) hədiyyə etdim. Əmmar Yasirin bağışladığı qul Həzrəti-Zəhranın (s.ə) qapısına gələrək, Xanım Zəhraya (s.ə) Əmmar Yasirin salamını dedikdən sonra Xanıma (s.ə) bildirdi ki, (mən Əmmarın qulu idim) məni Əmmar sizə qul olaraq bağışlayıb, həmçinin, sizə bu Yəmən parçasını və bir də bu boyunbağını bağışlayıb. Xanım Zəhra (s.ə) boyunbağını götürərək buyurdu: "Əmmar səni mənə qul olaraq bağışlayıb və mən də səni Allah yolunda azad edirəm. Həmçinin, bu Yəmən parçasını da mən sənə bağışlayıram. Bu parçanı sataraq özünə sərmayə et. Xanım Zəhranın (s.ə) qulamlıqdan azad etdiyi bu kişi sevincli və ağlayan halda Həzrəti-Peyğəmbərin (s) olduğu məscidə gəldi. Məscidə daxil olduqda salam verdikdən sonra dedi: "Ya Rəsulallah (s), Əmmar məni Xanım Zəhraya (s.ə.) qul olaraq bağışladı. Ancaq Həzrəti-Zəhra (s.ə) məni qulamlıqdan azad elədi. Bu parçanı da mənə bağışladı ki, sataraq özümə sərmayə edəm. Həmin boyunbağını da özü götürdü". Qulamlıqdan azad olan bu kişi dedi: "Ya Rəsuləllah (s) əcəb bərəkətli boyunbağı idi.

Acı doyurtdu, miniyi olmayana minik verdi, pulu olmayana pul verdi, birinə behişt aldırdı, bir qulu azad elədi, bir qula sərmayə oldu, axırda da qayıtdı öz sahibinə.

Bu bölümü Seyyid Xoyidən çox ibrətamiz bir hekayə ilə tamamlayırıq. Ayətullah Şeyx Əli Damiğanidən belə nəql olunur: "Nəcəfə etdiyim səfərlərin birində mərhum Ayətullah seyyid Əbul-Qasim Xoyi ilə görüşmək üçün Kufədə olan evinə getdim. O ev balaca həyəti olan kiçik və sadə bir ev idi. Orada seyyid tək qalmasın deyə, bir xadim də var idi. Heç vaxt yadımdan çıxrmır ki, atam (Ayətullah Məhdəvi Damiğani) seyyidin dərsinin əzəmətindən danışmağa və onun alim yetişdirmə üsulunu tərifləməyə başladı. Sonra mərhum seyyid Xoyidən bu cür ali keyfiyyətə malik olan çoxlu müvəffəqiyyətinin səbəbini soruşdu. Ayətullah Seyyid Xoyi cavabında belə dedi: "İcazə ver sənə bir rəvayət danışım. Bir gün Həzrəti-İbrahim (ə) Allaha dedi: "İlahi, bal arısı balı necə hazırlayır?" Allah-təala buyurdu: "Ey İbrahim (ə), əlini qabağa tut ki, bal arısı gəlib əlinin üstündə otursun və bal versin. Qoy bal arısının necə bal verdiyini görəsən". Həzrəti-İbrahim (ə) əlini qabağa tutdu. Bu zaman bir bal arısı gəldi və onun əlinin arxasında oturdu. Bir qədər orada hərəkət etdikdən və vızıldadıqdan sonra getdi. Həzrəti-İbrahim (ə) əlinin üstünə baxdı və gördü ki, bal yoxdur. Zehnində sual qalmışdı. Allaha belə dedi: "İlahi, əlimdə bal yoxdur." Allah-təala buyurdu: "Ey İbrahim (ə), ovucunun içinə bax". Həzrəti-İbrahim (ə) ovucunun içinə baxdıqda gördü ki, ovucunun ortasında bir tikə bal mövcuddur. Həzrəti-İbrahim (ə) heyrətə gəldi. Bal arısı onun əlinin üstündə oturmağına baxmayaraq, bal onun ovucunun içinə düşmüşdü. Bu zaman İbrahimə (ə)

belə xitab olundu: "Ey İbrahim (ə), bal arısının işi vızıldamaqdır. Balı isə biz veririk". Ayətullah Seyyid Xoyi təvazökarlıqla belə dedi: "İndi, bizim işimiz də vızıldamaqdır. Müvəffəqiyyət, bərəkət və inayət isə Allahdandır"...

## Həzrəti-Fatimeyi-Zəhraya (s.ə) təvəssül namazı

İmam Sadiq (ə) buyurur: "Böyük bir çətinliyə düşdükdə və sıxıntıya salan bir ehtiyacın olduqda iki rəkət namaz qıl. Namazdan sonra üç dəfə təkbir de. Daha sonra xanım Fatimeyi-Zəhranın (s.ə.) təsbihini de. Təsbihdən sonra isə səcdəyə gedib yüz dəfə de: ***"Ya məvləti Fətimətu əğisini" ("Ey mövlam Fatimə, köməyimə çat").***

Daha sonra sağ üzünü yerə qoy və (yuxarıda qeyd olunan həmin) bu cümləni yüz dəfə de: Bundan sonra yenə də alnını səcdəyə qoyaraq (yuxarıda qeyd olunan həmin) bu cümləni yüz on dəfə de: (cəmi üçyüz on dəfə edir) Sonda isə Allahdan öz istəyini dilə. İnşəallah, həyata keçər (İnşəallah Xanım Fatimeyi-Zəhra (s.ə) Allah dərgahında sənin istəklərin üçün şəfaətçi olar).

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) təvəllüdü, şəhadəti və həyatı haqqında sual-cavab

***Sual-1.*** Fatimeyi-Zəhra (s.ə) harada və nə vaxt anadan olubdur?

***Cavab:*** Besətin 5-ci ilinin ***"Cəmadiyus-sani"*** ayının 20-si, cümə günü, dan yeri sökülməyə yaxınlaşan vaxt, Məkkə şəhərində.

***Sual-2.*** Nə üçün Fatimeyi- Zəhraya (s.ə) Fatimə deyirlər?

***Cavab:*** Fatimeyi-Zəhraya (s.ə) aşağıdakı səbəblərə görə Fatimə deyirlər:

1) O, hər bir pislikdən və çirkinlikdən uzaqdır.

2) O və onun şiələri cəhənnəm odundan uzaqdır.

3) Fatimeyi-Zəhra (s.ə) yüksək elm və kamal dərəcələrinə malik olduğu üçün başqalarından seçilir.

Fatimə ***"Fətəmə"*** kəlməsindəndir (kəsən və ayıran).

***Sual-3.*** Nə üçün Fatimeyi-Zəhraya (s.ə) Zəhra deyirlər?

***Cavab:*** İmam Həsən Əskəri (ə) buyurur: "Fatimeyi-Zəhranın (s.ə) "Zəhra" adlanmasının səbəbi bundan ibarətdir ki, hər gün üç dəfə onun camalının nuru Həzrəti-Əli (ə) üçün cilvələnirdi. Fatimeyi-Zəhranın (s.ə) parlaq çöhrəsi səhərin ilk başlanğıcında günəş kimi, günorta vaxtı ay kimi və gün batan vaxtı ulduz kimi nur saçırdı.

***Sual-4.*** Nə üçün Fatimeyi-Zəhraya (s.ə) ***"Huriyi-İnsiyyə"*** deyirlər?

***Cavab:*** Peyğəmbər (s) öz ***"Merac"***larının birində səmaya gedən zaman behiştin alma, təzə xurma və meyvələrindən meyl etdi. Allah-taala həmin behişt yeməklərini Peyğəmbərin (s) sülbündə (bel sümüyü) suya çevirdi. O Həzrət (s) elə ki, ***"Merac"***dan yer üzünə qayıtdı, Həzrəti-Xə-

dicə (s.ə) ilə görüşdü. Beləliklə, Fatimeyi-Zəhranın (s.ə) nuru Xanım Xədicənin (s.ə) rəhiminə (uşaqlıq) düşdü. Buna görə də, Fatimeyi-Zəhra (s.ə) ***"Huriyi-İnsiyyə"*** adlandı, yəni Fatimeyi-Zəhra (s.ə) yer əhli olmaqla yanaşı, həm də behişt hurilərindən idi".

***Sual-5.*** "**Ümmi-Əbiha"** nə deməkdir və kim bu ləqəbi Fatimeyi- Zəhraya (s.ə) veribdir?

**Cavab:** ***"Ümm"*** gəlməsi ***"ana"*** mənasına olmaqdan əlavə ***"əsil"*** və **"kök"** mənasına da işlənibdir. Necə ki, Məkkəyə ***"Ümmul-qura"*** və şəraba ***"Ümmul-xəbais"*** deyirlər. Buna görə də ***"Ümmi-əbiha"*** da vilayət və nübüvvətin əsli, kökü mənasındadır. Həqiqətən, Fatimeyi-Zəhra (s.ə) kölgə salan bir ağac idi. O, imamət və vilayətin şirin meyvələrini yetişdirdi. Peyğəmbər (s) öz əziz qızına ***"Ümmi-Əbiha"*** ləqəbi verdi. Həqiqətən də, Fatimeyi-Zəhra (s.ə) həmin ləqəbə layiq idi.

***Sual-6.*** Əli (ə) Fatimeyi-Zəhra (s.ə) ilə nə vaxt evləndi?

***Cavab:*** Hicrinin 2-ci ilinin ***"Zilhiccə"*** ayının əvvəlində, (bəzi rəvayətlərə əsasən, zilhiccənin 6-cı günündə qeyd olunubdur).

***Sual -7.*** Fatimeyi- Zəhranın (s.ə) neçə övladı var idi?

***Cavab:*** Fatimeyi-Zəhranın (s.ə) Həsən, Hüseyn, Zeynəb (s.ə), Ümmi-Gülsum (s.ə) və Möhsin (ə.m) adlarında beş övladı var idi.

***Sual-8.*** Fatimeyi-Zəhra (s.ə) zəkat və namazın fəlsəfəsi haqqında nə buyurubdur?

***Cavab:*** Fatimeyi-Zəhra (s.ə) buyurmuşdur: "Ey müsəlmanlar! Diqqət edin ki, səmavi qanunlar sizin kamala çatmağınız və səadətiniz üçün qərara alınıbdır. ***"Namaz"*** Allahınızın müqabilində başınızı səcdəyə qoyub, Onun

əzəmətli dərgahına təvazökarlıq etmək üçündür. ***"Zəkat"*** ürəklərdə xeyirxahlıq, mehribanlıq, hər növ dostluq və məhəbbət ruhunun yaranması üçündür. Zəkat sizin mal-dövlətinizin artmasına səbəb olur".

***Sual-9.*** Fatimeyi-Zəhranın (s.ə.) şəri hökmlərinin (oruc, ədalət, cihad, əmr be-məruf və nəhy əz-münkər) fəlsəfəsi haqqında buyurduğu sözləri nədən ibarətdir?

***Cavab:*** Fatimeyi-Zəhra (s.ə.) şəriət hökmlərinin fəlsəfəsi haqqında belə buyurmuşdur: ***"Oruc"*** sizin ürəklərinizi pak və səfalı etmək üçündür. Oruc tutmaq ürək qaraltılarını aradan aparır və insanın ruhunu layiqli məqamlar üçün hazırlayırlar." ***"Ədalət"*** cəmiyyət arasında müsavat, bərabərlik və nizam-intizamın qorunması üçündür. ***"Həcc"*** Allaha pərəstiş ruhu və imanını həmçinin dindarlığı möhkəmlətmək üçündür. ***"Cihad"*** İslamın əzəmət, şövkət və izzətini qorumaq üçündür. ***"Əmr be-məruf və nəhy əz-münkər"*** cəmiyyəti fəsaddan, puçluqdan və aludəlikdən qorumaq üçündür.

***Sual-10.*** Fatimeyi-Zəhranın (s.ə.) fəzilətlərindən bir neçəsini bəyan edin?

***Cavab:*** Fatimeyi-Zəhra (s.ə.) ***"Kisa və Mubahilə"*** əshablarından biridir. Fatimeyi-Zəhra (s.ə) o şəxslərdən idi ki, onların şəni haqqında ***"Təthir ayəsi"*** nazil olub.

Əssəlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

# VI BÖLÜM

## HƏZRƏTİ-FATİMEYİ-ZƏHRAYA (S.Ə) HƏSR OLUNMUŞ ŞEİRLƏR

***Qumri Dərbəndi***

### Dubeyt

*Xanım Fatimeyi-Zəhranın (s.ə) vəfatı məclisi.*

Qoydu qədəm çu aləmi-imkanə, Fatimə,
Gəldi həmişə naləvü əfqanə, Fatimə.

Əvvəl Xədicə tək anadan həsrət ayrılıb,
Aləmdə yandı atəşi-hicranə, Fatimə.

Başinə saldı Əhmədi-Muxtar qarəsin,
Dəri-fənadə qaldı zəlilanə, Fatimə.

Odlandı zülmilən qapısı, yandı dərgəhi,
Möhtac qaldı dərdinə dərmanə, Fatimə.

Pəhluyi-paki sındı, şəhid oldu Möhsini,
Aşuftə oldu laləsifət qanə, Fatimə.

Qolbağlı çəkdi məscidə ümmət əmoğlusun,
Cövri-ədu ilən yetişib canə, Fatimə.

Qəsbi-Fədək, cəfayi-ədu, zülmi-əşqiya,
Yıxdı evin, dönüb qədi cövkanə, Fatimə.

On səkkiz il keçirdi günün ahü zarilən,
Axırdə oldu ümmətə biganə, Fatimə.

Əhli-Mədinə qoymadı suzilə ağlasun,
Hərdən gələndə naleyi-pünhanə, Fatimə.

Öz mənzilində olmadı fürsət əza tuta,
Çox həsrət oldu dideyi-giryanə, Fatimə.

Dərdi daşanda nalə qılardı Bəqiyyədə,
Qəmdən dönərdi göz yaşı ümmanə, Fatimə.

Ümid var, şəfaət edə ruzi-həşrdə,
Müşkül günündə Qumriyi-nalanə, Fatimə.

***Mühəmməd Huseyn Şəhriyar***
*Tər: Məmməd Mübariz Əlizadə*

## Həzrəti-Əlinin (ə) Həzrəti-Zəhranı (ə) öyməsi

Başımın tacı, canım, məbədi-Zəhraya ərəm,
Böyük Həqq bəxşişi, mən onu can tək sevərəm.
Dini-İslami qəbul eyləyən ilkin nəfərəm,
Ərəbin vur əliyəm, zamini-fəthü zəfərəm.
Od vurub küfr evinə, şurü şəri söndürərəm,
Qızmış aslan, qılınc əldə qəzavü qədərəm.
Allahın elçisinə bağlı, ona can-ciyərəm,
Az yaşımdan onun ehkamını əzbər bilərəm.
Mən hüda nəxli budağındakı şirin bəhərəm,
Cəbrail şahpəri başım üzərində, gəzərəm.
İki oğlum da ki, Zəhradan olub, fəxr edərəm,
Atası söylədi damad mənə, bəxtəvərəm.
Etdi Peyğəmbər əli başıma bu tacı kərəm,
Dərrətüt-taci-imamətdə papaq, həm kəmərəm.
Bədrdə enməz igid, mənbəi-hövlü həzərəm,
Mən Yəmin, həm də Ühüddə sanılan şiri-nərəm.
Mənəm İslamın ələmdarı ki, sahib-hünərəm,
Əmri qətlə yetirən, zalimi rəfi-xətərəm.
Xaliqin qəhr oduyam, küfrü külə döndərərəm,
“Nad-Əli” məzhəri, ayineyi-“Şəqqül-Qəmər”əm.
Sağəri şəhd dolu huri əlindən içərəm,
Həm qılınc cövhəri, saflıqda işıqlı səhərəm,
Əliyəm, şahi-vilayət, iki aləm ağası,
Elm şəhriydi Peyəmbər, mən onun darvazası.

***Ənvər Nəzərli***

## Həzrəti-Fatimeyi-Zəhra (s.ə.)

Rəsuli-Əkrəmə Həqqin ətası, Fatimədir,
İmam sülaləsinin mübtədası, Fatimədir.

Onunla tapdı dəvamı Peyəmbərin nəsli,
İki İmami-əzizin anası, Fatimədir.

Vəladətilə verib şövq xanəvadəsinə,
Ürəkdə Əhmədü Kübra səfası, Fatimədir.

Günəş misalıdır İslamə Heydəri-Kərrar,
Əliyyi-şiri-Xudanın ziyası, Fatimədir.

Büzürgvar ataya həm qız idi, həm yavər,
Ühüddə zəxmi-Peyəmbər şəfası, Fatimədir.

Deyərdi "qəteyi-ruhim, canım" Peyəmbər ona,
Səfərdə ilk görüşü, son vidası, Fatimədir.

Edən fəqirə hədiyyə ərus köynəyini,
Geyən bu dəhrdə cənnət libası, Fatimədir.

Xanımların xanımı Məryəm olmuş əsrində,
Və leyk daimi Xeyrən-nisası, Fatimədir.

Əzizi-ali-əba, həm çirağİ-beyti-Rəsul,
Bəşər qadınlarının izzü xası, Fatimədir.

Yəqin ki, surəti-zibadə bir mələkdir o,
Cəlalət aləminin məhliqası, Fatimədir.

Kəmalı, hüsnü gözəldir, imanı, xülqü təmiz,
Cahanda yaxşı nə var, ehtivası, Fatimədir.

Dilində virdi-İlahi, gözündə nuri-Xuda,
Canında vəhyü nübüvvət həvası, Fatimədir.

Salar yer əhlinə nuru səmadən ulduzlar,
Səmanın əhlinə Həqqin şüası, Fatimədir.

Cəmi mələklərə vermiş xəbər Xudayi-Cəlil,
Zəmani-həşrdə mömin xilası, Fatimədir.

Yetim qalan anadan körpəlikdə, indi görün,
Gedən əlindən o Əkrəm atası, Fatimədir.

Zəlilü xar elədi rehləti-Peyəmbər onu,
Tutan qiyamətəcən qəm əzası, Fatimədir.

Axıtdı göz yaşı, ah etdi beytül-əhzanda,
Ürəkdə gizli qalan hər nidası, Fatimədir.

Fəraqın atəşinə yandı cismü canı onun,
Sübutə yetdi ki, övlad vəfası, Fatimədir.

Görən olurmu bu cür aləm içrə əhli-hicab,
Məzarı gizli qalan din fədası, Fatimədir.

Gözün yumub edəcək təzim əhli-məhşər ona,
Behişt zinəti, Əhməd balası, Fatimədir.

O ruhi-pakə xitab et, şəfaətin istə,
Bu dərdli millətin, Ənvər, dəvası, Fatimədir.

***Hacı Ələmdar Mahir***

**Fatimeyi-Zəhranın (s.ə.) mövludu**

Əssəlam, ey hər iki dünyayə zinət, Fatimə,
Əssəlam, ey gövhəri-dəryayi-ismət, Fatimə!

Əssəlam, ey Mustəfanın cisminin bir parəsi,
Əssəlam, ey Heydəri-Kərrarə nisbət, Fatimə!

Həq yolunda sadiq oldun səbr edib hər möhnətə,
Ey alan min şövq ilə cami-şəhadət, Fatimə!

Verməmişdir kimsə əsrari-vücudundan xəbər,
Ey vücudi-paki başdan-başa hikmət, Fatimə!

Sən sədaqət, sən ləyaqət, sən nəzakət rəmzisən,
Ey nihali-bustani-izzü qeyrət, Fatimə!

Kim sənin tək oldu on bir övliyanın madəri,
Hansı madərdir qoyan nəsli-imamət, Fatimə?

Eydi-mövludun səadət bəxş edər, bir lütf qıl,
Ta tapaq biz də bu bayramda səadət, Fatimə.

Ey gəlib Mövludi-Zəhrayə, ibadətdən qaçan,
Söylə, etmişdir haçan dinə xəyanət, Fatimə?

Əcnəbilər qoyduğu yoldan uzaqlaş, ey bacım,
Çün qadınlarçün qoyubdur rahi-iffət, Fatimə.

Düxtəri-Kübra hicabın əldə möhkəm saxlayın,
Öz hicabın sizlərə vermiş əmanət, Fatimə.

Zeynəbü Gülsum tək mərdanə ol İslamdə,
Bəlkə etsin axirət gündə şəfaət, Fatimə.

Biəməllərdən kəniz olmaz xanımlar şahinə,
Yadda saxla, hər zaman etmiş ibadət, Fatimə.

Sən də mərd ol, keç Hüseynin məktəbindən qardaşım,
Etməsin ta kim, sənə məhşərdə nifrət, Fatimə.

Mahirəm, çoxdur günahım, gər şəfaət etməsən,
Bilmirəm halım nolur ruzi-qiyamət, Fatimə?

*Hacı Yusif Qulammirzə oğlu*

## Fatimeyi-Zəhradır

Dörd ana var yer üzündə, sayılır ülvi qadın,
Onlara Tanrı həram etdi cəhənnəmdə odun.
Biri Kübra, birinin də bilir aləmlər adın,
O nə İmran qızı Məryəm, nə də ki, Asyadır,
O xanımlar Xanımı Fatimeyi-Zəhradır!

O Behiştdən gətirilmiş gül idi, güldən əziz.
Qoxluyardı səhər-axşam onu Peyğəmbərimiz.
O gülün ətrini hiss etmədəyik indi də biz,
O solan gül də deyildir, yeri çox əladır,
O xanımlar Xanımı Fatimeyi-Zəhradır!

Gəldi, dünyanı o nur ilə çıraqban etdi,
Əqli, əxlaqı ilə aləmi heyran etdi.
Atasından sonra haqsızlığa üsyan etdi,
Nə xəyaldır, nə də əfsanə, nə də röyadır,
O xanımlar Xanımı Fatimeyi-Zəhradır!

Göz açıb ilk dəfə görmüşdü nübüvvət evini,
Müstəfadan nur alıb, qurdu səadət evini.
Mürtəza nuri ilə tikdi imamət evini,
Hər iki nuru içində həmişə peydadır,
O xanımlar Xanımı Fatimeyi-Zəhradır!

Olmayıb bir qadın həmtay ola ismətdə ona,
Ya da üstün gələ qeyrətdə, şücaətdə ona.

Heç mələklər çata bilməzdi ibadətdə ona,
Çünki, xilqətdə o təqvalı mələksimadır,
O xanımlar Xanımı Fatimeyi-Zəhradır!

Uca Peyğəmbərə ol həm qız olub, həm də ana,
Meylini saldı evə, həm Əli övladlarına.
Ədəb-ərkanıda nöqsan tutan olmazdı ona,
Mərifət, elmü ədəbdə, dedilər, dəryadır!
O xanımlar Xanımı Fatimeyi-Zəhradır!

Yusifa, Fatimədir fəzl ilə hikmət anası.
On bir övladına o oldu imamət anası.
Bizə də, əlbət, olar həşrdə ümmət anası,
Ruzi-məhşərdə, şəfaətdə də o tənhadır,
O xanımlar Xanımı Fatimeyi-Zəhradır!

***Seyyidağa Rəhim***

## Əyyami-Fatimə

Fatimə matəmidir, dil necə qan ağlamasın?
Saxlasın qəbri kimi dərdi nihan, ağlamasın?

O fəzilətdədi ki, pak adına surə gəlib,
Xanədə xanənişin canlı Quran ağlamasın?

Kim görüb Fatimənin gördüyü məzluməliyi?
"Beytül-Əhzan"da edib ahü fəğan, ağlamasın?

Hansı Seyyid qızına dar küçədə sili dəyib?
Həsəni söyləməsin can ana, can ağlamasın?

Qapısı yandırılan, dərk eləyər mənzərəni,
Qoluna qamçı dəyən, canı yanan ağlamasın?

"Leyl" xanım Fatimədir, "Qədr" isə Allah özüdür,
Dərk edib Fatiməyə vaqif olan, ağlamasın?

İndi Zəhraya əzadar olana tənə vuran
Bilsə məhşər günü etmiş nə ziyan, ağlamasın?

Ağlayır Sahibi-dövran anası Fatiməyə,
Ağlasın şiəsi, Seyyid, bu cahan ağlamasın.

***Kərbəlayi Kamil Sərbəndi***

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) mövludu münasibəti ilə

Sənin doğulmağınla aləm nura boyandı,
Nəhayətsiz fəzalar çilçıraq oldu, yandı.
Xilqət heyrət içində tamaşana dayandı,
Ey Tanrı qüdrətinin kəraməti, Fatimə,
Ey Müstəfa ömrünün səadəti, Fatimə!

Sən ülvilik, gözəllik, paklıq təcəssümüsən,
Sən Böyük Yaradanın qadın tərənnümüsən.
Gülsən, tər qönçələrin zərif təbəssümüsən,
Ey qadın dünyasının şərafəti, Fatimə!
Ey Müstəfa ömrünün səadəti, Fatimə!

Nübüvvətlə imamət səndə tapdı ülfəti,
Sən oldun Mürtəzanın həyatının ziynəti.
Səndən aldı Həsənin, Hüseynin təravəti,
Ey ümmətə bəxş edən imaməti, Fatimə!
Ey Müstəfa ömrünün səadəti, Fatimə!

Sən xanımlar Xanımı, əqdəslər əqdəsisən,
Yer üzündə Xaliqin ən əziz kimsəsisən.
Sən ismət nümunəsi, xəfif yaz nəfəsisən,
Ey müqəddəs analıq fəxarəti, Fatimə!
Ey Müstəfa ömrünün səadəti, Fatimə!

## Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) mübarək mövludu münasibətilə

Ey güli-gülzari-vəfa, Fatimə!
Can ola qurban sənə, ya Fatimə!

Ta səni xəlq eylədi Pərvərdigar,
Oldu çıraqban bu qara ruzigar.
Güldü bahar, güldü çəmən, laləzar,
Ey yerə nur, ərşə ziya, Fatimə!
Can ola qurban sənə, ya Fatimə!

Sən bəzədin xaneyi-Peyğəmbəri,
Sən boyadın nura dəri-Heydəri.
Sənsən Həsən ilə Hüseyn madəri,
Ey qəməri-Şiri-Xuda, Fatimə!
Can ola qurban sənə, ya Fatimə!

Yer üzünə öylə ki, basdın qədəm,
Aləmi tərk eylədi dərdü ələm.
Oldula məs'ud ərəb, həm əcəm,
Ey edən hər dərdə dəva, Fatimə!
Can ola qurban sənə, ya Fatimə!

İsmət ilə arü həya kanısan,
Dövrün əvəzsiz güli-xəndanısan.
Banuların banusu, sultanısan,
Ey salan hər yanə səda, Fatimə!
Can ola qurban sənə, ya Fatimə!

Məhşəri-kübrayə qədər ta Xuda,
Eyləməsin kaş bizi səndən cüda!
Kamili-müztər sənə olsun fəda,
Ey gühəri-Ali-Əba, Fatimə!
Can ola qurban sənə, ya Fatimə!

***Axund Hacı Soltan Əlizadə***

Müjdə, ey cümlə-cahan, dəhrə bu gün Zəhra gəlib,
Xətti-“Bismillahir-rəhmanir-rəhim”ə “ba” gəlib.

Nə fəzilət verdi Allah bu kəsə, ey möminan,
Şəninə Qurandə “Kövsər” gəlib, “Dərya” gəlib.

Yerdə bir Kəbə var idi, amma daşdan, taxtadan,
Fatimə gəldikdə, canlı Kəbeyi-ülya gəlib.

Lütfi-Xaliqdir, enib dərgahi-Yəzdandan yerə,
Paklığın rəmzin cahanda etməyə icra, gəlib.

Etmək üçün aləmə isbat nədir təqva sözü,
Xaliqin əmriylə Zəhra ümmətə əhda gəlib.

Fatimə ad qoydu Xətmi-Ənbiya bu töhfəyə,
Həqq ilə nahəqqi çün fərq etməyə məna gəlib.

Növbahardır, sanki əyyami-zimistan dəf olub,
Laləzari-Əhmədə tazə güli-rəna gəlib.

“La fəta illa Əli, la seyfa illa Zülfiqar”,
Ya Əli, göydən sənə bir yari-bihəmta gəlib.

Kuyi-Peyğəmbərdə alilər düzülmüş səfbəsəf,
Bu mubarəkbadə Məryəm, Hacərü Sara gəlib.

Sən Həsən ilə Hüseyni aləmə bəxş eylədin,
Zeynəbü Gülsüm adında isməti-“Ta-ha” gəlib.

Müstəfanın rehlətindən sonra Cəbrail ilə,
Ərşi-əladan onunçün müshəfi-vala gəlib.

Ya Mühəmməd, Soltanam, təbrikə gəldim ümməti,
Kainata həqq hicabından düri-yekta gəlib.

***Dahi Almaslı***

Xəlqi-aləm səbəbi Həzrəti-Zəhrada imiş,
İki dünya evinin zinəti, Zəhrada imiş.

Çarə yox ümmətə, gəlməzsə qiyamət Xanımı,
Demə, məhşər gününün hörməti, Zəhrada imiş.

“Ey əmoğlum, öz əlinlə mənə ver qüsl”, - dedi,
Aləmin dərdü qəmi, möhnəti, Zəhrada imiş.

Tanrının Şirinə tapşırdı Hüseynlə Həsəni,
Analar mərhəməti, şəfqəti, Zəhrada imiş.

Etdi öz canını bir gün Şəhi-Mərdanə fəda,
Neçə mərdanələrin qeyrəti, Zəhrada imiş.

İncə qəlbi ata hicranına tab eyləmədi,
Saleh övladların xiffəti, Zəhrada imiş.

Ona “gəl-gəl” dedi Peyğəmbərimiz, “vəqt yetib”,
Ali dərgəhdə belə həsrəti, Zəhrada imiş.

Nabinalar dəxi naməhrəm idi ol pakə,
Yeddi yer, yeddi göyün isməti, Zəhrada imiş.

Üzünün nurunu gördükdə mələklər çəkilər,
Hikməti-həşt behişt, xilqəti-Zəhrada imiş.

Ey könül tutisi, hər şəkkərə meyl eyləmə kim,
Mərifət məclisinin şərbəti, Zəhrada imiş.

Xabi-qəflətdən oyan, Dahi, oyansın qələmin,
Şe'r dürdanəsinin qiyməti, Zəhrada imiş.

***Şahin Fazil***

## Tərcibənd

Dillərdə adın əzbər, ya Fatimeyi-Zəhra,
Həzrət-Əliyə həmsər, ya Fatimeyi-Zəhra.
Xislətdə elə təksən, sən çox kəsə örnəksən,
Örnək sənə Peyğəmbər, ya Fatimeyi-Zəhra.
İnkar eləyən cəhli, beytin ən əziz əhli,
Ey hüsnü mələkmənzər, ya Fatimeyi-Zəhra.
Zərgər kimi diqqətli, zər timsalı qiymətli,
Həm zərgər olan, həm zər, ya Fatimeyi-Zəhra.
Kim səndə görüb nöqsan ey banuyi-banuvan?
Ey banulara sərvər, ya Fatimeyi-Zəhra.

Paklıqda şüar oldun, ya Fatimeyi-Zəhra,
Zəhra kimi var oldun, ya Fatimeyi-Zəhra.

Dövrandı ətalətdi, çox yanda cəhalətdi,
Görcək bunu zar oldun, ya Fatimeyi-Zəhra.
Qeyrətdə dəyanətli, ya Fatimeyi-Zəhra,
İffətdə ləyaqətli, ya Fatimeyi-Zəhra.
Sən dürr, kimin dürrü? Dürri-yetimin dürrü!
İzzətdə şərafətli, ya Fatimeyi-Zəhra.
Düzgün elə yol tutdun, acizlərə əl tutdun,
Xislətdə ədalətli, ya Fatimeyi-Zəhra.
Zülmətdə çıraq oldun, islamə dayaq oldun,
Xidmətdə şəfaətli, ya Fatimeyi-Zəhra.

Paklıqda şüar oldun, ya Fatimeyi-Zəhra,
Zəhra kimi var oldun, ya Fatimeyi-Zəhra.

İqrarinə alqışlar, rəftarinə alqışlar,
Tinətdə qətiyyətli, ya Fatimeyi-Zəhra.
Tezliklə tamam oldu, düzgünlüyünə şər`in,
Qəlblərdə inam oldu, ya Fatimeyi-Zəhra.
Ey nadir olan xilqət, daim sənə ülviyyət
Ən ülvi məram oldu, ya Fatimeyi-Zəhra.
İlhamı təzə-tər ki, nəzm etməyə əzm etdi,
Allahə şükürlər ki, Şahin səni nəzm etdi.
Ömrün elə şam oldu, ya Fatimeyi-Zəhra,
Tezliklə tamam oldu, ya Fatimeyi-Zəhra.

Paklıqda şüar oldun, ya Fatimeyi-Zəhra,
Zəhra kimi var oldun, ya Fatimeyi-Zəhra.

**Arif Buzovnalı**

Onda ki qoydu qədəm dünyayə Peyğəmbər qızı,
Üstünə saldı cahanın sayə, Peyğəmbər qızı.

Bir ədalət damlasıydı Həq səhabından enib,
Düşdü zülm ilə dolu dəryayə, Peyğəmbər qızı.

Gəldi bu fani cahanın qədrini artırmağa,
Gəlmədi ünvan ola ah-vayə, Peyğəmbər qızı.

Onda ki od tutdu kuyi, canına qəsd etdilər,
Çəkdi bir ah dərgəhi-valayə, Peyğəmbər qızı.

Ərşdə cümlə məlaik "va Rəsulallah" dedi,
Yerdə tapşırdı canın "Ta-ha"yə, Peyğəmbər qızı.

Körpəsiylə birgə qətlə yetməyi aldı gözə,
Amma təslim olmadı ədnayə, Peyğəmbər qızı.

Bir baxış ilə Əlinin Zülfüqarın saxladı,
Cəngə imkan vermədi Mövlayə, Peyğəmbər qızı.

Çəkdi ismət pərdəsin qəhrü qəzəb tüğyanına,
Qoymadı girsin Əli qovğayə, Peyğəmbər qızı.

Rehləti-Zəhra ilə söndü cahanın şöləsi,
Getdi zinət verməyə üqbayə, Peyğəmbər qızı.

Töhfə etdi kainata ən nəcib mə'sumları,
Əkdi məntiq töxmini mənayə, Peyğəmbər qızı.

Arifa, sən də Hüseyn aşiqləriyçün töhfə et,
Hər nə versə bu neçə misrayə, Peyğəmbər qızı.

***Haci Zülfiqar Həbibi***

## Ayrılıq həsrəti

*(Həzrəti-Əlinin (ə) dilindən)*

Gülüm Zəhra, nə tez soldun,
Gülü gülzarə göndərdin.
Qopardın canı canımdan,
Dili dildarə göndərdin.

Sən idin canda cananım,
Təbibim, dərdə dərmanım.
Susuz qaldı gülüstanım,
Qəmi qəmxarə göndərdin.

Açılmaz bir gülüm sənsiz,
Olub lal bülbülüm sənsiz.
Danışmaz bu dilim sənsiz,
Məni biçarə göndərdin,

Gəlib əfqanə dəryalər,
Coşub çaylarda məcralər.
Fəraqın sinəmi dağlar,
Təni biçarə göndərdin.

Qovuşdun şəmsi-Hənnanə,
Cəmali-nuri-Mənnanə.
Kədər qoydun şəbistanə,
Qəmi Kərrarə göndərdin.

Məni yandırdın, ey ziba,
Hüzurum qalmadı əsla.
Ömür sənsiz mənə bica,
Onu sədparə göndərdin.

Həbibi, qəlbini yandır,
Yenə əyyami-Zəhradır.
Bu nə qəmli bir əşardır,
Yazıb, hüzzarə göndərdin.

***Hacı Səyyar***

Bu təravətli gözəl gül, iki dünya gülüdür,
Həm bu dünya gülü, həm gülşəni-üqba gülüdür.

Seçilir cümlə gülüstandakı güllərdən o gül,
Yerə göylərdən enib, ərşi-müəlla gülüdür.

Bu gülün qönçə ikən oldu Əli bağbanı,
Bəsləyib daima qəlbində, O, Mövla gülüdür.

Elə bir bağı-məlahət bitiribdir o gülü,
Misli yox, çünki Mühəmməd ilə Kübra gülüdür.

Tökmə qanın sən Hüseynin, həzər et, ey qatil,
Kərbəla şahıdır O, Həzrəti-Zəhra gülüdür.

Səyyara, bil nə yazırsan o gülün şəninə sən,
Adi bir gül deyil, O, Həqqi-təala gülüdür.

***Hacı Fərman Azançı***

Ey gözüm, tut üzünü Həzrəti-Zəhrayə tərəf,
Necə ki, Yerdə bəşər, üz çevirir Ayə tərəf.

Olmasaydı bu Xanım, aləmü dünya yox idi,
Bir nəfər olmaz idi, üz tuta Mövlayə tərəf.

Atası, xətmi-Rəsul, aləmə rəhmət, Əhməd,
Sahibi Həzrət-Əli, ol Şəhi-Valayə tərəf.

Hər iki  aləm ara, seyyidədir bir ismi,
Digəri Ümmi-Əbiha,  bax, o mə'nayə tərəf.

Lə'nət olsun, o cəhalətdə batan bir qövmə,
Necə atəşlə gedib, xaneyi-“Ta-ha”yə tərəf?

Babi-hikmətdir Əli, babına atəş vurduz,
Yaxacaqdır sizi, gəldikdə siz Üqbayə tərəf.

Bəşər əhdində vəfa etsə, Xuda çəkməz idi
Yerdən öz Höccətini ğeybəti-kübrayə tərəf.

Ey Azançı, gözüvün yaşına canım qurban,
Ağla Zəhra qəminə, baxma bu dünyayə tərəf.

## Ya Zəhra (s.ə)

Məqami-alidə əladı nami Zəhranın,
Xudayə bəllidir ancaq məqami Zəhranın.

Əzizi-Xaliqi-yektadı, misli-Peyğəmbər,
Edildi xilqətə fərz ehtirami, Zəhranın.

Şəhadəteyni deyənlər necə rəva gördü
Ki, ağlamaqla keçə sübhü şami Zəhranın?

Fələklər ağladı gizlin məzari üstündə,
Tökəndə göz yaşı məzlum İmami, Zəhranın.

Zəlilü xar olacaq Həqqə zülm edən dəstə,
Qiyamət içrə qopanda qiyami Zəhranın.

Keçər səhihü səlamət Sirati-pürxətəri,
O şəxs ki, ona vardır səlami Zəhranın.

Cəlaldə mənə şahlar yetişməz, ey Əmri,
Deyilsə adıma kəmtər qulami, Zəhranın.

***Kərbəlayi Rəşad***

Peyğəmbərin istəkli qızı Həzrəti-Zəhradır,
Peyğəmbərə hörmət, deməli, hörməti-Zəhradır.

Allahın əziz bəndəsidir, xeyrəti-nisvandır,
Məşhur olan aləmlərə şəxsiyyəti-Zəhradır.

Siddiqeyi-Kübrayə görə xəlq olunub aləm,
Zənn eyləmə yoxdur səbəbi, illəti Zəhradır.

Örnək seçib özünə onu iffətli xanımlarımız,
İzzətdi, ləyaqətdi, hicab isməti-Zəhradır.

Şükr Allaha, qismətdi bizə yovmi-vilayətdir,
Qəlblər elə aram olacaq hikməti-Zəhradır.

Zəhra adını zikr eləyən dərdü bəla bilməz,
Xoş halına hər kəlməsi, hər söhbəti, Zəhradır.

Yaz, mədh elə Siddiqeyi-Kübrani, Rəşad, hər dəm,
Əş`arın üçün ali dəyər qiyməti-Zəhradır.

***Əhəd***

Səbəbi-xilqət olub, qüdrəti var Fatimənin,
Zinəti-ərşü səma şöhrəti var Fatimənin.

Atası təzim edib “Ummi-Əbiha” çağırıb,
Madəri-xətmi-rəsul nisbəti var Fatimənin.

Onu bəxş etdi Xuda Əhmədə Kövsər misalı,
Biz'əti-cani-nəbi izzəti var Fatimənin.

On bir İsanı doğub, Məryəmi heyrətdə qoyub,
Madəri-nəsli-vila hörməti var Fatimənin.

Ona xatir yaranıb cənnəti-Rizvan, Əhəd,
Ayağı altda, bilin, cənnəti var Fatimənin.

*Aslan Aşıq*

## Ya Zəhra!.

Necə zikr eyləməsin ismini dil, Ya Zəhra?!
Gələ bilməz qələmim cürətə Zəhrasız, axı.
Məni öz aşiqivin aşiqi bil, Ya Zəhra,
Nə gərək varid olum cənnətə Zəhrasız, axı?

Kamil insan arasan, Fatiməni sal yadına,
Gözəl örnəkdir o kəs həm kişiyə, həm qadına.
Müşkülün varsa, təvəssül elə Zəhra adına,
Düşəcəksən, əmin ol, zillətə Zəhrasız, axı.

Rəsulallah buyurub, Fatimə izzətdi mənə,
Fatimə sirri-Xuda, Fatimə nemətdi mənə.
Fatimə Tahirədir, Fatimə Cənnətdi mənə,
Necə çatsın üləma hikmətə Zəhrasız, axı?

Xanımın yerdə adı Fatimədir, yox ona tən,
Salıb öz aşiqinə sevgisi qəlbində vətən.
Göydə Mənsurədir ismi, yəni imdadə yetən,
Yoxdur üqbadə şəfa ümmətə Zəhrasız, axı.

Hurilər fəxr eləyər sahibəmiz Fatimədir,
Mən deyim hurilərin etdiyi xidmət kimədir?
Hurilər Fatimənin Fizzəsinə xadimədir,
Hurilər gəlməz idi surətə Zəhrasız, axı.

Bir zaman açdı sizə eşq ilə “Ta-ha” qapısın,
Açdı cənnət qapısın, bağladı dünya qapısın.
Odladız şükr əvəzi Həzrəti-Zəhra qapısın,
Qapınız bağlanacaq rəhmətə Zəhrasız, axı.

Bir gözəl söz buyurub Xətmi-Rəsul ünvanıma,
Əhli-beytimdə əzəl sən gələcəksən yanıma.
Əlican, getməliyəm, and ola məzlum canıma,
Atamın taqəti yox həsrətə Zəhrasız, axı.

Əli fəryad elədi aşiqinə qıyma, xanım,
Hələ tezdir, ölümün rayihəsin duyma, xanım.
Səni Peyğəmbərə xatir, məni tək qoyma, xanım,
Dözə bilməz Əli bu möhnətə Zəhrasız, axı.

Xanım ərz etdi qüsul verdiyin an ört üzümü,
Qoy Həsən ilə Hüseyn görməsin ağlar gözümü.
Ümmi-Gülsüm balamın, Zeynəbimin yox dözümü,
Üzülərlər, çəkilib xəlvətə Zəhrasız, axı.

Ey Əli, haqqımı qəsb eyləyənim var nə qədər,
Gecə dəfn eylə məni, tutmasın heç kimsə xəbər.
Bu qaranlıqlara adət elə, ey nurlu qəmər,
Dönəcək hər səhərin zülmətə Zəhrasız, axı.

Aslan, hər gün dua et əşarının baisinə,
O ki, rövnəq gətirib sözlərivin naqisinə.
Sən ki Zəhranı sevib gəldin onun məclisinə,
Yoxsa gəlməzdi sözün qiymətə Zəhrasız, axı.

**Fərman Kamiloğlu**

Susma, ey dil, de, kəlam Fatimeyi-Zəhradən,
Bir kəlam eylə xitam Fatimeyi-Zəhradən.
Bəslə sən qəlbə inam Fatimeyi-Zəhradən,
Yetər ərvaha salam Fatimeyi-Zəhradən.

Allahın rəhmətidir lütf ilə etmişdi kərəm,
Müstəfa ismətidir, nur ilə atmışdı qədəm.
Əlinin qismətidir, dərk eləsə əhli-qələm,
Yazacaq sübh ilə şam Fatimeyi-Zəhradən.

Qəmli Zəhranı səma əhli görüb ağladılar,
Amma zülm əhli sınıq qəlbini də dağladılar.
Xeybərin qapsın açan əlləri də bağladılar,
Qopdu ilk dəfə qiyam Fatimeyi-Zəhradən.

Mürtəza dəfn eləyəndə onu əşk etdi rəvan,
Həsəniylə Hüseynü Zeynəbi həm etdi fəqan.
Bu nə dərddir ki, ay Allah, qovuşan cism ilə can,
Ayrılır indi tamam Fatimeyi-Zəhradən.

Fatimə kimdi, deyim, yoldu behişt tək şəhərə,
Fatimə, misli-günəş, xəlqi yetirsin səhərə.
Fatimə ayinədir cümleyi-əhli-bəşərə,
Doğulub on bir İmam Fatimeyi-Zəhradən.

Sən Hüseyn bəsləmisən, mislini verməzdi cahan,
Möhsünün yerinə Sənə Abbası vermiş Yaradan.
Bir oğul bəsləmisən ki o da Sahibi-zaman,
Tut bu eşq ilə məqam Fatimeyi-Zəhradən.

Görməmiş qövmi-ədu şiələrin qüdrətini,
Göstərərik olara biz Əlinin qeyrətini.
Fərmana, cəhd elə, iç sən də şəhid şərbətini,
Alginən bir dolu cam Fatimeyi-Zəhradən.

***Hacı Yaşar Cahid***
***(Əhli-beyt(ə)məddahı)***

## YOVMİ-MOVLUDİ-XANIM-FATİMEYİ-ZƏHRADIR.

Sevinin, ey analar, bayramınız bərpadır,
Yovmi-mövludi-Xanım Fatimeyi-Zəhradır.

Bircə anlıq unudun siz qəmü fəryadınızı,
Fatimə xatiri, siz də qoruyun adınızı.
Böyüdün islami bir ruhilə övladınızı,
Qəlbiniz ülvi bir eşq ilə dolu dəryadır.
Sevinin, ey analar, bayramınız bərpadır,
Yovmi-mövludi-Xanım Fatimeyi-Zəhradır.

Öyrənib etsək əməl biz də bu Qur'anımıza,
Başqa bir gözlə baxaq gərdişi-dövranımıza.
Analar verdi bu gün qüvvəti imanımıza,
Başınızda yeni aləm, yeni bir sevdadır,
Sevinin, ey analar, bayramınız bərpadır.
Yovmi-mövludi-Xanım Fatimeyi-Zəhradır.

Ey qadın, Fatimədən var sizə bir böylə xitab,
Qadının zinəti etməkliyidir hifzi-hicab.
Hökmi-Qurandı bu, hər iki dünyadə savab,
Sanma bu beş gün ömür bir əbədi dünyadır.
Sevinin, ey analar, bayramınız bərpadır,
Yovmi-mövludi-Xanım Fatimeyi-Zəhradır.

Analarımız bu böyük dünyamızın zinətidir,
Onların qeyrəti islamımızın qeyrətidir.
Analar bayramıdır, Fatimənin də'vətidir,
Tələsin siz bu səbəbdən, bu gözəl mə'vadır.
Sevinin, ey analar, bayramınız bərpadır,
Yovmi-mövludi-Xanım Fatimeyi-Zəhradır.

Sən ey aləmlərin aləmdə şəfaət edəni,
Ey Hüseynin anası, binti Rəsuli-mədəni.
Saxlaya bilməyəcək kimsə yolunla gedəni,
Sahibi-mülki-zəman rəhbərimiz ziradır.
Sevinin, ey analar, bayramınız bərpadır,
Yovmi-mövludi-Xanım Fatimeyi-Zəhradır.

Harda Allahsız olan quruluş var, xar olsun,
Qoymayaq hər yetən ədna biz ilən yar olsun.
Yaşasın İslamımız, bir də Vətən var olsun,
Sevinin, ey analar, bayramınız bərpadır,
Yovmi-mövludi-Xanım Fatimeyi-Zəhradır.

***Seyyid Ağarəşid Talıbov***

Fatimə eşqi bütün kimsələrin kimsəsidi,
Kim onu sevsə əgər, ruzi qiyamət bəsidi,

Gözümün nurudu Zəhra, bunu ərz etdi Rəsul,
Adı Kövsərdi onun, Xaliqimin töhfəsidi,

Vəhyi Rəbbindən alıb, ismini Zəhra qoydu,
Surəti gərçi qadındı, özü nur cilvəsidi.

Hara baxdıqca Əli, gözləri Zəhra gördü,
O gözəldir, Əlinin eyninə nur çeşməsidi,

Heç bilirsən niyə Zəhra qocalıbdı, ey dil?
Xanıma qüssə verən Kərbubəla səhnəsidi.

Kim əgər istəsə bilmək, nədi Zəhradakı sirr?
Buna ən doğru cavab, siqt olunan körpəsidi.

Naləsiylə Xanımın ərkani məscid də qopub,
Bəlkə bu küllü bəla Fatimənin naləsidi.

Zülmə baş əyməyərək haqqı deyən ol şəxsin,
Zahirində özüdür, batini Zəhra səsidi.

Sorsalar Seyyidə Allah, niyə cənnət verdi?
Çünki Seyyidir Ağa, Fatimənin zərrəsidi.

**Axund Hacı Azər**

## Mövludi-Zəhra (s.ə)

Yenə də ətri behiştin bürüyüb hər yani,
Sayəsində bu təbim cuş eləyib şura gəlib.
Elə bir nura Xuda qərq eləyib dünyani,
Hər münəvvər həmən o nuru görüb, nura gəlib.
Elə kəs ki, mələkut olmuş onun heyranı,
Ehtiramı əzəlindən bizə məfkurə gəlib.
Qələm acizdi, necə vəsf eləsin Zəhranı,
Gəlməmişdən özü, ta şəninə bir surə gəlib.
Ki, onun vəsfini Allah eləyib, Kövsərdir,
Ona vəssaf Xudadı, sonra Peyğəmbərdir.

Mədhi bir halda ki, Peyğəmbər edib ğurrataleyn,
Mən nə cürətlə onun haqda deyim mədhiyyə.
O, Əmanətdi bizə, vardı hədisi-Səqəleyn,
Onun haqqında gəlib Raziyətul-Mərziyyə.
Elə bir bağçadı ki, meyvəsi olmuş Həsəneyn,
Batil olmuş olara əks olan hər fərziyyə.
İndi, ey əhli-təfəkkür, düşünün, sonra deyin,
Heç bilirsiz ona neyçün su olub mehriyyə?
Çün onun həmdəmi torpaq atası Heydərdir,
Kainata su və torpaq pedərü madərdir.

Fatimə binti-Rəsul, Həzrəti-Zəhradır O,
Aldılar hansı ki zülm ilə əlindən Fədəki.
Behcəti-qəlbi-Rəsul, Ümmi-Əbihadır O,
Mehvərindən qoparar naləsi övci-fələki.
Fatimə maniədir, yəni müəmmadır O,
Onu, naəhl olan dərk edə bilmib hələ ki.

Qeybdir qəbri nəzərdən, belə mənadır O,
Haqqı tapdandı, deməkdir, bunu car elə ki.
De ki, yanmış evi, pəhlusi sınıb müztərdir,
Bu işin baisi hər kim ki ola, kafərdir.

Bu gün, ey Ali-Peyəmbər yolunun yolçuları,
Necə bir vaxtı yanıb Həzrəti-Zəhranın evi.
İndi paklıq və gözəllikdi guya mövzuları,
İndi şəhvət alovunda yanır imanın evi.
Ruhsuz islamdı fəqət qayələri, arzuları,
Fitnəkarlarla dolub Xaliqi-Sübhanın evi.
Baş kəsir pambıq ilə siz tanımırsız buları?
Çevrilib az qala ki, qibləyə şeytanın evi.
Dildə Allah deyir, öz nəfsi ona rəhbərdir,
Bu zamanla o zaman gör nə qədər bənzərdir.

Haqqını Ali-Rəsulun yedilər, şərlədilər,
Axirət getdi, bu dünyaları abad oldu.
Ya zəhər verdilər axır, ya da xəncərlədilər,
Ümmət artıq İmam öldürməyə mö`tad oldu.
Ayənin ruhunu yox, zahirin əzbərlədilər,
Çünki şeytanın özü bu işə ustad oldu.
Bu müqəddəs qanı çox fırladılar, hərlədilər,
Hərə boynundan atıb bir cürə azad oldu.
Amma bir gün görəcəklər elə bil Məhşərdir,
Zülfüqar əldə gələn Məhdidi, ya Heydərdir!

Ey müsəlman, səni Zəhra, bu günün xatirinə,
Dinə hər kim əl uzatsa, o əli kəs getsin.
Əhli-təqva dura bu yolda dayaq bir-birinə,
Qoymasın əldən o əhkami-müqəddəs getsin.
Dinsiz insan deyəcək getməginən çox dərinə,

Əksinə, burda gərək dərinə hər kəs getsin.
Baxma kimdir, sözü batilsə, otuzdur yerinə,
Üzünə haqqı de, qoy hər tərəfə səs getsin.
İstinadın desələr hansı kitab-dəftərdir?.
Eybi yox, ver adımı, denən Axund Azərdir.

## Fatimeyi-Zəhra (s.ə)

Buyurub xətmi-Rəsul hər iki dünya ağası,
Səbəbi-xilqəti-aləm ağalar mövlası.
Mən əmanət səqəleyni qoyuram ümmət üçün,
İki ən ağır əmanət, belədir mənası.
Biri Allah kitabı, digərisə itrətdir,
Bu iki varlığa insafmıdır olmaq asi?
Vəli insaf, mürüvvət nə gəzər zalimdə,
Necə zülm ilə əzildi qapıda Zəhrası?!
Elə bildiz ki, qabırğası sınıbdır? Yox yox,
Dini-İslamın o gün sındı həmən ə'zası.
Bu silinməz izidir Fatimeyi-Zəhranın,
Bu dəmi-möcüzüdür Fatimeyi-Zəhranın.

Allahın Elçisi onlara deyib ğurrataleyn,
İki gül dəstəsidir onlar, əzizim, Həsəneyn.
Atası Kəbədə dünyaya gözün açmışdır,
Zülm əliylə sora məğlulətən olmuşdu yə deyn.
Tanrının pak qərar verdiyi kəslərdir olar,
Yəsribü Məkkədə onların eviydi hərəmeyn.
Ali-Peyğəmbərə gör bir necə zülm eylədilər,
Ya təmamən unudulmuşmu hədisi-Səqəleyn?
Həsən ibni-Əli tək qaldı xəyanətlər ara,
Kərbəlada necə zülm ilə şəhid oldu Hüseyn.

Axı, onlar gözüdür Fatimeyi-Zəhranın,
Bu silinməz izidir Fatimeyi-Zəhranın.

Vardır bir vadi, onu dərk edər ancaq ürəfa,
Orda hicran qəminə, dərdinə eylərlə dəva.
Aşiqin qibləsi olmuş o məkan əvvəldən,
Həm bəla dəşti deyərlər o yerə, Kərbübəla.
O yeri Həzrət-Hüseynin qanı məşhur eləyib,
Dərsi-eşqə orada şahid olubdur dünya.
Öz Ələmdarın İmam məhz o yerdə itirib,
Ərşi-əflakə o yerdən ucalıb şuri-nəva.
O yerin faciəsin Həzrəti-Zeynəb yaşayıb,
Oradan Şama əsir getmiş İmam Zeynul-ibad.
Bu ürəkdə közüdür Fatimeyi-Zəhranın.
Bu silinməz izidir Fatimeyi-Zəhranın.
Olsa gəncinə xərabatdə, bu olmaz əcəb,
Şamdə Ali-Rəsul sakin olubdur o səbəb.
Orda bir övrətə zülm eylədilər Şam əhli,
Dövrəyə aldı və tən etdi ona əhli-tərəb.
Xırda qızlar da yanında var idi, amma o
Pasibandır olara, düşmənə etməzdi qəzəb.
Düşünürdü tanımırlar məni bu qafillər,
Babasından ona qalmışdı yəqin böylə ədəb
Ki, bəraət də qazandırdı bu cahil qövmə,
Bir deyən lazim idi onlara, ay vəhşi ərəb,
Bu mübarək qızıdır Fatimeyi-Zəhranın.
Həmən övrət gözüdür Fatimeyi-Zəhranın.

Nə qədər zülm elədiz, candan usandırdız onu,
Oğlun öldürdüz, ama susdu, utandırdız onu.
Ol zaman ki, Hüseyn başını kəsdiz daldan,
Ey ədu, bilmədiniz, qanə boyandırdız onu.

Ali-Peyğəmbərə bir xarici ad da qoyduz,
Qul kimi Şam içərisində dolandırdız onu.
Ruzi-Məhşərdə əgər böylə sual olsa sizə,
Yeddi qardaş dağı ilə niyə yandırdız onu?
Di cavab ver, sözüdür Fatimeyi-Zəhranın.
Bu ürəkdə közüdür Fatimeyi-Zəhranın.

İki göz bəs eləməz, baxsa Hüseynin qızına,
Nizədə başa baxır, hey danışır öz-özünə.
Bu babamdırmı belə başı bədəndən aralı?
Özü də istəmir amma inana öz sözünə.
Həzrətin qanlı kəsik başı yetişdikdə ona,
Oxşadı, amma gücü çatmadı alsın dizinə.
O kiçik qəlb buna tab eləyərmi? Eləməz,
Qara gözlü balanın çökdü qaranlıq gözünə.
Zeynəbin sanki o an qopdu qiyamət başına,
Zülm əlindən yorulan baxdı Rüqəyya üzünə.
Elə bil ki, üzüdür Fatimeyi-Zəhranın.
Elə eynən özüdür Fatimeyi-Zəhranın.

Qəm tutub aləmi, başdan-başa qəm, dadə yetiş,
Gəl həm azad elə qəmdən bizi, həm dadə yetiş.
Zalim öz küfrü ilə örtüb ədalət izini,
Gəl o küfr üstünə qoymaqla qədəm, dadə yetiş.
Ol zamandan ki, qələm oldu Əbəlfəzlin qolu,
Əldə qan ağladı hər ləhzə qələm, dadə yetiş.
Necə bir vaxtı ələm yatdı, şəhid oldu Hüseyn,
İndi İslama yetib dərdü ələm, dadə yetiş.
Gər xətakar qulam, səsləməyə yoxdur üzüm,
Azər, amma ağada vardı kərəm, dadə yetiş.
O gələn kəs gözüdür Fatimeyi-Zəhranın.
Dininin hafizidir Fatimeyi-Zəhranın.

## Zəhranı tanı

Könül eylərsə qübar, cəhd elə, Zəhranı tanı!
Səbr elə, bezmə, böyük cəhd ilə Zəhranı tanı!

Gözlərin qarəsini badə ver eşqində onun,
Gözlərin yaşını döndər selə, Zəhranı tanı!

Əhli-Beytin ola tarixinə bir şəxs bələd,
Soruş, öyrən, sən onu tut dilə, Zəhranı tanı!

Onu dərk etməyə ömr kifayət eləməz,
Cəhd elə son nəfəsində belə, Zəhranı tanı!

Əhli-beyt eşqi dənizdir sən ona təşnə isən,
İç suyun ol dənizin bir gilə, Zəhranı tanı!

Nurunu aləmə saçmış hər imam ovladi
Ona bağlı bu qızıl silsilə, Zəhranı tanı!

Fatiməyçün Əlini xəlq eləmişdir Yaradan,
Dəhr bərpadı həman mehrilə, Zəhranı tanı!

Açıb hikmət qapısın, bərk qapa sərvət qapısın,
Ol həqiqət dəlisi, düş çölə, Zəhranı tanı!

Səni cəzb etməsin ol gəldi-gedər sərmayə,
Sərvətə olma əsir, qul, kölə, Zəhranı tanı!

Bir ovuc xakə dönər cismin ona bağlama bel!
Tab qılmaz bir ovuc toz yelə, Zəhranı tanı!

Mərifət hasil elə ömr sənə fürsətdir ,
Bir də düşməz belə fürsət elə, Zəhranı tanı!

Hər kəsin hər üzünü görmüsən artıq, Pünhan,
Nə qədər var nəfəsin, zikr elə, Zəhranı tanı!

**Mənəm**

Eşqi fəxrimdir mənim, xaki-dəri-Zəhra mənəm!
Əşkbari-çeşmilə bir sakini-səhra mənəm!

Ötmə, bülbül, bağü gülzar içrə sən, sus, bir dayan!
Bakir eşq ilə yanan bir bülbüli-şeyda mənəm!

Bu fəna mülkündə mən biçarəvü əhli-qəməm!
Əhli-beyt eşqiylə tüğyan eyləyən dərya mənəm!

Qəlb Hüseyn eşqiylə çırpınmaqdadır şamü səhər,
Əhli-iman, əhli-din, aludeyi-təqva mənəm!

Ta əsrlərdən bəri nalan Hüseyn aşiqləri,
Əşk ilə sərtaqədəm qövr eyləyən məcra mənəm!

Çün cahan dinara dəyməzmiş, nəhayət, dərk edib ,
Dərki isbat eyləyən bir talibi-dana mənəm!

Vəhm sarmış ruhumu, var vəhşəti-ruzi-cəza,
Xüşk tək dəryada qərqəm gah,gəh peyda mənəm!

Tirü-xəncərdən iti, tükdən zərif puli-sirat,
Rəhm et, Allahım, bu dünyadan köçən zira mənəm!

Üzmə, Pünhan, ruhunu, ol ruh qonaqdır cisminə,
Möhrbənd vurmaq dilərsən, bil ki, son misra mənəm!

***Kərəm Kürqıraqlı***

## FATİMEYİ-ZƏHRA (s.ə)

Küllü kainatın incisidir o,
Dünya mələyidir Fatimeyi-Zəhra.
Atası Rəsuldan ədəb öyrənmiş,
Haqqın ələyidir Fatimeyi-Zəhra.

Həyalı yaşadın hər ötən anın,
Büllur tək saxladın bədənin, canın.
Rəsulu-Əkrəmin, Xədceyi-Kübranın,
Arzu diləyidir Fatimeyi-Zəhra.

Haqqı deməyənin gözlərin oydu,
Məzluma xidmətdən bilməyin, doydu.
Öləndə həyanı yadigar qoydu,
Həya bələyidir Fatimeyi-Zəhra.

Onun pak bətnində çiçək açdı din,
Yapış ətəyindən, kölgəsinə sin.
Həzrəti-Əlinin, Həsən-Hüseynin,
Vuran ürəyidir Fatimeyi-Zəhra.

Kərəmin sözlərin gəl düşün dərin,
O, nur anasıdır müqəddəslərin.
Əli qabarlının, məzlum kəslərin,
Duzu-çörəyidir Fatimeyi-Zəhra.

## SƏNSƏN

*Fatimeyi-Zəhra (s.ə)*

O qədər məsumsan, mən elə billəm
Bəşərin birinci binası sənsən.
Şükür nəcibliyin, ləyaqətinlə
Ol Həzrət Əlinin sonası sənsən.

Həzrətə nə qədər atdılar böhtan,
Görüm ki, onları tutsun nahaq qan.
Sənə zülm eylədi Ömərlə Osman,
Daim o əzabı yanasısan sən.

Yerdə haqq-ədalət izi sən oldun,
Əhli-beyt evinin duzu sən oldun.
Həm Rəsul-Əkrəmin qızı sən oldun,
Həm on bir imamın anasısan sən.

Kərəm, bu gərdişə heyranam, düzü,
Hər nə yaranmışsa, ikidir üzü.
Mən elə bilirəm, ey Rəsul qızı,
Cəmi insanlığın mənasısan sən.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Qurani-Kərim.
2. Ayətullah Əli Hicrani Təbrizi "İslamın gizli qalmış həqiqətləri", Bakı-2008.
3. Ayətullah Nasir Məkarim Şirazi "Fatimə - dünyanın ən üstün qadını". Bakı-2012.
4. Aydın Babayev və Davud Purşərif "Atasının anası", Bakı-2003.
5. Aşıq Ələsgər "Əsərləri, dastan, rəvayətlər, xatirələr", Bakı-"Şərq-Qərb"-1999.
6. Abdullah Əbdüləziz əl-Haşimi "Fatimeyi-Zəhra (s.ə). Bakı-2017.
7. Doktor M.R. Salehi Kirmani "Ədalətin qurbanları". (14 məsumun həyatları haqqında) Qum-2000.
8. Əqiqi Bəxşayişi "Siddiqeyi-Tahirə (s.ə.)". Bakı-Əlhuda-Zaman" nəşriyyatı, 1996.
9. Ə. Əhmədov "Allahın höccətləri". Bakı-2001.
10. Ənvər Nəzərli "Məhəbbət gülşəni, həsrət çələngi", Bakı-"Səda"-1998.
11. Ələmdar Mahir "Səadət intizarında", Bakı-"Ağrıdağ"-1998.
12. F.Altan "Könlü oxşayan sözlər", Qum-2001.
13. Hacı Əbdürrəhman Yusifpur "Qurani-Kərimin 30-cu cüzvünün təfsiri" – 2-ci cild", Bakı-2000. (Tər: H.Arzu).
14. Hacı Soltan Hüseynqulu oğlu "Duayi-Heydəri və yaxud Həzrəti-Əli zirvəsinə bir baxış", Bakı-"Tural-Ə"-2002;
15. Hacı Soltan Hüseynqulu oğlu "Məsumnamə", Bakı-"Ozan"-1999.
16. Hacı Fuad Nurullah. "Fatimeyi-Zəhra – həya və ismət məktəbi". Bakı-"Nurlar"-2016.
17. Hacı Xanəli Babayev "Quranda qadına münasibət", Bakı-1996.

18. H.Hüseynov “Sığın Haqq dərgahına”. Bakı, “Nərgiz”, 2013.
19. Kərbəlayi Kamil Sərbəndi “Həqiqət ayinəsi”, Bakı-2014.
20. Məhəmməd Füzuli. “Hədiqətüs-sühəda”, Bakı-“Gənclik”-1983.
21. Məhəmməd Həsən Müini “On dörd məsum”, Bakı-2000.
22. Möhsün Qiraəti “Nur təfsiri”, 12 cilddə. Bakı-“Nurlar”-2015.
23. M. Əlizadə “Əldə qələm qan ağlar”. Bakı-2003.
24. Nizami Gəncəvi “Leyli və Məcnun”, Bakı-“Yazıçı”-1988.
25. Pünhan Səda “Əli aşiqlərinə hədiyyə”. Bakı-2013
26. Seyyid Əbdül-Münim Həsən “Fatimənin nuru ilə”. Bakı-2010.
27. S.M. Müqəddəm “Zikrlərin xətmi”, “Cəngal” nəşriyyatı-1385.
28. S.M.Şəhriyar “Divani-Türki”, Bakı-1997.
29. Seyyid Mühəmməd Hüseyn Fəzlullah “Zəhraya edilmiş zülmlər”. Bakı-2005.
30. Ş.İ.Xətai “Keçmə namərd körpüsündən”, Bakı-“Yazıçı”-1988.
31. Ş.İ.Xətai. Külliyyat. Bakı-“Əlhüda”-2004 (haz: M.R.İsmayılzadə).
32. S.Ə.Şirvani “Seçilmiş əsərləri”, Bakı-1967.
33. Seyyid Rəzi “Həzrəti-Əli “Nəhcül-bəlağə” 2 cilddə.
34. Şahin Fazil “Allah eşqi, Peyğəmbər məhəbbəti, İmam sevgisi”. Bakı-2001.
35. Ş. Kuleyni “Üsuli-Kafi” 1 cild, Bakı-2005.
36. Şahlar Şərifov “İslam tarixi” Bakı-“Nurlar”-2013.
37. Şeyxül İslam Məhəmməd Həsən Mövlazadeyi Şəkəvi “Kitabul-bəyan fi təfsiril-Quran” 2 cilddə, Bakı-2000.
38. Ş.A.Qummi “Beytül-əhzan”. Bakı-“Ələm”-2014.
39. Şeyx Məhəmməd ibni-Həsən Hürr Amili “Hədisi - Qüdsi”, Bakı-2001.
40. Vərağa Almasov “Həzrəti-Əli aşiqi Füzuli. Bakı-2011.

# MÜNDƏRİCAT

Sona Xəyal. HACI HƏSƏNİN ƏHLİ-BEYT (ə) SEVGİSİ .............. 3
Vərağa Almasov. REDAKTORDAN.............................................. 9
MÜƏLLİFDƏN.........................................................................16

## I HİSSƏ

**GİRİŞ**................................................................................26
**I bölüm.** HƏZRƏTİ-FATİMEYİ-ZƏHRANIN (s.ə)
HƏYATI VƏ FƏALİYYƏTİ.......................................................32
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) adları ..........................................39
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) künyələri ......................................42
"9" rəqəmlər içində möcüzəli rəqəmdir............................................42
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) ləqəbləri .......................................43
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) mehvəriyyət təşkil etməsi ............44

**II bölüm.** HƏZRƏTİ-FATİMEYİ-ZƏHRA (s.ə)
QURAN AYƏLƏRİ İŞIĞINDA ...................................................47
Həzrəti-Fatimeyi-Zəhra (s.ə) haqqında nazil olan ayələr .................47
Surənin nazil olma səbəbi...................................................................48
*"Kövsər" surəsi*....................................................................................49
Əhli-beytin (ə) yoxsula, yetimə və əsirə münasibəti ........................51
Ali-Mühəmmədin (ə) haqqı .................................................................53
"Təthir" ayəsi........................................................................................56
"Mübahilə ayəsi"..................................................................................59
"Məvəddət ayəsi" .................................................................................61
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) Həzrəti-Məryəmlə (s.ə) oxşarlığı..63

**III bölüm.** PAKLIQ VƏ ÜLVİLİK MÜCƏSSƏMƏSİ...................66
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) ibadəti ...........................................69
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) zöhdü ............................................71
Məsum İmamların (ə.m.) Fatimeyi-Zəhranın (ə) zikri haqda
buyurduqları ........................................................................................72
İslamın ictimai-siyasi məsələlərində Həzrəti-Fatimeyi-Zəhranın (s.ə)
rolu.......................................................................................................73

**IV bölüm.** NÜMUNƏVİ XANIM ....................................................76
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) ibadəti ..........................................76
Xanım Fatimeyi-Zəhranın (s.ə) atası Peyğəmbərə (s) yüksək səviyyədə ehtiram göstərməsi..........................................................77
Həzrəti-Fatimeyi-Zəhra (s.ə) və hicab .............................................77
Salam verməkdə qabaqlamaq ...........................................................78
Qiyamət gününün vəhşəti .................................................................79
Başqaları üçün dua etmək..................................................................79
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) təsbih zikrinin savabı ....................80
Həzrəti-Fatimeyi-Zəhranı (s.ə) ziyarət etməyin və ona salavat göndərməyin savabı .........................................................................81
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) nurlu hədisləri ...............................82
Zühuru vəd olunmuş Həzrəti-Mehdi (əc.f) Həzrəti-Fatimə (s.ə) övladıdır.............................................................................................82
Həzrəti-Fatimeyi-Zəhra (s.ə) rəvayətlərin dili ilə .............................84
Həzrəti-Peyğəmbərin (s) Xanım Fatimeyi-Zəhraya (s.ə) olan məhəbbəti .........................................................................................85
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) gələcəkdə başına gələn müsibətlər haqda Peyğəmbərin (s) buyurduqları...............................................86

**V bölüm.** HƏZRƏTİ-PEYĞƏMBƏRİN (S) VƏFATINDAN SONRA HƏZRƏTİ-FATİMƏNİN (S.Ə) FACİƏLİ HƏYATI VƏ ŞƏHADƏTİ...........................................................................................90
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) vəsiyyətnaməsi ..............................93
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) şəhid olmasının səbəbi..................94

## II HİSSƏ

**I bölüm.** XANIM FATİMEYİ-ZƏHRANIN ƏSL-NƏCABƏTİ .......96
Həzrəti-Mühəmməd (s) kimdir? .......................................................96
Həzrəti-Xədicə (s.ə) kimdir? ..........................................................104
Bəs Həzrəti-Fatimeyi-Zəhra (s.ə) kimdir?......................................111
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) əxlaqi keyfiyyətləri.....................111
İlahi məqam sahibi .........................................................................114
Həzrəti-Fatimeyi-Zəhra (s.ə) cənnət hurilərindəndir......................114
Rəsuli-Əkrəmin (s) Xanım Fatimeyi-Zəhraya (s.ə) nəsihəti ..........115

Həzrəti-Əli (ə) ilə Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) oxşar cəhətləri ....................116
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) buyurduğu hədislər ....................123
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) kənizi Xanım Fizzənin elminə bir baxış....................125
Həzrəti-Fatimeyi-Zəhra (s.ə.), onun şiələrinin fəziləti və behiştdəki məqamları....................128

**II bölüm.** FƏDƏK NƏ İDİ VƏ HARADA İDİ....................130
Fədəkin qəsb olunmasının siyasi amilləri....................132
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) "Fədək" barədə haqqını sübut etməsi ....................135
Fədək Əhli-beytə (ə) necə qayıtdı ....................142
Fədək və Əhli-beyt (ə) imamları ....................146

**III bölüm.** XANIM FATİMEYİ-ZƏHRANIN (s.ə) ŞƏHADƏTİNƏ SƏBƏB OLAN GİZLİ HƏQİQƏTLƏR....................152
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) haqq mübarizəsi və qiyamı....................158
Xanım Fatimeyi-Zəhranın (s.ə) şəhadəti ....................159
Ömərin Həzrəti-Fatimeyi-Zəhranın (s.ə) qəbrini açmaq istəyi....................165
Həzrəti-Fatimeyi-Zəhraya (s.ə) əziyyət verən kafirdir ....................166
Əhli-beyt (ə) əhli-sünnə alimlərinin qələmində....................168
Ali-Mühəmmədi (ə) sevməyin ilahi məqamı....................169
Əhli-beytin (ə) fəzilətləri və üstün cəhətləri....................172

**IV bölüm.** HƏZRƏTİ-FATİMEYİ-ZƏHRA (s.ə) HƏDİQƏTÜS-SÜHƏDA İŞIĞINDA....................173

**V bölüm.** HƏZRƏTİ-FATİMEYİ-ZƏHRANIN (s.ə) KƏRAMƏTLƏRİ....................200
Bərəkətli boyunbağı....................200
Həzrəti-Fatimeyi-Zəhraya (s.ə) təvəssül namazı ....................205
Həzrəti-Fatimeyi-Zəhranın (s.ə.) təvəllüdü, şəhadəti və həyatı haqqında sual-cavab ....................206

**VI bölüm.** HƏZRƏTİ-FATİMEYİ-ZƏHRAYA (s.ə) HƏSR OLUNMUŞ ŞEİRLƏR....209
*Qumri Dərbəndi*....209
*Mühəmməd Huseyn Şəhriyar*....211
*Ənvər Nəzərli*....212
*Hacı Ələmdar Mahir*....214
*Hacı Yusif Qulammirzə oğlu*....216
*Seyyidağa Rəhim*....218
*Kərbəlayi Kamil Sərbəndi*....219
*Axund Hacı Soltan Əlizadə*....221
*Dahi Almaslı*....223
*Şahin Fazil*....225
*Arif Buzovnalı*....227
*Haci Zülfiqar Həbibi*....228
*Hacı Səyyar*....230
*Hacı Fərman Azançı*....231
*Ağasəlim Əmri*....232
*Kərbəlayi Rəşad*....233
*Əhəd*....234
*Aslan Aşiq*....235
*Hacı Yaşar Cahid*....238
*Seyyid Ağarəşid Talıbov*....240
*Axund Hacı Azər*....241
*Pünhan Səda*....246
*Kərəm Kürqıraqlı*....248

**İstifadə olunmuş ədəbiyyat**....250

**Hacı Həsən**

**Ya Zəhra (s.ə.), nəzərin ayırma bizdən**
**II nəşr**

**Bakı-"Ecoprint"-2019, 256 səh.**

Naşir: Ceyhun Əliyev
Korrektor: Kərbəlayi Vasif Mübariz oğlu
Texniki redaktor: Natiq Paşayev
Dizayner: İradə Əhmədova

---

Çapa imzalanmışdır: 19.01.2019
Ş.ç.v. 16; tiraj 300
"Ecoprint" nəşriyyatının mətbəəsində
çap olunmuşdur.
Tel.: +99455 216 09 91